# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# DOXSAN DÖRDÜNCÜ KİTAB

## MART 2019 - MAY 2019

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Avstriya Respublikasına, Çin Xalq Respublikasına və Belçika Krallığına səfərləri zamanı bu ölkələrin rəhbərləri ilə görüş və danışıqlarına dair materiallar, həmçinin Pekində «Bir kəmər – bir yol» Beynəlxalq Əməkdaşlıq Forumunda çıxışı, Çinin «Sinxua» agentliyinə müsahibəsi verilmişdir.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

Həmçinin dövlət başçısının «Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq» şüarı altında Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda nitqi, Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi münasibətilə Azərbaycan xalqına təbriki, ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxışları da bu cilddə yer almışdır.

Kitabda, oxucular dövlət başçısının Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında nitqi, Qobustan rayonuna səfəri zamanı ictimaiyyətin nümayəndələri ilə görüş və danışıqlarına dair materiallarla da tanış ola bilərlər.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

## BAKI METROPOLİTENİNİN ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULAN «BAKMİL» STANSİYASINDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*26 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 26-da Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan «Bakmil» stansiyasında yaradılmış şəraitlə tanış olmuşdur.*

*«Bakı Metropoliteni» Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov görülən işlər barədə dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, burada 2017-ci ilin avqustundan mərhələli şəkildə yenidən qurulma işlərinə başlanılıb. «Bakmil» stansiyası 1970-ci ildə açılıb və 9 il «Nərimanov» elektrik deposunun platforması olub. 1979-cu ildən isə stansiya kimi fəaliyyətə başlayıb. Müasir səviyyədə yenidən qurulan stansiyanın əsas memarlıq görkəmi saxlanılaraq, infrastrukturu və fasadı tamamilə yenilənib. Giriş-çıxışı birbaşa ikinci mərtəbədən olan «Bakmil» Bakı Metropoliteninin yeganə yerüstü stansiyasıdır. Yenidən qurulma zamanı stansiyanın fəaliyyətini dayandırmamaq məqsədilə təmir-bərpa prosesi mərhələlərlə aparılıb. Yalnız ötən ilin avqustundan işlərin son mərhələsində sərnişinlərin*

*stansiyadan istifadəsinə günün müəyyən saatlarında məhdudiyyətlər qoyulub. Stansiyada monolit dəmir-beton konstruksiyalı sərnişin platforması inşa edilib ki, bu da əvvəlkindən daha etibarlı, davamlı və uzun-ömürlüdür. Stansiyanın təmirdən sonra ən mühüm yeniliyi sərnişinləri birbaşa ikinci mərtəbədə – platforma səviyyəsində qəbul etməsidir ki, bunun sayəsində də birinci mərtəbə yalnız xidməti sahəyə çevrilibdir.*

*Bundan başqa, əhəmiyyətli yeniliklərdən biri də açıq hava şəraitində yerləşən stansiya yolunun çətirlə örtülməsidir. Platforma boyunca bütün yol sahəsini əhatə edən çətir sərnişinləri və qatarları yağışdan qorumaqla yanaşı, burada gecə vaxtlarında qatar saxlanılmasına da imkan yaradır. Stansiyada bütün kommunikasiya xətləri təzələnib, yanğın təhlükəsizliyi ilə bağlı ən son texnologiyalara uyğun yeniliklər tətbiq edilibdir. Gözləmə zalında yeni asma tavan, müasir işıqlandırma və informasiya-məlumat sistemləri, turniketlər quraşdırılıbdır.*

*Stansiyanın ətrafında abadlıq işləri aparılıb, yaşıllıqlar salınıbdır.*

**BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RUMEN RADEVƏ**

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Bolqarıstan əlaqələri, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edərək, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 mart 2019-cu il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təbii fəlakət nəticəsində insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 mart 2019-cu il*

## BAKININ NİZAMİ RAYONUNDA TİCARƏT MƏRKƏZİNDƏ BAŞ VERMİŞ YANĞINLA ƏLAQƏDAR KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ İŞTİRAK

*28 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə martın 28-də Bakının Nizami rayonunda ticarət mərkəzində baş vermiş yangınla əlaqədar müşavirə keçirilmişdir.*

*Dövlət başçısı müşavirədə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Ticarət mərkəzlərinin birində martın 26-da yanğın baş veribdir. Xoşbəxtlikdən insan itkisi olmayıb, ancaq o ticarət mərkəzində çalışan insanlara maddi ziyan dəyibdir. Yanğının səbəbləri araşdırılır, bu gün ilkin məlumat veriləcək və əminəm ki, tam araşdırılacaqdır. Eyni zamanda, biz sahibkarların problemlərini həll etməliyik. Onlar öz iş yerlərini, öz əmlakını itiriblər. Onlara maddi ziyan dəyib. Bəziləri borc alıb, malları satışa çıxarıblar. Ona görə, əlbəttə ki, biz dövlət olaraq, bu insanlara öz dəstəyimizi göstərəcəyik.

Dünən Nizami Rayon İcra Hakimiyyətində sahib-karlarla görüş keçirildi. Bu gün səhər ikinci görüş keçirildi və onlara deyildi ki, dövlət onlara dəstək və

yardım göstərəcəkdir. Belə hadisələr baş verir. Əlbəttə, səbəblər tam araşdırılmalıdır və operativ olaraq, dövlət sahibkarlara öz maddi yardımını göstərməlidir. İqtisadiyyat Nazirliyi ticarət mərkəzində çalışan sahibkarlarla bir-bir görüşməlidir, onların problemlərini dinləməlidir və onlara dəstək göstərməlidir. Maliyyə Nazirliyi operativ olaraq, ilkin maliyyə vəsaiti ayırmalıdır və sahibkarlara bu vəsaitin verilməsi təmin edilməlidir. Bununla bərabər, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi yanmış malların qiymətini sahibkarlarla birlikdə araşdırmalıdır, aydınlaşdırmalıdır və bizdə bu məsələ ilə bağlı dəqiq məlumat olmalıdır.

Adətən, inkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə, bütün maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür, çünki bütün mallar sığortalanır. Ancaq əfsuslar olsun ki, Azərbaycanda sığorta sahəsində boşluqlar var və bir çox hallarda biz bunu görürük. Misal üçün, bu yaxınlarda Şamaxı, İsmayıllı, Ağsu rayonlarında baş vermiş zəlzələ nəticəsində minlərlə evə ziyan dəydi, lakin heç bir ev sığortalanmamışdı. Təbii ki, dövlət öz dəstəyini göstərdi və göstərməlidir də. Artıq evlərin tikintisinə başlanılıb və bu ayın əvvəlində birinci evlərin vətəndaşlara təqdimetmə mərasimi keçirildi. Bütövlükdə, sahibkarlara məsləhət görülür ki, onlar öz əmlakını sığortalatsınlar. Belə olan halda, tam əmin ola bilərlər ki, bədbəxt hadisə baş verdikdə onların əmlakı batmayacaqdır.

Azərbaycanda çox güclü sosial siyasət aparılır. Bu siyasət özünü müxtəlif sahələrdə büruzə verir. Bildiyi-

niz kimi, bu ilin əvvəlində çox ciddi və böyük sosial paket təsdiqləndi. Sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan bu proqramla əhatə olunur. Deyə bilərəm ki, dünyada belə bir təşəbbüsün bənzəri yoxdur. Təbii fəlakət – zəlzələ, daşqın vaxtı hər zaman vətəndaşın yanında ilk olan dövlətdir. Bu bizim siyasətimizdir, biz bu siyasətə sadiqik və bunu bütün sahələrdə aparacağıq. Ona görə baş vermiş yanğınla bağlı, əlbəttə ki, ilk növbədə, biz burada əziyyət çəkən, maddi ziyan dəyən sahibkarların vəziyyətini başa düşməliyik, onlara kömək göstərməliyik və göstərəcəyik.

Məsələni tam araşdırıb təkliflər vermək üçün komissiya yaradılacaq. Əlbəttə, komissiya bir müddət işləyəcək. Ancaq biz operativ olaraq, sahibkarlara ilkin mərhələdə maddi dəstək göstərməliyik ki, onlar bu vəziyyətdən çıxa bilsinlər. Gələcəkdə onları işlə təmin etmək üçün müvafiq addımlar atılacaq. O ki qaldı ticarət mərkəzinin sahibkarlarının fəaliyyətinə, əlbəttə ki, onlar dövlət tərəfindən sahibkarlara veriləcək məbləğin ödənilməsini tam təmin etməlidirlər və edəcəklər. Ancaq biz istəyirik ki, məsələ tezliklə öz həllini tapsın. Bu məqsədlə, yenə də deyirəm, dövlət dərhal öz dəstəyini göstərməlidir.

* * *

*Sonra Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov yanğının başvermə səbəbləri, əhatə dairəsi və həyata keçirilən taxirəsalınmaz tədbirlər barədə Prezident İlham Əliyevə məlumat verdi. Nazir bildirdi ki, hadisədən dərhal sonra operativ olaraq yanğın-*

*söndürənlər hadisə yerinə yaxınlaşıb və ilkin tədbirlər həyata keçirilibdir.*

*Yanğının mənbəyinin ticarət mərkəzindən kənarda yerləşən və qanunsuz inşa olunmuş dönərxanadan başlandığını deyən Kəmaləddin Heydərov qeyd etdi ki, yanğının başvermə anı Daxili İşlər Nazirliyinin müşahidə kameralarında da əks olunub. Yanğının söndürülməsinə 35 yanğınsöndürən maşın və 3 helikopterin cəlb olunduğunu nəzərə çatdıran nazir bildirdi ki, ticarət mərkəzində yanğın təhlükəsizliyi qaydalarına indiyədək əməl olunmayıb. Kəmaləddin Heydərov dedi ki, Fövqəladə Hallar Nazirliyi tərəfindən 2015-ci ildən başlayaraq, ticarət mərkəzinə və rayon icra hakimiyyətinə müvafiq müraciətlərin olunmasına baxmayaraq, burada yanğın təhlükəsizliyi və digər təhlükəsizlik tədbirləri görülməyib və bu məqsədlə tələb olunan hidrantlar qoyulmayıbdır. Malların anbarlarda düzgün yerləşdirilməməsi və binanın alkaponla üzlənməsi yanğının daha da şiddətlənməsinə səbəb olubdur.*

*Nazir hadisənin fəsadlarının aradan qaldırılması və yanğının ətraf binalara keçməməsi üçün bütün lazımi tədbirlərin operativ şəkildə görüldüyünü vurğuladı. O, hadisənin başvermə səbəblərinin araşdırılması məqsədilə qanunvericiliyə uyğun olaraq zəruri tədbirlərin görüləcəyini və əldə edilən ilkin materialların komissiyaya təqdim ediləcəyini bildirdi.*

*Baş prokuror Zakir Qaralov hadisə baş verən andan müvafiq qurumların birgə səyləri nəticəsində vəziyyətin nəzarətə alındığını, insanların həmin ərazidən təxliyə edildiyini bildirdi. Baş prokuror hadisə ilə bağlı*

*Cinayət Məcəlləsinin 225-ci maddəsi üzrə cinayət işinin qaldırıldığını, yanğın-texniki, tikinti-texniki, fiziki-kimyəvi və əmtəəşünaslıq ekspertizalarının təyin olunduğunu, qısa vaxtda yaranmış istintaq-əməliyyat qrupu tərəfindən bu ekspertizaların həyata keçiriləcəyini vurğuladı. Zakir Qaralov hadisə ilə bağlı sahibkarların dindirilməsi və ilkin ifadələrin alınması istiqamətində işlərin görüləcəyini, istintaqın gedişi ilə bağlı vaxtaşırı dövlət başçısına məlumat veriləcəyini bildirdi.*

*Daxili İşlər naziri Ramil Usubov məlumat verdi ki, yanğın baş verdikdən dərhal sonra Daxili İşlər Nazirliyinin və Baş Polis İdarəsinin rəhbərliyi və şəxsi heyəti hadisə yerinə gedib və qarşıda duran vəzifələrlə bağlı operativ tədbirlər görübdür. Belə ki, yol polisi əməkdaşları yanğınsöndürənlərin hadisə yerinə vaxtında və maneəsiz çatmaları üçün lazımi şərait yaradıb, 400 nəfərdən çox polis əməkdaşı hadisə yerində təhlükəsizlik tədbirlərinin təmin olunmasına cəlb edilib, əhalinin oradan uzaqlaşdırılması, nəqliyyatın hərəkətinin məhdudlaşdırılması ilə bağlı zəruri tədbirlər görülübdür. Ramil Usubov yanğının baş verməsi ilə bağlı müşahidə kamera qeydlərinin müvafiq qurumlara təqdim olunduğunu bildirdi. Dövlət başçısının tapşırığı ilə yaradılmış komissiyanın tərkibində Daxili İşlər Nazirliyi əməkdaşlarının da təmsil olunacağını vurğulayan nazir tapşırıqların yüksək səviyyədə həyata keçiriləcəyini qeyd etdi.*

*İqtisadiyyat naziri Şahin Mustafayev dövlət başçısının tapşırıqlarına uyğun olaraq, bir sıra addımların atılacağını bildirdi. Nazir ticarət mərkəzində icarədə*

*olan sahibkarlara dəyən ziyanın müəyyənləşdirilməsi ilə bağlı görüşlərin keçirildiyini və ziyanla əlaqədar ilkin məlumatların alındığını diqqətə çatdırdı. O, sahibkarlara bir neçə istiqamətdə ilkin dövlət dəstəyinin göstəriləcəyini, müəyyən halda güzəştli kreditlərdən istifadə ilə bağlı mexanizm üzərində də işlənildiyini, sahibkarların yeni ticarət mərkəzi tikilənə qədər digər ticarət mərkəzlərində yerləşdirilməsi istiqamətində işlərin aparıldığını vurğuladı.*

*Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov yanğınla əlaqədar yerli icra hakimiyyəti tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verdi. O, dünən və bu gün sahibkarlarla operativ görüşdüklərini, dəyən ziyanın aradan qaldırılması məqsədilə dövlət tərəfindən ilkin maliyyə dəstəyinin göstərilməsi ilə bağlı Prezidentin tapşırıqlarını onlara çatdırdıqlarını və sahibkarların bu xəbəri yüksək minnətdarlıq hissi ilə qarşıladıqlarını vurğuladı.*

* * *

**İlham Əliyev:** Bir daha demək istəyirəm ki, ilk növbədə, yanğının səbəbləri tam araşdırılmalıdır. İlkin versiyalar vardır. Kamera müşahidəsi də deməyə əsas verir ki, yanğın haradan başlayıb. Bunu nəzərə alaraq, yekun rəy, əlbəttə ki, təqdim olunacaq. Bütün ticarət mərkəzlərində ciddi təftiş işləri aparılmalıdır, təhlükəsizlik tədbirləri gücləndirilməlidir. Fövqəladə Hallar Nazirliyi və digər aidiyyəti qurumlar, Bakı Şəhər İcra Hakimiyyəti, rayon, şəhər icra hakimiyyətləri bu işlərlə çox ciddi məşğul ol-

malıdırlar. Təhlükəsizliklə bağlı bütün məsələlər ən yüksək standartlara uyğun şəkildə təmin edilməlidir.

Sahibkarlara gəldikdə, bir daha demək istəyirəm ki, dövlət onların yanında olacaq. Onlara artıq bu məlumat verilibdir. Maliyyə dəstəyinin göstərilməsi operativ qaydada təşkil edilməlidir və müvafiq göstəriş verilib. Burada da qeyd olunduğu kimi, sahibkarlara güzəştli şərtlərlə kreditlər verilməlidir, dəymiş ziyan dəqiq hesablanmalıdır. Onların bu gün fəaliyyətdə olan digər ticarət mərkəzlərində yerləşdirilməsi ilə bağlı tədbirlər görülməlidir ki, işsiz qalmasınlar.

Hesab edirəm, görülmüş və görüləcək tədbirlər nəticəsində sahibkarlar bir daha görəcəklər ki, dövlət hər zaman onları dəstəkləyir. Azərbaycanda sahibkarlığın inkişafı geniş vüsət alıb və ölkəmizin gələcək, uzunmüddətli, dayanıqlı inkişafı yüksək dərəcədə sahibkarların fəaliyyəti ilə bağlıdır. Azərbaycanda indi sahibkarlar sinfi yaradılıb. Sahibkarlar müxtəlif sahələrdə – həm istehsalda, həm xidmət və ticarət sektorlarında çox fəal işləyirlər. Əlbəttə ki, dövlət onlara həm siyasi dəstək, həm də maliyyə dəstəyi verir. Bildiyiniz kimi, güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilibdir. Ağır günlərdə, bədbəxt hadisə baş verdikdə dövlət hər zaman onların yanındadır və onların yanında olacaqdır.

Qeyd etdiyim kimi, komissiya tezliklə fəaliyyətə başlamalı, bütün bu məsələləri araşdırmalı və yekun rəy təqdim etməlidir. Sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT TƏHLÜKƏSİZLİYİ VƏ XARİCİ KƏŞFİYYAT XİDMƏTLƏRİNİN ŞƏXSİ HEYƏTİNƏ

Hörmətli Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətlərinin əməkdaşları və veteranları!

Sizi Azərbaycanda təhlükəsizlik və kəşfiyyat orqanlarının yaradılmasının 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

1919-cu il martın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin kəşfiyyat və əks-kəşfiyyat qurumu kimi fəaliyyətə başlamış xüsusi xidmət orqanlarımız mürəkkəb inkişaf yolu keçmişdir.

Sovet İttifaqı dövründə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizin təhlükəsizlik orqanlarının xalqımızın maraqlarına xidmət göstərməsini təmin etmiş və peşəkar milli kadrların yetişməsinə əvəzsiz töhfə vermişdir.

1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan çox ciddi təhlükələrlə – ilk növbədə, Ermənistanın təcavüzü ilə, habelə terrorçuluq, separatçılıq, dərin siyasi və sosial-iqtisadi böhranla üzləşmişdir. Dövlətçiliyimizin təhlükə altında olduğu belə bir vəziyyətdə Azərbaycan xalqı müdrik qərar qəbul edərək, ölkəyə rəhbərliyi ümummilli lider Heydər Əliyevə etibar etdi.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev ölkəmizi parçalanmaq və müstəqilliyini yenidən itirmək təhlükəsindən qurtardı, ictimai-siyasi sabitliyi təmin etdi. Məhz ümummilli liderin səyləri nəticəsində

zəngin dövlətçilik ənənələrimiz bərpa olundu, dünyəvi, demokratik və hüquqi dövlətin təməli qoyuldu, ölkəmiz dünya arenasında bərabərhüquqlu etibarlı tərəfdaş kimi tanındı.

Bu dövrdə ulu öndər Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsinin başlıca istiqamətlərini müəyyən etdi, dövləti xarici və daxili təhdidlərdən qorumağa qadir olan xüsusi xidmət orqanları sistemini formalaşdırdı.

Xüsusi xidmət orqanlarının müasir dövrün çağırışlarına uyğun inkişafını təmin etmək və fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə 2015-ci ildə mühüm islahatlar aparıldı, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətləri yaradıldı. Xidmətlər yüksək peşəkarlığı ilə seçilən kadrlarla komplektləşdirildi, müasir informasiya texnologiyaları ilə təchiz edildi, onların maddi-texniki bazası və əməkdaşlarının sosial müdafiəsi gücləndirildi.

Bu gün xüsusi xidmət orqanları Azərbaycanın milli maraqlarının təmin olunması, Konstitusiya quruluşunun qorunması, dövlət qərarlarının informasiya təminatının həyata keçirilməsi, habelə terrorçuluğa, separatçılığa, dini ekstremizmə, transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə və digər sahələrdə uğurla fəaliyyət göstərir.

Dünyada və regionda gedən proseslərin sülh və təhlükəsizlik üçün yaratdığı təhdidlər beynəlxalq əməkdaşlığın əhəmiyyətini daha da artırır. Xüsusi xidmət orqanlarımız bir çox xarici dövlətlərin tərəfdaş qurumları ilə strateji xarakter daşıyan əlaqələr qurub və

bu səmərəli əməkdaşlıq nəticəsində regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsinə dəyərli töhfə verir. Biz bu tərəfdaşlığı yüksək qiymətləndiririk və onun daha da dərinləşməsində maraqlıyıq.

Əminəm ki, xüsusi xidmət orqanlarımız qarşıya qoyulmuş vəzifələrin öhdəsindən bundan sonra da layiqincə gələcək, bu orqanların hər bir əməkdaşı ölkəmizin milli təhlükəsizliyinin təmin edilməsi yolunda qətiyyət və əzm nümayiş etdirəcəkdir.

100 illik yubileyiniz münasibətilə sizi bir daha ürəkdən təbrik edir, Azərbaycanın təhlükəsizliyinin etibarlı təmin olunması naminə şərəfli xidmətinizdə müvəffəqiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 mart 2019-cu il*

## AVSTRİYA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*28 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Avstriya Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Vyana aeroportunda yüksəkvəzifəli şəxslər qarşıladılar.*

## AVSTRİYA RESPUBLİKASININ VİTSE-KANSLERİ HAYNTS-KRİSTİAN ŞTRAXE İLƏ GÖRÜŞ

*Vyana*

*28 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Vyanada Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxe ilə görüşmüşdür.*

*Avstriyanın vitse-kansleri ilə Bakıda keçirdiyi görüşü məmnuniyyətlə xatırladan dövlət başçısı həmin görüşdə ikitərəfli əməkdaşlığa dair geniş fikir mübadiləsi aparıldığını diqqətə çatdırdı. Azərbaycan–Avstriya münasibətlərinin, o cümlədən siyasi və iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev bu ölkəyə səfərinin, həmçinin vitse-kanslerlə görüşünün əməkdaşlığın genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını vurğuladı.*

*Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxe ölkəmizə səfəri çərçivəsində Prezident İlham Əliyev ilə görüşünün və apardığı səmərəli müzakirələrin ölkələrimiz arasında əlaqələrin inkişafına təkan verdiyini ifadə etdi.*

*Söhbət zamanı Azərbaycan ilə Avstriya arasında iqtisadi-ticari münasibətlərin genişləndirilməsi məqsədilə əməkdaşlıq formatlarının yaradılması təşəbbüslərinə toxunuldu, bu çərçivədə iki ölkənin dövlət qurumları və işgüzar dairələri arasında əlaqələrin genişləndirilməsinin önəmi vurğulandı.*

*Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## ERMƏNİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VƏ MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*Vyana*

*29 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini müzakirə etmək üçün Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyan ilə görüşü olmuşdur.*

*Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş Naziri Nikol Paşinyanın təkbətək görüşü oldu.*

*Sonra görüş ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə davam etdirildi.*

## AVSTRİYA RESPUBLİKASININ FEDERAL KANSLERİ SEBASTİAN KURTS İLƏ GÖRÜŞ

*Vyana*

*29 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Vyanada Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurts ilə görüşmüşdür.*

*Federal Kansler Sebastian Kurts Prezident İlham Əliyevi qarşıladı.*

*Prezident İlham Əliyev və Federal Kansler Sebastian Kurts birgə foto çəkdirdilər.*

*Sonra Prezident İlham Əliyevin Federal Kansler Sebastian Kurts ilə təkbətək görüşü oldu.*

*Prezident İlham Əliyev Avstriyada olmasından məmnunluğunu vurğulayaraq, səfərin təşkilinə və dəvətə görə Federal Kansler Sebastian Kurtsa təşəkkürünü bildirdi və onu ölkəmizə səfərə dəvət etdi.*

*Ermənistanın Baş Naziri ilə Vyanada keçirdiyi görüş barədə Federal Kanslerə məlumat verən dövlətimizin başçısı bu görüşün təşkilinə görə də Avstriya tərəfinə minnətdarlığını ifadə etdi, Avstriyanın bu qəbildən olan görüşlərin təşkilində və keçirilməsində*

*böyük təcrübəyə malik olduğunu bildirdi. Azərbaycan ilə Avstriyanın yüksək səviyyəli siyasi əlaqələrinin mövcudluğunu diqqətə çatdıran Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi-ticari, informasiya texnologiyaları, kənd təsərrüfatı, nəqliyyat və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.*

*Söhbət zamanı Avstriya şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyi qeyd edildi. Həmçinin Azərbaycanda regionların iqtisadi inkişafı üzrə beşillik müddəti əhatə edən proqramın qəbul olunduğu bildirildi, bu proqram əsasında Avstriya şirkətlərinin də Azərbaycan ilə əməkdaşlıq imkanlarına toxunuldu.*

*Görüşdə Azərbaycan–Avropa İttifaqı əlaqələrindən bəhs edildi, Avstriyanın bu münasibətlərin inkişafını dəstəklədiyi ifadə olundu. Məhz Avstriyanın sədrliyi dövründə Azərbaycan ilə Avropa İttifaqı arasında «Tərəfdaşlıq prioritetləri» sənədinin imzalandığı qeyd edildi. Eyni zamanda, Avstriya ilə Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlığın vacibliyi vurğulanaraq, Avstriya şirkətlərinin Azərbaycanın regionda yaratdığı nəqliyyat infrastrukturundan faydalana biləcəyi bildirildi.*

*Azərbaycan Prezidentinin dəvətini məmnunluqla qəbul edən Federal Kansler Sebastian Kurts Avstriyanın ölkəmizlə əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğuladı.*

*Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirildi.*

## AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ALEKSANDR VAN DER BELLEN İLƏ GÖRÜŞ

*Vyana*

*29 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Avstriya Respublikasının Federal Prezidenti Aleksandr Van der Bellen ilə görüşü olmuşdur.*

*Federal Prezident Aleksandr Van der Bellen Prezident İlham Əliyevi qarşıladı.*

*Prezident İlham Əliyev və Federal Prezident Aleksandr Van der Bellen birgə foto çəkdirdilər.*

*Avstriyaya səfərindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı qonaqpərvərliyə və Ermənistanın Baş Naziri ilə görüşə ev sahibliyi etdiyinə görə Avstriya tərəfinə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanın Avstriya ilə ikitərəfli əlaqələrin inkişafına xüsusi əhəmiyyət verdiyini vurğuladı.*

*Federal Prezident Aleksandr Van der Bellen Azərbaycan ilə Avstriya arasında möhkəm dostluq əlaqələrinin mövcudluğunu qeyd edərək, bu səfərin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmli olduğunu söylədi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi üçün Birgə Əməkdaşlıq Şurasının təsis olunduğunu və onun Vyanada ilk iclasının keçirildiyini diqqətə çatdıraraq, bu formatda əməkdaşlığın ticarət dövriyyəsinin artırılmasına və Avstriya şirkətlərinin Azərbaycanda daha da fəal çalışmalarına imkan yaradacağına ümidvar olduğunu bildirdi. Dövlət başçısı Avstriyanın Federal Prezidentinə ölkəmizin təşəbbüsü ilə regionda reallaşdırılan nəqliyyat layihələri barədə məlumat verərək, Avstriya şirkətlərinin də bu nəqliyyat infrastrukturu imkanlarından istifadə edə biləcəyini diqqətə çatdırdı.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## RUSİYANIN TASS İNFORMASİYA AGENTLİYİNƏ MÜSAHİBƏ

*Vyana*

*29 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Vyanada Rusiyanın TASS informasiya agentliyinə müsahibə vermişdir.*

*Azərbaycan Prezidenti İlham Əliyev müxbirin Ermənistanın Baş Naziri Nikol Paşinyanla danışıqları barədə sualını cavablandırdı.*

**İ l h a m Ə l i y e v:** Xarici İşlər nazirləri bir neçə raund danışıqlar aparıblar. Görüş ona görə mühümdür ki, məsələnin mahiyyəti ilə bağlı danışıqlar prosesinə yeni start verilib. Biz etimadı, insanlar arasında təmaslar çərçivəsində möhkəmləndirməklə bağlı məsələləri müzakirə etdik. Bundan əvvəl ictimaiyyət nümayəndələri arasında təmaslar olub. Yəni hələ bu barədə danışmaq tezdir, lakin humanitar məsələlərə gəldikdə, bu, nəzərdə tutulur. Çünki danışıqlar prosesi, təbii ki, həm də humanitar aksiyalarla dəstəklənməlidir. Lakin əsas odur ki, danışıqların formatı dəyişilməz qalıb. Danışıqlar uzun illər olduğu kimi, Ermənistan ilə Azərbaycan arasında aparılır. İkincisi, danışıqlar prosesinə yeni təkan verilib. Bu da vacibdir. Biz Minsk qrupu həmsədrlərinin 9 mart

tarixli bəyanatını çox müsbət qiymətləndirdik. Orada deyilir ki, danışıqlar formatının dəyişdirilməsi yalnız iki tərəfin razılığı ilə ola bilər. Azərbaycan tərəfi təbii ki, buna razılıq vermədi. Ona görə də biz prinsipcə substantiv danışıqların davam etdirilməli olduğu vəziyyətə qayıtdıq. Xarici İşlər nazirlərinə tapşırıqlar verilib. Onlar çox güman ki, nəticəyə yönələn danışıqlar prosesini davam etdirmək üçün yaxın vaxtlarda görüşəcəklər. Bizim üçün birinci yerdə beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi çərçivəsində işğaldan azad edilməsi məsələsi durur.

**M ü x b i r:** Çox sağ olun, cənab Prezident.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avstriya Respublikasına işgüzar səfəri martın 30-da başa çatdı.*

## RUSİYA FEDERASİYASI ÇEÇENİSTAN RESPUBLİKASI BAŞÇISININ MÜŞAVİRİ ADAM DELİMXANOV İLƏ GÖRÜŞ

*1 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rusiya Federasiyası Çeçenistan Respublikası başçısının müşaviri, Rusiya Dövlət Dumasının üzvü Adam Delimxanovu qəbul etmişdir.*

*Adam Delimxanov Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun salamlarını dövlət başçısına çatdırdı və bildirdi ki, Ramzan Kadırov Prezident İlham Əliyevi özünə qardaş hesab edir. Çeçen xalqının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi heç vaxt unutmayacağını vurğulayan Adam Delimxanov ən çətin vaxtlarda Heydər Əliyevin onlara göstərdiyi qayğı və dəstəyi böyük ehtiramla xatırlatdı. O, xalqlarımız arasında sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ramzan Kadırova çatdırmağı xahiş etdi və qeyd etdi ki, onu Ramzan Kadırovla qardaşlıq əlaqələri bağlayır. Dövlət başçısı bildirdi ki, Azərbaycan və çeçen xalqları*

*arasında dostluq və qardaşlıq əlaqələrinin dərin tarixi kökləri var və tarixboyu bu əlaqələr daim möhkəmlənibdir.*

*Prezident İlham Əliyev Ramzan Kadırovun bu yaxınlarda ölkəmizə səfərini məmnunluqla xatırladaraq, Ramzan Kadırovun çeçen xalqının lideri Hacı Əhməd Kadırovun siyasətini uğurla davam etdirdiyini, Çeçenistanda sabitliyin və əmin-amanlığın bərqərar olduğunu, genişmiqyaslı quruculuq işlərinin həyata keçirildiyini qeyd etdi.*

*Söhbət zamanı Azərbaycan ilə Çeçenistan Respublikası arasında əlaqələrin Azərbaycan–Rusiya ikitərəfli münasibətlərinin daha da inkişafı baxımından əhəmiyyəti vurğulandı.*

## MÜDAFİƏ NAZİRLİYİNİN XÜSUSİ TƏYİNATLI QÜVVƏLƏRİNİN «N» SAYLI HƏRBİ HİSSƏSİNDƏ

*2 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin «N» saylı hərbi hissəsində olmuşdur.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Müdafiə nazirinin birinci müavini – Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov və Xüsusi Təyinatlı Qüvvələrin komandanı, general-mayor Hikmət Mirzəyev Ali Baş Komandan İlham Əliyevə raport verdilər.*

*Dövlət başçısı əvvəlcə burada ulu öndər Heydər Əliyevin büstünün önünə gül dəstəsi qoyaraq, xatirəsini dərin ehtiramla yad etdi.*

*Müdafiə naziri Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə hərbi hissədə aparılmış yenidən qurulma işləri barədə məlumat verdi.*

*Bildirildi ki, bu hərbi hissənin ərazisində qərargah binası, yeməkxana, əsgər yataqxanası yenidən qurulub, müasir təlim mərkəzləri yaradılıbdır. Hərbi hissənin ərazisində burada xidmət edən ailəli hərbi qul-*

*luqçular üçün yeni yaşayış binaları, subay hərbçilər üçün isə müasir tələblərə cavab verən yataqxanalar inşa olunubdur. Dövlət başçısına məlumat verildi ki, burada yeni binaların da tikintisi nəzərdə tutulur.*

*Sonra Prezident İlham Əliyev hərbi hissənin xüsusi hazırlıq təlim meydanında xüsusi təyinatlıların döyüş hazırlığını izlədi.*

*Son illərdə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının, silah və sursat arsenalının müasirləşdirilməsi istiqamətində çox mühüm tarixi işlər görülüb. Şübhəsiz ki, bütün bu uğurların əldə edilməsində, Silahlı Qüvvələrimizin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində Azərbaycanın iqtisadi inkişafı vacib rol oynayır. Təbii ki, güclü ordunun yaradılması həm də güclü hərbi-sənaye kompleksinin mövcudluğu ilə şərtlənir. Prezident İlham Əliyevin rəhbərliyi ilə 2005-ci ildə ölkədə müdafiə sənayesinin əsasının qoyulması və bu sahədə istehsal yönümlü müəssisələrin fəaliyyətə başlaması Azərbaycan Ordusunun maddi-texniki bazasını daha da möhkəmləndirib. Dövlət başçısının diqqəti nəticəsində yaradılmış müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar açıb. Təsadüfi deyil ki, indi ölkəmizin silah və sursatları bir çox parametrlərinə görə dünyada ilk yerlərdən birini tutur.*

*Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə*

*alınmaqla həyata keçirilir. 2003-cü ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün milli ordumuzun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaradıb. Görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Bu faktı beynəlxalq hərbi tədqiqat mərkəzləri də təsdiqləyir. Şübhəsiz ki, Azərbaycan bu uğura hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində nail olubdur.*

*İndiyədək ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunubdur. Ordumuzun gücünü son illərdə keçirilən hərbi paradlarda nümayiş etdirilən canlı qüvvə və hərbi texnikadan da görmək olur. Bu hərbi texnika ilə Azərbaycan Ordusu Ali Baş Komandanın əmrinə əsasən, istənilən an düşmənə sarsıdıcı zərbə vuraraq, torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır. Bunu 2016-cı ildə cəbhədə baş vermiş hadisələr də göstərdi. Azərbaycan qoşunlarının mövqelərini dağıdıcı silahlardan, ağır artilleriyadan atəşə tutan düşmən layiqli cavabını aldı. Bu döyüşlər Azərbaycan Ordusunda yüksək mənəvi-psixoloji hazırlığın*

*olduğunu üzə çıxartdı. Aprel döyüşlərinin ən mühüm nəticəsi həm də ondan ibarət oldu ki, Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. Mətin ordumuz 1992-ci ildən Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Şərur rayonunun Günnüt kəndini də qəhrəmanlıqla azad etdi. Əlahiddə Ümumqoşun Ordusunun əks-həmləsi nəticəsində Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Mehridağ işğaldan azad olundu, ümumilikdə 11 min hektara yaxın ərazi nəzarətimiz altına alındı. Bütün bu uğurlar Azərbaycan Ordusunun qüdrətini göstərir. Çünki ölkəmizin güvənc yeri, qürur, ləyaqət rəmzi və özünütəsdiq imkanı olan Azərbaycan Ordusu xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir. Xalqımızın Silahlı Qüvvələrə olan inamı isə ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır.*

*Sonra Prezident İlham Əliyev hərbi qulluqçularla görüşdü.*

**Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışı**

Əziz zabitlər, mən sizi ürəkdən salamlayıram!

Bu gün hərbi hissə ilə tanışlıq mənə çox xoş təəssürat bağışladı. Son illərdə hərbi hissə əsaslı şəkildə yenidən qurulub, təlim prosesi üçün bütün lazımi şərait yaradılıbdır. Bu bir daha göstərir ki, bu gün

Azərbaycan Ordusu uğurla inkişaf edir, ordu quruculuğu prosesi sürətlə gedir, bizim hərbi hissələrimiz yenidən qurulur, yenidən tikilir, ordumuz ən müasir texnika ilə təchiz edilir. Bu da təbiidir, çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıbdır. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır.

Aprel döyüşlərindən 3 il keçir. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Döyüşlər zamanı itkilərimiz də olub, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı hərbçilərimizin müalicəsi, bərpası üçün dövlət əlindən gələni əsirgəməyib və yaralanmış bütün hərbçilər xoşbəxtlikdən normal həyata qayıdıblar. Onların müalicəsi, sağlamlıqlarının bərpası, aktiv həyata qayıtmaları üçün bütün lazımi işlər görülübdür.

Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir. Yaxşı bilirsiniz ki, döyüşlərə qədər Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən bizim yaşayış məntəqələrini, hərbi mövqelərimizi daim atəşə tuturdu. Ermənistanın təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusu çox uğurlu əməliyyat keçirdi və vaxtilə işğal edilmiş Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi. Minlərlə hektar torpaq işğalçılardan azad edildi, on minlərlə hektar ərazi nəzarətimizə keçdi. Vaxtilə işğal edilmiş torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Döyüşlər zamanı hərbçilərimiz peşəkarlıq, qəhrəmanlıq göstərdilər. Bir daha göstərdilər ki,

Azərbaycan əsgəri, zabiti həm peşəkar, həm Vətənə bağlı, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır. Aprel döyüşləri hərbi cəhətdən çox uğurlu əməliyyat idi. Çünki əlverişsiz mövqelərdən bizim hərbçilərimiz çox önəmli strateji yüksəklikləri işğalçılardan azad etdilər. Eyni zamanda, bu döyüşlərin mənəvi-psixoloji baxımdan da böyük əhəmiyyəti vardır. Çünki uzun illər ərzində Ermənistan təbliğatı belə bir mif yaratmışdı ki, onlar hərbi cəhətdən bizdən üstündür. Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər. Ermənistanın yaratdığı mif tamamilə darmadağın edildi.

Bizim mülki vətəndaşlarımız da döyüşlər zamanı qəhrəmanlıq göstərdilər. Bir neçə mülki şəxs Ermənistanın təxribatı nəticəsində həlak oldu, yüzlərlə ev sıradan çıxdı, yandırıldı. Biz bütün bu evləri qısa müddət ərzində bərpa etdik. Döyüşlərdən sonra təmas xəttinə yaxın yerləşən kəndlərdə vətəndaşlarla görüş əsnasında gördüm ki, bu vətəndaşlarda nə qədər milli ruh var, onlar nə qədər qorxmaz insanlardır, atəş altında qalaraq, öz evlərini, doğma kəndlərini tərk etməmişlər.

Döyüşlər nəticəsində Cocuq Mərcanlı kəndinə yeni həyat verildi. Cocuq Mərcanlı qısa müddət ərzində yenidən quruldu, 150 fərdi ev, məktəb, uşaq bağçası, tibb məntəqəsi, Şuşa məscidinin bənzəri olan məscid tikildi, yeni iş yerləri yaradılır. Yəni Cocuq Mərcanlıya həyat qayıdıb. Bu bir daha göstərir ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq. Hər bir Azərbaycan vətəndaşı bir arzu ilə yaşayır – bizim işğal

altındakı torpaqlarımız tezliklə azad olunsun və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etsin.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində bizim torpaqlarımız işğal altına düşdü. Bunun səbəbi də odur ki, o vaxt hakimiyyətdə olan qüvvələr öz yarıtmaz fəaliyyəti ilə imkan verdilər ki, Ermənistan torpaqlarımızı zəbt etsin. AXC–Müsavat cütlüyünün xəyanətkar fəaliyyəti nəticəsində işğal edilmiş torpaqlarda Ermənistan silahlı qüvvələri möhkəmləndi, Ermənistanla Dağlıq Qarabağ arasında canlı bağlantı yaradıldı və düşmənə imkan verildi ki, öz işğalçılıq siyasətini davam etdirsin. Ancaq ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra vəziyyətdə dəyişiklik edildi, uğurlu Horadiz əməliyyatı aparıldı. Horadiz əməliyyatı nəticəsində 20-dən çox yaşayış məntəqəsi işğalçılardan azad edildi. Bu gün Horadiz şəhəri və həmin o kəndlər çiçəklənir, canlanır, orada ən yüksək səviyyədə işlər görülür.

Ordu quruculuğu prosesinə start verildi. Bu gün ordu quruculuğu baxımından Azərbaycan dünyanın güclü ölkələrindəndir. Sonuncu reytinqə əsasən, Azərbaycan Ordusu dünya miqyasında öz potensialına görə 52-ci yerdədir. Ötən il keçirilmiş iki hərbi parad bizim hərbi qüdrətimizi göstərdi. Ordumuz üçün ən müasir silahlar, texnika alınır, ordumuzun döyüş qabiliyyəti artır. Aprel döyüşləri bunun bariz nümunəsidir. Ordumuz üçün nə lazımdırsa, biz onu edirik və edəcəyik. Ötən il uğurlu Naxçıvan əməliyyatı keçirildi. Bu əməliyyat nəticəsində biz strateji yüksəkliklərə sahib olduq. Bu yüksəkliklər çox

böyük əraziyə nəzarət etməyə imkan verir. Uğurlu Naxçıvan əməliyyatı bir daha göstərdi ki, ordumuz peşəkardır və ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir.

Bütün bunlar reallıqdır. Bu gün hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Azərbaycan Ordusu ilə fəxr edə bilər və biz əsgərlərimizlə, zabitlərimizlə fəxr edirik. Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünün qorunması işində rol oynayan əsas amildir.

Hərbçilərin məişət problemləri həll olunur. Buna da böyük diqqət göstərilir. Keçən ilin sonunda 300-dən çox hərbçiyə yeni mənzillər verildi. Bu günə qədər yüzlərlə hərbçi dövlət tərəfindən mənzillərlə təmin edilib. Bu proses davam etdirilir. Eyni zamanda, hərbi hissələrin yenidən qurulması prosesi geniş vüsət alıb. Son illərdə bir çox hərbi hissələrin şəhərciklərinin açılışında olmuşam. Hər yerdə səviyyə yüksəkdir, şərait çox gözəldir, o cümlədən bu hərbi hissədə. Burada mənə əvvəlki illərdə olan vəziyyəti əks etdirən fotoşəkillər təqdim olundu. Əlbəttə, vəziyyət çox ağır idi. Ancaq mənim xüsusi tapşırığım əsasında hərbi hissə qısa müddət ərzində yenidən quruldu, burada çalışanlar, yataqxanalarda qalanlar üçün gözəl şərait yaradıldı. Onu da bildirməliyəm ki, bizim hərbi hissələrimizdə mülki işlərdə mülki vətəndaşlar çalışır, bu da yenilikdir. Beləliklə, biz hərbçiləri, onların fəaliyyətini əsas vəzifə borcuna yönəltmişik, eyni zamanda, 20 minə yaxın mülki şəxs işlə təmin edilibdir.

O ki qaldı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə, burada bizim mövqemizdə heç

bir dəyişiklik yoxdur. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır. Əsrlərboyu xalqımız bu torpaqlarda yaşayıb, qurub, yaradıbdır. Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıyır. Bütün mötəbər beynəlxalq təşkilatlar müvafiq qərar və qətnamələr qəbul edibdir. Bu, tarixi və hüquqi əsasdır. Heç bir ölkə qondarma «Dağlıq Qarabağ respublikası»nı tanımayıb, əminəm ki, tanımayacaq da.

Danışıqların davam etdirilməsinin məqsədi işğal edilmiş torpaqların azad olunmasıdır. Siz bilirsiniz ki, Ermənistanın yeni rəhbərliyi danışıqların formatını dəyişdirmək istəmişdir. Verilən bəzi bəyanatlar da ictimaiyyətə bəllidir. Ancaq Azərbaycanın birmənalı mövqeyi bunu mümkün etmədi. Münaqişə Ermənistan ilə Azərbaycan arasındadır. Bizim torpaqlarımızı Ermənistan işğal edibdir. İşğal edilmiş torpaqlarda qarşı tərəfin hərbçilərinin 80 faizi Ermənistan vətəndaşıdır. Ona görə danışıqlar prosesi də iki ölkə arasında aparılmalıdır və aparılır. Son Vyana görüşü, o cümlədən ona görə önəmli idi ki, bu mövcud formatı bir daha təsdiqlədi. Həm Xarici İşlər nazirləri arasında aparılan danışıqlar, həm də rəhbərlik arasında keçirilmiş görüş bir daha onu göstərir ki, bu, Ermənistan–Azərbaycan münaqişəsidir. Biz hər dəfə bu münaqişə ilə bağlı sözümüzü deyəndə, bu münaqişəni belə də adlandırırıq: Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi.

Haqq-ədalət, tarixi həqiqət bizim tərəfimizdədir. İqtisadi güc də, hərbi güc də bizim tərəfimizdədir. Son illərdə görülmüş işlər, hərbi sahədə aparılmış islahatlar, hərbi gücümüzün artırılması, həm siyasi meydanlarda, həm də döyüş meydanlarında qələbələr bizi daha da ruhlandırır, daha da gücləndirir.

Siz – burada xidmət göstərən hərbçilər öz vəzifə borcunuzu çox yaxşı bilirsiniz, yaxşı başa düşürsünüz. Siz ən ağır döyüşlərdə iştirak etmisiniz, qəhrəmanlıq, şücaət göstərmisiniz. Dövlət sizin fəaliyyətinizi yüksək qiymətləndirir. Mən Sizi əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm, sizə və ordumuza yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

* * *

**Z a k i r  H ə s ə n o v** (*Müdafiə naziri*): Cənab Ali Baş Komandan!

Azərbaycan Ordusunun bütün şəxsi heyəti adından Sizə dərin minnətdarlığımı bildirirəm. Orduda keçirdiyiniz islahatlar ordunun döyüş qabiliyyətinin artırılmasına, nizam-intizamın gücləndirilməsinə və şəxsi heyətin sosial bazasının yüksək səviyyədə təşkil olunmasına yönəldilib. Bu gün Azərbaycan Ordusunun bütün uğurları yalnız bu islahatlar nəticəsində mümkün olubdur.

Bu gün şəxsi heyət Sizin orduya göstərdiyiniz diqqət və qayğını gündəlik həyatında hiss edir və Sizin etimadınızı doğrultmaq üçün hər an hər bir əmrinizi yerinə yetirməyə hazırdır və qadirdir.

Diqqətinizə görə çox sağ olun.

* * *

*Sonra Prezident İlham Əliyevə xüsusi təyinatlıların geyim formaları, xüsusi təchizatı və ərzaq normalarının nümunələri təqdim olundu. Yüksək döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı və vətənpərvərliyi ilə seçilən Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial məsələlərinin həlli, onların xidmətetmə və hazırlıq səviyyələrinin daha da yüksəldilməsi istiqamətində də son illərdə dövlətimiz tərəfindən mühüm addımlar atılıbdır.*

**SLOVAKİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM ZUZANA ÇAPUTOVAYA**

Hörmətli xanım Çaputova!

Slovakiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Slovakiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Slovakiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 aprel 2019-cu il*

## BAKI–TBİLİSİ–QARS DƏMİR YOLU XƏTTİNDƏ HƏRƏKƏT EDƏCƏK SƏRNİŞİN QATARINA BAXIŞ

*3 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Bakı–Tbilisi–Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarına baxış keçirmişdir.*

*Dövlət başçısı Bakı Dəmir Yolu vağzalında əvvəlcə Qəbələ dəmir yolu stansiyası binasının eskiz layihəsinə baxdı.*

*Sonra Prezident İlham Əliyev Bakı–Tbilisi–Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarına baxış keçirdi.*

*«Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov bildirdi ki, «Azərbaycan Dəmir Yolları» QSC-nin sifarişi ilə İsveçrənin «Stadler Rail Group» şirkəti tərəfindən istehsal olunmuş 10 vaqondan ibarət sərnişin qatarı Türkiyə və Gürcüstandan keçməklə, martın 29-da Bakıya çatıb. Amma bundan əvvəl qatar Axalkalakidə quraşdırılmış xüsusi qurğuda test rejimində sınaqdan keçirilib. Qatarların Türkiyədə hərəkəti üçün Gürcüstan–Türkiyə–Gürcüstan sərhəd-keçid məntəqəsində vaqonlarda təkər cütlərinin eninə bazasının avtomatik olaraq*

*1520 millimetrdən 1435 millimetrə və əksinə dəyişdirilməsini nəzərdə tutan yeni qurğu quraşdırılıb. Qatarda 9 sərnişin vaqonu və 1 restoran vardır. Vaqonlar «standart», «komfort», «biznes» və «restoran» olmaqla, 4 kateqoriyada istehsal edilib. Kateqoriyasından asılı olaraq, vaqonlar 10, 20 və 32 nəfərlikdir. Ümumilikdə qatarda bir istiqamətə 246 yer nəzərdə tutulub. Saatda 160 kilometr sürətlə hərəkət etmək imkanına malik qatardakı arabacıqlar pnevmatik asılqanla təmin edilib ki, bu da döngələrdə vaqonun tarazlığını tənzimləyir. Bundan başqa, hər bir vaqon dizel generatoru avadanlığı ilə təmin olunub. Bu da lokomotivdə cərəyan olmadıqda vaqonu və ondakı bütün elektrik enerjisi istifadəçilərini 24 saat fasiləsiz elektrik enerjisi ilə təmin edəcəkdir.*

*Qeyd edək ki, Bakı–Tbilisi–Qars marşrutu ilə sərnişindaşımanın təşkili bu ilə planlaşdırılıb. «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə İsveçrənin «Stadler Rail Group» şirkəti arasında imzalanmış müqaviləyə əsasən, ikinci mərhələdə daha 10 vaqonun gətirilməsi nəzərdə tutulur.*

*Xatırladaq ki, müstəqillik tariximizin möhtəşəm layihələrindən olan Bakı–Tbilisi–Qars dəmir yolu xətti 2017-ci ilin oktyabr ayında Bakı Beynəlxalq Dəniz Ticarət Limanında keçirilmiş təntənəli mərasimlə istifadəyə verilib. Asiya ilə Avropanı birləşdirən və Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan Bakı–Tbilisi–Qars dəmir yolu xətti Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində reallığa çevrilib. Qonşu Türkiyə və Gürcüstanla sıx əməkdaşlığın nəti-*

*cəsi olan Bakı–Tbilisi–Qars layihəsi ölkələrimiz arasındakı əlaqələrin strateji təzahürünü də nümayiş etdirir. Bu yolla artıq yüklərin daşınması uğurla həyata keçirilir. Bununla da çox mühüm transmilli neft-qaz kəmərlərinə malik Azərbaycan bu strateji layihənin reallaşması ilə özünün nəinki regionda, bütünlükdə Avrasiya qitəsindəki əhəmiyyətini artırıb. Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amilə çevrilib və regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa böyük töhfədir.*

## RUSİYA FEDERASİYASININ SƏNAYE VƏ TİCARƏT NAZİRİ DENİS MANTUROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Rusiya Federasiyasının Sənaye və Ticarət naziri Denis Manturovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Rusiya Federasiyasının Sənaye və Ticarət naziri Denis Manturovun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi işinə xidmət etdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin səviyyəsinin ildən-ilə yüksəldiyini və bütün sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini bildirdi. Dövlət başçısı müxtəlif istiqamətlərdə, o cümlədən sənaye sahəsində əməkdaşlığın inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev son illər ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasının önəmini vurğuladı və bu sahədə artıq yaxşı nəticələrin əldə olunduğunu diqqətə çatdırdı. Dövlət başçısı Rusiya şirkətlərinin Azərbaycanda fəal işlədik-*

*lərini və bu şirkətlərin həm investor, həm də podratçı qismində müxtəlif layihələri icra etdiklərini qeyd etdi. Prezident İlham Əliyev maşınqayırma sahəsində də birgə layihələrin olmasından məmnunluğunu ifadə etdi, Rusiya banklarının Azərbaycanda iri sənaye müəssisələrini maliyyələşdirməsinin əhəmiyyətini vurğuladı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən nazir Denis Manturov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Azərbaycanda Rusiya ilə birgə şirkətlərin fəaliyyət göstərməsinin və ümumi layihələrin həyata keçirilməsinin iqtisadi əməkdaşlığın genişlənməsi üçün möhkəm əsas yaratdığını vurğuladı. Denis Manturov qeyd etdi ki, Azərbaycan Respublikası Prezidentinin ötən ilin sentyabrında Rusiya Federasiyasına səfəri zamanı dövlət başçılarının müəyyənləşdirdiyi kimi, iqtisadi əməkdaşlığın konkret sahələrinin inkişafı ilə bağlı fəal iş həyata keçirilir və yeni sahələr, o cümlədən rəqəmsallaşdırma üzrə perspektivlər müzakirə edilir. Denis Manturov iqtisadi əməkdaşlığın inkişafında kiber təhlükəsizliyin önəmini xüsusilə vurğuladı. Azərbaycan–Rusiya Sənaye Əməkdaşlığı Forumunun əhəmiyyətinə toxunan rusiyalı nazir forumda 60-dan artıq Rusiya şirkətinin iştirak etdiyini vurğulayaraq, tədbirdə Azərbaycan şirkətləri ilə işgüzar müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi.*

*Görüşdə neft maşınqayırması, kənd təsərrüfatı texnikasının və yük vaqonlarının birgə istehsalı, helikopterlərin servis mərkəzinin yaradılması, dərman*

*istehsalı və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edildi.*

*Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.*

## KÜRDƏXANI QƏSƏBƏSİNDƏ MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİ ÜÇÜN SALINMIŞ YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK

*5 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlər barədə dövlət başçısına məlumat verdi. Bildirildi ki, Bakı şəhərinin ərazisindəki yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış 810 məcburi köçkün ailəsi üçün Prezidentin 2011-ci ildə imzaladığı sərəncama əsasən, çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsinin tikilməsi nəzərdə tutulub. Məhəllənin salınması üçün 15 hektar torpaq sahəsi ayrılıb. Yeni yaşayış məhəlləsinin layihələndirilməsi və tikintisi üzrə sifarişçi təşkilat funksiyaları Məcburi Köçkünlərin Sosial İnkişaf Fonduna həvalə edilib. 2018-ci ilin mart ayında başlanılmış tikinti işləri yüksək keyfiyyətlə sona çatdırılıb. Layihə üzrə doqquzmərtəbəli 15 bina tikilib ki, bunlardan 9-u 54, 4-ü 36, digərləri isə 108 və 72 mənzillidir. Yeni yaşayış kompleksində məktəb və uşaq bağçası, o*

*cümlədən digər zəruri infrastruktur obyektləri – klub-icma mərkəzi, həkim məntəqəsi inşa edilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülübdür.*

*Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sistemlərinin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilibdir.*

*Qeyd olundu ki, bu, ölkə üzrə məcburi köçkünlər üçün salınmış sayca 103-cü müasir yaşayış kompleksidir.*

*Yeni kompleksdəki mənzillərdə yaradılmış şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, buradakı mənzillərdən 72-si birotaqlı, 360-ı ikiotaqlı, 306-sı üçotaqlı, 72-si isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 91 min kvadratmetrdir. Yeni yaşayış kompleksində hazırda paytaxtdakı yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaqlar.*

*Bu istiqamətdə atılan mühüm addımlardan danışarkən Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri də vurğulamaq lazımdır. Artıq Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilibdir. Heydər Əliyev Fondu tərəfindən alınmış 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məc-*

*buri köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olubdur.*

*Sonra Prezident İlham Əliyev uşaq bağçasında yaradılmış şəraitlə tanış oldu. Burada balacaların təlim-tərbiyəsi üçün bütün imkanlar vardır. 280 yerlik bağça uşaqların zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcək. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib. Bağçanın yerləşdiyi ərazidə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıq zolağı salınıbdır.*

*Qeyd edək ki, 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. İndiyədək 58203 ailə və ya 300 min qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb ki, ondan da 54203 ailə, yaxud 272 min nəfər son 15 ilin payına düşür. Təkcə 2018-ci ildə 5903 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. Ümumilikdə bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manat vəsait xərclənib. Açılan yeni iş yerləri nəticəsində məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıbdır.*

*Daha sonra Şuşa rayon 7 saylı tam orta məktəbdəki şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, bu təhsil ocağı 560 şagird-yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları*

*ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcəklər. İdman zalı da zəruri avadanlıqlarla təchiz edilib və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür imkan vardır.*

*Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət göstərir.*

*Sonra Prezident İlham Əliyev məcburi köçkünlərlə görüşdü.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün çox əlamətdar bir gündür. Sabunçu rayonunda məcburi köçkünlər üçün salınmış yeni qəsəbənin açılışını biz birlikdə qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Mən çox şadam ki, belə gözəl qəsəbə salınıb, burada 810 ailə yaşayacaq. Bütün şərait yaradılıb. Mənzillərlə tanış oldum, geniş, yaraşıqlı mənzillərdir. Böyük məktəb tikilib, uşaq bağçası, ictimai yerlər kifayət qədər genişdir. Yəni burada yaşamaq üçün bütün imkanlar vardır. Tezliklə buraya bu günə qədər ağır vəziyyətdə yaşayan köçkünlər köçəcəklər. O köçkünlər ki, uzun illər ərzində yataqxanalarda, pansionatlarda, digər uyğunlaşdırılmış yerlərdə yaşamışlar. Onların

həyatında yeni dövr başlayır. Burada yaradılmış şərait ən yüksək standartlara cavab verir. Gözəl, yaraşıqlı binalar, geniş otaqlar, mənzillər bizim siyasətimizi göstərir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Məcburi köçkünlərin problemlərinin həlli bizim üçün ən prioritet məsələdir. Bu siyasəti ulu öndər həyata keçirirdi. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk şəhərcik salınmışdı. O vaxt Dövlət Neft Fondundan ilk ödəmələr məhz bu məqsədlər üçün istifadə olunmuşdur. O vaxtdan bu günə qədər 100-dən çox köçkün qəsəbəsi, şəhərciyi salınıb və köçkünlərin böyük hissəsi bu qəsəbələrdə yaşayır. Biz Bakıda, Sumqayıtda, Abşeron rayonunda, digər şəhər və rayonlarımızda məcburi köçkünlər üçün gözəl şərait yaradırıq, bu proses davam etdiriləcək. Bildiyiniz kimi, sonuncu çadır şəhərciyi 2007-ci ildə ləğv edildi. O vaxta qədər köçkünlərimizin böyük əksəriyyəti çadırlarda yaşayırdı. Təkcə keçən il məcburi köçkünlər üçün 5000-dən çox mənzil inşa edilibdir. Onlar bu mənzillərə köçürülürlər. Bu il isə bizim planlarımızda minimum 6000 mənzilin istifadəyə verilməsi nəzərdə tutulub. Artıq bu prosesə start verilib və əminəm ki, ilin sonuna qədər biz buna nail olacağıq. Təkcə 2 il ərzində təqribən 11000 məcburi köçkün ailəsi yeni evlərə köçürüləcək. Doğrudan da böyük işlərdir və orta hesabla bu mənzillərdə təqribən 50000-ə yaxın insan yaşayacaq və öz məişət problemini həll edəcəkdir. Bu məqsədlər üçün Dövlət Neft Fondundan uzun illərdir ki, böyük vəsait ayrılır. Dövlət Neft Fondunun yaradılması da tarixi hadisə idi. Çünki bu

Fond vasitəsilə həm büdcəmizə dəstək göstərilir, həm sosial məsələlərin həlli təşkil edilir, ölkəmiz üçün strateji əhəmiyyətli layihələr icra edilir və ilk növbədə, məcburi köçkünlərin problemləri həll olunur. Əgər bizim bu imkanımız olmasaydı, əlbəttə, köçkünlərə bu həcmdə kömək etmək mümkün olmazdı. Məhz uğurlu neft strategiyamızın hesabına formalaşmış Dövlət Neft Fondu bu məqsədlər üçün böyük vəsait ayırır və bundan sonda da ayıracaqdır. Bu bizim siyasətimizdir. Biz bütün məcburi köçkünlərin problemlərini həll etməliyik və edəcəyik.

Onu da bildirməliyəm ki, salınmış qəsəbələr arasında elələri var ki, vaxtilə işğal olunmuş və işğaldan azad edilmiş torpaqlarda salınıb. O cümlədən Horadiz şəhəri, demək olar ki, yenidən qurulub və bu gün ən gözəl yaşayış yerlərindən biridir. İşğal altında olmuş Şıxarx qəsəbəsində 1000-dən çox köçkün ailəsi məskunlaşıb. Cocuq Mərcanlıda 150 evdən ibarət gözəl qəsəbə salınıb, müasir infrastruktur, iş yerləri, kommunikasiyalar yaradılıb. Yəni bu yerlərə həyat qayıdıbdır.

Əlbəttə ki, bizim əsas məqsədimiz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Bu istiqamətdə ardıcıl işlər aparılır. Bizim prinsipial mövqemizdə heç bir dəyişiklik yoxdur. Bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri, mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında öz həllini tapmalıdır. Azərbaycan bu istiqamətdə bütün lazımi işləri görür. Həm tarixi ədalət bizim tərəfimizdədir,

həm Dağlıq Qarabağ və digər işğal edilmiş torpaqlar bizim əzəli torpağımızdır, həm də beynəlxalq hüquq bizim mövqemizi dəstəkləyir. Əlbəttə, iqtisadi və hərbi potensial ölkəmizi daha da gücləndirir. Biz bundan sonra da bu məsələ ilə bağlı ardıcıl siyasət aparacağıq. Bir daha demək istəyirəm ki, bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər.

O ki qaldı məcburi köçkünlərin problemlərinin həllinə, onlar kompleks şəkildə öz həllini tapır. Binalar tikilir, yeni şəhərciklər salınır, eyni zamanda, məcburi köçkünlərin sosial şəraiti yaxşılaşdırılır, onlara dövlət tərəfindən verilən sosial dəstək artır. Bu yaxınlarda çox böyük sosial paket təsdiqləndi. O cümlədən məcburi köçkünlərin müavinətləri 50 faiz artdı. Özü də biz bu məbləği bir neçə dəfə artırmışıq. Bu gün hər bir köçkünə verilən müavinət 50 faiz artıb. Bu bizim köçkünlərə olan diqqətimizi əks etdirir. Digər sosial layihələr icra edilib. Bildiyiniz kimi, biz indi çox ciddi iqtisadi islahatlar aparırıq. Bu islahatlar bizim maliyyə imkanlarımızı genişləndirir. Biz bu əlavə vəsaiti ilk növbədə, sosial məsələlərə yönəldirik. Beləliklə, keçən il Prezident seçkilərində xalqın mənə verdiyi dəstək imkan verir ki, biz bütün vədləri icra edək. Seçkilər ərəfəsində bildirmişdim ki, biz yeni iqtisadi modelə keçid edəcəyik, bütün sosial məsələlərin həllinə çalışacağıq. Yəni iqtisadi və sosial sahədə ciddi islahatların anonsu Prezident seçkiləri ərəfəsində verilmişdir. Seçkilərdən sonra ciddi islahatlara start verildi. Bu islahatlar çoxşaxəlidir. Siz

və ictimaiyyət təbii ki, bu islahatları izləyirsiniz. Verdiyim qərarlar, imzaladığım sərəncamlar həyatımızın hər bir sahəsinə müsbət təsir göstərəcək. Ölkəmiz yeniləşir, müasirləşir. Biz yeni iqtisadi model üzərində işləyirik və elə etməliyik ki, ölkə iqtisadiyyatı bundan sonra da dayanıqlı şəkildə inkişaf etsin. Biz bütün dövrlərdə, hətta böhranlı illərdə də sosial məsələlərə böyük diqqət göstərmişik. 2015–2016-cı illərdə dünyada baş vermiş iqtisadi böhran bütün ölkələrə təsir etdi, o cümlədən bizə. Təsəvvür edin, bizim gəlirlərimiz 3-4 dəfə azaldı. Yəni faizlərlə ölçülmürdü, dəfələrlə ölçülürdü. Bu hər bir ölkə üçün böyük imtahandır, böyük sınaqdır. Əlbəttə ki, görülən operativ tədbirlər nəticəsində biz o böhranın fəsadlarını minimum səviyyəyə endirə bildik və ondan sonra ciddi addımlar ataraq, iqtisadi sabitliyi qoruya bildik, inkişaf templərinə qədəm qoyduq. Keçən il artıq iqtisadi inkişaf başlandı, bu ilin iki ayının yekunları vardır. Bu yekunlar çox müsbətdir, iqtisadi artım kifayət qədər yüksəkdir, 3 faizə yaxındır. Qeyri-neft sektorunda sənaye istehsalı 15 faizdən çox artıbdır. Əhalinin gəlirləri artır, inflyasiya çox aşağı səviyyədədir – 2 faizdən aşağıdır, istehlak qiymətlərinə çox ciddi nəzarət edilir. Yəni demək istəyirəm ki, iqtisadi və sosial islahatların yeni mərhələsinin startı Prezident seçkilərindən sonra verilib və bu gün biz bunun nəticəsini görürük. Mən deyə bilərəm ki, aparılmış tədbirlər nəticəsində təkcə ilin birinci rübündə büdcə daxilolmaları 200 milyon manatdan çox artıb. Bu, şəffaflığın, yeni yanaşmanın və islahatların hesabınadır. Bu bizə imkan verir

ki, bu vəsaiti vətəndaşların rifah halının yaxşılaşdırılmasına yönəldək və bunu da edirik. Minimum əməkhaqqı, minimum pensiya təxminən 40 faiz, sosial müavinətlər orta hesabla iki dəfə artıb. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, məcburi köçkünlərə verilən müavinətlər, tələbələrin təqaüdləri – bütün bunlar islahatların hesabına mümkün olubdur. Bizim iqtisadi vəziyyətimiz imkan verir ki, bu islahatları aparaq. İslahatlar bütün sahələri əhatə edir. Bir daha demək istəyirəm ki, biz inkişafın yeni mərhələsinə qədəm qoymuşuq.

Deyə bilərəm ki, bütün addımlar əhali tərəfindən yüksək qiymətləndirilir. Yerlərdən gələn məktublar və müraciətlər deməyə əsas verir ki, islahatlar xalq tərəfindən dəstəklənir, buna yüksək qiymət verilir və bu bizə əlavə imkanlar yaradır. Biz ölkəmizi müasirləşdirməliyik, biz Azərbaycanı inkişaf etdirməliyik. Elə etməliyik ki, bütün problemlər öz həllini tapsın. İqtisadi, sosial sahələrdə, məhkəmə-hüquq, dövlət orqanları sahələrində bütün xoşagəlməz hallara son qoyulmalıdır. Azərbaycanda şəffaflıq tam təmin edilməlidir və biz buna nail olacağıq. Bu bizə əlavə imkanlar verəcək. Büdcə daxilolmaları daha da artacaq, sosial məsələlərin həlli daha da sürətlə gedəcəkdir.

Biz minimum əməkhaqqını və pensiyanı qaldıranda mən bildirmişdim ki, bu proses bundan sonra da aparılacaq. Çünki biz əsas infrastruktur layihələrini, demək olar ki, icra etmişik. Düzdür, hələ ki, icra ediləsi layihələr var, o cümlədən regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramında

kifayət qədər böyük tədbirlər nəzərdə tutulur. Ancaq biz ilk növbədə, əsas diqqəti vətəndaşların sosial məsələlərinə yönəldəcəyik. Bunu etmək üçün imkanlar vardır. İmkanları da biz yaradırıq.

Azərbaycan iqtisadi və əlbəttə, siyasi cəhətdən tam müstəqil ölkədir. Heç kimdən asılı deyilik, maliyyə vəziyyətimiz sabitdir, gəlirlərimiz artır, icra etdiyimiz böyük layihələr, o cümlədən «Cənub Qaz Dəhlizi» layihəsi yaxın gələcəkdə bizə əlavə gəlir gətirəcəkdir. Bu gəlirlər ədalətli şəkildə bölüşdürüləcək, bir daha demək istəyirəm ki, ilk növbədə, vətəndaşların sosial rifahının yaxşılaşdırılmasına yönəldiriləcəkdir. Beləliklə, bu gün açdığımız bu gözəl qəsəbə həm bizim siyasətimizi, məcburi köçkünlərə qayğımızı, həm də ölkəmizin artan imkanlarını göstərir. Bu gün Azərbaycanda hər sahədə – iqtisadi sahədə, sosial sahədə çox böyük quruculuq işləri aparılır. Xəstəxanalar, məktəblər tikilir, yeni sosial obyektlər istifadəyə verilir, yollar salınır, köçkünlər üçün gözəl şərait yaradılır. Quruculuq, abadlıq, inkişaf bu gün Azərbaycanı fərqləndirən amillərdir.

Mən sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Bütün məcburi köçkünlərə öz hörmətimi, ehtiramımı bildirirəm. Hələ ağır vəziyyətdə yaşayan köçkünləri əmin etmək istəyirəm ki, onların da problemləri həll olunacaq. Onlar da növbə ilə öz yaşayış şəraitlərini yaxşılaşdıracaqlar. Bunu etmək üçün bizim iradəmiz var və biz bunu edəcəyik. Bir daha sizi ürəkdən təbrik edirəm.

* * *

**G ü n ə ş  H ü s e y n o v a** (*Şuşa şəhərindən məcburi köçkün*): Cənab Prezident, Sizi salamlayıram. Bu gün yeni qəsəbənin açılışında iştirak etmək, Sizinlə bu görüşü yaşamaq bir məcburi köçkün olaraq, mənim xatirəmdə uzun illər qalacaqdır.

Həyatımızın ağır, böhranlı illərində ulu öndərimiz Azərbaycan xalqının imdadına yetdi. Onun müəyyənləşdirdiyi siyasət və strategiya bu gün, cənab Prezident, Sizin tərəfinizdən davam etdirilir. Mən bütün məcburi köçkünlərin adından Sizə təşəkkür edirəm. Söylədiyiniz fikirlər bizim hər birimizin qəlbində gözəl duyğular yaratdı. Mən çox böyük əminliklə qeyd etmək istəyirəm ki, bizim üçün yaratdığınız bu gözəl şəraitdə müvəqqəti yaşayacağıq. İnanıram ki, işğal altındakı bütün rayonlarımız çox tez bir zamanda bundan da gözəl olacaq, həyat üçün, yaşamaq üçün lazım olan hər cür şərait təmin ediləcəkdir.

Mən bütün məcburi köçkün qadınlar adından xüsusilə Mehriban xanıma təşəkkür etmək istəyirəm. Onun son illərdəki layihələri, Azərbaycan mədəniyyətinə, incəsənətinə, təhsilinə, səhiyyəsinə olan qayğısı doğrudan da bizim hər birimizin ürəyindəndir. Mən xahiş edirəm, Azərbaycanın gözəl xanımına, Birinci vitse-prezidentinə salamlarımızı çatdırasınız. O bizə böyük dəstək göstərir.

Belə qəsəbələrə görə təşəkkür edirəm. Çox böyük əminliklə, fəxrlə, vüqarla deyirəm ki, üçrəngli bayrağımız mütləq Şuşamızda, doğma Qarabağımızda dalğalanacaq. Təşəkkür edirəm.

**E l ç i n D a d a ş o v** (*Şuşa rayon 7 saylı tam orta məktəbin direktoru*): Hörmətli cənab Prezident, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı!

Bildirdiyiniz kimi, bu gün məcburi köçkünlər üçün yeni bir qəsəbənin açılışını etdiniz. 800-dən artıq məcburi köçkün ailəsinin həyat və yaşayış şəraiti burada tamamilə yaxşılaşacaqdır.

Bununla bərabər, mən Sizə bu möhtəşəm təhsil ocağının tikilməsinə görə öz minnətdarlığımı bildirirəm. Çox müasir tələblərə cavab verən təhsil ocağıdır. Bütün fənn kabinetləri, idman zalı ilə təchiz olunmuş möhtəşəm bir ümumtəhsil məktəbidir. Pedaqoji kollektivimiz Sizi əmin edir ki, burada təhsil alacaq bütün şagirdlərimizin Azərbaycan Respublikasının layiqli vətəndaşı, vətənpərvər övladları kimi yetişmələri üçün əllərindən gələni edəcəkdir. Məcburi köçkün ailələrinin həyat şəraitinin yaxşılaşdırılması siyasəti hələ ulu öndərimiz Heydər Əliyevin hakimiyyəti dövründən həyata keçirilmiş və Sizin tərəfinizdən çox uğurla davam etdirilir. Bu yaxınlarda məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması üçün müavinətin 50 faiz artırılması bütün məcburi köçkünlərin çox böyük sevincinə səbəb oldu. Biz bütün məcburi köçkünlər adından Sizə öz dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident, biz əminik ki, işğal altında olan bütün torpaqlarımızı Sizin rəhbərliyinizlə yağı düşmən tapdağından azad edəcəyik və Lələtəpədə dalğalanan üçrəngli bayrağımızı işğaldan azad edilmiş bütün torpaqlarımızda dalğalandıracağıq. Əminik ki, həmin o hadisələrdə biz – bütün məcburi köçkünlər Sizin

yanınızda olacağıq. Bizim üçün gördüyünüz bütün işlərə görə Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Çox sağ olun, cənab Prezident.

**V ü s a l ə F ə t ə l i y e v a** (*Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini*): Cənab Prezident, bu gözəl qəsəbə Sizin böyük diqqət və qayğınızın bəhrəsidir. Bu qayğı və diqqət üçün məcburi köçkünlər adından Sizə dərin hörmətimi və təşəkkürümü bildirirəm.

Bu günlərdə Azərbaycanın tarixində böyük qələbə olan aprel döyüşlərinin – Lələtəpənin, Talış yüksəkliklərinin azad olunmasının, Cocuq Mərcanlıya qayıdışın ildönümü ilə bağlı zəfər bayramını coşqu ilə qeyd etdik. Bu qələbə üçün də Sizə təşəkkür edirik. Çünki bu qələbə bütün dünyaya bir daha Azərbaycan Ordusunun, Azərbaycan dövlətinin qüdrətini göstərdi. Bu qələbə, bu bayramlar bütün dünyaya bir mesaj oldu. Sizin böyük diplomatik siyasətiniz, qətiyyətiniz, birmənalı şəkildə «Biz torpaqlarımızı heç kəsə bağışlamayacağıq» – deyən qətiyyətli, hökmlü nitqiniz bir daha göstərdi ki, doğrudan da o ərazilərdən Qarabağa gedən böyük bir yol var və bu yolu qısa zamanda qət etmək mümkündür. Bu yaxınlarda Avstriyada qətiyyətli hökmünüzlə «Biz torpaqlarımızın sahibiyik, varisiyik» – deməyiniz hər bir məcburi köçkünün qəlbində böyük bir ümid yaratdı ki, doğrudan da qələbə bizimlə olacaqdır.

Sizin qətiyyətinizi, Sizin bütünlüklə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı

strategiyanızı, yolunuzu, istiqamətinizi hər zaman dəstəkləyirik, hər zaman yanınızdayıq. Əminəm ki, hər bir Azərbaycan oğlu, Azərbaycanın hər bir qeyrətli vətəndaşı Sizin əmrinizə müntəzirdir, torpaqlarımızı yağı düşməndən azad etməyə hər zaman hazırdır. Bu inamla da deyirəm ki, tez bir zamanda doğma torpaqlarımızda ocaqlarımızı yandıracağıq. Bu, ən böyük qələbəmiz olacaqdır.

Müvəqqəti yaşayışımız üçün bizə yaratdığınız belə gözəl şəraitə görə Sizə dərin minnətdarlığımızı bildirir, ailənizin hər bir üzvünə cansağlığı, xoşbəxtlik arzulayırıq. Sizin hazırda əsgər olan oğlunuza da cansağlığı arzulayırıq. Sizin məcburi köçkünlər üçün yaratdığınız məktəblərdə məhz əsl vətəndaş, vətənpərvər oğullar böyütmək hər birimizin məsuliyyətidir. Biz öz məsuliyyətimizi dərk edərək, Sizə söz veririk ki, hər bir məcburi köçkün hər zaman Sizin yanınızdadır.

Azərbaycan mədəniyyətini, o cümlədən Qarabağ mədəniyyətini dünyada bir silah kimi işlədən Mehriban xanımın gördüyü işlər əzəmətli və çox qiymətlidir. Bu gün bizim muğamımız, bizim incəsənətimiz, vaxtilə bizim şuşalı Sadıqcanın sinəsində çağlayan tarımız UNESKO-nun Qeyri-maddi mədəni irs siyahısında milli sərvətimiz kimi tanınır. Bütün bunlar üçün minnətdarıq ki, Mehriban xanım ən böyük silah kimi, məhz mədəniyyətdən başladı. Mədəniyyət Azərbaycan xalqının böyük siyasətidir. Biz Mehriban xanımın idmana, təhsilə, mədəniyyətə, insanların sosial həyatına diqqət və qayğısını yüksək qiymətləndiririk.

Bir neçə gün bundan əvvəl yüksək texnologiyalı protezlərlə təmin olunmuş hərbçilərlə görüşdə onları doğma övladları kimi bağrına basması hər kəsin qəlbində Mehriban xanıma hörmət və ehtiram duyğularını qat-qat artırdı.

Siz bizim Prezidentimiz olmaqla bərabər, həm də xalqımızın çox istəkli, qəlbən inandığı şəxsiyyətsiniz. Allah Sizə ömür versin, Sizə cansağlığı arzulayırıq, təşəkkür edirik. Bizim salamlarımızı, məhəbbətimizi Mehriban xanıma çatdırmağınızı xahiş edirik.

**İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə sizə minnətdaram. Bizim görüşümüz aprel döyüşlərinin ildönümünə təsadüf edir. Aprel döyüşləri bizim şanlı tariximizdir, parlaq zəfərimizdir. Azərbaycan əsgəri, Azərbaycan dövləti göstərdi ki, heç vaxt işğalla barışmayacaq. Biz məsələni diplomatik, siyasi yollarla həll etmək istəyirik. Ancaq biz hərbi gücə də malikik. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Aprel döyüşləri göstərdi ki, biz öz ərazi bütövlüyümüzü istənilən yolla bərpa edə bilərik. Cocuq Mərcanlıya uzun fasilədən sonra qayıdan vətəndaşlar, o cümlədən yeniyetmələr, uşaqlar – o insanlar ki, heç vaxt orada olmayıblar, göstərdilər ki, hər bir köçkün torpaqlar işğaldan azad olunduqdan sonra öz doğma torpağına qayıdacaqdır.

Siz qeyd etdiniz, mən də tam razıyam ki, bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar işğaldan azad olunandan sonra biz bütün şəhərləri yenidən quracağıq, bu şəhərlərə yeni həyat verəcəyik. O şəhərlər ki, indi yerlə

yeksan edilib, orada, demək olar ki, bütün binalar dağıdılıb. Beynəlxalq təşkilatlar, ATƏT-in faktaraşdırıcı missiyası bu haqda məruzə də hazırlayıb. Biz necə ki, Cocuq Mərcanlını bərpa etdik, necə ki, qısa müddət ərzində vaxtilə işğal altında olan başqa torpaqlardakı binaları, evləri, şəhərləri, kəndləri bərpa etdik, işğalda olan bütün şəhərləri, kəndləri bərpa edəcəyik. Bizdə belə iradə və güc vardır.

Biz bütün dünyaya göstərməliyik və haqlı olaraq, göstəririk, sübut edirik ki, Qarabağ bizim tarixi torpağımızdır. Mehriban xanımın bu sahədəki fəaliyyətini siz yüksək qiymətləndirirsiniz. Mən də yüksək qiymətləndirirəm. Çünki onun fəaliyyəti nəticəsində dünyanın aparıcı beynəlxalq təşkilatlarında bu məsələ ilə bağlı təqdimatlar, simpoziumlar, konfranslar, dəyirmi masalar keçirilibdir. Bizim tarixi, mədəni irsimiz olan muğam sənəti, tar və digər milli sərvətlərimiz UNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına salınıbdır. Bütün bunlarla bağlı sərgilər, təqdimatlar keçirilir, yəni biz Qarabağ həqiqətlərini dünyaya çatdırırıq. Çünki vaxtilə, xüsusilə müstəqilliyimizin ilk illərində erməni lobbisi tərəfindən belə bir rəy formalaşdırılmağa cəhd edilirdi ki, guya Qarabağ onların torpağıdır. Bizim imkanımız yox idi, lobbimiz yox idi, bizim xaricə çıxışımız çox məhdud idi. Amma bu gün biz bütün dünyaya həqiqətləri çatdırırıq və tarixi sənədlər əsasında, maddi mədəni irs əsasında sübut edirik ki, bu bizim tarixi diyarımızdır. Mən bildirəndə ki, tarixi ədalət bizim tərəfimizdədir, məhz bunu nəzərdə tuturdum. Qədim xəritələrə baxanda görürük ki, Dağlıq Qarabağda və ətraf bölgələrdə bütün toponimlər Azərbaycan mənşəlidir. Tarixi ədalət, beynəlxalq hüquq, bütün beynəlxalq təşkilatlar Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu da

bizim böyük diplomatik və siyasi uğurumuzdur. Əlbəttə, iqtisadi potensialımız, hərbi gücümüz də mühüm amildir.

Biz çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq eyni zamanda, biz öz ordu potensialımızı, hərbi gücümüzü artırırıq və bundan sonra da bu istiqamətdə bütün lazımi tədbirlər görüləcəkdir. Bir daha sizi təbrik edirəm, sizə uğurlar, cansağlığı arzulayıram. Sağ olun.

* * *

*Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu göstərir. Qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilmiş qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. Qaçqın və məcburi köçkünlərin maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülübdür. Bu işlərin davamı olaraq, Prezident İlham Əliyev bu il fevralın 26-da «Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında» Sərəncam imzalayıb. Sərəncama əsasən, vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılıbdır.*

**10 MİLYONUNCU SAKİNİN DÜNYAYA GƏLMƏSİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK**

*6 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 6-da hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkün, Ağdərə rayonunun sakinləri Ocaqova Nigar Çərkəz qızı ilə Həsənov Rauf Yunis oğlunun ailəsində Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi münasibətilə Azərbaycan xalqını və uşağın valideynlərini təbrik etmişlər.*

**DÜNYA BANKININ PREZİDENTİ**
**CƏNAB DEVİD MALPASSA**

Hörmətli cənab Prezident!

Dünya Bankının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Dünya Bankı arasındakı əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu baxımdan ölkəmizdə həyata keçirilən iqtisadi islahatlarda, gerçəkləşdirdiyimiz irimiqyaslı infrastruktur layihələrinin maliyyələşdirilməsində Dünya Bankının yaxından iştirakını məmnunluqla qeyd etmək istərdim.

Ümidvaram ki, Dünya Bankının fəaliyyət sahələri üzrə əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bir daha Sizə öz təbriklərimi yetirir, möhkəm can-sağlığı, qarşıdakı məsul işinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 aprel 2019-cu il*

## AZƏRBAYCANIN 10 MİLYONUNCU SAKİNİNİN VALİDEYNLƏRİ İLƏ GÖRÜŞ

*9 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 9-da Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşmüşlər.*

*Dövlət başçısı və xanımı uşağın valideynləri ilə söhbət etdilər.*

**Rauf Həsənov:** 2019-cu il aprelin 6-da saat 03.30 radələrində övladım dünyaya gəldi.

**İlham Əliyev:** Bilirəm. Biz bu hadisəni izləyirdik. Aprelin 6-da sizin həyatınızda, eyni zamanda, ölkəmizin həyatında çox əlamətdar hadisə baş verdi. Sizin körpəniz ölkəmizin 10 milyonuncu sakinidir. Sizi təbrik edirəm, sağlam böyüsün, sizi sevindirsin, xalqımızı sevindirsin. Bu, tarixi hadisədir. Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını təbrik edirəm.

**Rauf Həsənov:** Biz gözləmirdik ki, bizim körpəmiz Azərbaycanın 10 milyonuncu sakini olar.

**İlham Əliyev:** Əhalimiz artır. Yadımdadır, 9 milyonuncu sakin 2010-cu ildə dünyaya gəldi. 9 il ərzində əhalimiz 1 milyon artıb. Amma son 15 il ər-

zində əhali 1,7 milyon nəfər artıb. Bu bizim gücümüzü, ölkəmizin qüdrətini artırır. Eyni zamanda, göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa sosial vəziyyətlə bağlıdır.

**Rauf Həsənov:** Mənim xəbərim yox idi. Mətbuat xəbərlərinə girib oxudum, gördüm ki, sağ olun, elə ilk öncə Siz təbrik etmisiniz.

**İlham Əliyev:** Bəli, bəli.

**Rauf Həsənov:** Çox sağ olun, çox minnətdarıq.

**Mehriban Əliyeva:** Çox göyçək uşaqdır.

**İlham Əliyev:** Bu sizin birinci uşağınızdır?

**Rauf Həsənov:** Bəli, ilk övladımızdır.

**Mehriban Əliyeva:** Maşallah, Allah qorusun.

**Rauf Həsənov:** Elə ilk olaraq Siz təbrik etdiyinizə görə adını da Mehriban qoyduq.

**Nigar Ocaqova:** Siz də xeyir-duasını verin.

**Mehriban Əliyeva:** Verirəm. Xoşbəxt, sağlam böyüsün.

**İlham Əliyev:** Bu hadisəni bütün xalqımız bayram edir.

**Rauf Həsənov:** Bəli, bütün ölkəmiz bayram edir. Biz də çox sevinirik.

**Nigar Ocaqova:** Biz də şəhərimizin belə gözəl tibb ocaqlarının olmasına sevinirik. Perinatal Mərkəzin direktoru Sevinc xanıma, körpənin sağlam şəkildə dünyaya gəlməsinə görə Rübabə xanıma təşəkkürümüzü bildiririk. Sağ olsunlar.

**İlham Əliyev:** Bu mərkəz çoxdan fəaliyyət göstərir. Təqribən 10 il bundan əvvəl əsaslı şəkildə yenidən quruldu, təmir olundu və indi ölkəmizin aparıcı

tibb mərkəzlərindən biridir. Son illərdə ölkəmizin hər bir yerində doğum evləri, doğum şöbələri, xəstəxanalar tikilir. Yəni indi tibbi xidmət almaq üçün bütün şərait vardır.

**Mehriban Əliyeva:** Götürmək olar balacanı?

**Nigar Ocaqova:** Buyurun.

**Mehriban Əliyeva:** Maşallah.

**Nigar Ocaqova:** Maşallah gününüz olsun.

**Mehriban Əliyeva:** Allah qorusun! Xoşbəxt, sağlam, analı-atalı böyüsün!

**Rauf Həsənov:** Çox sağ olun ki, gəldiniz.

**İlham Əliyev:** Bu, Həsənova Mehriban Rauf qızının sertifikatıdır. Ölkəmizin 10 milyonuncu sakinidir. Bunu sizə təqdim edirəm.

**Rauf Həsənov:** Çox sağ olun.

**İlham Əliyev:** Bu həmin sertifikatın başqa variantıdır. Sizə dövlət tərəfindən mənzil hədiyyə olunur. Bu da mənzilin çıxarışıdır.

**Rauf Həsənov:** Çox sağ olun.

**İlham Əliyev:** Gözəl balanızın hesabına vəsait də köçürülür.

**Rauf Həsənov:** Çox sağ olun. Allah Sizdən razı olsun.

**İlham Əliyev:** Xeyirli işlərdə istifadə edin. Bu da hədiyyələrdir.

**Rauf Həsənov:** Çox sağ olun. Sizə minnətdaram.

**Mehriban Əliyeva:** Çox sağ olun. Təbrik edirik.

## ARGENTİNANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SERXİO OSVALDO PEREZ QUNELLA İLƏ GÖRÜŞ

*10 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Argentina Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunellanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Serxio Osvaldo Perez Qunella Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Serxio Osvaldo Perez Qunella etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Serxio Osvaldo Perez Qunella ilk növbədə, Argentina Respublikasının Prezidenti Maurisio Makrinin salamlarını dövlət başçısına çatdırdı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Argentina arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin yaxşı səviyyədə olduğunu qeyd etdi, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi və iqtisadi əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından əhəmiyyətini vurğuladı. Dövlət başçısı ikitərəfli münasibətlərin inkişafında ölkələrimizin səfirliklərinin qarşılıqlı şəkildə fəaliyyət göstərməsinin rolunu*

*vurğulayaraq, Serxio Osvaldo Perez Qunellanın səfirlik fəaliyyəti dövründə onun Azərbaycanın müvafiq strukturlarının nümayəndələri ilə əməkdaşlığın genişlənməsi baxımından səmərəli görüşlər keçirəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev Azərbaycanda xarici şirkətlərin fəaliyyəti üçün çox əlverişli şəraitin mövcudluğunu qeyd edrək, Argentina şirkətlərinin də Azərbaycanda işləyəcəklərinə ümidvar olduğunu bildirdi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Serxio Osvaldo Perez Qunella səfir kimi fəaliyyətinin əsas məqsədinin ölkələrimiz arasında iqtisadi əməkdaşlığın, o cümlədən qarşılıqlı ticarət və investisiyanın genişləndirilməsindən ibarət olduğunu bildirdi və bu istiqamətdə səylərini əsirgəməyəcəyini diqqətə çatdırdı.*

*Görüşdə energetika, biznes, kənd təsərrüfatı sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlət başçısı Argentina Respublikasının Prezidenti Maurisio Makrinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Argentina Prezidentinə çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ VALENTİNA MATVİYENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Valentina İvanovna, hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz! Sizin səfərinizə çox şadam. Siz Azərbaycana belə geniş tərkibli nümayəndə heyəti ilə gəlmisiniz. İlk növbədə, Sizi bu yaxınlarda qeyd etdiyimiz yubiley münasibətilə şəxsən təbrik etmək istərdim. Mən Sizə təbrik məktubu göndərmişdim və bir daha şəxsən təbrik etmək, ən xoş arzularımı bildirmək və işinizdə uğurlar arzulamaq istərdim. Əlbəttə, biz çox şadıq ki, yubileydən az sonra Siz bizim ölkəmizi ziyarət edirsiniz. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu, ölkələrimiz arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsinə təkan verəcək. Əlaqələr çoxplanlıdır, həyatın, demək olar ki, bütün sahələrini əhatə edir və

yaxşı dinamikaya malikdir. Biz siyasi sahədə fəal qarşılıqlı fəaliyyət göstəririk, iqtisadi potensialı artırırıq, uğurla həyata keçirilən iqtisadi, nəqliyyat, energetika sahələrində əməkdaşlıq üzrə bir neçə «Yol Xəritəsi» mövcuddur. Təsadüfi deyil ki, hər iki tərəf ölkələrimiz arasında münasibətləri strateji tərəfdaşlıq münasibətləri kimi dəyərləndirir.

*İkitərəfli münasibətlərin inkişafında humanitar sahənin xüsusi əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev bu işdə Bakı Humanitar Forumun rolunu qeyd etdi, təhsil, mədəniyyət, elm sahələrində sıx əlaqələrin mövcud olmasından məmnunluğunu bildirdi. Dövlət başçısı Şimal–Cənub dəhlizi ilə bağlı birgə fəaliyyətin də iqtisadi əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını vurğuladı. Prezident İlham Əliyev parlamentlərarası əməkdaşlığın əlaqələrimizin inkişafına töhfə verdiyini, ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirdi.*

* * *

**Valentina Matviyenko** (*Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri*): Çox sağ olun, çox hörmətli cənab Prezident!

İlk növbədə, bizim nümayəndə heyətini qəbul etdiyinizə, parlamentlərarası əməkdaşlığa göstərdiyiniz diqqət və dəstəyə görə səmimi-qəlbdən Sizə təşəkkür etmək istəyirəm. Biz sizin gözəl ölkənizdə həmişəki kimi diqqət, qonaqpərvərlik, qayğı ilə əhatə

olunmuşuq. Əminəm ki, nümayəndə heyətinin bütün üzvləri üçün – onların əksəriyyəti ilk dəfədir ki, Azərbaycandadır – bu səfər yaddaqalan olacaq. Səfərdən əvvəl mən Vladimir Vladimiroviç Putinlə görüşdüm. O, xahiş etdi ki, salamlarını və ən xoş arzularını Sizə çatdırım. O bir qədər əvvəl – aprelin 2-də Sizinlə olan telefon söhbətini də xatırlatdı. Bu sözləri Sizə məmnunluqla çatdırıram.

**İlham Əliyev:** Mənim də ən xoş arzularımı və salamlarımı Vladimir Vladimiroviçə çatdırın.

**Valentina Matviyenko:** Sağ olun. Mən salamlarınızı mütləq çatdıracağam. Çox hörmətli İlham Heydər oğlu, Sizinlə şəxsən görüşməkdən çox məmnunam. Həmişə bu görüşləri xatırlayıram. Bakının necə inkişaf etməsinə heyran qaldığımı növbəti dəfə bildirməyə bilmərəm. Mən Bakıda, Azərbaycanda 5 il idi ki, olmamışdım. Çox böyük dəyişikliklər var – heyrətamiz, yeni binalar, nadir memarlıq nümunələri. Bilirsiniz, düşünürəm ki, əgər Heydər Əliyev sağ olsaydı, Azərbaycanda baş verən bu dəyişikliklərlə çox fəxr edərdi. Həqiqətən də mən çox yerlərdə, dünyanın bir çox ölkələrində olmuşam, belə dinamik, düşünülmüş inkişafa, belə gözəlliyə çox az yerdə rast gəlinir. Bizim səfər əlamətdar vaxta təsadüf edir. Bir il əvvəl Siz Prezident seçkilərində inamlı qələbə qazandınız. Azərbaycan vətəndaşlarının mütləq əksəriyyəti Sizə, Sizin daxili və xarici siyasi kursunuza güclü dəstək verdi. Bu qələbə həqiqətən, olduqca layiqli və inamlı idi. Siz artıq qeyd etdiniz ki, Rusiya–Azərbaycan münasibətləri bütün sahələrdə dinamik inkişaf edir, strateji tərəfdaşlıq

səviyyəsinə qalxıbdır. Bu əlaqələrin, bu kursun bünövrəsini çox hörmətli Heydər Əliyev qoyub. Əlbəttə, Rusiya–Azərbaycan münasibətlərində həlledici rol bizim ölkələrin liderlərinə, prezidentlərinə məxsusdur. Bilirik ki, Sizin ölkənizlə əməkdaşlığın genişləndirilməsinə böyük maraq var, çünki Sizin ölkədə sabitlik var, siyasi, sosial sabit vəziyyət, ölkənin iqtisadi inkişafının yaxşı dinamikası mövcuddur.

Bizim əməkdaşlığımızın yaxşı ab-havasının əlaməti odur ki, Rusiyadan Azərbaycana gələn turistlərin axını əhəmiyyətli dərəcədə artıb – ötən il 800 min rusiyalı gəlib. Düşünürəm ki, bu rəqəm ildən-ilə artacaqdır.

Rus dilinə, mədəniyyətinə olan münasibətə, Azərbaycanda rus dilinin qorunub saxlanılmasına yaradılmış şəraitə görə Sizə dərin təşəkkürümü bildirirəm.

*Valentina Matviyenko iki ölkə arasında humanitar, mədəni, informasiya, təhsil sahələrində əlaqələrin uğurla inkişaf etdiyini bildirdi, tələbə mübadiləsi proqramının reallaşdırıldığını vurğuladı, ölkəmizdə Rusiya Mədəniyyəti Günlərinin keçirilməsinin önəminə toxundu. Qonaq ölkələrimiz arasında humanitar əlaqələrin inkişafına Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da böyük töhfə verdiyini qeyd etdi.*

*Valentina Matviyenko Bakı Humanitar Forumun sivilizasiyalararası dialoqun genişləndirilməsindəki roluna toxundu.*

*Parlamentlərarası münasibətlərdən söhbət açan qonaq bu əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

*Sonra Prezident İlham Əliyev Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkoya Azərbaycanın «Dostluq» ordenini təqdim etdi.*

*Valentina Matviyenko Azərbaycan ilə Rusiya arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə dövlət başçısının sərəncamı ilə bu ordenlə təltif edildi.*

*Azərbaycanın «Dostluq» ordeninə layiq görüldüyündən və bu ordeni Prezident İlham Əliyevin ona təqdim etməsindən böyük şərəf duyduğunu vurğulayan Valentina Matviyenko qeyd etdi ki, özü və Rusiya parlamentariləri bundan sonra da ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi işində səylərini əsirgəməyəcəklər.*

*Dövlətimizin başçısı Valentina Matviyenkonun Azərbaycan–Rusiya əlaqələrinin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirdi, ona gələcək fəaliyyətində yeni uğurlar arzuladı.*

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ BAĞDAD AMREYEV İLƏ GÖRÜŞ

*16 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevi qəbul etmişdir.*

*Dövlət başçısı Bağdad Amreyevi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi vəzifəsinə təsdiq olunması münasibətilə bir daha təbrik edərək, onun təşkilata üzv olan qardaş ölkələr arasında əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunması ilə əlaqədar 10 il bundan əvvəl Naxçıvanda keçirilmiş əlamətdar Zirvə görüşünü məmnunluqla xatırladaraq, ötən müddət ərzində bu təşkilatın gücləndiyini və vacib beynəlxalq quruma çevrildiyini vurğuladı.*

*Təbrikə görə minnətdarlığını bildirən Bağdad Amreyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 10 il əvvəl məhz türk dünyasının böyük oğlu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğulduğu Naxçıvanda, Azərbaycan torpağında təsis*

*edilməsinin bu təşkilata xüsusi mahiyyət verdiyini diqqətə çatdırdı. Qonaq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunmasının 10 illiyi münasibətilə növbəti Zirvə toplantısına bu ilin payızında Azərbaycanın ev sahibliyi edəcəyini vurğulayaraq, bu Zirvə toplantısının da Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi. Bağdad Amreyev təşkilat daxilində iqtisadiyyat, ticarət, maliyyə, nəqliyyat və digər istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsi, müvafiq beynəlxalq təşkilatlarla əlaqələrin qurulması barədə dövlət başçısına məlumat verdi.*

*Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevə gələcək fəaliyyətində uğurlar arzuladı və ölkəmizin bu təşkilatın 10 illiyi münasibətilə Azərbaycanda keçiriləcək Zirvə toplantısına yüksək səviyyədə ev sahibliyi edəcəyini diqqətə çatdırdı.*

## ÇİNİN SİNXUA AGENTLİYİNƏ MÜSAHİBƏ

*17 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Çinin Sinxua agentliyinə müsahibə vermişdir.*

**S u a l: Ötən il Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının 26-cı ildönümü qeyd edilib. Cənab Prezident, Siz Azərbaycan–Çin münasibətlərinin hazırkı vəziyyətinə dair nə deyə bilərsiniz? Azərbaycanın xarici siyasətində Çinlə bağlı mövqeyi necədir?**

**C a v a b:** 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çinə səfər etdi və həmin səfər ölkələrimiz arasında ikitərəfli münasibətlərin təməlini qoydu. Həmin vaxtdan bizim əlaqələrimiz çox uğurla inkişaf edir. Azərbaycan və Çin dost ölkələrdir. Mənim Çinə 2005-ci ildəki rəsmi və 2015-ci ildəki dövlət səfərlərim ikitərəfli münasibətlərimizi inkişaf etdirmək və dərinləşdirməklə yanaşı, birgə iradəmizi bir daha təsdiq etdi. Fəal siyasi təmaslarımız mövcuddur. Eyni zamanda, iqtisadiyyat sahəsində də fəal əməkdaşlığımız vardır. Azərbaycan Çinin təşəbbüsünə qoşularaq, Asiya İnfrastruktur İnvestisiya Bankının həmtəsisçisi olub. Bir sıra Çin şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir və biz daha çox Çin şirkətlərini ölkəmizdə investor,

ticarətçi və podratçı qismində görmək istəyirik. Azərbaycanda çox münbit sərmayə mühiti olduğundan, biz sənaye istehsalı, informasiya texnologiyaları, kənd təsərrüfatı və bir sıra digər sahələrdə daha çox Çin şirkətlərini görməyə ümid edirik.

Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsində müsbət dinamika mövcuddur. Bizim ticarət dövriyyəmiz 1,3 milyard dollar təşkil edir. Çindən idxal 40 faiz artıb. Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Ölkəmizin Çində ticarət nümayəndəliyi fəaliyyət göstərir. Bununla yanaşı, Urumçi, Luco və Şanxayda Azərbaycanın Ticarət evləri açılıbdır. Azərbaycan Çinin müxtəlif bölgələrinə ticarət missiyaları təşkil edir. Çin şirkətləri Azərbaycanda sənaye layihələrinin reallaşdırılmasında iştirak edir. Çinin İKT şirkətləri də ölkəmizdə uğurla fəaliyyət göstərir.

Humanitar sahədə əməkdaşlığımızın yaxşılaşdırılması münasibətlərimizin inkişafında vacib rol oynaya bilər. Düşünürəm ki, təhsil sahəsində daha fəal əməkdaşlığa ehtiyac vardır.

Azərbaycan özünün turizm sənayesinin inkişafına böyük diqqət ayırır və biz son illər bu istiqamətdə mühüm uğurlar əldə etmişik. Azərbaycana səfər edən Çin turistlərinin sayında 53 faiz artım vardır. Azərbaycan Çin vətəndaşları üçün sadələşdirilmiş viza proseduru tətbiq edir. Vizanı Azərbaycanın beynəlxalq aeroportlarında əldə etmək olar. Azərbaycan və Çin arasında müntəzəm birbaşa uçuşlar həyata keçirilir.

Çinlə əlaqələr bizim xarici siyasətimizin prioritetlərindəndir. Əminəm ki, qarşıdan gələn illərdə

Azərbaycan ilə Çin arasında mövcud olan dostluq əlaqələri xalqlarımızın tərəqqisi və rifahı naminə uğurla inkişaf edəcək və güclənəcəkdir.

**S u a l: Sizin 2015-ci ildə Çinə səfəriniz zamanı Azərbaycan və Çin arasında «İpək yolu İqtisadi Kəməri»nin reallaşdırılmasına dair Anlaşma Memorandumu imzalandı. Son illər ərzində «Bir kəmər – bir yol» layihəsi çərçivəsində iki ölkə tərəfindən əldə edilmiş irəliləyişi necə qiymətləndirirsiniz? «Bir kəmər – bir yol» layihəsi çərçivəsində Azərbaycan–Çin əməkdaşlığı üçün hansı sahələr prioritet təşkil edəcəkdir?**

**C a v a b:** Mənim 2015-ci ildə Çinə səfərim zamanı bir çox mühüm sənədlər imzalanmışdır. Bunların sırasında iki ölkə arasında imzalanmış «İpək yolu İqtisadi Kəməri»nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu da var idi. Azərbaycan Çinin «Bir kəmər – bir yol» təşəbbüsünü tam dəstəkləyir. Azərbaycan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər vardır.

Biz dəmir yolu infrastrukturumuzun müasirləşdirilməsinə sərmayə yatırırıq. Ötən ilin may ayında Xəzər dənizində 15 milyon ton yükaşırma qabiliyyətinə malik yeni beynəlxalq liman istifadəyə verdik. Ehtiyac olduğu təqdirdə, onun imkanları 25 milyon tona qədər artırıla bilər. Asiya və Avropanı birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu xətti Çindən Avropaya və geriyə yükdaşımaları üçün ən qısa nəqliyyat marşrutudur. 2018-ci ildə Bakı–Tbilisi–Qars dəmir yolu vasitəsilə 19 qatar yük daşınıbdır.

Coğrafi yerləşməmizdən istifadə edərək, biz ölkəmizin infrastruktur və nəqliyyat sektoruna sərmayə yatırdıq və bununla da Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirdik. Bizim ölkə tarixi İpək yolu üzərində yerləşir. Müasir infrastrukturun yaradılması bizim əsas hədəflərimizdəndir. Biz əsas sərmayəni yolların, avtomagistralların və hava limanlarının inşasına yönəldirik. Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Azərbaycan hər iki layihədə fəal iştirak edir və bu istiqamətdə bir sıra təşəbbüs irəli sürübdür.

**S u a l: Bu ay Pekində «Bir kəmər – bir yol» üzrə II Beynəlxalq Əməkdaşlıq Forumu keçiriləcək. Əməkdaşlığın dərinləşdirilməsi və bəşəriyyət üçün birgə gələcəyin qurulması baxımından bu layihə ilə bağlı gözləntiniz nədən ibarətdir?**

**C a v a b:** Əminəm ki, müxtəlif ölkələri birləşdirən nəqliyyat layihəsinin təməlində geosiyasət dayanır. Bu layihələr geosiyasi vəziyyətə təsir edir, sabitliyə və proqnozlaşdırıla bilməyə töhfə verərək, qarşılıqlı asılılıq yaradır. Qonşularsız biz tranzit ölkəyə çevrilə bilmərik. Yəni bu, dövlətlərdən ibarət zəncirdir və biz şərqdən qərbə və şimaldan cənuba uzanan yolun üzərindəyik. Bununla da biz qitələri və ölkələri birləşdirir və daha da proqnozlaşdırıla bilən gələcək qururuq.

«Bir kəmər – bir yol» təşəbbüsü ölkələr və regionlar arasında iqtisadi əməkdaşlığı inkişaf etdirə, sabitlik və təhlükəsizliyin bərqərar olmasına mühüm töhfə verə bilər. Bu layihə mədəniyyətlərarası və

sivilizasiyalararası münasibətlərin, iqtisadi inkişafın gücləndirilməsi, ölkələrin çiçəklənməsi və xalqlararası təmasların təşviqi kimi nəcib ideyalara xidmət edir. Ümid edirəm ki, «Bir kəmər – bir yol» üzrə II Beynəlxalq Əməkdaşlıq Forumu bu istiqamətdə növbəti addım olacaq və məhsuldar müzakirələrin aparılması üçün yaxşı imkan yaradacaqdır.

**S u a l: Bu il Çin Xalq Respublikasının yaradılmasının 70-ci ildönümü qeyd olunur. Son illər ərzində Çinin inkişafını necə qiymətləndirirsiniz?**

**C a v a b:** Əsrlərboyu Çin xalqı özünün qədim tarixi ənənələri və zəngin mədəniyyəti ilə bəşər sivilizasiyasının inkişafına töhfəsini verib. Çin Xalq Respublikası yarandığı tarixdən böyük inkişaf yolu keçib. Çin rəhbərliyinin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkə misilsiz nailiyyətlər əldə edib. Güclü iqtisadi inkişaf, ölkədaxili sabitlik və təhlükəsizlik, əhalinin yüksələn rifahı bunun aydın göstəricisidir. Biz Çinin müxtəlif sahələrdə əldə etdiyi böyük nailiyyətləri maraqla izləyirik.

Əminəm ki, Çin inkişaf, firavanlıq və tərəqqi yolu ilə getməkdə davam edəcəkdir. Bu işdə Çin xalqına və onun rəhbərliyinə yeni uğurlar diləyir, Çin Xalq Respublikasının yaranmasının qarşıdan gələn 70-ci ildönümü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

## QARAÇUXUR QƏSƏBƏSİNDƏ NEFTÇİLƏR PARKINDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*18 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 18-də Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində əsaslı şəkildə yenidən qurulmuş Neftçilər parkındakı şəraitlə tanış olmuşlar.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov əsaslı şəkildə yenidən qurulmuş Neftçilər parkı barədə dövlət başçısına məlumat verdilər.*

*Qeyd edildi ki, bu istirahət parkı 1982-ci ildə salınıb. «Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı» çərçivəsində ötən ilin martından parkda yenidən qurulma işlərinə başlanılıb. Ümumi sahəsi 6 hektar olan ərazinin 4 hektarlıq hissəsində Mədəniyyət və istirahət parkı yaradılıb. Digər 2 hektarlıq sahədə isə meşə zolağı salınıb və velosiped yolları çəkilib, işıqlandırma işləri görülübdür. Bu istirahət məkanında IDEA İctimai Birliyinin layihəsi çərçivəsində uşaq idman və futbol meydançaları salınıb, trenajorlar quraşdırılıb, uşaq və yeniyetmələrin əyləncəsi, asudə vaxtlarının səmərəli təşkili üçün*

*müxtəlif attraksionlar və oyun elementləri yerləşdirilibdir.*

*Dövlət başçısı və xanımı əvvəlcə burada istirahət edən sakinlər Zemfira Həsənova və Sübhanə Bayramova ilə görüşüb söhbət etdilər.*

**İlham Əliyev:** Salam, xoş gördük.

**Zemfira Həsənova** (*sakin*): Salam. Çox sağ olun, Allah köməyiniz olsun. Hər şey üçün Sizə təşəkkür edirik. Bu abadlıq işlərinə, bu gözəlliklərə görə Sizə minnətdarıq. Allah canınızı sağ eləsin.

**İlham Əliyev:** Sağ olun. Park indi yeni görkəm alıb, tamamilə yenidən qurulubdur. Bu parkın böyük tarixi vardır. Əvvəlki görünüşünün şəkilləri orada vurulub, vəziyyət o qədər də ürəkaçan deyildi. İndi isə çox müasir, gözəl park salınıb və vətəndaşların sərəncamına verilibdir.

**Sübhanə Bayramova:** Nəinki bu parkımız, Azərbaycanımız gözəlləşib. Bütün respublikamızda aparılan islahatları görməmək mümkün deyil, o cümlədən Suraxanı rayonunda. Çox sağ olun, var olun.

**İlham Əliyev:** Parklar şəhərimizin hər bir yerində salınır, o cümlədən qəsəbələrdə. Hesab edirəm ki, Bakı parkların sayına görə dünyada lider şəhərlərdən biridir. Bakıda gözəl, müasir parklar salınır, əvvəldən salınmış qəsəbələr və parklar yenidən bərpa olunur. Burada belə gözəl şərait yaradılıb ki, vətəndaşlar istirahət etsinlər.

**Sübhanə Bayramova:** Qeyd etmək istəyirəm ki, tək parklar yox, ümumiyyətlə, təhsil, səhiyyə müəssisələri yenidən qurulur, müasir avadanlıqlarla

təchiz edilir, məhəlləarası yollar təmir olunur, işıqlandırılır, su hövzələri bərpa edilir. Doğrudan da Sizin sərəncamlarınız əsasında çox böyük islahatlar gedir. Biz Sizə çox təşəkkür edirik.

**İlham Əliyev:** Sağ olun. Rayonda, qəsəbədə təsərrüfat işləri necə gedir?

**İlqar Abbasov** (*Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, işlər çox yaxşı gedir. Bu gün artıq rayonun hər yerində, həmçinin Qaraçuxurda qaz, su, işıq problemləri yoxdur.

**İlham Əliyev:** Fasiləsiz?

**Sakinlər:** Bəli, çox yaxşıdır.

**İlqar Abbasov:** Rayon əhalisinin 40 faizi fasiləsiz su ilə təmin olunur. Hövsan Sizin həmişə diqqətinizdə olan ərazidir. Qaraçuxurda da əhali 40 faiz su ilə təmin olunur.

**İlham Əliyev:** Qaz 100 faiz?

**İlqar Abbasov:** Qaz da, işıq da 100 faizdir.

**Sakinlər:** Bəli, heç bir problemimiz yoxdur.

**İlqar Abbasov:** Su qrafiklə, amma sıx qrafiklə verilir. Heç bir çətinlik çəkilmir. Bir az kanalizasiya işlərimiz var ki, sağ olun, o da təsdiq etdiyiniz proqramda nəzərdə tutulubdur.

**İlham Əliyev:** Əlavə hansı işlər görülməlidir?

**İlqar Abbasov:** Qeyd edək ki, kanalizasiya şəbəkəsinin qurulması və asfalt vurulması rayonun tamamilə abadlaşdırılmasına gətirib çıxarır, heç bir problem qalmır.

**Mehriban Əliyeva:** Məktəblərdə vəziyyət necədir?

**İ l q a r  A b b a s o v:** Rayonumuzdakı 35 məktəbin 30-u əsaslı təmir olunub, 3-ü qəzalı vəziyyətdədir, onlar bu il sökülüb yenidən tikiləcək, artıq proqramda var, ikisi əsaslı təmir olunacaqdır. Uşaq bağçalarımızın, demək olar ki, hamısı təmir olunub, bir neçəsində qaçqın və məcburi köçkünlər yaşadığı üçün onlar köçürüldükdən sonra təmirinə başlanılacaq. Heydər Əliyev Fondunun təşəbbüsünə qoşularaq, yeni uşaq bağçasının tikintisini davam etdiririk, yaxın zamanlarda bu barədə məlumat verəcəyəm. Bundan başqa, Yeni Günəşlidə Sizin tapşırığınızla hazırlanan layihə əsasında gözəl bir parkın, Fatimeyi-Zəhra məscidinin tikintisi davam edir. Onun ətrafında da yeni park salınacaqdır. Bu yaxınlarda Qaraçuxurda daha bir parkın təmirinə başlanılacaq. Beləliklə, demək olar ki, rayonumuzun bütün problemləri həll edilmiş olur.

**S a k i n l ə r:** Hər şey üçün çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sizi təbrik edirəm.

**Z e m f i r a  H ə s ə n o v a:** Çox sağ olun. Bir də onu demək istəyirəm ki, son üç ayda verdiyiniz fərmanlara görə Sizə çox təşəkkür edirik. Orada pensiyaları, maaşları və ən əsası da kredit problemini nəzərə almısınız. Buna görə də Sizə çox təşəkkür edirik. Sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Doğrudan da böyük işlərdir. Çünki Azərbaycanda bu məsələ elə səviyyədə həll olunur ki, bunun dünyada bənzəri yoxdur. Bilirsiniz, bir çox ölkələrdə bu problem mövcuddur. Ölkələr və ölkə rəhbərlikləri çalışırlar bu problemi həll etsinlər, bəzi hallarda qərarlar qəbul edilir, amma icra olunmur,

bəzi hallarda hələ də müzakirələr gedir. Ancaq biz çox ciddi qərar qəbul etdik və bu, vətəndaşların maraqlarını maksimum nəzərə alan qərar oldu. Təqribən 800 minə yaxın insan bu fərmandan faydalanacaq. O cümlədən minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz qaldırılması da önəmli addımdır. Ancaq onu da deməliyəm ki, bu artım böyük olsa da, bizi qane edə bilməz. Çünki bizdə maaşlar və pensiyalar bundan sonra da qaldırılacaq. İndi hökumətdə iş aparılır, müvafiq nazirliklərə göstəriş verilib. Bizim maliyyə imkanlarımız da artıb, çünki ölkəmizdə aparılan ciddi iqtisadi islahatlar bizə əlavə gəlirlər gətirib. Artıq bu ilin əvvəlindən büdcəyə kifayət qədər böyük məbləğ daxil olub və yığılan əlavə büdcə gəlirləri mənim göstərişimlə ilk növbədə, vətəndaşların sosial müdafiəsinə istiqamətləndirilməlidir, o cümlədən maaşların, pensiyaların qaldırılmasına. Biz mart ayında bu qərarı qəbul etdik və aprelin əvvəlindən sosial müavinətlərin artımı qüvvəyə mindi, burada da sosial müavinətlər orta hesabla 2 dəfə artırılıb və 600 minə yaxın insan bu proqramla əhatə olunub. Bu istiqamətdə işlər davam etdiriləcək. Minimum əməkhaqqı, minimum pensiya Azərbaycanda bundan sonra da qaldırılacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar.

**S a k i n l ə r:** Sağ olun. Təşəkkür edirik.

* * *

*Bu il fevralın 26-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və iştirakı ilə «Xocalıya ədalət!» kampaniyası çərçivəsində Xocalı*

*soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə parkın ərazisində 613, bu il aprelin 6-da isə Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi şərəfinə daha 300 ağac əkilibdir.*

*Parkın ərazisində neft buruğunun rəmzi olaraq stela quraşdırılıb, yaşıllıqlar salınıb, 2000 yeni ağac əkilib, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Cavanşir Rəhimovun 1999-cu ildə quraşdırılmış büstü bərpa edilib, büstün ətraf ərazisi yenidən qurulub, «Veteranlar guşəsi» və iaşə obyektləri yenilənibdir.*

* * *

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Milli Qəhrəman Cavanşir Rəhimovun abidəsini ziyarət etdilər.*

*Sonra dövlət başçısı və xanımı parkda istirahət edən digər sakinlərlə görüşüb söhbət etdilər.*

**Sakinlər:** Xoş gəlmisiniz, necəsiniz?

**İlham Əliyev:** Salam. Çox sağ olun.

**Lalə Rəhimova** (*Milli Qəhrəman Cavanşir Rəhimovun anası*): Allah Sizə cansağlığı versin. Bu gözəl balamız Milli Qəhrəmandır. Siz həmişə şəhid ailələrinin hörmətini saxlamısınız. Allah Sizi hörmətli eləsin. Biz hər səhər bu parkı ziyarət edirik. Sizin tapşırığınız əsasında yenidən qurulmuş bu park indi başqa bir aləmdir. Allah Sizi var eləsin, ömrünüz uzun olsun.

**İlham Əliyev:** Sağ olun. Bu park doğrudan da indi çox gözəl görkəm alıb, müasirləşib, böyük quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb. Bu parkın

əvvəlki vəziyyəti sizə yaxşı bəllidir. Burada çox böyük işlər görülüb və vətəndaşların istirahəti üçün geniş imkanlar yaradılıbdır.

**S a k i n l ə r:** Sizə təşəkkür edirik. Sizin rəhbərliyinizlə bizim rayonumuz da gözəlləşib. Nəinki bizim rayonumuz, bütün Bakı şəhəri gözəlləşib. Çox sağ olun, minnətdarıq Sizə.

**S a r a y  Q u l i y e v a** (*şəhid anası*): Zəngilan rayonundan məcburi köçkünəm. Sizin sayənizdə bütün qayğılarımız həll olunub. Sizin diqqət və qayğınız sayəsində övladlarımın hamısı ali təhsil aldı. Bu iki gül bala nəvələrimdir. Biz Sizi dəstəkləyirik, Sizin yolla gedirik, Sizə inanırıq.

**İ l h a m  Ə l i y e v:** Mən də sizə güvənirəm, sizə arxalanıram.

**L a l ə  R ə h i m o v a:** Şəhid ailələri, Milli Qəhrəman ailələri də Sizinlədir.

**İ l h a m  Ə l i y e v:** Mən də sizinləyəm, həmişə sizin yanınızdayam.

**L a l ə  R ə h i m o v a:** Seçimimiz bəllidir, səmamız açıq, günümüz xoşdur, bu gözəl güzəranı bizə yaradırsınız, əmin-amanlıqdır, gecə rahat yatıb rahat dururuq. Allah Sizi var eləsin.

**İ l h a m  Ə l i y e v:** Şəhid ailələrinə həmişə böyük diqqət olub, bu gün də bu belədir.

**L a l ə  R ə h i m o v a:** Seçkidən sonra da ilk sərəncamınızı bizim üçün imzaladınız.

**İ l h a m  Ə l i y e v:** Bəli, sərəncam imzaladım və bu sərəncam indi icra edilir. Əminəm ki, ilin sonuna qədər tam icra ediləcək və 11000 manat ödəniş veriləcəkdir.

**Lalə Rəhimova:** Verilib, mən artıq almışam.

**İlham Əliyev:** Sizə verilib, bəzilərinə hələ ki, verilməyib, onlara da veriləcək. Ondan sonra müavinətlər də 242 manatdan 300 manata artırıldı. Əlbəttə, Azərbaycanda digər sosial ödənişlər də artırılıb və biz daha da artıracağıq, çünki buna ehtiyac vardır. Biz minimum əməkhaqqını, minimum pensiyanı artırırıq. Ancaq daha da artırılmalıdır və artırılacaqdır. Hazırda iqtisadi vəziyyətimiz də, maliyyə vəziyyətimiz də yaxşıdır. Biz əlavə əldə edilmiş bütün gəlirləri vətəndaşların sosial müdafiəsinə yönəldəcəyik.

**Saray Quliyeva:** Sizə tələbələr adından təşəkkürümü bildirirəm. Mənim nəvəm yüksək balla ali məktəbə qəbul olub, Prezident yanında Dövlət İdarəçilik Akademiyasında təhsil alır, onların da təqaüdünü artırmısınız. Bir nənə kimi, bütün o uşaqların adından Sizə dərin təşəkkürümü bildirirəm. Elə hesab edin ki, bütün o uşaqlar Sizə təşəkkür edirlər. Mən çox sevindim, çünki təqaüdün tələbə üçün nə demək olduğunu bilirəm.

**İlham Əliyev**: Çox sağ olun. Biz həm təqaüdləri artırmışıq, həm də təqaüd alan tələbələrin sayını.

**Saray Quliyeva:** Bu il də əlaçı oldu. Qırmızı attestatla məktəbi qurtarıb, qəbul olub. İnşallah, gələcəkdə dövlətimizə, millətimizə xeyirli övladlar olarlar.

**İlham Əliyev:** İnşallah.

**Lalə Rəhimova:** Mənim Cavanşirim Qax rayonunda anadan olub. Qax rayonuna getmişdik. O də-

rəcədə dəyişib ki, Qaxı tanımaq olmur. Sizin sayənizdə çox gözəlləşib.

**İlham Əliyev:** Bəli, gözəlləşib.

**Lalə Rəhimova:** Allah mənə Cavanşirimin adını daşıyan bir övlad da verdi. İndi Cavanşirim hərbi qulluqdadır, Sizin Heydər balanızla eyni vaxtda əsgərliyə gedib. Əsgərlərimiz Sizin əmrinizi gözləyirlər ki, o əzəli torpaqlarımızı tezliklə azad etsinlər. Şəhidlərimizin qanı tökülən torpaqlarımız azad olsun və hamılıqla yığışıb oralara ziyarətə gedək, Azərbaycanımızın bayrağı Şuşada dalğalansın. Amin! Necə ki, Lələtəpədə bayrağımız yüksəldi, eləcə də bütün Azərbaycan torpaqlarında bayrağımız yüksəlsin. Allah Sizi var eləsin! Allah Sizə nəvələrinizin toyunu görməyi qismət eləsin!

**Mirzəağa Quliyev:** Mən də Sizi salamlayıram, xoş gəlmisiniz bizim rayonumuza! Bax, yaradılmış bu abadlıqlar hamısı Sizin göstərişinizin nəticəsidir. Axşamlar buraya övladlarımızla, nəvələrimizlə – mənim artıq 5 nəticəm var – yığışanda Sizə minnətdarlıq edirik. Bütün sahələrdə əldə edilən böyük irəliləyişlər vardır. Xüsusilə bu sabitlik ki, Sizin hesabınıza, Sizin siyasətinizin sayəsində yaradılıb. Dünyada qarışıqlıq olduğu bir vaxtda Azərbaycanda əmin-amanlıq vardır. Bunun nəticəsində də bütün sahələrdə nailiyyətlər əldə edilir. Bütün bunlara görə Sizə minnətdarlığımızı bildiririk, Allah Sizə cansağlığı versin.

**Minayə Həsənova:** Mən neftçi ailəsindənəm, buradakıların 70 faizi neftçi ailələrinin üzvləridir. Mənim 9 nəvəm var, Allah Sizin də nəvələrinizin canını salamat eləsin. Həmişə onları məktəbdən aparanda

deyirlər ki, nənə, gedək bir az parkda gəzək. Mən hesab edirəm ki, bu park balaca Dubaydır. Onu bizə Siz bağışladınız. Bura əsl cənnətdir. Əvvəllər saat 4-5-dən sonra burada gəzmək olmurdu, qorxurduq. Hər tərəfi kol-kos basmışdı. İndi isə səhər saat 5-dək arxayın gəzmək olur.

**İlham Əliyev:** Mən də çox şadam ki, bu gün sizinlə birlikdəyəm. Ölkəmizin uğurlu inkişafı bundan sonra da təmin ediləcək. Siz də qeyd etdiyiniz kimi, Azərbaycan xalqı sabitlik şəraitində yaşayır. Əmin-amanlıq, sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Biz indi dünyada baş verən hadisələri görürük, izləyirik. Harada ki, sabitlik pozulur, orada böyük faciələr baş verir. Azərbaycanda sabitliyin mənbəyi Azərbaycan vətəndaşlarıdır, onların fədakarlığıdır, onların bizə göstərdiyi dəstəkdir. Biz bu dəstəyə arxalanaraq, böyük işlər görürük. Bu gün Azərbaycan istənilən sahədə – iqtisadiyyatda, sosial məsələlərin həllində, infrastruktur layihələrinin icrasında liderlik göstərir. Nəinki mərkəzdə, qəsəbələrdə də yollar salınır, qazlaşdırılma gedir, su xətləri çəkilir, belə gözəl parklar yaradılır.

**Minayə Həsənova:** Bunu görməyən nankordur, cənab Prezident.

**Lalə Rəhimova:** Mən hər gün xəbərləri izləyirəm, Sizin çıxışlarınıza qulaq asıram. Bir gün nəvəm soruşdu ki, bizim İlham babamız nə vaxt bizə qonaq gələcək?

**İlham Əliyev:** Gəlmişəm.

**Saray Quliyeva:** Sizə də, xanımınıza da can-sağlığı arzulayıram. Mehriban xanım, mən bir Azərbaycan qadını kimi, Azərbaycan anası kimi, Sizinlə fəxr edirəm. Çünki Siz dünya siyasətində olan qadınların içərisində öz sözünüzü demiş bir insansınız. Siz gözəl ana, gözəl nənə, Azərbaycanın layiqli xanımısınız. Bizim nəvələrimiz, balalarımız Sizdən, ailələrimiz Sizin ailənizdən örnək götürür. Çox şadıq ki, yolumuz açıq, səmamız aydın, getdiyimiz yol bəlli, inandığımız insan bizə arxa-dayaqdır.

**Mehriban Əliyeva:** Çox sağ olun.

**Minayə Həsənova:** Gözümüz aydın olsun, 10 milyonluq xalq olduq. 10 milyonuncu Mehriban qızımız oldu.

* * *

*Əhalisinin sayı 89 min nəfər olan Qaraçuxur Suraxanı rayonunun qədim qəsəbələrindən biridir. Bu parkın müasir səviyyədə yenidən qurulması qəsəbə sakinləri ilə yanaşı, paytaxtımıza gələn qonaqların da asudə vaxtlarının səmərəli təşkili üçün geniş imkanlar açır. Ümumilikdə son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə paytaxtımızın inkişaf tempinə uyğun olaraq, yeni park, istirahət məkanları salınır, mövcudları isə müasir səviyyədə yenidən qurulur. Bütün bu işlər bir daha göstərir ki, paytaxtımızı dünyanın ən gözəl şəhərlərindən birinə çevirmək istiqamətində həyata keçirilən layihələr ardıcıl xarakter almaqla, yüksək keyfiyyətlə icra olunur.*

*Dövlət başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığının təmin edilməsində, onların asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayır. Paytaxtda yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması geniş vüsət alıb. Suraxanı rayonunun ərazisində yenidən qurulmuş bu istirahət məkanı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir.*

## İRAN İSLAM RESPUBLİKASININ SƏNAYE, MƏDƏN VƏ TİCARƏT NAZİRİ REZA RƏHMANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də İran İslam Respublikasının Sənaye, Mədən və Ticarət naziri Reza Rəhmaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Reza Rəhmani İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlət başçısına çatdırdı.*

*Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, nəqliyyat, mədəniyyət və bütün digər istiqamətlərdə, o cümlədən sənaye və ticarət sahələrində uğurla inkişaf etdiyini vurğuladı.*

*Görüşdə ölkələrimizin birgə layihələri çərçivəsində Neftçala Sənaye Məhəlləsində Avtomobil zavodunun uğurla fəaliyyət göstərdiyi vurğulandı, Bakıda Əczaçılıq zavodunun inşa ediləcəyi, İran İslam Respublikasının Sənaye, Mədən və Ticarət naziri Reza Rəhmaninin Azərbaycana bu səfəri zamanı isə Hacıqabul*

*Sənaye Məhəlləsində Avtobus İstehsalı zavodunun təməlinin qoyulacağı qeyd edildi.*

*Söhbət zamanı ölkələrimiz arasında ticarət dövriyyəsinin səviyyəsinin artdığı, sənaye sahəsində uğurlu layihələrin həyata keçirildiyi bildirildi və bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin və əlavə imkanların olduğu qeyd edildi.*

*Dövlət başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYTRİPALA SİRİSENAYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə törədilmiş partlayışlar nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahür-lərinə qarşı mübarizədə beynəlxalq birliyin səylərini dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Şri-Lanka xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 aprel 2019-cu il*

**UKRAYNA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR ZELENSKİYƏ**

Hörmətli cənab Zelenski!

Ukraynanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Ukraynanı zəngin ənənələrə malik dostluq əlaqələri birləşdirir. İnanıram ki, bu ənənələri özündə bariz şəkildə əks etdirən dövlətlərarası münasibətlərimiz, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Ukrayna xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 aprel 2019-cu il*

## MƏRDƏKAN–QALA AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*23 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Bakının Xəzər rayonunda Mərdəkan–Qala avtomobil yolunun açılışında iştirak etmişdir.*

*İlham Əliyev əvvəlcə sakinlərlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Sizi salamlayıram. Şadam ki, Mərdəkan qəsəbəsində çox gözəl infrastruktur layihələri icra edilir və yollar salınır, qəsəbənin digər problemləri öz həllini tapır. Bu bizim siyasətimizdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və biz çalışırıq ki, hər bir yerdə inkişaf olsun, quruculuq, abadlıq işləri aparılsın.

Yol inkişaf üçün əsas şərtlərdən biridir. Buzovna–Mərdəkan yolu keçən il istifadəyə verilib. Bu yol mövcud deyildi. İndi isə yoldan istifadə olunur, yolboyu binalar tikilir, ictimai yerlər, ictimai obyektlər salınır. Yəni yol olan yerdə inkişaf da vardır. Azərbaycanda son illərdə bütün yerlərdə müasir yol infrastrukturu yaradılır, o cümlədən Bakı qəsəbələrində. İndi isə Mərdəkan–Qala yolunun açılışını qeyd edirik. Bu əslində onu göstərir ki, hər bir sahədə, hər bir bölgədə ən müasir standartlar tətbiq olunur.

Son 15 il ərzində ölkəmizdə 15 min kilometr yol çəkilib. Hər bir yerdə, hətta dağ kəndlərində, yol olmayan kəndlərə biz yollar çəkdik. Bu gün bu yollar həm insanlara xidmət göstərir, həm biznes imkanlarını genişləndirir, həm fermerlər üçün yeni imkanlar yaradır. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycanda yolların keyfiyyəti dünya miqyasında 34-cü yerdədir. Biz çalışırıq ki, hər bir sahədə ən yüksək standartları tətbiq edək və insanları narahat edən problemləri aradan götürək.

Yol, infrastruktur, elektrik enerjisi ilə təchizat, qazlaşdırılma, su layihələri – bütün bunlar diqqət mərkəzindədir və bu istiqamətdə çox ciddi addımlar atılır. Bu gün mən gəlmişəm ki, sizinlə görüşüm, bu gözəl hadisəni bir yerdə qeyd edim və sizə yeni uğurlar, qələbələr arzulayım.

Qəsəbələrarası və qəsəbədaxili yollar diqqət mərkəzindədir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə göstəriş verilib ki, Bakı qəsəbələrində yol infrastrukturuna çox ciddi fikir verilsin və demək olar ki, indi bu proses geniş vüsət alıb. Əminəm ki, bütün qəsəbələrdə daxili yollar bərpa ediləcək və insanlara rahatlıq verəcəkdir. Bir daha sizi təbrik edirəm, sizə uğurlar arzulayıram.

**Altay Mansurov** (*rayon sakini*): Hörmətli cənab Prezident, əvvəla, rayon sakinləri və ağsaqqalları adından Sizə «Xoş gəlmisiniz!» – deyirəm. Bizim sakinlər – bilirsiniz ki, Xəzər rayonunun sakinləri Sizi çox istəyirlər – Sizi həmişə burada görməyə şad olurlar. Bu

gün də biz çox şadıq ki, Siz gəlmisiniz, Sizinlə görüş keçiririk. Bu, birinci dəfə deyil. Siz bizim rayonda tez-tez olursunuz, biz görüşürük, bununla da fəxr edirik.

Sizin gördüyünüz işlər göz qabağındadır. Son illərdə nəinki bizim rayonda, bütün Azərbaycanda görülən işlərin hamısını biz televiziya vasitəsilə müşahidə edirik, görürük, necə yollar çəkilir, hansı işlər görülür. Son zamanlar Sizin göstərişinizlə, fərmanlarınızla, sərəncamlarınızla insanların sosial rifahının yaxşılaşdırılması istiqamətində çox işlər görülüb. Şəhərlərdə, qəsəbələrdə, o cümlədən bizim rayonda çox böyük işlər görülür, hamısı göz qabağındadır. Son vaxtlar bizim rayonda da xeyli qəsəbələrarası yollar çəkilib, köhnə yollar bərpa edilibdir. Bu da sakinlərimizin yaşayış şəraitinin yaxşılaşdırılmasına töhfə verir. Bu yolun da çəkilməsi qəsəbələr arasında gediş-gəlişi, eyni zamanda, şəhərə çıxışı asanlaşdıracaqdır. Son zamanlar Buzovna–Mərdəkan yolunun çəkilməsi, eyni zamanda, indi Mərdəkan–Qala yolunun mərkəzi yola birləşdirilməsi, şəhərə, qonşu qəsəbələrə çıxışın təmin edilməsi insanların yaşayışına və rifahına böyük kömək olacaq. Sizə cansağlığı arzulayırıq. Biz Sizin daxili və xarici siyasətinizi bəyənirik. Biz bunu hər dəfə təkrar edirik və həmişə biz Sizin arxanızda böyük bir qüvvə kimi dayanmağa hazırıq.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Mən çalışıram və bundan sonra da çalışacağam ki, doğma xalqıma ləyaqətlə xidmət edim. Ölkə qarşısında duran bütün problemlər öz həllini tapmalıdır. Son illər ərzində görülmüş işlər göz qabağındadır. Azərbaycan

müasirləşir, yeniləşir, hər bir yerdə, hər bir bölgədə və hər bir sahədə çox böyük quruculuq, abadlıq işləri aparılır.

Bu gün iqtisadi inkişaf təmin edilir. Bu il iqtisadiyyatımız 3 faiz artır, əvvəlki illərə nisbətən bu artım daha böyükdür. Düzdür, bu bizi tam qane edə bilməz. Çünki hesab edirəm ki, potensial daha böyükdür və biz iqtisadi baxımdan daha yüksək templərlə artmalıyıq. Aparılan islahatlar və islahatların dərinləşməsi bizə əlavə imkanlar yaradır. Son illər ərzində çox böyük işlər görülüb. Ancaq biz indi inkişafımızın yeni mərhələsindəyik. Son Prezident seçkiləri ərəfəsində mən bəyan etmişdim ki, növbəti dövr islahatlar dövrü olacaq. Çünki hər bir ölkə üçün islahatlar çox önəmlidir. İslahatlar yenilik, müasirlik, nöqsanların aradan qaldırılması, problemlərin həlli deməkdir. Bizdə hər bir sahə üzrə çox aydın təsəvvür və iş proqramı vardır. Ona görə islahatların dərinləşməsi nəticəsində əldə edilmiş nailiyyətlər vətəndaşların rifah halını yaxşılaşdırır. Bu ilin üç ayında büdcə daxilolmaları yüksək dərəcədə artıb. Yəni vergi və gömrük orqanları plandan əlavə 200 milyon manatdan çox vəsait toplayıbdır. Nəyin hesabına? İslahatların, şəffaflığın hesabına. Sahibkarlar da razıdır, çünki bu gün sahibkar bilir ki, dövlətin vergisini tam ödəməlidir və ondan başqa heç kimə heç bir ödəniş edilməməlidir. Mən indi görürəm ki, sahibkarlarda da bu işlərə böyük inam vardır.

Biz daxil olan əlavə gəlirləri ilk növbədə, sosial məsələlərin həllinə yönəldirik. Düzdür, infrastruktur layihələri də lazımdır, biz oraya vəsait ayırmasaydıq,

belə yollar çəkilə bilməzdi. Ancaq indiki şəraitdə biz vəsaiti daha çox insanların rifah halının yaxşılaşdırılması üçün yönəldirik. Təsadüfi deyil ki, keçən ilin aprel ayında Prezident seçkilərindən sonra imzaladığım ilk fərman şəhid ailələrinin rifah halının yaxşılaşdırılmasına yönəldilmişdir. Şəhid ailələrinə 11000 manat ödənişin təşkil edilməsi bizim niyyətimizi göstərir və bu ödənişlər aparılır. Ondan sonra qəbul edilmiş qərarlar, imzaladığım fərmanlar da bir məqsədi güdür ki, vətəndaşlar daha da yaxşı yaşasınlar. Minimum əməkhaqqı, minimum pensiya təxminən 40 faiz artırılıb. Mən bu yaxınlarda demişəm, artım faiz baxımından böyük olsa da, bizi qane edə bilməz. Çünki biz daha da yüksək həddə çatmalıyıq və bunu etmək üçün daha da fəal işləməliyik. Sosial müavinətlər orta hesabla 2 dəfə, köçkünlərə, şəhid ailələrinə verilən müavinət, tələbə təqaüdləri 50 faiz artıb. Bir çox önəmli fərman və sərəncamlar imzalanıb ki, insanların rifah halını, biznes mühitini yaxşılaşdırır və bu istiqamətdə işlər davam etdiriləcək. Çünki minimum əməkhaqqı, minimum pensiyanın qaldırılması daimi proses olmalıdır.

Azərbaycan indi inkişafın yeni mərhələsindədir və bundan sonra iqtisadi artım çox sürətli olacaq. Bizim neft-qaz sahəsində apardığımız siyasət öz bəhrəsini verir, yaxın gələcəkdə «Cənub Qaz Dəhlizi» işə düşəcək. Bu, əlavə gəlir gətirəcək və gəlir vətəndaşların rifah halının yaxşılaşdırılmasına yönəldiləcəkdir.

Əlbəttə, islahatlar hərtərəfli olmalıdır – həm iqtisadi, sosial, siyasi sahələrdə, həm də idarəetmə sahəsində. Bu sahələrdə hələ ki, təkmilləşməyə böyük

ehtiyac vardır. Biz öz siyasətimizi yerlərdən gələn təkliflər əsasında qururuq.

Bu ilin yanvarında dördüncü regional inkişaf proqramı qəbul edilib. Bu proqramın qəbul edilməsində yerlərdən gələn müraciətlər əsas rol oynayıb. Çünki vətəndaşları narahat edən problemləri biz bilməliyik və həll etməliyik. Bizim məqsədimiz budur, siyasətimiz də bundan ibarətdir. Əminəm ki, ölkə qarşısında duran bütün vəzifələr, problemlər öz həllini tapacaqdır.

**T ə v ə k k ü l S ə l i m o v** (*Xəzər Rayon Ziyalılar Cəmiyyətinin sədri*):Möhtərəm cənab Prezident, mən də Sizə «Xoş gəlmisiniz!» – deyirəm. Siz 2003-cü ildə Prezident seçkiləri ərəfəsində Mir Mövsüm Ağa ziyarətgahında çıxış etdiniz. Dediniz: «Mən çalışacağam ki, Prezident seçiləndən sonra hər bir azərbaycanlının Prezidenti olum». Bütün fəaliyyətiniz dövründə Siz sübut etdiniz ki, sözün əsl mənasında, hər bir azərbaycanlının Prezidentisiniz. Bunu 16 illik fəaliyyətiniz dövründə iqtisadi islahatlar, ictimai həyatda, mədəni, mənəvi quruculuq sahələrində baş verən yeniliklər tam sübuta yetirdi. Bir məsəl var, deyirlər ki, «abad kənd yolundan bilinər». Hər şey yoldan başlayır. Sizin yol infrastrukturunun inkişafına ayırdığınız diqqət əslində ölkənin iqtisadiyyatına, əlaqələrin genişlənməsinə doğrudan da çox böyük yardım göstərir. Keçən il aprelin 11-də Prezident seçiləndən sonra özünüz qeyd etdiyiniz kimi, ilk fərmanınız əhalinin, insanların həyatının yaxşılaşdırılması ilə bağlı oldu. Son bir neçə ay ərzində Qarabağ müharibəsi iştirakçılarının, müharibə əlillərinin, pensiyaçıların, digər sosial

qrupların təqaüdlərinin artırılması, bu yöndə atılan addımlar insanlarımız tərəfindən çox böyük rəğbətlə qarşılandı. Bax, elə bu Xəzər rayonunun inkişafı Sizin fəaliyyətinizin əsl göstəricisidir.

*Xəzər rayonunda yolların salınması istiqamətində görülən işlərə görə dövlət başçısına minnətdarlığını bildirən Təvəkkül Səlimov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə iqtisadiyyatın inkişafı üçün atılan addımları xüsusi qeyd etdi.*

– Cənab Prezident, mən sakinlərimiz adından bu möhtəşəm işlərinizə, səmimiyyətinizə, xalqımıza, insanlarımıza, o cümlədən bizə olan isti münasibətinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mehriban xanım həmişə bizi diqqətdə saxlayır, Allah ona ömür versin. O, sözün əsl mənasında, Azərbaycan qadınının simasını göstərən bir insandır. Cənab Prezident, bir daha Sizə və Mehriban xanıma işlərinizdə uğurlar arzu edirəm. Siz buraya həmişə gəlin. Siz buraya gələndə biz hər dəfə yeniliklərlə rastlaşırıq.

**İlham Əliyev:** Çox sağ olun. Hər bir rayonda gedən işlər məni sevindirir. Çox şadam ki, Xəzər rayonunda bütün işlər yaxşı gedir, abadlıq-quruculuq, təsərrüfat işləri aparılır. Əvvəlki illərdə də yaxşı nəticələr olub və biz birlikdə ölkəmizi inkişaf etdiririk. Hər bir yerdə hər bir vətəndaş ümumi inkişafımıza öz töhfəsini verir. O ki qaldı dövlət siyasətinə, bir daha demək istəyirəm ki, biz ölkəmizi gücləndiririk, beynəlxalq mövqelərimizi möhkəmləndiririk, hərbi gücümüzü artırırıq, sosial məsələlərin həllinə çalışırıq. Son dövrdə imzaladığım fərmanlar

doğrudan da həm təsirlidir, həm əhəmiyyətlidir, həm də ki, bizim siyasətimizi göstərir. Deyə bilərəm ki, bu fərmanlara başqa ölkələrdə rast gəlinmir. Məsələn, tutaq ki, problemli kreditlər nədən qaynaqlandı? Devalvasiyadan. Devalvasiya nəyə görə baş verdi? Neftin qiyməti 4 dəfə azaldı, gəlirlərimiz, manatın məzənnəsi aşağı düşdü və insanlar bundan əziyyət çəkdilər. Maksimum çalışırdıq ki, vəziyyəti sabitləşdirək, sabitlik olsun, manat sabitləşsin. Artıq uzun müddətdir ki, manat sabit olaraq qalır. Bizim indiki iqtisadi və maliyyə vəziyyətimiz onu deməyə əsas verir ki, manatın sabitliyi ilə bağlı heç bir problem gözlənilmir. İqtisadi, maliyyə imkanı artdıqca biz ilk növbədə, səylərimizi problemli kreditlərin həllinə yönəltdik və bunu həll etdik, özü də ən yüksək səviyyədə. İndi bu fərman dərc edilib və orada göstərilən maddələr əminəm ki, kredit borcu olan hər bir vətəndaş üçün çox əhəmiyyətlidir. Bundan 600 mindən çox insan bəhrələnir və artıq kompensasiyaların verilməsi prosesi başlanılıbdır.

Əsas odur ki, vətəndaşları narahat edən məsələlər öz həllini tapsın. Hər yerdə, hər bir dövlət təşkilatında çalışan məmur vətəndaşlara xidmət etməlidir. Mən bunu dəfələrlə demişəm. Əfsuslar olsun ki, hər yerdə belə deyil, elə hallar var ki, vətəndaşları incidirlər, onların haqları tapdalanır, onların problemlərinə biganə yanaşılır. Bilirsiniz ki, mən vətəndaşlarla müntəzəm təmasda oluram. Mən vətəndaşlardan həm problemləri, həm də müsbət tərəfləri eşidirəm. Ona görə hər bir dövlət məmuru bilməlidir ki, onun başlıca vəzifəsi

vətəndaşlara xidmət etməkdir və mənim də tələbim bundan ibarətdir. Ancaq buna nail olmaq üçün çox ciddi ictimai nəzarət olmalıdır. İnsanları narahat edən məsələlər, nöqsanlar, çatışmazlıqlar deyilməlidir. Onlar müraciətdə öz əksini tapmalıdır ki, biz bunları həll edək. Əminəm ki, belə də olacaq. Bütün dövlət məmurları bilməlidirlər ki, onlar vətəndaşlara vicdanla xidmət etməlidirlər. Təyin edilmiş hər bir icra başçısının qarşısına qoyduğum birinci vəzifə bundan ibarətdir. Vətəndaşlarımızın rifah halı, onların iqtisadi, maliyyə vəziyyəti ildən-ilə daha da yaxşılaşır. Əgər əvvəlki dövrü götürsək görərik ki, pensiyalar, maaşlar təqribən 10 dəfəyə yaxın artıb. Ancaq bu gün bu bizi qane edirmi? Yox! Nə etməliyik? Daha da fəal işləməliyik, iqtisadiyyat daha da sürətlə artmalıdır, sərmayə yatırılmalıdır, bürokratik əngəllər aradan qaldırılmalıdır, biznes qurmaq istəyənin qarşısında süni əngəllər yaradılmamalıdır. Yerli icra orqanları çalışmalıdırlar ki, investisiyaları cəlb etsinlər. Çünki iqtisadi artım olmasa, onda bizim maliyyə imkanlarımız da olmayacaq. Bütün bu məsələlər bir-biri ilə bağlıdır. İndiki iqtisadi vəziyyətimiz və gələcək planlarımız tam əminliklə deməyə əsas verir ki, biz ancaq yüksələn xətlə inkişaf edəcəyik və qarşıda duran bütün vəzifələri birlikdə həll edəcəyik. Sağ olun.

**S a k i n l ə r:** Allah Sizə kömək olsun! Allah Sizə, Mehriban xanıma cansağlığı versin!

* * *

*Sonra Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov Buzovna–Mərdəkan–Qala avtomobil yolu layihəsi çərçivəsində görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, dövlət başçısının 2014-cü ildə imzaladığı sərəncamla təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda Xəzər rayonunda Buzovna–Mərdəkan–Qala avtomobil yolu layihəsinin həyata keçirilməsi də nəzərdə tutulmuşdur. Bu yol layihəsinin uzunluğu 7,6 kilometr olan Buzovna–Mərdəkan hissəsinin tikintisi başa çatdırılaraq, 2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə açılışı mərasimi olub və əhalinin istifadəsinə verilibdir. Bu bölgədə yaşayan əhalinin çoxsaylı müraciəti nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin ötən ilin yanvarında və fevralında imzaladığı sərəncamlarla təsdiq edilən 2018-ci ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,6 milyon manatı 55 min nəfərin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Buzovna–Mərdəkan–Qala avtomobil yolunun 5,4 kilometrlik Mərdəkan–Qala hissəsinin tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. 2018-ci ildə layihənin tikintisi yekunlaşan hissəsi ilə Qala*

*qəsəbəsi arasında yeni nəqliyyat bağlantısı yaratmaq, həmçinin nəqliyyat vasitələrinin normal hərəkətini təmin etmək məqsədilə Mərdəkan–Qala hissəsində 5,2 kilometr uzunluğunda yolun tikintisi aparılıb. Bu yolun 400 metrlik hissəsinin eni 18 metr olmaqla, 1-ci texniki dərəcəlidir, yəni 4 hərəkət zolaqlı, digər hissənin eni isə 9 metr olmaqla, 2-ci texniki dərəcəyə aiddir, yəni 2 hərəkət zolaqlıdır. Bu yolun istifadəyə verilməsi həm sosial, həm də iqtisadi baxımdan olduqca əhəmiyyətlidir. Belə ki, həmin yol Buzovna, Şüvəlan, Qala, Mərdəkan qəsəbələrini birləşdirməklə, bu qəsəbələrdə yaşayan sakinlərin şəhərə çıxışını da rahat təmin etməyə geniş imkan yaradır. Eyni zamanda, bu qəsəbələrdən Qala–Pirallahı yoluna da birbaşa çıxış təmin edilir. Bununla yanaşı, paytaxtın bu hissəsində yaşayanlar şəhərə daxil olmadan bu alternativ yolla Sumqayıt, həmçinin Şamaxı və Quba istiqamətinə də rahat çıxış əldə edirlər. Beləliklə, bu layihənin icrası tıxacların qarşısının alınması, nəqliyyat vasitələrinin hərəkətinin normal və təhlükəsiz təşkili, sürücülərin və sərnişinlərin mənzil başına vaxtında çatması baxımından da mühüm rola malikdir.*

**Saleh Məmmədov:** Əvvəllər qəsəbənin Yesenin küçəsində tıxac yaranırdı. Mərdəkan və Şüvəlan sakinləri indi bu yolla şəhərə, Zirə, Türkan qəsəbələrinə rahat çıxa bilirlər. Artıq aeroport yolundan dönüb çıxmağa ehtiyac yoxdur. Yol tam açılıb, istifadədədir. Yəqin ki, sakinlər də bunu təsdiq edərlər.

**Sakinlər:** Bəli, çox gözəldir.

**İlham Əliyev:** Siz qəsəbədaxili yollara da diqqət yetirin. Mən bu barədə də tapşırıq vermişəm. Başqa yollar da təmir olunur.

**Saleh Məmmədov:** Bəli, Sizin tapşırığınıza əsasən, son iki ayda Mərdəkan qəsəbəsində 54 min kvadratmetr yol sahəsinə asfalt döşənib. Şüvəlan qəsəbəsinə su xəttinin çəkilişi işləri başa çatıb. Biz indi orada 10 kilometrlik yolun çəkilişinə başlamışıq. Buzovnada qəsəbəarası 14 yol çəkilib, orada da 32 min kvadratmetr asfalt döşənib. Ən çox işi Binədə görmüşük, 135 min kvadratmetr asfalt vurmuşuq. İşlər hələ davam edir. İnvestisiya planınızda bu il 19 kilometrlik yolun tikintisi nəzərdə tutulub, artıq orada da işlər gedir. Yolun 13 kilometrlik hissəsi hazırdır, 6 kilometrlik hissəsində iş davam edir.

**İlham Əliyev:** Digər rayonlarda da iş gedir, bütün qəsəbələrdə.

**Saleh Məmmədov:** Sizin göstərişinizlə Bakı şəhərinin bütün qəsəbələrində iş gedir.

**İlham Əliyev:** Bakı şəhərində bir dənə də təmirsiz yol olmamalıdır, həm şəhərdə, həm qəsəbələrdə. Qarşıya belə vəzifə qoyulub və indi müvafiq işlər görülür. Biz bu işləri qısa müddət ərzində görmüşük.

**Sakinlər:** Allah canınızı sağ eləsin.

**İlham Əliyev:** Sağ olun. Sizi bir daha təbrik edirəm.

* * *

*Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MATAMELA SİRİL RAMAFOSAYA**

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 aprel 2019-cu il*

**NİDERLAND KRALI ƏLAHƏZRƏT VİLLEM-ALEKSANDRA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Kral Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Niderland xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 aprel 2019-cu il*

**SYERRA-LEONE RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CULİUS MAADA BİOYA**

Hörmətli cənab Prezident!

Syerra-Leone Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı ürək-dən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 aprel 2019-cu il*

## ÇİN XALQ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*24 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikası Sədrinin dəvəti ilə «Bir kəmər – bir yol» II Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak etmək üçün aprelin 24-də bu ölkəyə işgüzar səfərə gəlmişdir.*

*Pekin şəhərinin Beynəlxalq Aeroportunda dövlət başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Çinin Xarici İşlər nazirinin müavini Can Hanhuy və digər rəsmi şəxslər qarşıladılar.*

## ZTE KORPORASİYASININ SƏDRİ Lİ CİSUE İLƏ GÖRÜŞ

*Pekin*

*24 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində ZTE Korporasiyasının sədri Li Cisue ilə görüşmüşdür.*

*ZTE Korporasiyasının sədri Li Cisue onun rəhbərlik etdiyi şirkətin dünyada telekommunikasiya avadanlıqlarının ən böyük təchizatçılarından biri olduğunu bildirdi. Çində və xaricdə çoxlu tərəfdaşlarının olduğunu qeyd edən Li Cisue Azərbaycan bazarında da gözəl əməkdaşlıq nümunələrinin mövcudluğunu və ölkəmizlə tərəfdaşlıq əlaqələrini gücləndirmək istədiklərini bildirdi.*

*Prezident İlham Əliyev bu əməkdaşlığın uğurlu olacağına ümid etdiyini bildirdi. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafının Azərbaycanda prioritet sahələrdən olduğunu ifadə edən dövlət başçısı son illərdə bu sektorun inkişafı üçün xeyli işin görülдüyünü, bu sahəyə investisiyaların yatırıldığını, xarici tərəfdaşlarla əlaqələrin genişləndiyini bildirdi. Prezident İlham Əliyev ZTE Korporasiyası ilə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı.*

## CETC KORPORASİYASININ BAŞ DİREKTORU VU MANÇİN İLƏ GÖRÜŞ

*Pekin*

*24 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində CETC Korporasiyasının baş direktoru Vu Mançin ilə görüşmüşdür.*

*Görüşdə Vu Mançin CETC Korporasiyasının Çinin radioelektronika sahəsində ixtisaslı şirkətlərindən olduğunu və bu sahədə uzun illərdir uğurla fəaliyyət göstərdiklərini bildirdi. O bu sahədə Azərbaycan ilə əməkdaşlıq qurduqlarından məmnun qaldıqlarını və əlaqələrin inkişaf etdiyini bildirdi.*

*Ölkələrimiz arasında dostluq əlaqələrinin mövcud olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Çinin böyük şirkətlərinin ölkəmizdə fəal iş görmələrində maraqlıdır. Dövlət başçısı artıq Çinin bir çox şirkətlərinin timsalında yaxşı tərəfdaşlığın yarandığını bildirdi və Azərbaycanda xarici şirkətlər üçün geniş fəaliyyət sahəsinin olduğunu qeyd etdi.*

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ Sİ CİNPİN İLƏ GÖRÜŞ

*Pekin*

*24 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşmüşdür.*

*Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

**S i  C i n p i n:** Cənab Prezident Əliyev, Sizi Pekində bir daha salamlayıram, qarşıdakı «Bir kəmər – bir yol» II Beynəlxalq Əməkdaşlıq Forumuna xoş gəlmisiniz! Azərbaycan tərəfi və şəxsən Siz Çin–Azərbaycan münasibətlərinin inkişafına, «Bir kəmər – bir yol» təşəbbüsünün birlikdə reallaşdırılmasına böyük diqqət yetirirsiniz. Biz bunu yüksək qiymətləndiririk.

Azərbaycan Avrasiya məkanında əməkdaşlıq üzrə Çinin əsas tərəfdaşlarından biridir. Siz həm də «Bir kəmər – bir yol» layihəsinin reallaşdırılmasına ilk olaraq münasibət bildirənlərdən və bu işdə fəal iştirak edənlərdən birisiniz. Sizin ölkəniz böyük İpək yolu üzərində yerləşir və bu yolun bərpasında təbii

tərəfdaşdır. Bizim əməkdaşlığımızın artıq bir sıra nəticələri var və bu əməkdaşlıq xalqlarımıza real fayda verir. Sizinlə birlikdə ortaq səylərimizlə «Bir kəmər – bir yol» layihəsinin reallaşdırılmasını davam etdirməyə, birgə inkişaf və firavanlıq naminə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı daim dərinləşdirməyə hazıram.

Cənab Prezident, Siz Çin xalqının çoxdankı dostusunuz, Çin–Azərbaycan münasibətlərinin və bütün sahələrdə əməkdaşlığın inkişafı üçün şəxsən daim səy göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və Sizinlə sıx əlaqə saxlamağa, ikitərəfli münasibətləri birlikdə sağlam məcrada inkişaf etdirməyə hazıram. Çin Kommunist Partiyası da Yeni Azərbaycan Partiyası ilə əlaqələri fəallaşdırmağa, dövlət idarəçiliyi təcrübəsini mübadilə etməyə, iki ölkə arasında qarşılıqlı etimadı möhkəmlətməyə hazırdır.

**İ l h a m Ə l i y e v:** Cənab Sədr, mənim ünvanıma söylədiyiniz və ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm. Mən Sizə ilk növbədə, dəvətə görə təşəkkür etmək istərdim. Biz «Bir kəmər – bir yol» forumunda iştirak etməyə dəvət olunmağımızı ölkəmizə xüsusi hörmət əlaməti, mənə münasibətdə dostluq əlaməti hesab edirik. Siz qeyd etdiniz ki, mən Sizin ölkənizin dostuyam, Azərbaycanda da Sizi Azərbaycanın xeyirxah dostu kimi tanıyırlar. Biz birgə səylərimizlə əməkdaşlığımızı inkişaf etdirir, bundan sonrakı qarşılıqlı fəaliyyətin yollarını müəyyən edirik.

Bu forumun keçirilməsi çox böyük əhəmiyyət kəsb edir. Siz qeyd etdiyiniz kimi, Azərbaycan lap əvvəldən

Sizin təşəbbüsünüzü dəstəkləyib və bu layihəni bizim irəli sürdüyümüz təşəbbüslər çərçivəsində fəal inkişaf etdirir. 2015-ci ildə Sizin ölkənizə dövlət səfərimi və burada mənə göstərilən qonaqpərvərliyi xatırlatmaq istərdim. O vaxt Sizinlə biz «İpək yolu İqtisadi Kəməri» haqqında Anlaşma Memorandumunu imzaladıq. Bu gün bizim siyasi münasibətlərimiz yüksək səviyyədədir. Biz beynəlxalq təşkilatlarda fəal qarşılıqlı əlaqə saxlayırıq.

* * *

*Çin Xalq Respublikasının Sədri Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu daxili və xarici siyasətinin həyata keçirildiyini, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artdığını, Azərbaycanda sabitliyin təmin olunduğunu, xalqımızın rifah halının yüksəldiyini, iqtisadi sahədə inkişafa nail olunduğunu bildirdi. O, Çinin Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəklədiyini vurğuladı. Si Cinpin «Bir kəmər – bir yol» layihəsi çərçivəsində Trans–Xəzər nəqliyyat dəhlizinin əhəmiyyətini qeyd etdi.*

*Prezident İlham Əliyev də öz növbəsində, Azərbaycanın «Vahid Çin» siyasətini ardıcıl surətdə dəstəklədiyini vurğuladı. Dövlət başçısı Çinin bütün sahələrdə əldə etdiyi böyük uğurlarla bağlı təbriklərini çatdırdı.*

*Söhbət zamanı infrastruktur, logistika, energetika, turizm, kənd təsərrüfatı, investisiya, informasiya-kommunikasiya texnologiyaları, təhsil və humanitar sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında əməkdaşlıq və beynəlxalq terrorizmə qarşı*

*mübarizə sahəsində əməkdaşlığın perspektivləri müzakirə olundu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpini ölkəmizə səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

## ÇİN KOMMUNİST PARTİYASI MƏRKƏZİ KOMİTƏSİ SİYASİ BÜROSUNUN ÜZVÜ VAN YAN İLƏ GÖRÜŞ

*Pekin*

*24 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Çin Xalq Siyasi Məşvərət Şurasının sədri Van Yan ilə görüşmüşdür.*

*Van Yan Azərbaycan Prezidentinin Çinə səfərinin ikitərəfli əlaqələrimizə töhfə verdiyini bildirdi. «Bir kəmər – bir yol» layihəsinin hərtərəfli əməkdaşlığı ehtiva edən geniş ictimai platforma olduğunu ifadə edən Van Yan Azərbaycanın və Çinin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəklədiyini vurğuladı və qeyd etdi ki, ölkələrimiz birgə səylərlə siyasi, iqtisadi, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığı daha da inkişaf etdirməlidir.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında bütün istiqamətlərdə əməkdaşlığın inkişafında müsbət dinamikanın olduğunu bildirdi. Azərbaycanın Çin dövlət başçısının təşəbbüskarı olduğu «Bir kəmər – bir yol»*

*layihəsinə mühüm əhəmiyyət verdiyini, bu təşəbbüsü dəstəkləyən ilk ölkələrdən olduğunu qeyd etdi və bildirdi ki, ölkəmizdə müasir nəqliyyat infrastrukturunun yaradılmasına xüsusi önəm verilir. Prezident İlham Əliyev «Bir kəmər – bir yol» II Beynəlxalq Əməkdaşlıq Forumuna dəvətə görə təşəkkür edərək, bunu Azərbaycana olan hörmətin və dostluğun nümunəsi kimi qiymətləndirdi. Dövlət başçısı bu səfərinin Azərbaycan ilə Çin arasında əməkdaşlığın inkişafına ciddi təkan verəcəyini bildirdi.*

*Söhbət zamanı Çin–Azərbaycan münasibətlərinin və iqtisadi sahədə əməkdaşlığın inkişafı, ticarət dövriyyəsinin artırılması, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək, investisiya qoyuluşu və digər məsələlər müzakirə olundu.*

## «HUAVEİ» ŞİRKƏTİNİN SƏDRİ LİAN XUA İLƏ GÖRÜŞ

*Pekin*

*25 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Pekində «Huavei» şirkətinin sədri Lian Xua ilə görüşmüşdür.*

*«Huavei» şirkətinin sədri Lian Xua artıq 15 ildən çox Azərbaycanda uğurla fəaliyyət göstərdiklərini bildirdi və onlara yaradılmış şəraitə görə dövlət başçısına təşəkkür etdi.*

*Prezident İlham Əliyev «Huavei» şirkətinin Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirdi, bu şirkətin informasiya-kommunikasiya texnologiyaları sahəsində dünyanın aparıcı şirkətlərindən biri olduğunu qeyd etdi. Həmçinin 2015-ci ildə Çinə dövlət səfəri zamanı «Huawei» şirkətinin fəaliyyəti ilə yaxından tanış olduğunu bildirdi. Azərbaycan ilə «Huavei» arasında əməkdaşlıq baxımından böyük perspektivlərin olduğunu vurğulayan dövlət başçısı bu şirkətin «BakuTel» sərgisində ənənəvi iştirakından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev İKT sahəsində ölkəmizdə həyata keçirilən islahatlardan söz açdı, bu sahədə*

*«Huavei» ilə əməkdaşlığın perspektivli olduğunu bildirdi.*

*Söhbət zamanı İKT infrastrukturu, «ağıllı» kənd təsərrüfatı, «ağıllı» şəhər və «ağıllı» ev, rəqəmsal iqtisadiyyat, rəqəmsal təhsil və digər sahələrdə reallaşdırıla biləcək layihələrlə bağlı fikir mübadiləsi aparıldı.*

## «CHİNA NATİONAL ELECTRİC ENGİNEERİNG» ŞİRKƏTİNİN PREZİDENTİ CAO HUY İLƏ GÖRÜŞ

*Pekin*

*25 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Pekində «China National Electric Engineering» şirkətinin prezidenti Cao Huy ilə görüşmüşdür.*

*«China National Electric Engineering» şirkətinin prezidenti Cao Huy aprelin 24-də Pekində Sumqayıt Kimya Sənaye Parkında Şin zavodunun tikintisi ilə əlaqədar Niyyət protokolunun imzalandığını bildirdi. Bundan əvvəl də ölkəmizdə müxtəlif sahələrə dair bir neçə layihəni həyata keçirdiklərini söyləyən Cao Huy Azərbaycandakı investisiya mühitindən, xarici sərmayədarlar üçün yaradılmış şəraitdən razı qaldıqlarını vurğuladı və buna görə dövlət başçısına təşəkkür etdi.*

*Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafının ölkəmizdə prioritet sahə olduğunu ifadə edərək, dünən müxtəlif sahələrdə əməkdaşlığa dair 10 sənədin imzalandığını, bununla da Azərbaycanın sənaye sahəsinə çoxlu sərmayənin yatırılacağını bildirdi. Sumqayıt Kimya Sənaye Parkında xüsusi vergi rejimlərinin tətbiq*

*edildiyini, bunun isə xarici sərmayədarlar üçün daha cəlbedici olduğunu diqqətə çatdıran dövlət başçısı «China National Electric Engineering» şirkətinin növbəti rezident kimi, Kimya Sənaye Parkında öz müəssisəsini yaratmasını yüksək qiymətləndirdi, bu müəssisənin Azərbaycanın ixrac imkanlarını artıracağını bildirdi. Dövlət başçısı ölkəmizdə yaxşı sərmayə imkanlarının olduğunu, Dünya Bankının «Doing Business» hesabatına görə Azərbaycanın 32 pillə irəliləyərək, dünyada ən çox islahat həyata keçirən 10 ölkə sırasında olduğunu vurğuladı. Bununla da Azərbaycanın böyük tərəqqiyə nail olduğunu qeyd edən Prezident İlham Əliyev ölkəmizdə xarici sərmayələrin yüksək səviyyədə qorunduğunu, bunun xarici investorlar üçün ölkəmizin cəlbediciliyini artırdığını vurğuladı.*

## «CHİNA POLY GROUP» KORPORASİYASININ SƏDRİ SU NİANŞA İLƏ GÖRÜŞ

*Pekin*

*25 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Pekində «China Poly Group» Korporasiyasının sədri Su Nianşa ilə görüşmüşdür.*

*Korporasiyanın sədri Su Nianşa Dünya İqtisadi Forumu çərçivəsində Davosda Azərbaycan Prezidenti ilə görüşünü xatırladaraq, bu görüşün onda böyük təəssürat yaratdığını bildirdi. O, rəhbərlik etdiyi şirkətin Azərbaycan ilə bir sıra sahələrdə əməkdaşlıq qurduğunu və ölkəmizdə fəaliyyətlərini genişləndirməkdə maraqlı olduqlarını söylədi.*

*Prezident İlham Əliyev Azərbaycanda sənaye müəssisələrinin yaradılması, kənd təsərrüfatı, İKT, turizm və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu qeyd etdi. Son illərdə turizm sektorunda böyük inkişafın və artımın müşahidə edildiyini qeyd edən dövlət başçısı viza rejiminin sadələşdirilməsi və elektron vizanın tətbiqi sayəsində Çindən ölkəmizə turist axınının sürətləndiyini bildirdi.*

*Söhbət zamanı əməkdaşlığın müxtəlif sahələri ilə bağlı geniş fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Pekin*

*26 aprel  2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Pekində Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşmüşdür.*

*Dövlət başçıları görüşdə çıxış etdilər.*

**V l a d i m i r  P u t i n:** Hörmətli İlham Heydər oğlu! Hörmətli dostlar!

Sizi görməyimə şadam. Bizim artıq, necə deyərlər, kuluarlarda bir-birimizlə qısaca söhbət etmək imkanımız olub. Sizinlə daha geniş tərkibdə söhbət etmək imkanına görə şadam. Sizinlə mütəmadi görüşürük, həm fikir mübadiləsi aparmaq, mövqelərimizi müqayisə etmək, həm də birgə işimizi bir növ təshih etmək imkanımız olur. Birgə işimiz isə, mənim fikrimcə, ümumiyyətlə, çox yaxşı gedir.

Ticari-iqtisadi əlaqələrimiz inkişaf edir. Biz əslində Sizin təşəbbüsünüzlə ticari-iqtisadi sahədə, demək olar ki, xüsusi qarşılıqlı fəaliyyət mexanizmi yaratmışıq. Zənnimcə, bu təşəbbüs yaxşı inkişaf edir. Sonra Rusiya və Azərbaycan tərəfindən olan həmkarlarımızdan bu barədə danışmalarını xahiş

edərik. Lakin bütövlükdə bizim münasibətlərin inkişafından məmnunuq. Əminəm ki, bu gün Sizinlə qarşılıqlı fəaliyyətimizin bütün aspektləri barədə danışacağıq. Sizi görməyimə çox şadam.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. Yeni görüşümüzə çox şadam. Bizim görüşlərimiz münasibətlərimizin inkişafına çox ciddi təkan verir. Biz müntəzəm olaraq görüşürük və bütün sahələrdə əməkdaşlığın, qarşılıqlı fəaliyyətin çox mühüm məsələlərini həll edirik. Münasibətlərimizin inkişafından çox məmnunuq. Onlar bütün sahələri əhatə edir və fəal siyasi dialoq aparılır. Biz əmtəə dövriyyəsinin artmasını müşahidə edirik. Sizin qeyd etdiyiniz kimi, konkret layihələrin inkişafı üçün xüsusi mexanizm mövcuddur. Biznes dairələri birgə işləməyə çox böyük maraq göstərir. Əlbəttə, nəqliyyat-logistika sahəsi əməkdaşlığın mühüm istiqamətidir. Burada da, energetika, kənd təsərrüfatı, humanitar əməkdaşlıq sahələrində də yaxşı nəticələrimiz vardır. Düşünürəm ki, qarşılıqlı münasibətlərin bugünkü səviyyəsi ikitərəfli və regional gündəliyə aid bir çox məsələləri həll etməyə imkan verir. Buna görə də əminəm ki, bizim indiki görüşümüz də dostluğa, mehriban qonşuluğa, qarşılıqlı dəstəyə, qarşılıqlı hörmətə əsaslanan münasibətlərimizin gələcək inkişafına yaxşı təkan verəcək. Biz bu münasibətləri çox dəyərləndirir və qiymətləndiririk və onların fasiləsiz inkişaf edəcəyinə ümid bəsləyirik. Bir daha sağ olun.

**V l a d i m i r P u t i n:** Ticarətə gəldikdə, keçən il bizdə əmtəə dövriyyəsi, demək olar ki, 14 faiz artıb və

2,5 milyard dollara çatıbdır. Beynəlxalq gündəlikdə də ortaq məsələlərimiz çoxdur. Biz razılığa gəlmişik ki, avqust ayında Rusiyada növbəti Rusiya–Azərbaycan–İran Sammiti keçirək. Belə ki, bu barədə də danışarıq.

* * *

*Görüşdə siyasi, iqtisadi, energetika, infrastruktur, investisiya, kənd təsərrüfatı, neft-qaz, nəqliyyat, sənaye, əczaçılıq, təhsil, mədəniyyət, humanitar sahələrdə əməkdaşlığın, o cümlədən Şimal–Cənub nəqliyyat dəhlizinin inkişaf perspektivləri müzakirə olundu. Hökumətlərarası birgə Komissiyanın uğurla fəaliyyət göstərdiyi bildirildi və iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edildi. Prezident Vladimir Putin bəyan etdi ki, Rusiya bundan sonra da Minsk qrupunun həmsədr ölkəsi kimi, münaqişənin həlli istiqamətində səylərini əsirgəməyəcəkdir.*

*Azərbaycan Prezidenti İlham Əliyev həmsədr ölkə qismində Rusiyanın bu münaqişənin həllində səylərini yüksək qiymətləndirdi. Ölkələrimiz arasında dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.*

## «BİR KƏMƏR – BİR YOL» II BEYNƏLXALQ ƏMƏKDAŞLIQ FORUMUNDA İŞTİRAK

*Pekin*

*26 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 26-da Pekində «Bir kəmər – bir yol» II Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak etmişdir.*

*Forumda 37 dövlət və hökumət başçısı, beynəlxalq təşkilatların rəhbərləri iştirak etdilər. Builki foruma Azərbaycan, Rusiya, Pakistan, Qazaxıstan, Avstriya, Belarus, Çexiya, Yunanıstan, Macarıstan, İtaliya, Serbiya, Sinqapur, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrin liderləri qatılıblar. «Bir kəmər – bir yol əməkdaşlığı, ümumi parlaq gələcəyin qurulması» mövzusunda keçirilən forum çərçivəsində 12 panel iclası və digər tədbirlər təşkil olunacaqdır.*

*«Bir kəmər – bir yol» II Beynəlxalq Əməkdaşlıq Forumun açılışı mərasimində çıxış edən Çin Xalq Respublikasının Sədri Si Cinpin bütün qonaqlara təşəkkürünü bildirdi. İlk forumdan sonra təşəbbüsü dəstəkləyən ölkələr arasında səmərəli əməkdaşlığın qurulduğunu qeyd edən Çinin dövlət başçısı hazırda*

*«Bir kəmər – bir yol» təşəbbüsünün 150 ölkə tərəfindən dəstəkləndiyini, bu sıraya bir sıra nüfuzlu beynəlxalq təşkilatların da daxil olduğunu diqqətə çatdırdı. «Bu da göstərir ki, bizim təşəbbüs bütün dünyanı əhatə edir» – deyən Si Cinpin həmin təşəbbüsün dünyanın inkişafında yeni mərhələ olduğunu diqqətə çatdırdı. O, «Bir kəmər – bir yol» layihəsinin həm də ölkələr arasında ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığı da əhatə etdiyini vurğuladı. Çin lideri iqtisadi, ticari, maliyyə və digər sahələrdə xüsusi əhəmiyyəti ilə seçilən bu təşəbbüsün qədim İpək yolu üzərində yeni dəyərlərin formalaşmasına da dəstək göstərdiyini, qloballaşmanın iqtisadiyyata mənfi təsirlərini azaltdığını, bu layihənin beynəlxalq səviyyədə yüklərin daşınmasına və beləliklə də milli gəlirlərin artmasına, regional inkişafa ciddi təkan verdiyini bildirdi. Həmin layihənin həyatın bütün sahələrinə, xüsusilə də sosial məsələlərə inkişaf baxımından ciddi təsir göstərdiyini ifadə edən Çinin dövlət başçısı mədəni-humanitar əlaqələrin genişlənməsində də yeni mərhələnin başlandığını vurğuladı.*

*Sonra Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev, Misir Prezidenti Əbdülfəttah Sisi, Malayziyanın Baş Naziri Mahathir Məhəmməd, Pakistanın Baş Naziri İmran Xan, BMT-nin Baş katibi Antonio Quterreş «Bir kəmər – bir yol» təşəbbüsünün əhəmiyyətindən danışdılar. Onlar bəşəriyyəti narahat edən məsələlərə diqqət çəkdilər, mövcud problemlərin həllində və dünya iqtisadiyyatının dinamik inkişafında bu layihənin böyük*

*rol oynadığını bildirdilər. Bununla da forumun birinci hissəsi başa çatdı.*

*Forumun ikinci hissəsi dövlət başçıları səviyyəsində «Daha parlaq birgə gələcəyin qurulması» mövzusuna həsr olundu.*

*Dövlət başçısı yüksək səviyyəli bu görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli həmkarlar!

Xanımlar və cənablar!

İlk növbədə, bu foruma dəvətə görə sədr Si Cinpinə minnətdarlığımı bildirmək istəyirəm. Biz bunu Azərbaycan ilə Çin arasında dostluğun və tərəfdaşlığın göstəricisi hesab edirik. Bu il Çin Xalq Respublikasının yaradılmasının 70-ci ildönümü qeyd edilir. Bu münasibətlə sədr Si Cinpini və Çin xalqını təbrik edirəm. Bu illər ərzində Çin Xalq Respublikası bütün sahələrdə tərəqqi və inkişafa nail olub. Azərbaycan lap əvvəldən sədr Si Cinpin tərəfindən irəli sürülmüş «Bir kəmər – bir yol» təşəbbüsünü dəstəkləyib. Bu layihə yalnız nəqliyyat bağlılığını təmin etmir. O həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır.

Azərbaycanın sürətli iqtisadi inkişafı bizə ölkəni transformasiya etməyə kömək etdi. Ötən 15 ildə iqtisadiyyatımız 3 dəfədən çox artıb. Yatırılan 260 milyard

dollar həcmində sərmayə bizə ölkəmizi müasirləşdirməyə və müasir infrastrukturu, o cümlədən nəqliyyat sahəsində infrastrukturu yaratmağa kömək etdi. Azərbaycanın çox aşağı səviyyədə xarici borcu vardır. Bu bizim ümumi daxili məhsulun təxminən 19 faizini təşkil edir. Bizim ehtiyatlarımız xarici borcumuzdan 5 dəfə çoxdur. Azərbaycanın builki iqtisadi göstəriciləri artımın olduğunu nümayiş etdirir. Ümumi daxili məhsul 3 faiz artıb, inflyasiyanın səviyyəsi 2,1 faizdir və iqtisadiyyatın şaxələnməsi bizim əsas məqsədlərimizdən biridir.

Azərbaycanın çox böyük neft və qaz ehtiyatları vardır. Biz neft və qazımızı beynəlxalq bazarlara nəql etmək üçün çoxsaylı boru kəmərləri çəkmişik və əsas hədəfimiz iqtisadiyyatımızı şaxələndirmək, insan kapitalına investisiya yatırmaq və inkişaf üçün dayanıqlı imkanlar yaratmaqdır. Şaxələndirməyə gəldikdə, bizim diqqətimiz əsasən sənayenin, kənd təsərrüfatının, turizmin, xidmətlər sektorunun, informasiya və kommunikasiya texnologiyalarının inkişafına yönəlib. İnfrastruktur layihələri bizim üçün çox önəmlidir və biz müasir infrastrukturun yaradılmasına sərmayə yatırmaq üçün maliyyə resurslarımızdan istifadə etdik. Azərbaycanda qazlaşdırılma səviyyəsi 95 faiz təşkil edir, Azərbaycan elektrik enerjisini, neft və qazı ixrac edən ölkədir. Nəqliyyat sahəsinə investisiyaların yatırılması bizim əsas prioritetlərimizdən biridir.

Üç il öncə Azərbaycan və Çin «İpək yolu İqtisadi Kəməri»nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalayıb. Müasir nəqliyyat

infrastrukturunun yaradılması Azərbaycanın prioritetləri sırasındadır. Coğrafi mövqeyimizdən bəhrələnərək, biz Asiya ilə Avropa arasında körpülərin qurulmasına investisiya yatırdıq.

Açıq dənizə çıxışı olmayan ölkə olmağımıza baxmayaraq, biz Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirmişik. Bizi qonşularımızla birləşdirən şaxələnmiş dəmir yolu şəbəkəsi yaratmışıq. Azərbaycanda son 15 ildə 15 min kilometr yol və avtomagistrallar çəkilib. Davos Dünya İqtisadi Forumun hesablamalarına görə Azərbaycan yolların keyfiyyətinə görə dünyada 34-cü yerdədir.

İnfrastrukturun inkişafına, həmçinin çox əlverişli biznes mühitinin yaradılması ilə dəstək verilir. Qeyd etdiyim kimi, 260 milyard dollar həcmində investisiya yatırılıb və bunun yarısını xarici investisiyalar təşkil edir. Bu gün Azərbaycandakı biznes mühiti dünyada olan ən qabaqcıl biznes mühitlərindən biridir. Dünya Bankının ən son «Doing Business» hesabatına görə, Azərbaycan biznes mühiti üzrə 25-ci pillədədir və bir il ərzində biz mövqemizi əsaslı şəkildə yaxşılaşdırmışıq. İndi Azərbaycan dünyada ən çox islahat aparan 10 ölkə sırasındadır.

Nəqliyyat infrastrukturundan danışarkən hava nəqliyyatına qoyulan investisiyaları əlavə etmək istəyirəm. 6 beynəlxalq aeroport müasir nəqliyyat infrastrukturunun yaradılmasına növbəti töhfəmizdir. Heydər Əliyev Beynəlxalq Aeroportu «Skytrax» Beynəlxalq Nəqliyyat Reytinq Agentliyi tərəfindən ən yaxşı regional hava limanı kateqoriyasında 5 ulduza

layiq görülüb. 2017-ci ildə istifadəyə verilmiş Bakı–Tbilisi–Qars dəmir yolu xətti təkcə 3 ölkəni birləşdirən regional layihə deyil. O eyni zamanda, qitələri birləşdirir, Asiya və Avropa arasında vacib bağlantıdır. Bu dəmir yolu Şərq–Qərb nəqliyyat dəhlizinin mühüm hissəsidir. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisini tamamlamaq üçün tərəfdaşlarımızla bizə çoxlu vaxt tələb olundu və bu gün bu dəmir yolu Avrasiyada nəqliyyatda çox mühüm rol oynayır.

Azərbaycanın sərmayə yatırdığı daha bir əhəmiyyətli nəqliyyat layihəsi Şimal–Cənub dəhlizidir. Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərində yerləşən ölkələr öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edir. Buna görə də müasir infrastrukturun yaradılmasına yatırdığımız investisiyalar yalnız iqtisadi potensialımızın artırılmasına və bizim dost, tərəfdaş qonşularımıza xidmət göstərməyimizə kömək etmir, bu həm də ticarət, turizm, nəqliyyat sahələrində nadir imkan yaradır və xalqları, ölkələri birləşdirir. Ölkələr bir-birinə bağlanır və bu, sülh və sabitlik amalına xidmət edir. Beləliklə, Azərbaycan müasir nəqliyyat infrastrukturuna malik vacib tranzit ölkəyə çevrilib. Ötən il istifadəyə verilmiş Lapis-Lazuli marşrutu Bakı–Tbilisi–Qars dəmir yolu xəttinə birləşərək, Azərbaycanın tranzit potensialını daha da artırıb. Bu gün Azərbaycan sayı artmaqda olan ölkələr üçün tranzit imkanlarını təmin edir. Azərbaycan Xəzər dənizində 260 gəmidən ibarət ən böyük donanmaya malikdir. Azərbaycanda fəaliyyət göstərən və nisbətən yaxın

vaxtlarda tikilmiş Gəmiqayırma zavodu istənilən növ gəmini inşa edə bilər. Ötən il biz 15 milyon ton yük və 100 min konteyner yükaşırma qabiliyyətinə malik Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanını istifadəyə verdik. Gələcəkdə onun imkanları 25 milyon ton və 1 milyon konteynerə qədər artırılacaqdır.

Müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla, biz yalnız ölkəmizi mühüm nəqliyyat mərkəzinə çevirmədik. Eyni zamanda, biz Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri layihələrində iştirak edən ölkələr arasında əməkdaşlığa töhfə verdik. Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. «Bir kəmər – bir yol» təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir.

Sülh və təhlükəsizlik haqqında danışarkən, Ermənistan və Azərbaycan arasında olan münaqişəni qeyd etmək istəyirəm. Təəssüflər olsun ki, 25 ildən çox müddət ərzində Azərbaycanın beynəlxalq səviyyədə tanınan əraziləri Ermənistanın işğalı altındadır. İşğal nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilibdir. İnsanlarımız etnik təmizləməyə məruz qalıb və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası erməni qoşunlarının ərazimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edibdir. Əfsuslar olsun ki, bu qətnamələr yerinə yetirilmir. Bu,

təkcə bizim ölkə üçün yox, regional sabitlik və sülh üçün ciddi bir problemdir. Ermənistan və Azərbaycan arasında olan münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Yekunda mən bir daha Azərbaycanı bu mühüm foruma dəvət etdiyinə görə sədr Si Cinpinə səmimi təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, Azərbaycanın gələcək iştirakı insanlar və xalqlar arasında körpülərin qurulmasında öz rolunu oynamağa davam edəcəkdir. Çox sağ olun.

## «BİR KƏMƏR – BİR YOL» II BEYNƏLXALQ ƏMƏKDAŞLIQ FORUMUNDA İŞTİRAK EDƏN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*Pekin*

*26 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Çin Xalq Respublikasının Sədri Si Cinpinin və xanımı Pen Liyuanın adından «Bir kəmər – bir yol» II Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edən dövlət və hökumət başçılarının şərəfinə verilmiş ziyafətdə iştirak etmişdir.*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Yüz illər boyu Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh, qarşılıqlı hörmət və etimad şəraitində yaşaması müasir dünyada ölkəmizi nümunəvi tolerantlıq məkanı və multikulturalizm mərkəzlərindən biri kimi tanıdıbdır. Etnik və dini müxtəlifliyin və multikultural ənənələrin qorunub saxlanılması və təşviqi dövlət siyasətimizin prioritet istiqamətlərindən biridir. Azərbaycanın bu sahədə zəngin təcrübəsi açıq şəkildə göstərir ki, multikulturalizm cəmiyyətdə həmrəyliyi, harmoniyanı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan xristian icması digər dini etiqadların mənsubları ilə birgə respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində, ictimai-siyasi və sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edir. Əminəm ki, xristian həmvətənlərimiz bundan

sonra da ümumi evimiz olan Azərbaycanın daha da güclənməsi naminə səylərini əsirgəməyəcəklər.

Dirçəlişi, yeniliyi, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirən Pasxa bayramı insanların qəlbində inam və gələcəyə ümid hissi oyadır, onları xeyirxahlığa yönləndirir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 aprel 2019-cu il*

## «FORMULA-1» ÜZRƏ DÜNYA ÇEMPİONATININ DÖRDÜNCÜ MƏRHƏLƏSİNİN SOCAR AZƏRBAYCAN QRAN-PRİSİNİN YARIŞINA BAXIŞ

*28 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 28-də Bakıda «Formula-1» üzrə dünya çempionatının dördüncü mərhələsinin – SOCAR Azərbaycan Qran-prisinin əsas yarışına baxmışlar.*

*Əvvəlcə pilotların paradı və açılış mərasimi oldu.*

*«Formula-1» Azərbaycan Qran-prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılış mərasimi maraqlı anları ilə yadda qaldı.*

*«Formula-1» şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının «Gələcəyin ulduzları» adlı birgə təşəbbüsü çərçivəsində qəbul etdiyi qərara əsasən, keçənilki mövsümdən etibarən həm parad, həm də himn mərasimlərində pilotlar azyaşlılar tərəfindən müşayiət olunurlar.*

*Əvvəlcə builki yarış üçün xüsusi tərtib olunmuş kubok təqdim edildi.*

*Açılış mərasiminə Azərbaycan Respublikasının Dövlət himninin ifası ilə start verildi.*

*Dövlət himni tanınmış bəstəkar Azad Vəliyevin yeni aranjimanında səsləndirildi. Himni Azərbaycanın*

*Əməkdar artistləri Bəyimxanım Vəliyeva və Nurlan Növrəsli birlikdə müvafiq olaraq, muğam və klassik üslublarda ifa etdilər. Onları Əməkdar artistlər – tarda Şəhriyar İmanov, nağarada Kamran Kərimov, violonçeldə Emin Qaliyev və bəm nağarada Hüsaməddin Əzizov müşayiət etdilər.*

*Dövlət himninin ifa olunmasından sonra «Formula-1» Azərbaycan Qran-prisinin 51 dövrədən ibarət əsas yarışı başlandı.*

*Final mərhələsində hər birində 2 pilot olan 10 komanda mübarizə apardı. Ötən gün keçirilən sıralama yürüşünün nəticəsinə əsasən, start, xəttinə ən yaxın məsafədə «Mersedes» komandasının sürücüləri Luis Hamilton və Valtteri Bottas, «Ferrari» komandasının pilotu Sebastian Fettel dayandılar.*

*Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş hissəsinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.*

*Gərgin idman mübarizəsinin yekununda «Mersedes» komandasının pilotu Valtteri Bottas «Formula-1» SOCAR Azərbaycan Qran-prisinin qalibi adını qazandı. O, 51 dövrəni hamıdan tez – 1 saat 31 dəqiqə 52,942 saniyəyə başa vurdu.*

*Ondan 1,524 saniyə geri qalan komanda yoldaşı, keçənilki Bakı Qran-prisinin qalibi Luis Hamilton ikinci oldu. İlk üçlüyü liderə 11,739 saniyəlik fərqlə*

*uduzan «Ferrari» komandasının sürücüsü Sebastian Fettel tamamladı.*

*«Mersedes» komandası bu qələbə ilə «Formula-1» üzrə dünya çempionatları tarixində yeni rekorda imza atdı. Belə ki, ilk dəfə olaraq, ardıcıl 4 Qran-pridə bir komandanın hər iki pilotu yürüşləri ilk 2 pillədə başa vurdu.*

*Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirildi.*

*Əvvəlcə qalib idmançının və komandanın şərəfinə müvafiq olaraq, Finlandiyanın və Almaniyanın Dövlət himnləri səsləndirildi.*

*Qran-prinin qalibi Valtteri Bottasa kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi.*

*Dövlət başçısı Konstruktorlar kubokunu «Mersedes» komandasının nümayəndəsinə təqdim etdi.*

*2-ci yerin sahibi, «Mersedes»in sürücüsü Luis Hamiltona kuboku Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov, 3-cü yeri tutan «Ferrari» komandasının sürücüsü Sebastian Fettelə isə kuboku Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim etdi.*

*Beləliklə, «Formula-1» üzrə dünya çempionatının dördüncü mərhələsindən – Azərbaycan Qran-prisindən sonra pilotların mübarizəsinə 87 xalla «Mersedes»in sürücüsü Valtteri Bottas liderlik edir. Komanda yoldaşı Luis Hamilton ondan 1 xal geri qalır. «Ferrari» komandasının almaniyalı pilotu Sebastian Fettel 52 xalla 3-cü, «Red Bull Racing Honda»nın hollandiyalı pilotu Maks Ferstappen 51 xalla 4-cü, «Ferrari»nin Monakodan olan sürücüsü Şarl Lekler isə 47 xalla 5-ci pillədə qərarlaşıblar.*

*Konstruktorların yarışında isə «Mersedes» komandası 173 xalla 1-ci sıradadır. 2-ci yerdə qərarlaşan «Ferrari» komandasının 99, 3-cü pillədəki «Red Bull Racing Honda»nın 64 xalı vardır.*

*Builki Bakı yarışı «Formula-1» idmanı tarixində sayca 1001-ci Qran-pridir. Çində təşkil olunmuş «Formula-1» üzrə 1000-ci Qran-pridə qələbə qazanmış Luis Hamilton 2 yubiley Qran-prisinin qalibi olan ilk pilot kimi tarixə düşüb. Belə ki, o, 2014-cü ildə Bəhreyndə təşkil olunmuş 900-cü Qran-pridə də qələbə qazanmışdır.*

*Bakıda «Formula-1» Azərbaycan Qran-prisinə aprelin 26-da start verilib. Yarışın 1-ci günündə pilotlar Bakı trekində 2 sərbəst yürüşdə güclərini sınayıblar. Ötən gün keçirilmiş sıralama yürüşündən sonra isə Qran-pridə pilotların düzülüşü müəyyənləşib. «Formula-1» Azərbaycan Qran-prisi çərçivəsində Bakıda «Formula-2» yarışları da keçirilibdir.*

*Xatırladaq ki, «Formula-1» yarışı Azərbaycanda 4-cü ildir təşkil olunur. 2016-cı ildə keçirilmiş 1-ci yarışda – «Formula-1» Avropa Qran-prisində «Mersedes» komandasının almaniyalı pilotu Niko Rosberq qalib gəldi. 2017-ci ildə təşkil olunmuş «Formula-1» Azərbaycan Qran-prisi «Red Bull Racing Honda» komandasının avstraliyalı pilotu Daniel Rikkardonun qələbəsi ilə başa çatdı. Keçənilki Qran-pridə isə «Mersedes» komandasının britaniyalı sürücüsü Luis Hamilton qələbə qazandı.*

## XORVATİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ MARİYA BURİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Xorvatiya Respublikası Baş Nazirinin müavini, Xarici İşlər və Avropa Məsələləri naziri xanım Mariya Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Xorvatiyaya səfərini məmnunluqla xatırladaraq, orada aparılan danışıqların və müzakirələrin səmərəli olduğunu qeyd etdi və bu səfərin ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlıq həyata keçirdiklərini vurğulayaraq, əlaqələrimizin gələcəkdə də genişlənəcəyinə əminliyini ifadə etdi. Dövlət başçısı Mariya Buriçin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin möhkəmlənməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Xanım Mariya Buriç ilk növbədə, Xorvatiyanın Baş Naziri Andrey Plenkoviçin salamlarını dövlət başçısına çatdırdı. Mariya Buriç Prezident İlham Əliyevin Xorvatiyaya səfərinin çox uğurlu keçdiyini və səfər zamanı əlaqələrimizin daha da möhkəmlənməsi baxımından məhsuldar müzakirələrin aparıldığını*

*qeyd etdi. O, səfəri çərçivəsində Xorvatiyanın Azərbaycandakı səfirliyinin rəsmi açılışında iştirak edəcəyini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Xorvatiya Respublikasının Baş Naziri Andrey Plenkoviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Xorvatiyanın Baş Nazirinə çatdırmağı xahiş etdi.*

## ARGENTİNA RESPUBLİKASI MİLLİ KONQRESİNİN DEPUTATLAR PALATASININ SƏDRİ EMİLİO MONZO İLƏ GÖRÜŞ

*29 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Argentina Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzonu qəbul etmişdir.*

*Azərbaycan ilə Argentinanın bir sıra sahələrdə əməkdaşlıq həyata keçirdiklərini diqqətə çatdıran Prezident İlham Əliyev müxtəlif səviyyəli qarşılıqlı səfərlərin rolunu qeyd etdi. Dövlət başçısı iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğuladı. Qəbula görə minnətdarlığını bildirən Emilio Monzo Argentina Respublikasının Prezidenti Maurisio Makrinin salamlarını dövlət başçısına çatdırdı. O, Prezident İlham Əliyevin Azərbaycanın hüdudlarından kənarda, o cümlədən Argentinada böyük nüfuza malik olduğunu və dövlət başçımızın siyasəti nəticəsində Azərbaycanın digər ölkələrlə yaxşı dostluq münasibətləri qurduğunu məmnunluqla qeyd etdi. Emilio Monzo ölkəsinin Azərbaycanla əlaqələrin hərtərəfli inkişaf etdirilməsində maraqlı olduğunu vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Argentina arasında siyasi əlaqələrin inkişafından məmnunluq ifadə olundu, iqtisadi, ticarət, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd edildi.*

*Dövlət başçısı Argentina Respublikasının Prezidenti Maurisio Makrinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Argentina Prezidentinə çatdırmağı xahiş etdi.*

## ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİNİN MÜAVİNİ CORC KENT İLƏ GÖRÜŞ

*30 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kenti qəbul etmişdir.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın inkişafından məmnunluğunu ifadə etdi, əlaqələrimizin siyasi, iqtisadi, ticarət, enerji, təhlükəsizlik və digər sahələrdə genişləndiyini vurğuladı. Azərbaycanın ABŞ ilə ikitərəfli əlaqələri tərəfdaşlıq müstəvisində davam etdirmək niyyətində olduğunu söyləyən dövlət başçısı son dövrlər ərzində ölkələrimiz arasında qarşılıqlı təmasların və tədbirlərin əhəmiyyətini vurğuladı və bu müsbət dinamikanın davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Keçən ilin oktyabrında Azərbaycana səfərini xatırladan ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent ikitərəfli əlaqələrimizdə olan bu müsbət dinamikanı davam etdirmək məqsədilə ölkəmizə səfər etdiyini diqqətə çatdırdı, ABŞ Prezidentinin Milli Təhlükəsizlik məsələləri*

*üzrə müşaviri Con Boltonun ölkəmizə səfəri və onun ardınca aparılan danışıqların əhəmiyyətini vurğuladı.*

*Görüşdə dövlətimizin başçısı ABŞ Prezidenti Donald Trampın «Cənub Qaz Dəhlizi» layihəsinə göstərdiyi dəstəyi yüksək dəyərləndirdi.*

*ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent öz növbəsində, Azərbaycanın Əfqanıstanda «Qətiyyətli dəstək» missiyası çərçivəsində NATO-ya üzv və tərəfdaş dövlətlər, o cümlədən ABŞ üçün təmin edilən tranzit-logistika dəstəyinə görə minnətdarlığını ifadə etdi.*

*Söhbət zamanı ölkəmizin demokratik inkişafı, məhkəmə-hüquq sistemi və sosial-iqtisadi sahədə aparılan islahatlara dair fikir mübadiləsi aparıldı.*

## NAZİRLƏR KABİNETİNİN İLİN BİRİNCİ RÜBÜNÜN YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*30 aprel 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 30-da Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlət başçısı iclasda giriş nitqi söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Bu ilin yanvar ayında 2018-ci ilin yekunlarını müzakirə edərkən mən əminliklə ifadə etdim ki, 2019-cu il ölkəmiz üçün uğurlu il olacaq. Biz ötən il keçirilmiş Prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə qədəm qoyduq. Prezident seçkiləri ərəfəsində islahatların anonsu verildi və islahatların məqsədyönlü şəkildə həyata keçirilməsi üçün çox ciddi addımlar atıldı, hazırlıq işləri aparıldı. Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər

ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmayıbdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edilib, insanların rifah halı yaxşılaşıb və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılıbdır.

Bildiyiniz kimi, Prezident seçkilərindən sonra imzaladığım ilk fərman şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı idi. Çox ciddi fərman idi və onun icra edilməsi nəticəsində 12 mindən çox şəhid ailəsi dövlət tərəfindən 11000 manat məbləğində vəsait alacaq. Artıq vəsaitin verilməsi prosesi başlanılıb. Əlbəttə, islahatların davam etdirilməsi üçün biz çox ciddi işləməliyik, daim inkişafda, axtarışda olmalıyıq. Dünya dəyişir, vəziyyət dəyişir, qarşımızda yeni çağırışlar dayanır. Ona görə biz daim irəliyə baxıb düşünməliyik ki, ölkəmizi necə inkişaf etdirək və inkişafı dayanıqlı və uzunmüddətli edək.

İlin əvvəlindən Azərbaycan iqtisadiyyatında baş vermiş müsbət dəyişikliklər bizim potensialımızı gücləndirir, əhali tərəfindən yüksək qiymətləndirilir və bizə əlavə maliyyə resursu əldə etmək üçün şərait yaradır. Birinci rübdə büdcə daxilolmaları ciddi şəkildə – 200 milyon manatdan çox artıb. Bunun 150 milyon manatdan çox hissəsini vergi sahəsində, 50 milyon manatı isə gömrük sahəsində əldə etmişik. Sevindirici hal ondan ibarətdir ki, vergi orqanları qeyri-neft sektorundan daha çox – 136 milyon manat vergi toplaya bilib. Bu, islahatların bariz nümunəsidir.

Sahibkarlar da bilirlər ki, onlar dövlətin vergisini tam ödəməlidirlər. Şəffaflıq və yeni yanaşma nəticəsində biz birinci rübdə böyük məbləğdə əlavə vəsait əldə etmişik. Əlbəttə, bu, imkan yaratdı ki, biz bu vəsaiti ilk növbədə, sosial sahəyə yönəldə bilək. Son illərdə həm sosial, həm infrastruktur sahələrində, insanların rifah halının yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılıbdır. Büdcə daxilolmalarının artımı əminəm ki, ilboyu müşahidə olunacaq. Çünki aparılan islahatlar və yeni yanaşma prinsipləri bunu deməyə əsas verir. Beləliklə, bizdə əlavə maliyyə resursu formalaşacaqdır.

İqtisadi və sosial sahədə aparılan siyasət rəqəmlərdə də özünü büruzə verir. Beləliklə, ilin birinci rübündə ümumi daxili məhsul 3 faiz artıbdır. Bu, son bir neçə il ərzində ən yüksək göstəricidir və əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaqdır. Çünki görülən işlər bunu deməyə əsas verir. Sənaye istehsalı 4,4 faiz artıb. Bu da yaxşı göstəricidir. Amma bundan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artıbdır. Bax, gördüyümüz işlərin nəticəsi budur və sənaye istehsalının, xüsusilə qeyri-neft sektorunda sənaye istehsalının artırılması bizim siyasətimizin bariz nümunəsidir. Kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirləri isə 5,5 faiz artıb. İnflyasiya aşağı səviyyədədir – 2,1 faiz. Ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulub. Bu sərmayənin 2 milyardı ölkəmizin qeyri-neft sektoruna yatırılıb. Biz burada da müsbət dinamikanı görürük. Çünki bizim əsas məqsədimiz, əsas vəzifəmiz qeyri-

neft sektorunun inkişafıdır. Sərmayənin cəlb edilməsi, əlbəttə ki, hər bir ölkə üçün, o cümlədən bizim üçün çox önəmli məsələdir. Əgər əvvəlki illərdə daha çox neft-qaz sektoruna sərmayə qoyuluşu təmin edilirdisə, hazırda biz bunu qeyri-neft sektorunda görürük və bu da aparılan işlərin nəticəsidir. Çünki Azərbaycanda biznes mühiti yaxşılaşır, sərmayə qoyuluşu üçün daha yaxşı şərait yaradılır, həm yerli, həm xarici sərmayələr dövlət tərəfindən lazımi səviyyədə qorunur. Beləliklə, biz xarici və daxili sərmayəni cəlb etməklə, ölkəmizi inkişaf etdiririk. Əlbəttə, Azərbaycana sərmayə qoyuluşunun perspektivləri üçün apardığımız islahatlar başlıca rol oynayır. Bildiyiniz kimi, Dünya Bankı «Doing Business» hesabatında Azərbaycanı 25-ci yerə layiq görüb. Biz il ərzində 32 pillə irəliləmişik və ən islahatçı 10 ölkə sırasında yer almışıq. Əlbəttə, xarici investorlar da, yerli sahibkarlar da bunu görürlər, bilirlər və beləliklə, Azərbaycana sərmayə qoyuluşu prosesi əminəm ki, bundan sonra da təmin ediləcəkdir.

Beləliklə, əsas iqtisadi və sosial göstəricilər müsbətdir, dinamika təmin edilir. Əlavə gəlirlərimiz imkan verir ki, biz sosial məsələlərin həllində daha fəal olaq və daha böyük işlər görək. Bildiyiniz kimi, ilin əvvəlindən çox böyük həcmli sosial paket təqdim edildi, təsdiqləndi, müvafiq fərmanlar imzalandı. Bu prosesə hazırlığı biz keçən ildən başlamışdıq və Prezident seçkilərindən sonra andiçmə mərasimində əslində görüləcək işlərlə bağlı mənim tərəfimdən göstərişlər verildi, yeni yanaşmanın konturları müəyyən edildi. Əlavə maliyyə vəsaiti imkan verir ki,

biz sosial sahəni daha da gücləndirək. Minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz artıb, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər artıbdır. Nəyin hesabına? Əlbəttə ki, islahatların hesabına. Ona görə ki, biz daha səmərəli işləyirik, şəffaflığı təmin edirik, biznes mühiti yaxşılaşır. Bu bizə imkan verir ki, bu məsələləri həll edək.

Digər önəmli məsələ problemli kreditlərlə bağlı idi. Bu məsələ Azərbaycanda ən yüksək səviyyədə həll olundu. Bildiyiniz kimi, bir neçə il bundan əvvəl neftin qiymətinin kəskin, təqribən 4 dəfə düşməsi nəticəsində neft ixrac edən ölkələr böyük çətinliklərlə üzləşdilər. O ölkələrdə milli valyuta qiymətdən düşdü, o cümlədən Azərbaycanda da. Bu, qaçılmaz hal idi. Ancaq biz qısa müddət ərzində vəziyyəti sabitləşdirə bildik. 2016–2017-ci illərdə iqtisadi və makroiqtisadi sabitliyin təmin edilməsi üçün addımlar atıldı. Baxmayaraq ki, o illərdə inflyasiya yüksək səviyyədə idi. Ancaq biz vəziyyəti sabitləşdirə bildik və beləliklə, inkişaf üçün zəmin yaratdıq. Təbii ki, bizim iqtisadi və maliyyə imkanlarımız artdıqca ilk növbədə, vətəndaşları narahat edən bu məsələni həll etdik, özü də ən yüksək səviyyədə. Bir neçə ölkədə bu məsələ ilə bağlı müəyyən addımlar atılmışdır, müqayisə aparmaq istəmirəm. Ancaq deyə bilərəm ki, bu məsələ ən genişmiqyaslı və vətəndaşları təmin edəcək şəkildə, ədalətli şəkildə Azərbaycanda həll olunub. Nə üçün? Ona görə ki, bizim siyasətimizin

mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz Azərbaycan vətəndaşının rifahı üçün əlimizdən gələni edirik. Beləliklə, yüz minlərlə insanı narahat edən bu məsələ də uğurla həll olundu. Yəni kompensasiyaların verilməsi prosesi başlanılıb və əminəm ki, qısa müddət ərzində başa çatacaqdır.

Digər məsələ vaxtilə tikilmiş, ancaq istismara qəbul edilməmiş evlərlə bağlı idi. Çoxmənzilli binalarda yaşayan vətəndaşlar əziyyət çəkirdilər, çünki o binalarla bağlı sənədləşmə işləri aparılmamışdır, müəyyən çatışmazlıqlar var idi. Ona görə bu məsələ ilə bağlı da fərman imzalandı və indi komissiya işləyir. Artıq evlərin, mənzillərin sənədləşməsi prosesinə başlanılıb. Mən bu yaxınlarda göstəriş verdim ki, bu işlər daha da sürətlə getsin və o qüsurlar tezliklə aradan qaldırılsın, bu məsələ də öz həllini tapsın.

Beləliklə, görülən bu işlər nəticəsində 3 milyon insan imzalanmış fərmanlardan bu və ya digər formada faydalanıb, vətəndaşların maddi vəziyyəti yaxşılaşıb, onları narahat edən problemlər öz həllini tapıbdır. Gələcəkdə biz bu istiqamətdə addımlarımızı atacağıq. Əminəm ki, qarşıda duran bütün vəzifələr uğurla icra ediləcək. Tam əminlik vardır. Ölkə uğurla inkişaf edir. Ölkəmizdə sabitlik təmin olunur. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Siyasətimizə göstərilən dəstək bizi gücləndirir. Əlbəttə, biz daha inamla irəliyə, nikbinliklə gələcəyə baxırıq. Çünki ölkə qarşısında duran bütün vəzifələr icra edilir.

Bu ilin yanvar ayında regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramı qəbul edilibdir.

Bu da çox önəmli hadisədir. Üçüncü proqram uğurla və artıqlaması ilə icra edilibdir. 3 proqramın icrası nəticəsində ölkəmizdə bir çox önəmli məsələlər öz həllini tapıb, o cümlədən sosial infrastruktur sahəsində. 3200-dən çox məktəb tikilib və təmir edilib. Bizdə məktəb fondu təqribən 5000-ə yaxındır. Onların böyük hissəsi yenidən qurulub və bu proses davam etdirilir. 640-dan çox tibb müəssisəsi tikilib və yenidən qurulub. Demək olar ki, indi bizim bütün şəhərlərimizdə – bir neçə şəhəri istisna etmək şərtilə, orada da yaxın zamanlarda bu işlər görüləcək – ən müasir avadanlıqlarla təchiz edilmiş xəstəxanalar vardır. Bakıda səhiyyə sahəsində çox böyük işlər görülüb, yeni xəstəxanalar, tibb müəssisələri yaradılıbdır.

İnfrastruktur layihələri ilə bağlı görün nə qədər böyük işlər görülüb. Bu gün qazlaşdırılmanın səviyyəsinə görə Azərbaycan dünyada lider ölkələrdəndir, bu səviyyə 95 faizə çatıb. Biz ən ucqar dağ kəndlərinə qaz xətləri çəkdik. Halbuki bu, iqtisadi cəhətdən səmərəsizdir. Biz Azərbaycanda qazın mövcud olan aşağı tarifi ilə o xərcləri heç vaxt qarşılaya bilmərik. Onu da bildirməliyəm ki, Azərbaycanda təbii qazın tarifləri dünya miqyasında ən aşağı səviyyələrdən biridir, bəzi qonşu ölkələrdən 2-3 dəfə aşağıdır. Qazın olmaması insanları narahat edən məsələ idi. İndi bizim təqribən 3-4 faiz yaşayış məntəqələrimiz var ki, orada qaz yoxdur. Biz o işləri də görəcəyik.

Elektrik enerjisi ilə bağlı qoyulan investisiyalar bizə nəinki özümüzü təmin etməyə, hətta ixrac da etməyə imkan verdi. Vaxt var idi ölkəmizi qaranlıq bürümüşdü.

Vaxt var idi gecə saat 12-də televizor da söndürülürdü ki, elektrik enerjisinə sərfiyyat azalsın. Biz xaricdən elektrik enerjisini alırdıq və özümüzü güc-bəla ilə təmin edirdik. İndi biz xaricə elektrik enerjisi ixrac edirik. Ölkə daxilində bütün bu işlər görülüb. Yolların çəkilişi – 15 min kilometr avtomobil yolu salınıb. İndi hər il bütün bölgələrdə, bütün rayonlarda, o cümlədən Bakı şəhərində, Bakı qəsəbələrində bu işlər gedir. Bu həm insanlara rahatlıq verir, həm biznes, həm də fermerlər üçün çox əhəmiyyətlidir. Bunun hər cəhətdən böyük faydası vardır. Mən bu gün Regional İnkişaf Proqramının ancaq bir hissəsini qeyd edirəm. Bu doğrudan da böyük bir dönüş, böyük bir irəliləyiş oldu.

Dördüncü proqramın qəbul edilməsi önəmli hadisədir. Dördüncü proqram 5 il ərzində icra ediləcək. Bu gün hələ də görə bilmədiyimiz işləri biz növbəti illər ərzində görəcəyik ki, ölkəmiz daha da inamla, uğurla inkişaf etsin.

Bu il iri sənaye müəssisələrinin açılışı olubdur. İki böyük zavodun – Karbamid və Yüksəksıxlıqlı Polietilen zavodlarının açılışı bizim sənaye potensialımızı xeyli dərəcədə gücləndirir. Bu zavodlarda yüzlərlə yeni iş yeri yaradılıb. Orada işləyən vətəndaşlar təlim keçiblər. Onlar bir neçə ölkədə təlim kurslarında olublar və əksəriyyəti də gənc mütəxəssislərdir. Bu həm yeni texnologiyalar, həm qeyri-neft sektorunun inkişafı, həm də ixrac potensialımızın artırılmasıdır. Bu bir daha göstərir ki, Azərbaycan sənaye istehsalı sahəsində böyük işlər görməyə qadirdir. Əlbəttə ki, sənaye istehsalı növbəti illərdə bizim üçün prioritet mə-

sələlərdən biri olacaq. Əminəm ki, həm yerli, həm də xarici sahibkarlar bu işlərə diqqət göstərəcəklər. İndi xaricdən investisiya, sərmayə qoymaq istəyənlərin sayı çoxalır. Xarici sahibkarlar müraciət edirlər. Mənim bu yaxınlarda Çin Xalq Respublikasına etdiyim səfər çərçivəsində görüşdüyüm iri şirkət rəhbərlərinin fikri də çox müsbətdir. Onlar da Azərbaycana sərmayə qoymaq üçün indi işlər aparır və böyük maraq göstərirlər.

Biz bu ilin əvvəlindən ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirmişik. Onların arasında VII Bakı Qlobal Forumunu qeyd etmək istəyirəm. Bu, dünya miqyasında bu gün ən mötəbər forumlardan biridir. Bu forumda 50 ölkəni təmsil edən 500-dən çox qonaq iştirak etmişdir. Onların arasında 50-yə yaxın fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısı var idi. Forum həm intellektual potensialına, həm də müzakirə olunan məsələlərə görə doğrudan da dünya miqyasında seçilən tədbirlərdən biridir.

Bakıda bizim təşəbbüsümüzlə «OPEC+» görüşü keçirildi. Bildiyiniz kimi, Azərbaycan nəinki bu təşəbbüsün iştirakçısıdır, hətta bu təşəbbüsün – əgər belə demək mümkündürsə – müəlliflərindən biridir. Çünki OPEC-in baş katibinin Bakıda olan zaman açıqlaması bunu göstərir. Mən bunu özüm heç vaxt demirdim. Ancaq o bunu rəsmi qaydada bildirdi ki, hələ 2016-cı ildə Davos Dünya İqtisadi Forumunda çıxış edərkən demişdim ki, neftin qiymətinin tənzimlənməsi üçün ən məqbul variant OPEC və iri qeyri-OPEC ölkələrin birgə fəaliyyətidir. Onlar razılığa gəlməlidirlər ki, neftin qiyməti sabit qalsın. Hasilat aşağı düşməlidir və hər kəs

buna əməl etməlidir. Ancaq o halda neftin qiyməti qalxa bilər. Əgər o vaxt neftin qiyməti təqribən 30 dollar ətrafında idisə, bu gün bu, 70 dollar ətrafındadır.

Yəni burada da Azərbaycan öz töhfəsini verir. Bizim dəvətimizlə OPEC və qeyri-OPEC ölkələrin görüşü Bakıda keçirildi. Adətən, bu görüş OPEC-in mənzil-qərargahında keçirilir, bəzi hallarda başqa ölkələrdə, o cümlədən Bakıda.

Bu il «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurası ənənəvi olaraq Azərbaycanda keçirildi. Bu görüşün də çox böyük mənası vardır. Çünki hər il keçirilən bu tədbir imkan verir ki, biz görülmüş işlərə nəzər salaq və ən önəmlisi, görüləcək işlər haqqında fikir mübadiləsi aparaq, birgə fəaliyyət planı tərtib edək. Beləliklə, il ərzində biz elə bil ki, özümüz üçün bir iş planı tərtib edirik.

Digər önəmli tədbirlər də keçirilibdir. Bir sözlə, Azərbaycan ilin əvvəlindən bütün sahələrdə uğurla inkişaf edir. Sosial məsələlər arasında, əlbəttə ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu il artıq 810 məcburi köçkün ailəsi yeni müasir qəsəbəyə köçürülüb. Bu proses davam etdiriləcək. Bu bizim ən prioritet məsələlərimizdən biridir. Bu məsələyə biz daim diqqət göstəririk.

O ki qaldı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə, bizim mövqemizdə heç bir dəyişiklik yoxdur. Prinsipial mövqemiz ondan ibarətdir ki, bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT

Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Başqa yanaşma yoxdur. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Onu da bildirməliyəm ki, danışıqlar formatı dəyişməz olaraq qalır. Baxmayaraq ki, bəzi cəhdlər olub, ancaq bizim fəaliyyətimiz nəticəsində bu cəhdlərin qarşısı alınıbdır. Həmçinin Minsk qrupunun həmsədrləri tərəfindən martın 9-da verilmiş açıqlama ünvanlıdır, birmənalıdır və bir daha göstərir ki, münaqişənin iki tərəfi vardır. Ona görə hesab edirəm ki, bu mövzu artıq öz həllini tapıb. Biz bundan sonra da öz prinsipial mövqemizdə qalacağıq, ölkəmizi, ordumuzu gücləndirəcəyik. Bu ilin əvvəlindən bu istiqamətdə də böyük işlər görülüb və görüləcəkdir.

* * *

**N a t i q Ə m i r o v** (*Prezidentin İqtisadi Siyasət və Sənaye məsələləri üzrə köməkçisi*): Möhtərəm cənab Prezident!

Hörmətli iclas iştirakçıları!

Əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyası 2003-cü ildən etibarən, möhtərəm cənab Prezident, Sizin tərəfinizdən uğurla inkişaf etdirilərək, çox böyük nailiyyətlərə imza atıbdır. Tərəfinizdən hazırlanaraq, uğurla həyata keçirilən iqtisadi islahatlar, regionların sosial-iqtisadi inkişafı proqramları və digər cəsarətli addımlar Azərbaycanda nəhəng infrastruktur layihələrin reallaşmasına, iqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşlarının əhəmiyyətli dərəcədə artırılmasına gətirib

çıxarıb, gələcəkdə turizmin, kənd təsərrüfatının və qeyri-neft sektorunun digər sahələrinin inkişafını təmin edəcək möhkəm təməl bərqərar olunubdur.

Möhtərəm cənab Prezident, 2014–2015-ci illərdə dünya bazarlarında neftin qiymətinin 4 dəfəyə qədər aşağı düşməsi ilə yaranmış dünya iqtisadi böhranı və bu böhrandan ölkəmizin qısa müddətdə çıxaraq, iqtisadi artımı yenidən təmin etməsi məhz qurduğunuz o möhkəm təməl sayəsində mümkün olubdur. Bu da bir həqiqətdir ki, regionların sosial-iqtisadi inkişafı proqramlarının və çoxsaylı infrastruktur layihələrin uğurlu icrası olmasaydı, biz bu gün turizmin inkişafından danışa bilməzdik. Vaxtında həyata keçirilmiş nəhəng meliorasiya layihələri olmasaydı, bu gün kənd təsərrüfatının uğurlu inkişafı mümkün olmazdı.

Möhtərəm cənab Prezident, çıxışlarınızın birində qeyd etdiyiniz kimi, 2014–2015-ci illərdə baş vermiş dünya iqtisadi böhranına görə Siz qeyri-neft sektorunun inkişafının dayanıqlılığını təmin etmək və iqtisadiyyatın neft sektorundan asılılığını minimuma endirmək üçün nəzərdə tutduğunuz tədbirlərin müddətini təxminən 10 il qabağa çəkməli oldunuz. Lakin həmin dövrə qədər Sizin rəhbərliyinizlə həyata keçirilmiş layihələr bu mürəkkəb vəziyyəti, vətəndaşların sosial rifahını pozmadan və nəzərdə tutulmuş bütün sosial proqramları icra etməklə, çətinliyi imkana çevirmək kimi bir bacarığa da imza atmağınıza şərait yaratdı. Sizin tapşırığınıza əsasən, başlanılan layihələr də daxil olmaqla, həyata keçirməyi nəzərdə tutduğunuz yeni proqramlar, qeyri-neft sektorunda sənayenin, kənd təsərrüfatının və digər

sahələrin inkişafını təmin edəcək dövlət proqramları vahid bir sənəddə – milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə «Strateji Yol Xəritələri»ndə birləşdirilərək, 2016-cı ilin dekabr ayında tərəfinizdən müvafiq fərmanla təsdiq edildi. Bu «Yol Xəritələri»nin əsas icrası 2017–2020-ci illər olmaqla, 4 ili əhatə edir və keçən 2 il müddətində nəzərdə tutulan tədbirlərin ən azı 50 faizinin icrası olmalı idi. Müvafiq sərəncamınızla İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilən monitorinqin nəticələrinə əsasən, «Strateji Yol Xəritələri»nin ümumi icrası nəzərdə tutulan 50 faizə qarşı 52 faiz təşkil edib ki, bu da icra qrafikini qabaqlamaqla, icranın sürətləndirilməsi anlamına gəlir. Ayrı-ayrı sahələr üzrə icra faizlərinin müxtəlif olmasına baxmayaraq, bütövlükdə nəzərdə tutulan 50 faizlik icra həyata keçmiş və 52 faizlik icra ilə biz bu məqama gəlib çıxmışıq. Ayrı-ayrı qurumların performansına nəzər yetirdikdə isə bütövlükdə bütün qurumlar 50 faiz üçün nəzərdə tutulan həddə gəlib çatmış, lakin Biznes Mühiti və Beynəlxalq Reytinq üzrə Komissiya, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Vergilər Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi «Strateji Yol Xəritələri»ndə onlar üçün müəyyən edilmiş tədbirlərin icrasını, demək olar ki, tam şəkildə həyata keçiribdir.

Möhtərəm cənab Prezident, «Strateji Yol Xəritələri»nin əsas tədbirlərinin təqribən 40 faizi İqtisadiyyat Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyinin payına düşür ki, bu məsələlərə sistemli yanaşılması, çoxsaylı komissiyaların, əlaqələndirici qrupların monitorinq qu-

rumları ilə birgə fəaliyyəti həm hər iki nazirliyin, həm də digər qurumların birgə fəaliyyəti ilə «Strateji Yol Xəritələri»ndə bu uğura imza atmağa imkan veribdir. Mən burada xüsusilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanımın xidmətini qeyd etmək istərdim. Çünki qurumların əlaqələndirilməsi, müxtəlif fikirlərin bir araya gətirilməsi, vahid mövqedən çıxış edərək, islahat proqramlarının həyata keçirilməsi istiqamətində Mehriban xanımın əhəmiyyətli dəstəyi xüsusi qeyd olunmalıdır. «Strateji Yol Xəritələri»ndə tapşırığınıza əsasən müəyyən edilmiş tədbirlərin bizə nə verdiyinə baxsaq, ilk növbədə, makroiqtisadi sistemdə pul bazası hədəf götürülməklə, makroiqtisadi sabitliyə nail olundu, manatın məzənnəsi sabitləşdirildi, inflyasiya optimal həddə endirildi, strateji valyuta ehtiyatları əhəmiyyətli dərəcədə artdı. Dövlət Neft Fondunun vəsaitlərindən istifadəyə dair büdcə qaydaları, beynəlxalq aləmdə «qızıl qayda» adlandırılan qaydalar təsdiq edildi. Borc strategiyası, ortamüddətli xərclər çərçivəsi qəbul edildi, fiskal dayanıqlılığın gücləndirilməsi təmin olundu, bank sektorunda əhəmiyyətli islahatlar həyata keçirildi.

Sizin tapşırığınıza əsasən, biznes mühitinin daha da yaxşılaşdırılması və sahibkarlar üçün əlverişli biznes mühitinin qurulması sahəsində çox ciddi addımlar atılıbdır. Prezident yanında Apellyasiya Şurası yaradılıb, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi təsis olunub, sahibkarların dünya iqtisadi məkanına inteqrasiyasını təmin etmək məqsədilə «Enterprise Azerbaijan» portalı, «Azexport.az», rəqəmsal ticarət qovşağı platformaları

yaradılıbdır. İnvestorların maraqlarının qorunması, elektron məhkəmə, biznesə başlama, tikinti icazələri, elektrik şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış və əmlakın qeydiyyatı, müflisləşmə sahəsində əhəmiyyətli islahat tədbirləri həyata keçirilibdir. Gömrükdə «yaşıl dəhliz» sistemi, hərtərəfli vergi islahatları, sənaye parkları, sənaye məhəllələri, aqro-parklar və texnoparkların fəaliyyət dairəsi genişləndirilməklə, sahibkarlara əhəmiyyətli vergi, gömrük və digər güzəştlərin verilməsi təmin edilibdir. İlk dəfə olaraq dövlət satınalmalarının vahid internet portalı hazırlanıb və bu ildən istifadəyə verilibdir.

Cənab Prezident, bu dövr ərzində Sizin təşəbbüsünüzlə başlanılan və liderliyinizlə həyata keçirilən meqalayihələr – «Cənub Qaz Dəhlizi», Bakı–Tbilisi–Qars, Astara (Azərbaycan)–Astara (İran), «SOCAR Polymer», «SOCAR Karbamid» kimi nəhəng layihələr məhz bu dövrdə sona çatdırılaraq fəaliyyətə başlamaqla, Azərbaycan iqtisadiyyatına öz töhfəsini verməyə davam edibdir. İcbari tibbi sığorta sistemi pilot variantda tətbiq edilib, uğurlu nəticələr əsas götürülərək, Sizin tərəfinizdən imzalanmış müvafiq qanunlarla 2020-ci ildən bütün ölkədə tətbiqi nəzərdə tutulubdur. İşsizlikdən Sığorta Fondu yaradılıb, məşğulluq strategiyası qəbul edilib, ünvanlı sosial yardımın əhatə dairəsi genişləndirilib və özünüməşğulluq proqramlarının icrasına başlanılıbdır.

Bu ildən başlayaraq, Sizin də qeyd etdiyiniz kimi, şəhid ailələrinə birdəfəlik ödəmə verilib, minimum əməkhaqqı, minimum pensiya, tələbələrin təqaüdləri

əhəmiyyətli dərəcədə artırılıb, qaçqınlar və məcburi köçkünlər də daxil olmaqla, bütün növ müavinətlər 100 faiz həcmində artırılıbdır. Təbii ki, bu göstəricilər iqtisadi göstəricilərdə də öz əksini tapmaya bilməzdi. İllik inflyasiya göstəricisi 2016-cı ildəki 12,4 faizdən 2018-ci ildə 2,3 faizə qədər enib, strateji valyuta ehtiyatları 2016-cı ildəki 37,9 milyard dollardan 2019-cu ildə 46,7 milyard dollara qalxıbdır. Büdcə xərcləri 2016-cı ildəki 17 milyard 800 milyon manatdan 2019-cu ildə 25 milyard 200 milyon manata qədər artıbdır. İlk dəfə olaraq qeyri-neft sektoru üzrə mal və xidmətlərin ixracında əhəmiyyətli irəliləyişlərə nail olunubdur. Bu sahədə, cənab Prezident, Sizin apardığınız islahatlar, bilavasitə rəhbərliyinizlə həyata keçirilən iqtisadi canlanma təkcə qeyri-neft məhsullarının ixracında 1 milyard dollarlıq artımla nəticələnibdir. Nominal ümumi daxili məhsulun göstəricisi isə 2015-ci ildəki 54 milyard manatdan 2018-ci ildə, demək olar ki, 80 milyard manatadək artıbdır. Təbii ki, cənab Prezident, bütün bu nailiyyətlər, Sizin həyata keçirdiyiniz, nəzərdə tutduğunuz və Azərbaycan xalqının rifahına yönəldilmiş bu islahatlar beynəlxalq maliyyə qurumları tərəfindən də çox diqqətlə izlənilir, təhlil olunur. Dünya Bankının «Doing Business» hesabatında da Azərbaycan Respublikası 2016-cı ildə tutduğu 63-cü yerdən 2019-cu ildə 25-ci yerə yüksəlməyə nail olubdur.

Qeyd etdiyim kimi, 2020-ci ilin sonuna qədər «Strateji Yol Xəritələri»nin icrasına cəmi 20 ay qalıb və bu 20 ay ərzində, möhtərəm cənab Prezident, Sizin dövlət və hökumət qurumları qarşısında çox mühüm

tələbləriniz, tapşırıqlarınız durur. Bu müddət ərzində biznes mühiti və rəqabət məcəlləsinin qəbulu ən əhəmiyyətli məsələlərdəndir. Sizin tapşırığınıza əsasən, bu 2 il ərzində rəqabət məcəlləsinin qəbulu prosesi başa çatmalıdır. Ortamüddətli xərclər çərçivəsinə keçid təmin edilməli, korporativ idarəetmə standartları təsdiq olunmalı, özəl investisiyaların cəlbi artırılmalıdır. Maliyyə dərinliyinin 60 faizə qədər çatdırılması, aqrar sığortanın inkişafı, elektron kənd təsərrüfatı informasiya sisteminin ölkə üzrə tam tətbiqi nəzərdə tutulur. Neft maşınqayırması sahəsində ənənəvi istehsal sahələri bərpa olunmalı, birbaşa xarici investisiyaların cəlbi üçün tədbirlər görülməlidir. Kiçik və orta sahibkarların ümumi daxili məhsulda payının 15 faizə, qeyri-neft ixracında isə 10 faizə çatması üçün əhəmiyyətli islahat tədbirləri həyata keçirilməlidir. Lisenziya və icazələr portalının tam fəaliyyəti təmin olunmalı, açıq səma sazişləri, yeni xarici aşağı büdcəli hava nəqliyyatı şirkətlərinin cəlbi istiqamətində tədbirlər görülməlidir. Təhsil sahəsində, xüsusilə peşə təhsili sahəsində islahatlar davam etdirilməlidir.

Sizin tapşırığınıza əsasən, elektrik enerjisi sisteminin modernləşdirilməsi, kommunal xidmətlər sektorunda səmərəliliyin yüksəldilməsi istiqamətində müvafiq qurumlar tərəfindən tədbirlər hazırlanaraq, həyata keçirilir. Dövlət satınalmalarının vahid internet portalının bütün dövlət satınalmaları üzrə yeganə satınalma platformasına çevrilməsi ölkədə rəqabət mühitinin formalaşması istiqamətində atılacaq ən mühüm addımlardan biridir. Uzunmüddətli hədəfləri

nəzərə aldıqda, 2020-ci ildən sonrakı dövr üçün təbii ki, Azərbaycan Respublikasının strateji inkişaf proqramları hazırlanmalı və təsdiq edilməlidir. Məqsədəmüvafiq hesab etdiyiniz təqdirdə qlobal, regional və yerli trendlər, çağırışlar, risklər və təhdidlər nəzərə alınmaqla, uzunmüddətli baxışlar yenidən dəqiqləşdirilib, yeni strateji proqram çərçivəsində hazırlanaraq, Sizin ali diqqətinizə təqdim edilə bilər. Möhtərəm cənab Prezident, yuxarıda sadalanan bütün hədəflərə nail olmaq üçün təkcə hökumətin və dövlət qurumlarının deyil, bütün cəmiyyətin iştirakı vacibdir. Sizin dediyiniz kimi, bu günlərdə Çin Xalq Respublikasına etdiyiniz çox uğurlu səfər bir daha təsdiqlədi ki, dünya liderləri, böyük dövlətlər tərəfindən Azərbaycanın liderinə, eyni zamanda, onun həyata keçirdiyi siyasətə çox böyük diqqət göstərilir. Sizin həyata keçirdiyiniz islahatlar, həyata keçirdiyiniz siyasət Azərbaycanı bütün bölgədə təhlükəsizlik adası halına gətirməklə, gələcək inkişafın qarantı qismində çıxış edir. Ölkədə və yaxud xaricdə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı, cənab Prezident, Sizin tərəfinizdən uzun illər həyata keçirilən bu islahat proqramlarına dəstək olmalı, cənab Prezidentin və onun siyasəti ətrafında sıx birləşməli, xalqımızın gələcək inkişafı yolunda öz töhfəsini verməlidir.

Diqqətinizə görə minnətdaram.

**İnam Kərimov** (*Kənd Təsərrüfatı naziri*): Möhtərəm cənab Prezident!

Ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması, bu məqsədlə torpaq və su resurslarından daha səmərəli

istifadə edilməsi, yüksək məhsuldarlığın əldə olunması zati-alilərinin tərəfindən qarşımıza qoyulmuş əsas vəzifələrdir. Son illərdə Sizin rəhbərliyinizlə həyata keçirilən davamlı və sistemli islahatlar nəticəsində aqrar məhsulların daxili bazar təminatı və ixrac həcmi artıb, kənd yerlərində məşğulluq və gəlir əldə etmək imkanları xeyli genişlənibdir.

2018-ci ildə kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcmi əvvəlki illə müqayisədə 4,6 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalı 6,8 faiz artıbdır. Heyvandarlıq məhsullarının istehsalında artım 2,7 faiz təşkil edib. Keçən il 1,5 milyon tondan çox tərəvəz, 1 milyon tondan çox meyvə və giləmeyvə istehsal olunub. Bu isə müstəqillik dövründə qazanılmış ən yüksək nəticədir. Həmçinin meyvə-tərəvəz məhsullarının ixracı 11,1 faiz artaraq, 530 milyon ABŞ dolları olubdur.

Aqrar sahədə müsbət inkişaf dinamikası cari ildə də davam edir. Birinci rübdə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi istehsal həcmi 3,6 faiz, o cümlədən bitkiçilik 24,7 və heyvandarlıq 2,8 faiz artıb. 32 faiz çox tərəvəz istehsal olunub, meyvə-tərəvəz ixracının həcmi 28,2 faiz artıbdır.

Aqrar sahədə inkişafın davamlılığını təmin etmək üçün müəyyən etdiyiniz strateji kursa uyğun olaraq, Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətini düzgün idarəçilik, innovasiyaların tətbiqi və fermerlərə yaxınlıq prinsiplərinə əsasən qurubdur. Fermerlərə xidmətlərin əlçatanlığını və keyfiyyətini artırmaq məqsədilə nazirliyin rayon idarələrinin əsasında Dövlət

Aqrar İnkişaf mərkəzləri yaradılıb. Bununla da keçmiş kənd təsərrüfatı idarələri inzibati strukturdan xidmət qurumlarına çevriliblər. Mərkəzlərdə «vahid pəncərə» prinsipinə uyğun olaraq, fermerlərə 70-ə yaxın xidmət göstərilir.

Nazirliyin nəzdində fəaliyyət göstərən 4 qurumun bazasında Aqrar Xidmətlər Agentliyi yaradılıb. Agentlik baytarlıq, fitosanitar, toxum müfəttişliyi və texniki nəzarət xidmətləri üzrə çevik və səmərəli idarə-etməni təmin edəcəkdir.

Lizinq fəaliyyəti ilə bağlı həyata keçirilən islahat nəticəsində bazarda azad və ədalətli rəqabət mühiti formalaşıb. Belə ki, texnika və damazlıq heyvan alışına tətbiq edilən güzəştlər bütün təchizatçı şirkətlərə şamil olunub və «Aqrolizinq» ASC artıq bu bazarın iştirakçısı deyil. Bu isə həm texnikanın, həm də damazlıq heyvanların satış qiymətinin əsaslı ucuzlaşmasına səbəb olubdur.

Fermerlərə subsidiyaların və güzəştli kreditlərin verilməsində şəffaflığı və çevikliyi təmin etmək məqsədilə ötən il Aqrar Kredit və İnkişaf Agentliyi yaradılıb. Fermerlərin qayğı və problemlərini daha yaxından dinləmək üçün bütün rayonlarda və nazirliyin aparatında Fermerlər Şuraları yaradılıb, Aqrar Könüllülər Hərəkatı formalaşdırılıbdır. Nazirliyin dəstəyi ilə son 6 ay ərzində 11 fermer assosiasiyası yaradılıbdır.

Möhtərəm cənab Prezident, fermerlərə dövlət dəstəyinin təkmilləşdirilməsi üçün tapşırığınıza əsasən, subsidiyaların verilməsinin yeni qaydalarının layihəsi hazırlanıb. Bu gün fermerlərimizi qayğılandıran digər

məsələlərdən biri və yüksək diqqətinizə ünvanladıqları çoxsaylı xahişləri, həmçinin kiçikhəcmli kreditlərə çıxışın asanlaşdırılması və təbii hadisələrə qarşı aqrar sığortanın tətbiq edilməsidir. Aqrar sahənin üzləşdiyi digər çağırışlar kiçik parsellərə bölünmüş torpaqların sistemləşdirilməsi, şorlaşmış, şorakətləşmiş və əkinə yararsız torpaqların yararlı hala salınması, müasir suvarmanın və təsərrüfatlararası yolların düzgün qurulmasıdır.

Ötən il nazirliyin prioritet vəzifələrindən birini Elektron Kənd Təsərrüfatı Sisteminin yaradılması təşkil edib. Sistemin istifadəyə verilməsi dövlət xidmətlərini fermerlər üçün daha əlçatan edəcək, subsidiyaların verilməsində şəffaflığı və çevikliyi təmin edəcəkdir. Növbəti ildən subsidiyalar məhz bu sistem vasitəsilə veriləcək. Elektron sistem fermerlərə öz əkinlərini bazarın tələbinə uyğun düzgün planlaşdırmağa kömək edəcək, həmçinin bazarda məhsullar üzrə tələb-təklifin düzgün proqnozlaşdırılmasını asanlaşdıracaqdır. Bu günə qədər 100 mindən çox fermer sistemdə qeydiyyatdan keçibdir.

Kənd təsərrüfatında innovasiyaların tətbiqi, mütərəqqi həllər və texnologiyalardan daha geniş istifadənin təmin olunması da əsas vəzifələrimizdəndir. Bu məqsədlə Aqrar Elm və İnnovasiya Mərkəzi formalaşdırılıb. Həmçinin nazirliyin elmi-tədqiqat institutları araşdırmalarını innovativ yeniliklərin fermerlərə ötürülməsi istiqamətində qurubdur. Fermerlərin bacarıqlarının artırılması və maarifləndirilməsi üçün xüsusi təlim strategiyası hazırlanıb. Bilavasitə yerlərdə

fermerlərə peşəkar təlimlərin və məlumatlandırma tədbirlərinin keçirilməsinə başlanılıbdır.

Əlverişli aqrobiznes mühitinin, fermerlərin yerli və xarici bazarlara çıxış imkanlarının artırılması üçün Sizin müvafiq fərmanınızla Aqrar Tədarük və Təchizat Şirkəti təsis edilib. Şirkət tərəfindən «Kənddən şəhərə» satış platforması yaradılıb, davamlı olaraq müasir yarmarkalar təşkil olunur.

Möhtərəm cənab Prezident, 2019-cu ildə qarşımıza qoyduğunuz vəzifələri icra etmək və strateji hədəflərə nail olmaq üçün müvafiq tədbirlər görülüb. Cari təsərrüfat ilində 1 milyon 85 min hektar sahədə taxıl əkilib, orta məhsuldarlığın daha yüksək olması gözlənilir. 100 min hektarda pambıq əkilməsi üçün səpin işləri yekunlaşmaq üzrədir və bu il ümumi məhsuldarlığın daha yüksək olması proqnozlaşdırılır. Ötən il xam pambığın alış qiymətinin hər ton üçün 650 manat müəyyən edilməsi pambıq istehsalını fermerlər üçün sərfəli sahəyə çevirib. 800 ton yaş barama istehsalı üçün hazırlıq işləri başa çatdırılıbdır.

Cari ildə taxıl və pambıq istehsalındakı artımın yalnız məhsuldarlığın yüksəldilməsi hesabına əldə olunması qarşımızda duran vacib hədəflərdəndir. Həmçinin yeni meyvə bağlarının salınması, o cümlədən fındıq sahələrinin 84 min hektara çatdırılması, badam və qoz bağlarının sahələrinin genişləndirilməsi həlli vacib məsələlər kimi qarşımızda durur. Zeytunçuluq, çayçılıq, çəltikçilik, sitrusçuluq, üzümçülük sahələrinin inkişafının dəstəklənməsi də əsas prioritetlərimizdəndir.

Bu vəzifələrin yüksək səviyyədə icra olunması üçün təminat məsələlərinin həllinə xüsusi diqqət yetirilib. Cari ildə mineral gübrə və pestisid təminatları ilə bağlı hazırlıq işləri tam yekunlaşıb. Tapşırığınıza əsasən, fermerlərin texnika ilə təchiz olunması diqqətdə saxlanılıb. Ötən il «Aqrolizinq» tərəfindən 6046 ədəd müasir texnika, o cümlədən 108 ədəd pambıqyığan və 250 ədəd taxılyığan kombayn alınıb. Artıq bu ildən fermerlər texnikanı «Aqrolizinq» ASC-dən deyil, 40 faiz güzəşt və 5 il faizsiz kredit tətbiq edilməklə, istədikləri şirkətdən ala biləcəklər.

Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması və xaricdən yüksək genetik potensiala malik heyvanların gətirilməsi tədbirləri də davam etdirilib. Keçən ildən yerli təsərrüfatlardan cins heyvanların alınması mexanizminin tətbiqinə başlanılıb. 2018-ci ildə süni mayalanma yolu ilə alınmış buzovların sayı əvvəlki illə müqayisədə 48 faiz artıb. Texnikada olduğu kimi, fermerlər damazlıq heyvanları da bu ildən «Aqrolizinq» ASC-dən deyil, 60 faiz güzəşt və 3 il faizsiz kredit tətbiq edilməklə, istədikləri şirkətdən ala biləcəklər.

Möhtərəm cənab Prezident! Ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunmasına, aqrar sahənin şaxələndirilmiş və dayanıqlı inkişafına, fermerlərin maddi rifah halının yaxşılaşdırılmasına göstərdiyiniz davamlı diqqət və qayğıya görə kənd zəhmətkeşləri adından Sizə dərin təşəkkürümü bildirirəm. Sizi bir daha əmin edirəm ki, qarşımıza qoyduğunuz vəzifələri

layiqincə yerinə yetirmək üçün bütün səy və imkanları səfərbər edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Z a u r Ə l i y e v** (*İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi İdarə Heyətinin sədri*): Möhtərəm cənab Prezident!

Sizin diqqət və qayğınız nəticəsində Azərbaycanın səhiyyə sistemində uğurlu islahatlar aparılıb, tibb müəssisələrinin maddi texniki bazası və kadr potensialı daima gücləndirilib, bütövlükdə səhiyyə sahəsində böyük nailiyyətlər əldə edilibdir. Görülmüş işlərin davamı kimi, icbari tibbi sığortanın tətbiqi Sizin növbəti uğurlu siyasətiniz olaraq, səhiyyə sisteminin daha da sürətlə inkişaf etməsinə öz töhfəsini verəcəkdir.

Genişmiqyaslı sosial layihə olan icbari tibbi sığortanın başlıca məqsədləri səhiyyə sisteminin maliyyələşdirilməsini dayanıqlı iqtisadi əsaslarla qurmaq, tibbi xidmətlərin əlçatanlığını təmin etməklə, əhalini sağlamlıqla bağlı maliyyə risklərindən qorumaqdır. Ölkədə icbari tibbi sığortanın tətbiqi səhiyyə sahəsinə ayrılan maliyyə vəsaitlərinin daha da səmərəli istifadə edilməsinə və əhalinin tibbi xidmətlərdən istifadə imkanlarının artırılmasına zəmin yaradacaqdır.

Cənab Prezident, Sizin göstərişinizə uyğun olaraq, 2017-ci ilin yanvarından etibarən ölkəmizdə icbari tibbi sığortanın pilot layihə şəklində həyata keçirilməsinə başlanılıbdır. Pilot layihə ilk olaraq Mingəçevir şəhəri və Yevlax rayonunun ərazilərini əhatə edib, 2018-ci ildən etibarən isə Ağdaş rayonunun

ərazisində də tətbiq edilibdir. Tapşırıqlarınızın icrası məqsədilə pilot layihə çərçivəsində bir sıra mühüm addımlar atılıbdır. Belə ki, əhalisi 340 min nəfər təşkil edən pilot ərazilərdə sığorta olunanlar və 30 minə yaxın məcburi köçkün baza zərfi çərçivəsində ödənişsiz tibbi xidmətlərlə təmin edilib və əhalinin səhiyyə xərcləri ilə bağlı maliyyə yükü əhəmiyyətli dərəcədə azaldılıbdır. Tibb müəssisələrinin fəaliyyətində məhsuldarlıq artırılaraq, tibbi-iqtisadi rentabellik təmin olunubdur. Mövcud maddi-texniki baza və kadr resursları ilə daha çox pasiyentə xidmət göstərilib və nəticədə 2018-ci ildə pilot ərazilərdə ambulator-poliklinik gəlişlərin sayı 1,1 milyon olub, adambaşına düşən həkimə gəlişlərin sayı 3,2 dəfə təşkil edibdir. Evə yazılan xəstələrin sayı isə 21454 nəfər olmaqla, 2016-cı illə müqayisədə 11 faiz artıbdır. Bununla yanaşı, icbari tibbi sığortanın tətbiqi nəticəsində pilot ərazilərdə anadangəlmə ürək qüsuru ilə doğulan 37 uşaq əməliyyat edilib, onlar əlillikdən xilas edilərək, öz sağlamlıqlarına qovuşublar.

Pilot ərazilərdə kəmiyyət göstəricilərinin artması ilə yanaşı, rayon xəstəxanalarında əvvəllər aparılması mümkün olmayan endoprotezləşmə, TUR, laparoskopik cərrahi müdaxilələr və sair mürəkkəb əməliyyatlar həyata keçirilibdir. Bu əməliyyatların bilavasitə rayon xəstəxanalarında aparılması əhalinin müasir və keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının təmin olunması istiqamətində atdığımız addımlardan biridir. Kadr potensialının gücləndirilməsi məqsədilə pilot ərazilərin tibb işçiləri xarici ölkələrdə təlim və

təcrübə proqramlarına göndəriliblər. Eyni zamanda, ölkədə ilkin səhiyyə xidmətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görülərək, Ailə Sağlamlıq mərkəzləri yaradılıbdır. Pilot layihənin ən mühüm nəticələrindən biri də pilot ərazilərdə fəaliyyət göstərən həkimlərin əmək haqlarının artırılması və nəticə etibarilə onların maddi rifahının əhəmiyyətli dərəcədə yüksəldilməsi olubdur. Belə ki, həkimlərin orta aylıq maaşı 2018-ci ildə ölkə üzrə orta aylıq əməkhaqqının 1,9 mislini təşkil edibdir.

Bunlarla yanaşı, 2018-ci ildə icbari tibbi sığortanın vəsaitlərinə qənaət edilməsi məqsədilə pilot ərazilərdəki xəstəxanaların fəaliyyətində səmərəliliyin təmin edilməsi, idarəetmənin müasirləşdirilməsi və maddi-texniki bazanın yaxşılaşdırılması istiqamətində də müvafiq işlər görülübdür. Tibb müəssisələrinin fəaliyyətinin elektronlaşdırılması tam təmin edilibdir.

Əhalinin münasibətini öyrənmək məqsədilə aparılmış sorğularda respondentlərin mütləq əksəriyyəti icbari tibbi sığortanın tətbiq olunmasına dair müsbət fikir bildiribdir. Mingəçevir şəhəri üzrə bu göstərici 88 faiz, Yevlax rayonu üzrə 79 faiz, Ağdaş rayonu üzrə isə 86 faiz təşkil edibdir.

Agentlik tərəfindən aparılmış təhlillərə və beynəlxalq ekspertlərin rəylərinə əsasən, pilot layihənin ikiillik nəticələrinə görə əminliklə demək olar ki, ölkəmiz icbari tibbi sığortanın tətbiqi və sonrakı inkişafı üçün lazımi şəraitə, zəruri potensiala, resurs və imkanlara malikdir.

Cənab Prezident, Sizin siyasi iradəniz sayəsində icbari tibbi sığorta sahəsində görülmüş işlərin davamı olaraq, «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər layihəsi hazırlanıb və 2018-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilibdir. 2020-ci il yanvarın 1-dən qüvvəyə minəcək Qanunda bütün əhaliyə təcili və təxirəsalınmaz tibbi yardım, habelə ilkin səhiyyə xidməti üçün sığorta haqlarının dövlət büdcəsi tərəfindən ödənilməsi göstərilibdir. Həmçinin ölkə əhalisinin 45 faizini təşkil edən iqtisadi qeyri-fəal əhali, başqa sözlə desək, uşaqlar, tələbələr, pensiyaçılar, sosial müavinət və ünvanlı sosial yardım alan şəxslər, hamilə və sosial məzuniyyətdə olan qadınlar üçün sığorta haqqının dövlət büdcəsi tərəfindən ödənilməsi nəzərdə tutulubdur. Bu isə Sizin sosial yönümlü islahatlarınızın və həssas əhali kateqoriyasına göstərdiyiniz yüksək qayğının bariz nümunəsidir. Eyni zamanda, vurğulamaq istərdim ki, 2018-ci il dekabrın 20-də 418 nömrəli Fərmanınızla «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsin yaradılması və dövlət tibb müəssisələrinin TƏBİB-in tabeliyinə verilməsi, dövlət tibb müəssisələrinin elektronlaşdırılması, habelə icbari tibbi sığortanın sonrakı inkişafı ilə bağlı qərarlar qəbul edilib və bundan irəli gələrək, Agentlik qarşısında mühüm vəzifələr qoyulubdur.

«Tibbi sığorta haqqında» Qanuna edilmiş dəyişikliklərin 2020-ci ildə qüvvəyə minməsini nəzərə alaraq, ölkənin səhiyyə sisteminin icbari tibbi sığorta

tələblərinə uyğunlaşdırılması ehtiyacı yaranıbdır. Bu məqsədlə tərəfimizdən tibb müəssisələrinin ilkin qiymətləndirilməsi həyata keçirilib və nəticədə 2019-cu il üzrə görüləcək işlərə dair tədbirlər planı hazırlanıbdır. Tədbirlər planına uyğun olaraq, tibb müəssisələrinin elektronlaşdırılması ilə bağlı zəruri işlərin görülməsi və informasiya texnologiyalarının geniş tətbiqi nəzərdə tutulur. Bununla yanaşı, tibb müəssisələrinin icbari tibbi sığorta sisteminə keçidini təmin etmək məqsədilə tibb işçilərinin biliklərinin artırılması və bacarıqlarının təkmilləşdirilməsi üçün bir sıra təlimlərin keçirilməsi planlaşdırılır.

Eyni zamanda, dövlət tibb müəssisələrində göstərilən tibbi xidmətlərin keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Agentlik Səhiyyə Nazirliyi ilə birgə tibb müəssisələri üçün keyfiyyət standartları üzərində işə başlayıb. 2020-ci il ərzində 20 standartın tətbiqi nəzərdə tutulub. Standartlara uyğun fəaliyyət göstərən tibb müəssisələri Agentlik tərəfindən keyfiyyət indeksinə uyğun əlavə maliyyələşmə imkanı əldə edəcək. Sonrakı illərdə isə keyfiyyət standartlarının sayının 200-ə çatdırılması nəzərdə tutulubdur.

Əhalinin icbari tibbi sığorta çərçivəsində yararlana biləcəyi xidmətlərin toplusunu ehtiva edən xidmətlər zərfinin hazırlanması, habelə tibbi xidmət tariflərinin müəyyənləşdirilməsi üzərində işlər aparılır. Həmçinin qarşıya qoyulan mühüm vəzifələrdən biri də səhiyyə işçilərinin gəlirlərinin əmək bazarının tələblərinə uyğun tənzimlənməsidir. Hazırda bu istiqamətdə işlər

yekunlaşmaq üzrədir və layihələr ən qısa zamanda aidiyyəti üzrə təqdim olunacaqdır.

Sonda zati-alilərinizi bir daha əmin etmək istərdim ki, icbari tibbi sığortanın ölkədə uğurlu tətbiqi üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi öz potensialını səfərbər edərək, Sizin etimadınızı doğrultmağa çalışacaq. İndi sayı 10 milyon olan əhalimizin icbari tibbi sığortalanması kimi şərəfli missiyanı bizə həvalə etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

## YEKUN NİTQİ

Bizim islahatlarımız davam edir. Bu gün məruzələrdə səsləndirilən fikirlər deməyə əsas verir ki, islahatlar yaxşı nəticələr verir. «Strateji Yol Xəritələri»nin icrası ilə bağlı məlumat verildi. 2 il ərzində yol xəritələrinin icrası 52 faiz təşkil edir və deməyə əsas verir ki, bu önəmli proqram 2020-ci ilin sonuna qədər icra ediləcək və beləliklə, biz bütün sahələrdə irəliləyişə nail olacağıq. Çünki artıq məruzə edilən məsələlər göstərir ki, hər bir sahə üzrə çox ciddi addımlar atılır. Büdcə gəlirlərimiz artır, makroiqtisadi vəziyyət sabitdir, islahatlar öz nəticəsini verir, biznes mühiti yaxşılaşır. Yəni biz bütün sahələrdə – kənd təsərrüfatı sahəsində, icbari tibbi sığorta sahəsində aparılan islahatların uğurlu nəticələrini görürük. 2 ildir ki, bu proqram icra edilir və pilot layihələr insanları razı salır, vətəndaşlar razıdır, həkimlərin əməkhaqqısı da qalxır. Yəni bu, ciddi addımlardır və

göstərir ki, biz hər bir sahədə yeni addımlar atmalıyıq, dünyanın ən mütərəqqi təcrübəsini Azərbaycana gətirməliyik, tətbiq etməliyik və nəticə etibarilə daha da uğurlu inkişaf modeli ortaya qoymalıyıq.

Ümumiyyətlə, deyə bilərəm ki, biz hazırda iqtisadiyyatımızın yeni inkişaf strategiyası üzərində işləyirik, bu proses başlanılıb. Bu prosesə qabaqcıl beynəlxalq mütəxəssislər, alimlər cəlb ediləcək ki, yeni inkişaf strategiyamız uğurlu olsun və gözəl nəticələrə gətirib çıxarsın. Bu günə qədər görülmüş işlər bunun üçün gözəl zəmin yaradıb. Biz əsas infrastruktur layihələrini icra etdik. Qeyd etdiyim kimi, növbəti beşillik proqram – Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində bu gün hələ də görə bilmədiyimiz bütün layihələri icra edəcəyik. Bu, möhkəm bir zəmindir. Bu zəmin üzərində yeni iqtisadi inkişaf modeli qurmalıyıq və qururuq. Bizdə həm təcrübə, həm də iradə vardır. Deyə bilərəm ki, aparıcı beynəlxalq maliyyə qurumları bizim bu siyasətimizi dəstəkləyir. Mənim Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və digər mötəbər maliyyə qurumlarının rəhbərləri ilə keçirdiyim çoxsaylı görüşlər göstərir ki, aparılan islahatlara bu qurumlar tərəfindən çox böyük dəstək vardır. Onlar da öz tərəfindən dəstəyini bundan sonra da göstərmək, bu işləri bizimlə birlikdə görmək istəyirlər. Biz də bunu istəyirik və onların təcrübəsi, o qurumlarda fəaliyyət göstərən mütəxəssislər, əlbəttə ki, bu işlərə cəlb olunacaqdır. Beləliklə, biz indiki «Strateji Yol

Xəritələri»nin icrasını uğurla başa vurmalıyıq və 2021–2025-ci illəri əhatə edən yeni proqramı işləyib təqdim etməliyik. O ki qaldı digər məsələlərə, ilin sonuna qədər elektrik enerjisi ilə bağlı modernləşdirmə prosesi davam etdiriləcək. Mövcud stansiyaların potensialının gücləndirilməsi üçün işlər aparılır. Yenidən qurulma, bərpa, modernləşdirilmə işləri nəticəsində biz mövcud stansiyalarda ən azı 400–500 meqavat əlavə enerji gücü əldə edə bilərik. Artıq bütün hesablamalar var və əminəm ki, biz bu işdə uğur qazanacağıq. Beləliklə, hesab edirik ki, ancaq modernləşdirilmə nəticəsində bir böyük yeni stansiya qurulacaq. Əgər biz «Şimal-2» stansiyasının tikintisini də əlavə etsək – o da təqribən 400–500 meqavat gücə malik stansiya olacaq – bizim enerji potensialımız daha da artacaq və ölkəmizin artan sənaye potensialı, artan əhali, əlbəttə, gələcəkdə də etibarlı qaydada elektrik enerjisi ilə təmin ediləcəkdir.

Giriş sözümdə qeyd etdim ki, qazlaşdırılma Azərbaycanda ən yüksək səviyyədədir və bu il də qazlaşdırılma ilə bağlı işlər aparılır. Biz imkanlardan maksimum istifadə etməliyik ki, bu gün hələ də qaz almayan qəsəbələrə, kəndlərə qaz xətləri çəkək. Şəhərlərdə bəzi yerlərdə qazın təzyiqi aşağıdır və bu məsələ ilə bağlı müvafiq göstərişlər verilib, işlər görülür ki, əhaliyə keyfiyyətli qaz verilsin. Eyni zamanda, «Azəriqaz» tərəfindən bəzi hallarda əsası olmayan işlərə də son qoyulmalıdır. Çünki mənə məlumat verilir ki, «Azəriqaz» özü birtərəfli olaraq, hansısa qaydalar tətbiq edir və bəzi hallarda insanlara

problemlər yaradır. Buna son qoyulmalıdır və burada maksimum şəffaflıq, ədalət olmalıdır. Çünki yerlərdən belə siqnallar gəlir ki, həm sayğaclarla, həm qazın keyfiyyəti ilə bağlı problemlər var, bunlar tamamilə aradan qaldırılmalıdır. Bütün sahələrdə – elektrik enerjisi, içməli su, təbii qazın verilməsi ilə bağlı maksimum şəffaflıq və ədalət olmalıdır.

İçməli su layihələrinin icrası ilə bağlı deyə bilərəm ki, bu günə qədər 38 şəhərdə bu layihələr başa çatıb. Əvvəlki illərdə su ilə təmin edilməyən 38 şəhərə biz təmiz içməli su xətləri çəkdik və bu suyun keyfiyyəti Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğundur. Bu ilin sonuna qədər əlavə 5 şəhərdə bu layihələr başa çatmalıdır və 12 şəhərdə işlər davam edir. Növbəti illərdə onlar da başa çatacaqdır.

Son illərdə meliorativ tədbirlərin həyata keçirilməsi geniş vüsət alıb. Biz bir neçə il ərzində yüz minlərlə hektar yeni torpağa su xətləri çəkdik. Bu il biz ən azı əlavə 70 min hektara su xətləri çəkib, orada da meliorativ tədbirləri yaxşılaşdıracağıq. Minimum 1000 kilometr avtomobil yolu çəkilməlidir. Minimum ona görə deyirəm ki, biz ilin əvvəlində bu hədəfi götürmüşdük. Ancaq yerlərdən gələn təkliflər və müraciətlər deməyə əsas verir ki, bu problem hələ də mövcuddur, baxmayaraq ki, 15 min kilometr avtomobil yolu çəkmişik. Ona görə də həm Bakı şəhərində, həm Bakı qəsəbələrində – bildiyiniz kimi, indi bu işlər geniş vüsət alıb – həm də bölgələrdə əlavə tədbirlər görüləcək. Bu proses su xətlərinin çəkilişi ilə uzlaşmalıdır. İlk növbədə, kommunikasiyalar, su

xətləri çəkilməlidir, sonra yollar. Yəni biz bu işləri paralel şəkildə görürük.

Mən qeyd etdim ki, Azərbaycan bu gün xarici sərmayələrin qoyuluşu üçün öz imkanlarını təqdim edir və bu hər bir ölkə üçün çox önəmli məsələdir. Şadam ki, qeyri-neft sektoruna investorlar tərəfindən böyük maraq vardır. Burada əsas məsələ bürokratik əngəlləri aradan götürməkdir. Biz potensial investoru cəlb etməliyik, investoru axtarmalıyıq, ona sübut etməliyik ki, Azərbaycana sərmayə qoysun. Ancaq bəzi hallarda hansısa yerli və ya xarici şirkət investisiya qoymaq istəyəndə onun qarşısında süni, bürokratik və digər əngəllər yaradılır. Bu tamamilə qəbuledilməzdir, buna yol vermək olmaz. İnvestisiyaların cəlb edilməsi hər bir ölkənin iqtisadi inkişafı üçün əsas şərtlərdən biridir. Azərbaycanda dövlət investisiyaları qoyulur və qoyulmalıdır. Ancaq biz çalışmalıyıq ki, özəl sektor daha da böyük həvəslə investisiyalar qoysun. Biz buna nail oluruq və nail olacağıq. Dövlət hər zaman bu sahədə öz dəstəyini göstərəcəkdir.

Bu il məcburi köçkünlər üçün yeni yaşayış binalarının tikintisi nəzərdə tutulur. Bildiyiniz kimi, son illərdə 100-dən çox köçkün şəhərciyi salınıb. Biz 10 ildən çoxdur ki, çadır şəhərciklərini ləğv etmişik və məcburi köçkünlərə yaxşı şərait yaratmışıq. Ancaq hələ də ağır vəziyyətdə yaşayan köçkünlər var və onların problemlərinin həlli bizim üçün əsas məsələlərdən biridir. Keçən il 6000 köçkün ailəsi üçün yeni müasir evlər tikilib, mənzillər təqdim edilibdir. Bu ilin

əvvəlində də təqribən 6000 köçkün ailəsi üçün mənzillərin tikintisi nəzərdə tutulurdu, amma biz bu mənzillərin, evlərin sayını artıracağıq. Artıq müvafiq göstərişlər verilıb, əlavə vəsait ayrılıb və işlər başlanılıbdır. Burada da ədalət əsas prinsip olmalıdır və bu gün bu prinsip təmin edilir.

Bu il şəhid ailələrinə dövlət tərəfindən ən azı 800 mənzil veriləcək. Bütövlükdə, 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillə təmin olunub. Qarabağ müharibəsi əlillərinə bu il ən azı 600 minik avtomobili veriləcək. Bu günə qədər 6200 avtomobil verilibdir. Onu da bildirməliyəm ki, bu həcmdə bu təcrübə ancaq Azərbaycanda mövcuddur. Biz bu işləri ardıcıl şəkildə görürük və görməliyik. Ona görə bizim bu sahədəki siyasət bir daha onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz ağır, çətin vəziyyətdə yaşayan insanlara mütləq kömək etməliyik və edirik. Qeyd etdiyim rəqəmlər bunun əyani sübutudur.

İş yerlərinin yaradılması Azərbaycanda daimi proses olmalıdır. Son 15 il ərzində 2 milyon iş yeri yaradılıb, ancaq əhali bu müddət ərzində 1,7 milyon artıbdır. Bu çox müsbət haldır. Bildiyiniz kimi, bu il 10 milyonuncu vətəndaş dünyaya gəlib. Artıq biz 10 milyonuq. Bu, tarixi nailiyyətdir. Əlbəttə, bu, ölkəmizi gücləndirir, potensialımızı artırır, eyni zamanda, artan əhali infrastruktur layihələrinin, iş yerlərinin yaradılması üçün əsas şərtdir. Çünki uşaq bağçaları, məktəblər tikilməlidir, infrastruktur layihələri icra edilməlidir. Sovet vaxtında yaradılmış

infrastruktur ovaxtkı əhaliyə hesablanmışdı. İndi Bakı şəhəri böyüyüb, əhalisi artıb, rayonlarda da əhali artıb. Ona görə bu məsələyə biz daim diqqət göstərməliyik. Misal üçün, bir çox infrastruktur layihələri, o cümlədən içməli su layihələri artan əhalini nəzərə almaq şərtilə 2030-cu ilə qədər hesablanıbdır.

Yenə də deyirəm, iş yerlərinin yaradılması üçün sərmayə qoyuluşu əsas vəzifədir. Dövlət tərəfindən yaradılan iş yerləri, sadəcə olaraq, sosial xarakter alır. Biz bunu edirik və edəcəyik. Ancaq bu missiyanı özəl sektor sərmayə qoyuluşu hesabına öz üzərinə götürməlidir. Sərmayə qoyuluşu olmasa, iş yerləri necə yaradıla bilər?! Dövlət daim iş yerlərini yarada bilməz. Biz sadəcə olaraq, işsizliyin azaldılması üçün bu işləri görürük. Bildirməliyəm ki, bu il 40 min ödənişli ictimai iş yeri açılır. Mənə verilən məlumata görə, artıq 35 min insan bu il ödənişli ictimai işlərlə təmin edilib. Bu, yenə də deyirəm, sosial təşəbbüsdür, sosial dəstəkdir. Ancaq özəl sektor ilk növbədə, sərmayə qoymalı, iş yerləri yaratmalı və rəqabətqabliyyətli məhsul istehsal etməlidir.

İş yerlərinin yaradılması üçün vacib amillərdən, vasitələrdən biri özünüməşğulluq proqramıdır. Biz buna da başlamışıq. Bu proqram çox böyük rəğbət qazanıb. Biz hər il özünüməşğulluq proqramı çərçivəsində təqribən 7000-ə yaxın insanı işə cəlb etmək fikrindəyik. Ancaq yerlərdən gələn sifarişlər qat-qat çoxdur. Biz bunu nəzərə almalıyıq və öz planımıza düzəlişlər etməliyik. Bu, təkcə maliyyə vəsaiti tələb edən məsələ deyil, burada bir çox texniki məsələlər

var – vasitələrin alınması, nəzarət mexanizminin tətbiq edilməsi. Bəzən vətəndaşlara verilən müəyyən vasitələrdən bəziləri səmərəli şəkildə istifadə edə bilmir və bu imkanı əldən verirlər. Ona görə burada dövlət tərəfindən həm tövsiyə verilməlidir – mən bilirəm ki, treninqlər də keçirilir – həm də nəzarət kifayət qədər güclü olmalıdır. Azərbaycanda özünüməşğulluq proqramının həm məşğulluq, həm iqtisadi inkişaf, həm də istehsal baxımından çox böyük gələcəyi vardır. Onu da bildirməliyəm ki, aparıcı beynəlxalq maliyyə qurumlarının, misal üçün, Dünya Bankının, digər bankların rəhbərləri ilə görüşlər əsnasında mən bu məsələni də qaldırmışdım və onlarda da buna böyük maraq vardır. Biz onları cəlb etməliyik. Bizim indi maliyyə imkanlarımız vardır. Ancaq təcrübə baxımından, onlarda olan təcrübə bizdə yoxdur. Çünki biz bu işə təzə başlamışıq, onlar isə dünyanın müxtəlif yerlərində bu proqramı təşviq edirlər. Ona görə özünüməşğulluq proqramına daim diqqət göstərilməlidir. Mən bu mövzu ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Məhz ona görə ki, bu çox vacib məsələdir.

Qeyd etdiyim kimi, bu il maaşlar, pensiyalar artırılıb və bu proses davam etdiriləcək. Biz bu məsələni daim diqqətdə saxlayırıq. Son 15 il ərzində maaşlar və pensiyalar dəfələrlə artıb. Ancaq bu bizi tam qane edə bilməz. Ona görə bundan sonra da minimum əməkhaqqı, minimum pensiya və digər sosial müavinətlərin artırılması nəzərdə tutulur. İmkan daxilində biz bunu edəcəyik. Bu sahədə öz siyasətimizi ardıcıl şəkildə aparacağıq.

Sosial infrastrukturla bağlı – bu da daim diqqət mərkəzində olan məsələdir – bildirməliyəm ki, bu il 100-ə yaxın məktəb tikiləcək və ya əsaslı təmir ediləcək, o cümlədən modul tipli məktəblər. Bunun da çox böyük faydası var, xüsusilə ucqar kəndlərdə. Bu məktəblər həm tez bir zamanda ərsəyə gəlir, həm də keyfiyyət baxımından çox yüksək standartlara cavab verir. Beləliklə, hesab edirəm ki, biz qəzalı məktəblər problemini bu il, uzaqbaşı gələn il həll edəcəyik. Yəni Azərbaycanda bir dənə də olsun qəzalı məktəb olmamalıdır. Bu istiqamətdə böyük işlər görülüb və görüləcəkdir.

Bu il 10-a yaxın yeni Mərkəzi Rayon Xəstəxanası fəaliyyətə başlayacaq. Beləliklə, Azərbaycanda bir dənə də şəhər, rayon olmayacaq ki, orada ən müasir standartlara cavab verən tibb mərkəzi olmasın.

Üç Olimpiya İdman Mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulurdu, onlardan biri artıq açıldı. 6 milyon insan dövlət hesabına tibbi müayinədən keçəcəkdir. Bu da bizim təşəbbüsümüzdür, çox ciddi sosial addımdır və vətəndaşlar bundan faydalanırlar. Hər bir vətəndaş il ərzində öz sağlamlığına fikir verməli və müayinədən keçməlidir. Dövlət bu şəraiti yaradıbdır və dövlətin hesabına bu məsələ öz həllini tapır.

İcbari tibbi sığortanın tətbiqi ilə bağlı qeyd etdim ki, 3 pilot layihənin təcrübəsi çox müsbətdir. Məruzədə də səsləndirildi ki, biz indi genişmiqyaslı proqramın icra edilməsinə hazırıq. Bu da çox ciddi sosial addım olacaqdır.

Bakı şəhərində nəqliyyat-təsərrüfat problemlərinin həlli üçün əlavə tədbirlər nəzərdə tutulur, şəhər nəqliyyatı təkmilləşir. Bu il 300 ən müasir avtobusun Bakıya gətirilməsi nəzərdə tutulur. Beləliklə, bu, şəhər nəqliyyatına böyük töhfə olacaqdır. Şəhərə yeni metro vaqonları gətiriləcək, yüzlərlə yeni lift quraşdırılacaqdır. Bu məqsədlər üçün dövlət büdcəsində vəsait nəzərdə tutulur. Şəhərətrafı dəmir yolunun çəkilişi prosesi davam etdirilir. Bu da şəhər nəqliyyatının işini xeyli yaxşılaşdıracaqdır.

Bu il Ağsu, İsmayıllı, Şamaxı rayonlarında baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması üçün fəal işlər gedir. Müntəzəm olaraq mənə məruzə edilir. Minlərlə yeni ev tikilib əsaslı təmir ediləcəkdir. Dövlət vəsaiti ayrılıb. Yenə də demək istəyirəm ki, biz bu məsələyə çox operativ şəkildə yanaşdıq. Vətəndaşların problemlərini nəzərə alaraq çalışmalıyıq ki, bu işlər tez bir zamanda başa çatsın. Halbuki bu, ağır işdir, ilk növbədə, təhlil aparılmalı, komissiya işləməli, dəymiş ziyanın həcmi müəyyən edilməli və tikinti işləri aparılmalıdır. Əlbəttə, bu, zaman tələb edən məsələdir. Həm dövlət qurumları, həm də özəl sektor bu işlərə qoşulub. İşlər indi geniş vüsət alıb. Həm vətəndaşların evləri təmir olunur, yeni evlər tikilir, həm də çoxmərtəbəli binaların tikintisi başlanılıbdır. Çalışmalıyıq ki, bu məsələ də qısa müddət ərzində öz həllini tapsın. Mən bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişdim. Bir daha demək istəyirəm ki, inkişaf etmiş ölkələrdə bu işləri sığorta şirkətləri görür. Vətəndaşın evi sığortalıdır, sığorta

pulunu alır, gedir özü üçün ev tikir. Nəzərə alsaq ki, bizdə belə deyil, dövlət bu məsələni öz üzərinə götürür. Bir daha demək istəyirəm ki, ən gözəl nümunə göstərən ölkələrdən biri Azərbaycandır, həm keyfiyyət, həm müddət, həm operativlik, həm də vətəndaşlara qayğı baxımından. Azərbaycan vətəndaşları əmin ola bilərlər ki, ən ağır məqamlarda dövlət onların yanındadır. Dövlət orqanları, mərkəzi və yerli icra orqanlarının nümayəndələri daim vətəndaşlara qayğı, diqqət göstərməli, daim vətəndaşların yanında olmalıdırlar. Müvafiq icra orqanlarının rəhbərlərinə və məsul şəxslərə göstəriş verilib ki, onlar qəsəbələrdə, kəndlərdə olmalı, vətəndaşların problemlərini eşitməli, onlara biganə qalmamalı, onlara şərait yaratmalı, dəstək olmalı, kömək göstərməlidirlər. Bu sahədə çox ciddi islahatlar aparılır və aparılacaqdır.

Ümumiyyətlə, idarəetmə sahəsində islahatların aparılmasına böyük ehtiyac vardır. Mən bunu bu gün də, əvvəlki çıxışlarda da demişəm. Hər bir sahədə inkişaf üçün böyük meydan vardır. Hər bir sahədə, əgər o sahəyə rəhbərlik edən insanlar öz işinə vicdanla yanaşarlarsa, mütləq nəticə də olacaqdır. Bu, ictimaiyyət tərəfindən də mütləq yüksək qiymətləndiriləcəkdir. Ona görə bir daha demək istəyirəm ki, yerli və mərkəzi icra orqanlarının nümayəndələri daim vətəndaşların problemləri ilə məşğul olmalıdırlar. Biz regional inkişaf proqramını yüksək dərəcədə yerlərdən gələn məktublar, sifarişlər əsasında formalaşdırmışıq. Hansı problemlər insanları narahat edir, biz o problemləri də Dövlət Proqramına salmışıq

və onları həll edirik. Amma bəzi hallarda bu layihələrin icrası ilə bağlı bir çox qüsurlar, çatışmazlıqlar olur. Bunlar aradan qaldırılmalı, ictimai nəzarət daha da güclü olmalıdır.

Ölkəmizdə makroiqtisadi vəziyyət sabitdir. Mən qeyd etdim, inflyasiya aşağı səviyyədədir – 2 faizdən bir qədər çoxdur. Manatın məzənnəsi sabitdir. Belə olan halda, əlbəttə ki, süni qiymət artımına yol vermək qətiyyən olmaz. Bəzi hallarda bəzi məhsulların qiymətlərində artım olur. Bunun heç bir əsası yoxdur. Bəzi hallarda mövsümi xarakter daşıyır. Amma bəzi hallarda qiymətlər süni şəkildə artırılır. İndi ölkə iqtisadiyyatında canlanma vardır. İnsanların alıcılıq qabiliyyəti artır. Biz bunu indi statistik göstəricilərdən görürük. İndi istehlak bazarına nəzarət edən qurumlar bunu görür. Maaşlar, müavinətlər artır, problemli kreditlərlə bağlı ödənişlərə başlanılıb. Ancaq biz imkan verə bilmərik ki, bundan hansısa natəmiz adamlar, möhtəkirlər istifadə etsinlər, qiymətləri süni şəkildə qaldırsınlar, yaxud da ki, hansısa bir inhisarçılıqla məşğul olsunlar. Ona görə istehlak qiymətlərinə daim nəzarət olmalıdır. Süni qiymət artımına qətiyyən yol verilməməlidir. Müvafiq qurumlar bu işlərlə çox ciddi məşğul olmalıdırlar.

Sənaye istehsalı sahəsində iri sənaye müəssisələrinin yaradılması prosesi yaxşı nəticələr verir. Ancaq biz çalışmalıyıq ki, kiçik, orta sənaye müəssisələri daha da fəal olsun, həm yeniləri yaradılsın, həm də fəaliyyətdə olan sənaye obyektləri öz işini təkmilləşdirsin ki, rəqabətqabliyyətli məhsullar isteh-

sal olunsun. Bu həm iş yerləri, həm yerli istehsal, həm də idxaldan asılılığın aradan qaldırılmasıdır. Sənaye parklarının bu sahədə böyük əhəmiyyəti vardır. Bizdə sənaye parklarında, sənaye zonalarında 60-a yaxın rezident vardır. Bu parklara, zonalara artıq 3,3 milyard dollar sərmayə qoyulub. Əgər biz sənaye parklarını yaratmasaydıq, bu vəsait də qoyulmazdı. Orada güzəştli şərtlər tətbiq olunur, investorlar vəsait qoyur, iş yerləri yaradır və nəticə etibarilə ölkəmiz inkişaf edir.

İnşaat sektorunun inkişafına biz daha böyük diqqət göstərməliyik. İnşaat sektorunda canlanma vardır. İnşaat sektorunda minlərlə, on minlərlə insan işləyir. Hazırda Bakı şəhərində 400-ə yaxın çoxmərtəbəli bina tikilir. Bu onu göstərir ki, bu sektorda çox böyük canlanma, irəliləyiş var, tikinti materiallarının istehsalı artır. İnşaat sektoru iqtisadiyyat üçün çox böyük əhəmiyyət daşıyan sahədir. Burada dövlət tərəfindən sahibkarlara tam dəstək verilməli, bütün bürokratik əngəllər aradan qaldırılmalıdır. Sahibkarlar da dövlət nəzarəti altında bütün memarlıq və şəhərsalma qaydalarına əməl etməlidirlər.

Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə birinci sosial evlər layihəsi uğurla başa çatıb. Yasamal yaşayış kompleksi istifadəyə verilib. Mən bu kompleksin açılışında olmuşam. İndi isə ikinci layihə icra edilir – Hövsan qəsəbəsində. Orada indi 3000-ə yaxın mənzil inşa edilir. Bu qurum – MİDA mənim təşəbbüsümlə yaradılıb və məhz sosial məna daşıyan bir layihədir. Sosial evlərin tikintisi minlərlə ailənin

mənzillə təmin edilməsi üçün şərait yaradır. Bu, minlərlə iş yeri yaradır və eyni zamanda, inşaat sektoruna böyük təkan verir. Yəni təkcə bir yaşayış kompleksində 3000-ə yaxın mənzilin tikintisi görün nə qədər insanı bu işlərə cəlb edir, nə qədər sahibkarı işlə təmin edir.

Kənd təsərrüfatı ilə bağlı aparılan islahatlar haqqında məruzə edildi. Bu sahə də daim diqqət mərkəzindədir. Bildiyiniz kimi, dövlət bu sahəyə çox böyük dəstək, yardım göstərir. Güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar, texnika verilir. Mən deyə bilərəm ki, Azərbaycan bu sahədə dünya miqyasında fermerlərə dəstək baxımından ən qabaqcıl ölkələrdən biridir. Həm də onlardan vergilər də tutulmur, torpaq vergisi istisna olmaq şərtilə. Bu sahəyə maksimum dəstək verilir və bu sahədə aparılan islahatlar əminəm ki, daha da böyük nəticələrə gətirib çıxaracaq. Hesab edirəm ki, indiki 3,6 faiz artım bizim potensialımızı tam əks etdirmir. Çünki bu qədər işlər görülür – həm meliorativ tədbirlər, həm dövlət tərəfindən dəstək. Fındıqçılıq, üzümçülük, pambıqçılıq, taxılçılıq, meyvəçilik, tərəvəzçilik sahəsində görülən işlər barədə indi məruzədə də səsləndirildi. Yəni bizim istehsalımız və ixracımız yüksək dərəcədə artır. Mən hesab edirəm ki, görülmüş işləri və islahatları nəzərə alsaq, kənd təsərrüfatında artım daha da yüksək ola bilər.

Azərbaycanda kənd təsərrüfatı texnoloji sahəyə çevrilməlidir və burada yeni mexanizmlər, o cümlədən aqrar sığorta mexanizmi tətbiq edilməlidir. Bu-

nunla paralel olaraq, biz kəndlərdə investisiya layihələrinin icrası ilə bağlı da düşünməliyik. Mən tapşırıq verirəm ki, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birgə işləsinlər. İşçi qrupu da yaradıla bilər ki, kəndlərdə investisiya layihələrinin icrası ilə bağlı təkliflər hazırlansın. Hər bir kənd üzrə belə proqram ola bilər. Biz investisiyaları daha çox şəhərlərə cəlb edirik. Ancaq kəndlərin də yeni inkişaf konsepsiyası hazırlanmalıdır.

Əlbəttə, mən bütün bu işlərdə sahibkarların rolunu qeyd etmək istərdim. Son vaxtlar Azərbaycanda güclü sahibkarlar sinfi formalaşıb. Mən sahibkarları daim dəstəkləyirəm. Çoxsaylı görüşlərdə onlara öz dəstəyimi ifadə edirəm, dövlət onları dəstəkləyir – həm güzəştli kreditlər, həm tövsiyə, həm də yaradılmış şəraitlə. Əgər infrastruktur layihələri olmasaydı, sahibkar investisiya qoya bilməzdi. Əgər işıq, qaz, yol yoxdursa, hansı sahibkar harasa vəsait qoya bilər?! Biz bunu yaratdıq, üstəlik kreditlər də verdik. Bu günə qədər sahibkarlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilibdir. Təkcə bu il 170 milyon manat həcmində kredit veriləcək, əvvəllər verilmiş və qaytarılan kreditlər hesabına. Ona görə sahibkarlar bundan sonra da fəal olmalı və yeni müəssisələr, iş yerləri yaratmalıdırlar. Mən onlara tövsiyə etmişdim ki, mövcud müəssisələrdə əlavə iş yerləri yaratsınlar. Çünki dövlət 40 min ödənişli ictimai iş yeri yaradır. Mənə verilən məlumata görə, sahibkarlar bu il təqribən 8000

ödənişli ictimai iş yeri yaradacaqlar. Bu onlar üçün böyük bir yük olmayacaq, ancaq vətəndaşların məşğulluq problemini həll edəcəkdir. Baxın, dövlət və özəl sektor ancaq 1 il ərzində 50 minə yaxın ictimai iş yeri yaradacaq. Əlbəttə, biz gözləyirik ki, yeni müəssisələr, yeni sənaye sahələri yaradılsın və burada iş yerləri kifayət qədər çox olsun.

Bu il bölgələrdə 5 «ASAN xidmət» Mərkəzinin yaradılması nəzərdə tutulur və beləliklə, onların sayı 20-yə çatacaqdır. Mənə verilən məlumata görə, Bakı şəhərində də yeni mərkəzlərin tikintisinə ehtiyac vardır. Çünki «ASAN xidmət»in funksiyalarının həcmi və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Biz «ASAN xidmət»i məhz ona görə yaratdıq ki, bu, asan olsun, bu xidmət rahat olsun, növbə olmasın, heç bir pozuntu olmasın, şəffaf olsun. Buna nail olmuşuq. «ASAN xidmət»in bəyənmə əmsalı 100 faizə yaxındır. Ancaq nəzərə alsaq ki, funksiya genişlənir və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Ona görə göstəriş vermişəm ki, – ilkin vəsait də ayrılıb – Bakı şəhərində əlavə 2 «ASAN xidmət» Mərkəzi yaradılsın və beləliklə, onların sayı 22-yə çatacaqdır.

Görülmüş işlər deməyə əsas verir ki, biz düzgün yoldayıq. Buna heç bir şübhəmiz yoxdur. İqtisadi, sosial sahələrdə və bütün başqa sahələrdə islahatlar bundan sonra da aparılacaq. Bildiyiniz kimi, bu yaxınlarda məhkəmə-hüquq sahəsində islahatlarla bağlı müvafiq fərman imzalanıb. Hesab edirəm ki, onun icrası bu sahədə də ciddi dönüşə səbəb olacaq. Yəni

biz gərək hər bir sahədə irəli gedək. Yeniliklər, müsbət təcrübə, dünyada mövcud olan ən mütərəqqi yanaşma Azərbaycanda tətbiq edilməlidir. Nəzərə almalıyıq ki, bizim neft-qaz sektorumuz da iqtisadiyyata böyük dəstəkdir. Nəzərə almalıyıq ki, biz indi nəqliyyat mərkəzlərindən birinə çevrilirik. Bu yaxınlarda Çində keçirilmiş «Bir kəmər – bir yol» forumunda Azərbaycanın iştirakı bir daha onu göstərir ki, ölkəmiz bu önəmli layihənin tərkib hissəsidir. Bizim gəlirlərimiz artacaq, maliyyə və iqtisadi imkanlarımız daha da böyüyəcəkdir.

Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, daim irəliyə baxmalıyıq. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, 2019-cu il də ölkəmiz, xalqımız üçün uğurlu olacaqdır. Sağ olun.

## URUQVAY ŞƏRQ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ RODOLFO NİN NOVOA İLƏ GÖRÜŞ

*1 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Uruqvay Şərq Respublikasının Xarici İşlər naziri Rodolfo Nin Novoanı qəbul etmişdir.*

*Dövlət başçısı Uruqvayın Xarici İşlər naziri Rodolfo Nin Novoanın ölkəmizə səfəri zamanı ikitərəfli münasibətlərin genişləndirilməsi istiqamətində səmərəli müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi. Eyni zamanda, Prezident İlham Əliyev Rodolfo Nin Novoanın Azərbaycanda görüşləri zamanı iqtisadi əməkdaşlığın və biznes strukturları arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı perspektivlərin müəyyənləşdiriləcəyinə əmin olduğunu söylədi. Dövlət başçısı ölkələrimiz arasında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin də əlaqələrin genişləndirilməsi baxımından önəmini qeyd etdi.*

*Uruqvay Şərq Respublikasının Xarici İşlər naziri Rodolfo Nin Novoa Prezident İlham Əliyevlə görüşdən məmnunluq hissi keçirdiyini qeyd edərək, qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı zəmin yaratdığını diqqətə çatdırdı. O, Azərbaycan ilə Uruqvay arasında iqtisadi əməkdaşlığın,*

*o cümlədən ticarət dövriyyəsinin artırılmasının da zəruri olduğunu vurğuladı. Uruqvaylı nazir ölkəsinin bütün dövlətlərin ərazi bütövlüyünü dəstəklədiyini və bu mövqenin dəyişməz olaraq qaldığını nəzərə çatdırdı. Rodolfo Nin Novoa Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edəcəyindən məmnunluğunu bildirdi.*

*Görüşdə V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti vurğulandı və bu forumun beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı ölkələrimiz arasında kənd təsərrüfatının müxtəlif sahələrində əməkdaşlığın inkişafı üçün böyük perspektivlərin olduğu bildirildi.*

## ÜMUMDÜNYA VƏ AVRASİYA YƏHUDİ KONQRESLƏRİ VƏ AVROPA YƏHUDİLƏRİNİN BAKI DİNİ İCMASININ RƏHBƏRLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Ümumdünya Yəhudi Konqresinin, Avrasiya Yəhudi Konqresinin və Avropa Yəhudilərinin Bakı dini icmasının rəhbərlərinin daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Ümumdünya və Avrasiya Yəhudi konqresləri rəhbərlərinin ölkəmizə geniş tərkibdə səfərinin əməkdaşlığın müzakirəsi üçün yaxşı imkan yaratdığını nəzərə çatdırdı. Prezident İlham Əliyev əsrlərboyu ölkəmizdə müxtəlif xalqların, o cümlədən yəhudilərin əmin-amanlıq şəraitində bir ailə kimi yaşadığını vurğulayaraq, bu gün də Azərbaycanın mədəniyyətlərarası dialoqun uğurla həyata keçirildiyi bir ölkə kimi tanındığını qeyd etdi. Dövlət başçısı Azərbaycanın beynəlxalq aləmdə sivilizasiyalararası əlaqələrin təmin edilməsi işinə böyük töhfə verdiyini söylədi.*

*Çıxış edən qonaqlar Prezident İlham Əliyevlə görüşdən məmnunluq hissi keçirdiklərini bildirdilər.*

*Onlar ölkəmizdə gördükləri inkişaf proseslərinin nümayəndə heyətinin üzvlərində dərin təəssürat doğurduğunu qeyd etdilər.*

*Söhbət zamanı Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirin xalqlararası və mədəniyyətlərarası dialoqa böyük töhfə verdiyi vurğulandı.*

## **İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ YUSİF BİN ƏHMƏD ƏL-OSAYMİN İLƏ GÖRÜŞ**

*2 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd əl-Osaymini qəbul etmişdir.*

*İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd əl-Osaymin V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini qeyd edərək, «Bakı prosesi»nin artıq təsisatlanmış bir mexanizmə çevrildiyini söylədi. Bu gün Azərbaycanın nəqliyyat qovşağı olmaqla yanaşı, dialoq və əməkdaşlıq qovşağına da çevrildiyini qeyd edən Yusif bin Əhməd əl-Osaymin Azərbaycanı dinc birgə yaşayışın rəmzi kimi xarakterizə etdi.*

*İslam Əməkdaşlıq Təşkilatının baş katibinə forumda iştirakına görə təşəkkürünü bildirən Prezident İlham Əliyev qonağın forumun açılışı mərasimində söylədiyi fikirlərin əhəmiyyətini vurğuladı. Dövlət başçısı «Bakı prosesi»nin mühüm beynəlxalq platforma olduğunu dedi. Bu prosesin 10 ildən artıq davam etdiyini və bu gün dünyada mədəniyyətlərarası əlaqələrin və dinlərarası əməkdaşlığın qurulmasında*

*ən səmərəli mexanizmlərdən biri kimi tanındığını diqqətə çatdırdı.*

*Görüşdə islam dünyasında birliyin və həmrəyliyin vacibliyi qeyd olundu və Azərbaycanın bu istiqamətdə gördüyü işlər təqdir edildi, həmçinin İslam Əməkdaşlıq Təşkilatının gündəliyində duran məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## BMT SİVİLİZASİYALAR ALYANSININ ALİ NÜMAYƏNDƏSİ MİGEL ANXEL MORATİNOS İLƏ GÖRÜŞ

*2 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul etmişdir.*

*Prezident İlham Əliyev BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosa V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakına və ölkəmiz haqqında söylədiyi xoş sözlərə görə təşəkkürünü bildirdi. Dövlət başçısı Azərbaycanın BMT Sivilizasiyalar Alyansı ilə yaxından əməkdaşlıq etdiyini vurğuladı.*

*2007-ci ildə ATƏT-in fəaliyyətdəki sədri olarkən, Azərbaycan Prezidenti İlham Əliyevlə ilk görüşündən danışan qonaq həmin söhbət zamanı Azərbaycanın dövlət başçısının söylədiyi fikirləri bu gün də xatırladığını diqqətə çatdırdı. Forumun təşkilinə görə minnətdarlığını bildirən Migel Anxel Moratinos Bakının dünyada dialoq mərkəzi kimi tanındığını, «Bakı prosesi»nin önəmli bir platformaya çevrildiyini və zamanında irəli sürülmüş təşəbbüs olduğunu vurğuladı. Bildirdi ki, bu prosesin coğrafiyasının genişlən-*

*dirilməsi və Azərbaycanın multikulturalizm ənənələrinin təşviqi böyük əhəmiyyət daşıyır.*

*Söhbət zamanı Azərbaycanın BMT Sivilizasiyalar Alyansına verdiyi dəstək yüksək qiymətləndirildi.*

## AVROPA ŞURASI BAŞ KATİBİNİN MÜAVİNİ QABRİELLA BATTAİNİ-DRAQONİ İLƏ GÖRÜŞ

*2 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Avropa Şurası baş katibinin müavini Qabriella Battaini-Draqonini qəbul etmişdir.*

*Avropa Şurası baş katibinin müavini Qabriella Battaini-Draqoni Azərbaycanın Avropa Şurasının layiqli üzvü olduğunu bildirərək, «Bakı prosesi»ni Avropa Şurası üçün də uğurlu platforma adlandırdı. 2008-ci ildən bu prosesin genişlənərək, mühüm hərəkata çevrildiyini diqqətə çatdıran qonaq qeyd etdi ki, mədəniyyətlərarası dialoq insanların həyatını dəyişə biləcək vacib prosesdir. «Bakı prosesi»nin başlandığı dövrdən diplomatik münasibətlərdə yenilik, müdrik və cəsarətli addım olduğunu qeyd edən Avropa Şurası baş katibinin müavini bu prosesin davamlı olması üçün verdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

*Prezident İlham Əliyev Avropa Şurası baş katibinin müavini Qabriella Battaini-Draqoninin forumun açılışı mərasimində Azərbaycan haqqında söylədiyi fikirləri yüksək qiymətləndirdi. Dövlət başçısı forumda vacib tövsiyələr irəli sürüləcəyinə əminliyini ifadə*

*etdi, belə önəmli beynəlxalq toplantının mədəniyyət sahəsində körpülərin, dialoqun qurulmasına mühüm töhfə verdiyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanın həm Avropa Şurasına, həm də İslam Əməkdaşlıq Təşkilatına üzv olduğunu qeyd edərək, ölkəmizin «Bakı prosesi» vasitəsilə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqu təşviq etdiyini bildirdi. Hazırkı şəraitdə «Bakı prosesi» coğrafiyasının genişləndirilməsinin zəruriliyini qeyd edən dövlət başçısı Azərbaycanın sivilizasiyalararası dialoqu təşviq etməklə bərabər, sivilizasiyalardaxili dialoqu da dəstəklədiyini söylədi.*

*Görüşdə Avropa Şurasının gündəliyində duran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN AÇILIŞINDA İŞTİRAK

*2 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 2-də Bakıda «Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq» şüarı altında keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışı mərasimində iştirak etmişlər.*

*Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESKO, BMT Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və İSESKO-nun tərəfdaşlığı ilə keçirildi. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak etdilər.*

*2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən «Bakı prosesi» 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Ötən müddət ərzində forumun coğrafiyası çox genişlənib. Nəticədə tədbirə*

*qoşulan qurumların sayı xeyli artıb. Budəfəki foruma Latın Amerikası ölkələrindən tutmuş, Səudiyyə Ərəbistanı, Böyük Britaniya kimi dövlətlərin təmsilçiləri də qatılıblar. V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insanlar arasında həmrəylik yaratmaqda və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun mühüm rolu öyrənilir. Forum üç istiqamətdə davam edəcəkdir.*

*Dövlət başçısı İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışı mərasimində nitq söylədi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əvvəlcə, forumun bütün iştirakçılarını salamlayır, bu gün bizimlə birlikdə olduqlarına görə qonaqlarımıza təşəkkürümü bildirirəm. Burada 100-dən artıq ölkədən 500-dən çox qonağımız vardır. Bu onu göstərir ki, bu forum nisbətən qısa zaman ərzində cari gündəlikdə duran mövzulardan biri olan mədəniyyətlərarası dialoqun müzakirəsi baxımından qlobal platformaya çevrilibdir.

Səkkiz il əvvəl ilk forum təşkil ediləndə biz onun bu qədər geniş beynəlxalq dəstək qazanacağını təsəvvür edə bilməzdik. 2011-ci ildə bizim mədəniyyətlərarası dialoqa həsr edilmiş dünya forumunun təşkil edilməsi təşəbbüsümüz tariximiz, coğrafiyamız

və düşüncəmizdən qaynaqlanırdı ki, dünyanı təhlükəsiz etmək üçün biz sivilizasiyalar, mədəniyyətlər və müxtəlif etnik qrup və dinlərin nümayəndələri arasında dialoqun təşviqi sahəsində çox fəal olmalıyıq. Foruma göstərilən geniş beynəlxalq dəstək bizi ruhlandırır. Bu gün forumun həmtəşkilatçıları arasında dünyanın aparıcı beynəlxalq təşkilatları var və bizim birgə səylərimiz mədəniyyətlərarası dialoqun təşviqi işinə töhfə verir.

Azərbaycan əsrlərboyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır. Əsrlərboyu Azərbaycan dini dözümlülük və müxtəlif millətlərin birgə yaşadığı torpaq olubdur. Tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlərboyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri qədim Şamaxı şəhərində yerləşir. Qafqazın ən qədim kilsələrindən biri olan Qafqaz Albaniyasına məxsus kilsə bizim qədim Şəki şəhərindədir.

Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nüma-

yəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir.

Multikulturalizm bizim üçün həyat tərzidir. Bu söz nisbətən yeni olsa da, biz həmin ab-havada əsrlərboyu yaşamışıq. 2016-cı ilin Azərbaycanda «Multikulturalizm ili» elan olunması onu sübut edir ki, biz dünyanın diqqətini bu mühüm ideyaya cəlb etmək istəyirik. 2017-ci il isə «İslam həmrəyliyi ili» elan edilmişdir. Bu da bizim tarixi irsimizi, kökümüzü və dünyaya açıq olduğumuzu nümayiş etdirən, rəmzi məna daşıyan addım idi. Hesab edirəm ki, bu meyillər üstünlük təşkil etsə, dünyada təhlükəsizlik, proqnozlaşdırılma və sülh bərqərar olar.

Bizim üçün multikulturalizm həm də siyasətimizin mühüm elementlərindəndir. Azərbaycanda multikulturalizm üzrə beynəlxalq mərkəz yaradılıb. Biz bu dəyərləri təşviq edir və multikulturalizmin böyük gələcəyinin olduğunu nümayiş etdiririk. Bilirik ki, bu mövzu ilə bağlı müxtəlif fikirlər vardır. Hesab edirəm ki, bizim forum və bu mövzuda Azərbaycanda və dünyanın digər yerlərində təşkil olunan çoxsaylı beynəlxalq tədbirlər multikulturalizm dəyərlərinin təşviqi ilə bağlı səylər göstərdiyimizi aydın nümayiş etdirir.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal miqyasda və əlbəttə, bizim ölkəmiz üçün mühüm beynəlxalq tədbirlərdən biridir. Son illər ərzində Azərbaycan çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi edib. Dünya Dini Liderlərinin Forumunu, ənənəvi Bakı Humanitar Forumunu, 7 dəfə Bakı

Qlobal Forumunu təşkil etmişik. Nizami Gəncəvi Mərkəzi tərəfindən təşkil edilən həmin forum da siyasi inkişaf və mədəniyyət dialoqu mövzularının müzakirəsi üçün çox vacib platformadır. Digər tədbirlər də təşkil edilir və bununla da biz dünya ictimaiyyətinin diqqətini bu mühüm məsələlərə yönəltməyə çalışırıq. Əminəm ki, bu gün və sabah forum çərçivəsində aparılan müzakirələr problemləri aşkar edərək, natiqlərə fikirlərini bildirmək imkanı verməklə yanaşı, tərəfdaşlıq, həmrəylik və əməkdaşlığı gücləndirəcək, nəticədə mədəniyyətlər arasında körpü yaradacaqdır.

Ötən il biz «Bakı prosesi»nin 10 illiyini qeyd etdik. Bu da bizim fəxr etdiyimiz bir təşəbbüsdür. Yadımdadır, 2008-ci ildə bu təşəbbüs irəli sürülən kimi, o dərhal beynəlxalq diqqəti özünə cəlb etdi. İlk dəfə məhz Azərbaycan Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin Mədəniyyət nazirlərini bir araya gətirdi. 100-dən artıq dövlətin nümayəndəsi Bakıda toplaşdı və əməkdaşlıq perspektivlərini müzakirə etdi. Biz eyni tərkibdə nazirlərin iştirakı ilə daha bir tədbiri 2009-cu ildə təşkil etdik. Bu təşəbbüs «Bakı prosesi» adlandırıldı və bu gün həmin proses Avropa ilə müsəlman dünyası arasında dialoq üçün mühüm vasitədir. Həm İslam Əməkdaşlıq Təşkilatı, həm də Avropa təsisatlarına eyni zamanda üzv olan Azərbaycan təmasların qurulması və dialoq üçün imkanların yaradılmasında özünün təbii və əminəm ki, müsbət rolunu oynayır. Bizim dialoqa ehtiyacımız vardır. Mədəniyyət və

dinlərarası münasibətlər, siyasi gündəlik, iqtisadi əməkdaşlıq və təhlükəsizlik məsələlərində dialoq zəruridir. Forumun adı belə, dialoq adlanır. Yəni biz məhz bunu dünyaya təqdim edirik və bu təşəbbüs geniş beynəlxalq dəstəyə malikdir.

Bu gün «Bakı prosesi» BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir.Əminəm ki, «Bakı prosesi»nin böyük gələcəyi vardır.

Bu qəbildən olan forumlar mədəniyyətlərarası dialoq mövzusuna diqqəti cəlb edir, yeni ideyalar və yanaşmalar ortaya qoyulur. Müxtəlif ölkələrdə və beynəlxalq təşkilatlarda mühüm qərar qəbul edənlər üçün bu, düzgün qərarların verilməsi məqsədilə yaxşı və müsbət platformadır. Bu baxımdan Azərbaycan həm daxildə, həm də xaricdə qarşılıqlı anlaşma və əməkdaşlığa söykənən siyasət yürüdür. Biz körpülər qururuq. Biz Avropa ilə Asiya arasında yerləşirik. Əlbəttə, bizim coğrafiyamız tariximizə təsir edib və bugünkü inkişafımıza da təsir etməkdədir.

Bu gün nisbətən gənc müstəqil dövlət olan Azərbaycan Avropa ilə Asiya arasında körpülərin yaradılmasında mühüm rol oynayır. Siyasi, iqtisadi, mədəni, eyni zamanda, praktiki baxımdan da nəqliyyat bağlılığı yaradan körpülər mühüm əhəmiyyət kəsb edir.

Ötən il biz müstəqilliyimizin 27-ci ildönümünü qeyd etdik. Bu müddət ərzində Azərbaycan müasir infrastruktura və gələcəklə bağlı aydın baxışa malik, inkişaf edən ölkəyə çevrilib. Uzun illər üzləşdiyimiz əsas problemlərdən biri Ermənistanın ölkəmizin

ərazisini işğal etməsidir. 25 ildən artıqdır ki, Ermənistan bizim tarixi torpağımız olan Dağlıq Qarabağı və Azərbaycanın digər 7 rayonunu işğal etməkdə davam edir. Bu, beynəlxalq hüququn kobud pozulmasıdır. Bizim xalqa qarşı etnik təmizləmə aparılıb, Ermənistanın təcavüzü və işğalı nəticəsində 1 milyondan artıq insan evlərindən didərgin salınıb. ATƏT işğal edilmiş ərazilərə 2 dəfə faktaraşdırıcı missiya göndərib və həmin hesabatlar tarixi irsimizin və dini abidələrimizin dağıdıldığını aydın şəkildə göstərir.

BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələr kağız üzərində qalıb. Bu onun göstəricisidir ki, bəzən BMT Təhlükəsizlik Şurasının qətnamələri uzun illər ərzində icra edilmir. Onların yerinə yetirilmə mexanizmi ya mövcud deyil, ya da tətbiq edilmir. Bunun nəticəsində isə Azərbaycanın torpaqları işğal altında qalmaqdadır.

İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı», ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamə və qərarlar qəbul edibdir. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Bizim ərazi bütövlüyümüz bərpa edilməli və münaqişə beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi, Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktına əsasən həll edilməlidir.

Bu böyük problem və humanitar fəlakətə baxmayaraq, Azərbaycan müasir ölkəyə çevrilə bilib. Bizim fəal xarici siyasətimiz vardır. İqtisadi siyasətimiz ölkə əhalisinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına imkan yaradıb. Xarici siyasət sahəsində Azərbaycan etibarlı tərəfdaşdır. Biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. Bizim Avropa İttifaqı ilə yaxın münasibətlərimiz vardır. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədlər qəbul edilib. Qeyd etdiyim kimi, Avropa ilə müsəlman dünyası arasında körpülərin qurulması baxımından «Bakı prosesi» bizim töhfəmizdir.

Yəni xarici siyasət gündəliyimiz əməkdaşlığın, tərəfdaşlığın gücləndirilməsi və qarşılıqlı fayda üzərində qurulub. Bizim xarici siyasətimiz bizə əhəmiyyətli beynəlxalq nəqliyyat layihələrini reallaşdırmağa imkan yaradır. Müxtəlif ölkələrlə və tərəfdaşlarla yaxşı əməkdaşlıq olmadan bu layihələrin icrası mümkünsüz olardı. Son illər ərzində bizim iqtisadi inkişafımız enerji layihələrimizə söykənib. Qonşularımız və tərəfdaşlarımızla birlikdə biz şaxələndirilmiş neft-qaz kəmərləri vasitəsilə Xəzər dənizini Qara və Aralıq dənizləri ilə birləşdirə bildik. Bu isə bizim, qonşularımızın və dünyanın bir sıra ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi deməkdir. Bu gün biz «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi üzərində fəal çalışırıq. Bu, artıq yeni miqyasda həyata keçirilən layihədir. O, 7 ölkəni birləşdirir və həmin ölkələrə layihədən faydalanmağa imkan yaradır.

Son 15 ildə bizim iqtisadiyyatımız ən sürətlə inkişaf edən iqtisadiyyatlar sırasında olub. Biz mühüm islahatlar həyata keçirmişik ki, bu da bizə ölkədə biznes mühitinin yaxşılaşdırılması və sərmayə cəlb etmək imkanı yaradıb. Dünya Bankının sonuncu «Doing Business» hesabatına görə, Azərbaycan dünyada 25-ci yerdə qərarlaşıb. Ölkədə xarici sərmayələr üçün münbit biznes mühiti mövcuddur.

Biz xarici borcumuzun azaldılması strategiyası üzərində çalışırıq. O onsuz da aşağı səviyyədə – ümumi daxili məhsulumuzun 19 faizi səviyyəsindədir. Eyni zamanda, biz iqtisadiyyatımızın şaxələndirilməsi, yoxsulluq və işsizliyin tamamilə aradan qaldırılması üzərində çalışırıq. Bu, gündəliyimizdə duran başlıca məsələlərdəndir. Çünki bizim iqtisadi inkişafımız insanlarımızın yaşayış səviyyəsinin yaxşılaşdırılması ilə nəticələnir. 15 il öncə əhalinin 50 faizi yoxsulluq səviyyəsində yaşayırdı. Bu gün bu göstərici 5-6 faizdir.

Yoxsulluq, işsizlik, sosial bərabərsizlik və savadsızlıq radikalizmin və ekstremizmin mənbələrindəndir. Azərbaycan beynəlxalq terrorizm, radikalizm və ekstremizmlə mübarizədə çox fəal tərəfdaşdır. Bununla yanaşı, biz dünyada islam sivilizasiyasının dəyərlərini təbliğ edirik. Biz dünyanın müxtəlif yerlərində öz mədəniyyətimizi və digər tərəfdaş müsəlman dövlətlərin mədəniyyətini əks etdirən çoxsaylı sərgi və təqdimatlar keçiririk.

Bağlılıq haqqında danışarkən, istərdim Azərbaycanın iştirak etdiyi nəqliyyat layihələrini xüsusi qeyd edim. Biz bu layihələrə yalnız nəqliyyat bağlılığı kimi

baxmırıq. Əslində bu layihələr regionda ab-havanı dəyişir. Onlar geniş beynəlxalq əməkdaşlıq formatını yaradır. Azərbaycan qədim İpək yolu üzərində yerləşir. Son illər yaratdığımız müasir nəqliyyat infrastrukturu artıq Azərbaycanı vacib tranzit ölkəyə çevirib. Yaxın qonşularımız və digər tərəfdaşlarımızla sıx əməkdaşlıq olmasaydı, biz tranzit ölkəyə çevrilə bilməzdik. Bunun üçün qonşular və tərəfdaşlar tələb olunur.

Nəqliyyat sahəsinə qoyulan sərmayələr avtomatik olaraq regionda daha da proqnozlaşdırıla bilən vəziyyət yaradır və ölkələr bundan birgə faydalanır. Bizim siyasətimiz əməkdaşlıq, qarşılıqlı anlaşma və qarşılıqlı fayda vasitəsilə məqsədlərimizə nail olmaq və ölkəni gücləndirməkdən ibarətdir. Enerji təhlükəsizliyi ilə bağlı siyasətimizdə də biz hər zaman istehsalçı, tranzit dövlətlər və istehlakçılar arasında lazımi balansı tapmağa çalışırıq. Burada hər bir tərəf fayda görməsə, uğurdan söhbət gedə bilməz. Biz hər zaman tərəfdaşlarımızın ehtiyacı olduğu vaxt onlara dəstək verməyə hazır olmalıyıq. Lazım gəldikdə onlardan da eyni dəstəyi gözləyirik.

Azərbaycan, həmçinin Şimal–Cənub nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. Xəritəyə baxsanız şərqdən qərbə, şimaldan cənuba gedən nəqliyyat marşrutlarının ölkəmizin ərazisindən keçdiyini görərsiniz. Buna nail olmaq üçün isə gərgin işləməli olduq. Burada coğrafiya kifayət deyil, bu, yalnız ilkin şərt, zəruri element sayıla bilər. Biz nəqliyyat infrastrukturuna – dəniz və hava limanlarına, dəmir və magistral yollara böyük sərmayə

yatırmışıq. Beləliklə, bu gün coğrafi və nəqliyyat mərkəzi olmaq baxımından Azərbaycan tərəfdaşlarına çoxlu imkanlar təklif edir.

Əziz dostlar, Azərbaycanda keçirilən bugünkü forum əlamətdar hadisədir. Bir daha bu forumda iştirak edən bütün tərəfdaşlara, tərəfdaş təşkilatlara, ziyalılara, alimlərə, siyasətçilərə, ictimai xadimlərə, QHT və media nümayəndələrinə minnətdarlığımı bildirirəm. Əminəm ki, müzakirələr səmərəli olacaq və bunun nəticəsində müvafiq tövsiyələr veriləcəkdir. Ölkələrin gələcəyi və regional inkişafla bağlı qərar qəbul edən şəxslər də bizim tövsiyələrimizi nəzərə alacaqlar. Beləliklə, dünya daha sabit və təhlükəsiz olacaq. Çox sağ olun.

* * *

*Sonra qədim sivilizasiyalara və müasir Azərbaycandakı tolerantlıq mühitinə həsr edilmiş videoçarx nümayiş olundu.*

*Tədbirin moderatoru forumun yüksək səviyyədə təşkilinə və dərin məzmunlu çıxışına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi və qeyd etdi ki, «Bakı prosesi» sülhsevər qüvvələri gücləndirməklə münaqişələri aradan qaldırmağa kömək edən prosesdir.*

**Migel Anxel Moratinos:** (*BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi*): Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli qonaqlar, xanımlar və cənablar, hörmətli dostlar!

Möhtəşəm Bakı şəhərində olmaq mənim üçün çox fərəhləndirici haldır. Bu həm hisslər, həm məsuliyyət ehtiva edən bir faktdır. Hisslər və emosiyalar ona görədir ki, möhtərəm cənab Prezident, mən birinci dəfədir Azərbaycana, Bakıya təşrif buyururam. Buraya BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi kimi gəlmişəm. Məsuliyyət ondan ibarətdir ki, Sivilizasiyalar Alyansı «Bakı prosesi»nin tərəfdaşıdır. Məhz bu səbəbdən çıxışım, fikirlərim mənim üçün böyük məna kəsb edir. Zənnimcə, forumun başlığı açıq-aydın ismarıcı ehtiva edir. Buraya üç açar söz daxildir: dialoq, dialoqun qurulması və fəaliyyət naminə. Mən istərdim üçüncü konsepsiyanı incələyim. Dialoq, fəaliyyət və bunun nəticəsində yaranan alyans və yaxud ittifaq. Mən hesab edirəm ki, bu forum vaxtında təşkil olunubdur.

*Forumda müzakirə olunan əsas mövzulardan biri – dünyada baş verən münaqişələr haqqında danışan BMT-nin ali nümayəndəsi bu problemin kökündə dinin və imanın deyil, dinlə manipulyasiya edərək, insanları bir-birinə qarşı qoyan qüvvələrin dayandığını əsaslandırdı. İnsanları bu tendensiyanın yaratdığı zorakı ekstremizmdən və terrorizmdən qorumaq üçün icmaların, beynəlxalq təşkilatların, bütün sülhsevər qüvvələrin birliyinə ciddi ehtiyac olduğunu bildirən Migel Anxel Moratinos bununla bağlı BMT-nin hazırladığı sülh konsepsiyası barədə məlumat verdi və «Bakı prosesi»nin bu konsepsiyaya mühüm töhfələr verəcəyinə əminliyini ifadə etdi.*

– Xanımlar və cənablar, zənnimcə, mədəniyyətlərarası dialoqa həsr olunmuş bu forum dünyaya çox açıq-aydın mesaj göndərən bir platformadır. Bu, sülh mesajıdır. Möhtərəm cənab Prezident Əliyev, mən qeyd etməliyəm ki, «Bakı prosesi» mədəniyyətlərarası dialoqu təşviq edən və sülhü bərqərar edən əsas elementlərə çevrilir. Görürəm ki, bizim işimizdə sinerji və tamamlıq, həmahənglik vardır. Biz illər ərzində çalışaraq, bir-birimizi dəstəkləyir, bir-birimizin işinə töhfə verir, tərəfdaşlığımızı gücləndiririk. Əslində Bakı BMT Sivilizasiyalar Alyansının regional «hab»ına çevrilə bilər. Bir daha qeyd etməliyəm ki, müasir, mürəkkəb dünyada biz yeni yanaşmalara möhtacıq. Yeni alyanslar formalaşdırmalıyıq. Biz bu gün yeni alyanslar quraraq işləməliyik.

Yekunda, möhtərəm cənab Prezident, vurğulamaq istəyirəm ki, sülh üçün biz müntəzəm səylər göstərməliyik və yalnız birlikdə çalışaraq, səlahiyyətlərimiz və məsuliyyətimiz çərçivəmizdə nəyəsə nail ola bilərik. İspan dilində çox möhtəşəm bir söz var – «kombiventiya». Yəni vahid bir sözdür – birgə yaşamaq. İngilis dilində «live in together», ispan dilində – «kombiventiya». Bu söz «Bakı prosesi»nin ruhuna aiddir. Çox sağ olun.

**N a d a  ə l-N a s i f** (*UNESKO baş direktorunun sosial və humanitar elmlər üzrə müavini*): Cənab Prezident Əliyev!

Müxtəlif beynəlxalq təşkilatlardan olan qonaqlar, xanımlar və cənablar!

Burada yenidən Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etməkdən məmnunluğumu ifadə edirəm. UNESKO bu tədbirə yarandığı ilk günlərdən etibarən xüsusi əhəmiyyət verib və cənab Prezidentin burada iştirakı, eləcə də Azərbaycan hökuməti mədəniyyətlərarası dialoqun və qarşılıqlı anlaşmanın təbliği və təşviqində Bakı Forumu şəklində təsbit edilən bir proqramın həyata keçirilməsində xüsusi rol oynayır. Bu beynəlxalq mədəniyyətlərarası dialoq proqramında çox uzunmüddətli bir hədəf mövcuddur. Biz bu məsafəni birlikdə qət etmişik. Forumun əsasında duran bu konsepsiya bizim hamılıqla və «daha az daha çox olacaqdır» prinsipi ilə çalışaraq, daha dolğun bir strukturun yaradılmasına, müxtəlif debat və müzakirələrlə konkret əməli tədbirlər görməyimizə kömək edəcəkdir. Bizim bu beşinci forumun keçirilməsində əsas məqsədimiz də baxışlarımızın yenilənmiş innovasiya və ruhun fonunda məhz bu tədbirlərin təsirini və davamlılığını təmin edə bilməkdir. UNESKO da Azərbaycan Respublikası Hökuməti ilə bu prosesdə yaxından əməkdaşlıq edir.

*Nada əl-Nasif zorakılıq, etinasızlıq, münaqişələr, cəmiyyətlərdəki qütbləşmə, məcburi köçkünlərlə bağlı problemlər və bu qəbildən olan digər müasir çağırışların qarşısının alınması üçün səyləri birləşdirməyin zəruriliyini vurğuladı:*

– Bizim əsas məqsədimiz müsbət dəyişiklikləri insan hüquqları və qarşılıqlı hörmət əsasında təbliğ etmək, müsbət istiqamətdə daha ədalətli, inklüziv və dayanıqlı bir cəmiyyət formalaşdırmağa çalışmaqdır.

Bu, davamlı inkişaf hədəflərinin də ən ümdə prinsipləridir ki, bu da heç kəsi arxada qoymamaq prinsipi ilə həmahəngdir. Bütün bunların hamısı müxtəlifliyin hər zaman güc və qüdrət mənbəyi olduğunu nümayiş etdirmək və bunlardan cəmiyyətlərdə hamının bəhrələnməsinə imkan yaratmaqdır. UNESKO-nun da əsas məqsədi qadınların və kişilərin təfəkkürünə sülh prinsiplərini aşılamaqdır. Bir sıra beynəlxalq təşkilatların məqsədi də cəmiyyəti bu hədəflərə doğru irəli aparmaqdır. BMT də 2013-cü ildən icra olunan beynəlxalq onillik proqramında mədəniyyətlərin dialoqunu təşviq edir. Bizim bu 10 illik proqramımız 2022-ci ildə başa çatacaq. Biz artıq nailiyyətlərimizi nəzərdən keçirərək, 2022-ci ildən sonra nələr etmək barədə düşünəcəyik. Bu fürsət bizə yeni təşəbbüslərlə çıxış etməyə, illər boyunca topladığımız təcrübəmizi, «Bakı prosesi»ni bütün maraqlı tərəflərlə birlikdə daha da irəli aparmağa kömək edəcəkdir.

*Nada əl-Nasif mədəniyyətlərarası dialoqun gücləndirilməsi üçün UNESKO çərçivəsində təhsil məsələlərinə xüsusi diqqət yetirildiyini, bu istiqamətdə bir sıra praktiki addımların atıldığını vurğuladı:*

– Bakı Forumunun da əsas prinsipi olan daha səmərəli və daha mütərəqqi dialoq qurmaq üçün biz gücümüzü, qüvvələrimizi birləşdirərək, səfərbər etməliyik.

Xanımlar və cənablar, biz Bakıya toplaşmaqla, məhz əməli tədbirlərin, dinamik inkişafın, sosial-iqtisadi, siyasi mühitin gücləndirilməsinin vacib olduğunu bir daha yəqin etdik. Bu gün konkret tədbirlər

görməyimiz, addımlar atmağımız, çeviklik, cəsarət və şücaət göstərməyimiz həmişəkindən daha artıq dərəcədə vacibdir. Beləliklə, daha faydalı, daha mənalı bir dialoq bizim müxtəlifliklərimizi daha yaxşı anlamağa kömək edəcək. Əminəm ki, ümumi dəyərlərimiz naminə əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik. Təşəkkür edirəm.

**Yusif bin Əhməd əl-Osaymin** (*İslam Əməkdaşlıq Təşkilatının baş katibi*): Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Xanımlar və cənablar!

Allahdan sizə sülh diləyirəm!

Mən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün gözəl Bakı şəhərində yenidən olmaqdan məmnunam. Əvvəlcə, icazə verin, məni dəvət etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə və Azərbaycan hökumətinə təşəkkürümü bildirim.

Əlbəttə ki, bu tədbir qərb və islam dünyası arasında mədəniyyətlərarası dialoqun keçirilməsinə verilən bir töhfə və onun gücləndirilməsinə yönələn bir addımdır. Təbii ki, bu il keçirilən forum bizim ümumi əməyimizə əsaslanır, xüsusən də münaqişələrə və radikal ünsürlərə qarşı mübarizənin aparılmasında ümumi cəbhədən çıxış etməyi bizdən tələb edir. Təbii ki, biz bununla mədəniyyətlərarası dialoqun bütün sahələrdə gücləndirilməsi zərurətini müşahidə edirik. İstərdik ki, biz ümumi məxrəcdən çıxış edərək, ayrı-seçkiliyin, ksenofobiyanın və ekstremizmin bütün formalarına qarşı birgə mübarizə aparaq. Əlbəttə, hesab edirik ki, bu

məqsədə nail olmaq üçün bu və ya digər ölkələr tərəfindən xüsusi səylər tələb olunur. Bu bizim hamımızın – sivilizasiyaların, cəmiyyətlərin üzərinə böyük öhdəlik qoyur. Buna görə ayrı-seçkiliyə və münaqişələrin aradan qaldırılmasına gəldikdə, hesab edirik ki, vəziyyət yaxşılaşmaqdansa, daha da pisləşir, gərginləşir. Görürük ki, bu gün müxtəlif qütblər arasında qarşıdurmalar baş verir.

*İslam Əməkdaşlıq Təşkilatının baş katibi mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi üçün bütün ölkələrin səyləri birləşdirmələrinin vacibliyini diqqətə çatdırdı:*

– İslam Əməkdaşlıq Təşkilatı kifayət qədər uzun müddət bu istiqamətdə işləyib, fəaliyyət göstərib və digər təşkilatları da bu addımları atmağa, mədəniyyətlərarası dialoqu gücləndirməyə səsləyibdir. Müxtəlif regionlarla birbaşa əlaqələr quraraq, İslam Əməkdaşlıq Təşkilatı bunu aydın şəkildə bəyan edib ki, əməkdaşlığın qarşılıqlı şəkildə aparılması, siyasi və mədəni sahələrdə işbirliyi çox vacibdir. Bu əslində mədəniyyətlərarası və sivilizasiyalararası anlaşmaya aparan yoldur.

*Yusif bin Əhməd əl-Osaymin dünyada mədəniyyətlərarası dialoq şəraitində birgəyaşayışın təmin olunması üçün müvafiq mühitin yaradılmasının zəruriliyinə də toxundu:*

– Biz münaqişələrin, qarşıdurmaların, bərabərsizliyin aradan qaldırılmasına bu yolla nail ola bilərik. Buna görə bu gün müxtəlif cəmiyyətlərdə görürük ki, həmin bərabərsizliklə üzləşən təbəqələr küçələrə çıxır,

etirazını bildirir. Təbii ki, göstərilən bu səylərdə hökumətlər daha fəal olmalıdır. Bizim təşkilatımız bir daha bəyan edir ki, qərarları qəbul edən qurumlar, tərəflər arasında daha çox əməkdaşlıq olmalıdır. Əgər söhbət müasir cəmiyyətdən gedirsə, təbii ki, bu dəyərlərdən çıxış edərək, insanlar bir-biri ilə yan-yana yaşamağa, dinc şəkildə fəaliyyət göstərməyə vərdiş etməlidirlər.

Buna görə biz bütün tərəflər arasında dialoqun tərəfdaşıyıq. İstərdik ki, bundan sonra da bizə yaxın olan tərəfdaşlarımızla, bu kimi tədbirlərdə iştirak edən tərəflərlə hamımız səylərimizi birləşdirərək, qarşımızda olan çağırışları anlayaq, onları nəzərdən keçirək və beləliklə, münaqişələrin həllinə və yaxud da qarşıdurmaların yaranmasının qarşısının alınmasına töhfə verək.

*İslam Əməkdaşlıq Təşkilatının baş katibi rəhbərlik etdiyi qurumun müxtəlif müsəlman ölkələrində mədəniyyətlərarası dialoqla bağlı həyata keçirdiyi tədbirləri diqqətə çatdırdı:*

– Yekun olaraq bildirmək istəyirəm ki, İslam Əməkdaşlıq Təşkilatı bütün regionlarla dialoqun gücləndirilməsi öhdəliyinə sadiqdir və dünyada baş verən hadisələrdən irəli gələrək, biz öz proqramlarımıza müvafiq düzəlişləri etməyə hazırıq. Mən hamınıza təşəkkürümü bildirirəm və V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun işinə uğurlar arzulayıram. Çox sağ olun.

**Q a b r i e l l a B a t t a i n i-D r a q o n i** (*Avropa Şurası baş katibinin müavini*): Zati-aliləri möhtərəm cənab Prezident İlham Əliyev!

Birinci vitse-prezident Mehriban Əliyeva!

Hörmətli məruzəçilər, xanımlar və cənablar!

İlk növbədə, mən qeyd etməliyəm ki, Azərbaycana gəlməkdən böyük şərəf hissi keçirirəm. Azərbaycan bizim zəruri üzv ölkəmizdir, gənc, dinamik, demokratik dövlətdir. Avropanın bu hissəsində yerləşən bir məmləkətdir. Habelə nəinki mədəniyyətlərarası dialoq, həmçinin məxsusi olaraq müzakirə etdiyimiz mövzu ilə bağlı aparıcı dövlətdir. Odur ki, bu forumda bir daha çıxış etmək mənim üçün böyük fəxrdir.

Mən Azərbaycan hökumətinə nəinki bu tədbirin təşkilatçılığına görə öz minnətdarlığımı bildirmək istəyirəm, həmçinin ümumi «Bakı prosesi»nin təşkilinə görə minnətdarlığımı bildirmək istəyirəm. Həqiqətən, əvvəlki məruzəçilərin qeyd etdiyi kimi, mən də onların fikrini paylaşmaq istəyirəm. Yəni «Bakı prosesi» əslində uğur tarixçəsinə çevrilib. Bu proses təhsilə yönəlib. Ekspertlər, mədəniyyətlərarası dialoq sahəsində çalışan mütəxəssislər üçün təcrübələrini, biliklərini və anlayışlarını paylaşmaq üçün müqayisəolunmaz bir fürsətdir. Bildiyiniz kimi, mən bu gün Avropa Şurasını təmsil edirəm. Avropa Şurası mədəniyyətlərarası dialoq sahəsində çalışır və bundan sonra da biz böyük nailiyyətlərə imza atmağa çalışacağıq.

Biz bu prosesə minnətdarıq. Nəyə görə minnətdarıq? Çünki mədəniyyətlərarası dialoq yanaşması

həddən ziyadə mühüm və vacibdir. Bu yanaşma yaşadığımız çağdaş mürəkkəb dünya üçün səciyyəvidir.

*Avropa Şurası baş katibinin müavini Qabriella Battaini-Draqoni bildirdi ki, mədəniyyətlərarası dialoqun təşviq olunması bir anlıq hadisə deyil. Bu heç vaxt bitməyən bir çağırışdır. Baş katibin müavini dialoqun fəaliyyətə çevrilməsi ilə bağlı məsuliyyətin olduğunu vurğuladı:*

– Mədəniyyətlərarası dialoq, sosial inklüzivlik, habelə azlıq hüquqlarının qorunması həddən ziyadə vacibdir. Yekunda tərəqqi siyasi iradə əsasında təmin olunacaq. Biz bununla bağlı məhz bu hissləri keçiririk. Sizin vasitənizlə, möhtərəm cənab Prezident, biz güclü liderliyi və siyasi iradəni sezə bilirik və bu bizim planlarımızı irəli apara bilər. Bir faktı qeyd etməliyik ki, biz öz inamımızı və dəyərlərimizi qorumalıyıq. Biz sülh üçün dialoq qurmalıyıq, ləyaqət və qarşılıqlı hörmətə əsaslanan rəğbət göstərməliyik. Bu bizim fəaliyyətimizə veriləcək qiymətdir. «Bakı prosesi» məhz buna həsr olunubdur.

**Əbdüləziz Osman bin əl-Tüveycri** (*İSESKO-nun baş direktoru*): Zati-aliləri Prezident İlham Əliyev!

Hörmətli Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva!

Xanımlar və cənablar!

Bu gün belə bir mötəbər forumun açılışında iştirak etməkdən məmnunluq duyuram. Mən hesab edirəm ki, bu, dünyanın ən nüfuzlu tədbirlərindən biridir. 2011-ci ildə bu forumun təməlini biz Bakı şəhərində qoyduq. O

vaxt bildirildi ki, əgər siyasi iradə, öhdəlik, sabitlik olarsa, uğur da gələcəkdir.

*Əbdüləziz Osman əl-Tüveycri Prezident İlham Əliyevin Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun işinə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi.*

*Dünyada müharibələrin, yoxsulluğun artdığını təəssüflə qeyd edən İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycri mənfi meyillərlə mübarizədə təhsilin roluna toxunaraq, insanlara təhsil verməyin, dini və mədəni dəyərlər haqqında onları maarifləndirməliyin vacibliyini vurğuladı. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də münasibətini bildirdi:*

– Bizim hamımıza məlum olan reallıq ondan ibarətdir ki, Azərbaycanın 20 faiz ərazisi Ermənistanın işğalı altındadır. Bu da beynəlxalq hüququn pozulmasıdır. BMT Təhlükəsizlik Şurasının bununla bağlı qətnamələri vardır. Azərbaycan sülh, dialoq və qarşılıqlı hörmətə, yanaşmaya əsaslanan ölkədir. Dünya Azərbaycana yardım etmir, dünya Azərbaycana ədalətsiz yanaşır. Ancaq bu torpaqlar yenidən Azərbaycana qovuşmalıdır. Bu, sülhə aparan yoldur, bu, dialoqun uğurlu olmasına aparan yoldur.

*İSESKO-nun baş direktoru rəhbərlik etdiyi qurumun Azərbaycanın təşviq etdiyi dəyərlərə tərəfdar olduğunu vurğuladı:*

– Azərbaycana gəldikdə, İSESKO lap əvvəlcədən Azərbaycanın dialoq və hörmət dəyərlərinə tərəfdar çıxıb. Biz öz müxtəlifliyimizi qorumalıyıq, ona hörmətlə yanaşmalıyıq, insanlarımızı qorumalıyıq, dini

dəyərlərə sadiq olmalıyıq. Biz bütün bunlara hörmətlə yanaşmalıyıq. Tolerantlıq o deməkdir ki, biz digər düşüncəyə, digər dəyərlərə malik olan insanı qəbul etməliyik. Bu o deməkdir ki, onlara da hörmətlə yanaşmalıyıq. İstərdik ki, həmçinin bu yanaşma bizə münasibətdə də olsun. Bu, təhlükəsizliyə aparan yeganə yoldur. Bununla əsl, mənalı dialoq olur və zorakı münaqişələrin qarşısı alınır.

*Əbdüləziz Osman əl-Tüveycri vurğuladı ki, islam sülh və mərhəmət dinidir. Sonda baş direktor tədbirin təşkilinə görə bir daha Prezident İlham Əliyevə minnətdarlığını bildirdi:*

– Mən, cənab Prezident, Sizə təşəkkürümü bildirirəm. Ümid edirəm ki, bütün iştirakçılar öz ölkələrinə qayıtdıqdan sonra burada aparılan müzakirələrdən nəticə çıxaracaq, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsində və ərazi bütövlüyünün bərpa olunmasında ölkənizə dəstək verəcəklər. Arzu edirəm ki, Allahın iradəsi ilə bütün dünyada sülh və rifah bərqərar olunsun. Sağ olun.

* * *

*Sonra insanları sülhə, dialoqa, həmrəyliyə, firavan dünya qurmağa çağıran «Necə gözəl bir dünya» mahnısı ifa edildi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

*Forum çərçivəsində mədəniyyətlərarası dialoq və insan ləyaqətini təbliğ etməklə, inklüziv və davamlı cəmiyyətlərin qurulmasında dövlət, özəl və üçüncü sektoru*

*təmsil edən təşkilatlar üçün ümumi «Yol Xəritəsi»ni hazırlamaq məqsədilə digər maraqlı tərəflərlə yanaşı, həm də siyasi, iqtisadi, maliyyə, hərbi, humanitar və sosial təşkilatlar arasında tərəfdaşlığın formalaşdırılması üçün beynəlxalq təşkilatların və nazirlərin 2-ci yüksək səviyyəli görüşü nəzərdə tutulub. Eyni zamanda, iki gün ərzində «Akademik forum: dinlərarası dialoq və dini müxtəlifliyin idarə olunması», «Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq», «Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması», «Sülh naminə çoxtərəflilik və diplomatiya», «Türkdilli ölkələr arasında dialoqun qurulmasında böyük İpək yolunun rolu» və digər mövzularda plenar və aralıq sessiyalar keçiriləcəkdir. Həmçinin tədbir günlərində qonaqlar üçün sərgi açılacaq, musiqili proqramlar təşkil ediləcəkdir.*

*Beləliklə, iki gün ərzində Bakıda müasir dünyanı narahat edən ən aktual məsələlər müzakirə mövzusu olacaqdır.*

*Dünyada sülh və bərabərliyin, qarşılıqlı etimadın və anlaşmanın əldə olunmasında bu forum mühüm əhəmiyyət kəsb edir.*

## BRAZİLİYA FEDERATİV RESPUBLİKASI MİLLİ KONQRESİNİN DEPUTATLAR PALATASININ SƏDRİ RODRİQO MAYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının Sədri Rodriqo Mayanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Dövlət başçısı yüksək səviyyəli səfərlərin əməkdaşlığın müxtəlif sahələri ilə bağlı fikir mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını və parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini bildirdi. Prezident İlham Əliyev Braziliya nümayəndə heyətinin böyük tərkibdə Azərbaycana səfərindən məmnunluğunu bildirərək, iqtisadi, sərmayə qoyuluşu, turizm, mədəniyyət, kənd təsərrüfatı, aviasiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd etdi.*

*Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının Sədri Rodriqo Maya qəbula*

*görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Rodriqo Maya öz növbəsində, qeyd etdi ki, yüksək səviyyəli qarşılıqlı səfərlər əməkdaşlığımızın inkişafında mühüm rol oynayır və parlamentlərarası əlaqələr xalqlarımızın bir-birini daha yaxşı tanımasına xidmət edir. Qonaq ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi, ticarət dövriyyəsinin artırılması üçün böyük potensialın olduğunu diqqətə çatdırdı.*

*Söhbət zamanı BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən əməkdaşlığın önəmi qeyd olundu.*

## «RUSİYA DƏMİR YOLLARI» ASC-nin BAŞ DİREKTORU VƏ İDARƏ HEYƏTİNİN SƏDRİ OLEQ BELOZYOROV İLƏ GÖRÜŞ

*6 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da «Rusiya Dəmir Yolları» Açıq Səhmdar Cəmiyyətinin baş direktoru və İdarə Heyətinin sədri Oleq Belozyorovu qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan tərəfinin Rusiya Dəmir Yolları ilə əməkdaşlıqdan məmnunluğunu bildirərək, Oleq Belozyorovun ölkəmizə səfərinin əlaqələrin perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını vurğuladı. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Azərbaycanla Rusiyanın dəmir yolu sahəsindəki imkanları gələcəkdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı şərait yaradacaqdır. Rusiyadan Azərbaycan vasitəsilə tranzit yüklərin artdığını qeyd edən dövlət başçısı bu sahədə yeni addımların atılacağına əminliyini ifadə etdi.*

*Azərbaycan Dəmir Yolları ilə uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edən «Rusiya Dəmir Yolları» Açıq Səhmdar Cəmiyyətinin baş direktoru və İdarə Heyətinin sədri Oleq Belozyorov bu ilin birinci*

*rübündə daşımaların həcminin 25 faiz artmasını bunun çox yaxşı göstəricisi kimi dəyərləndirdi. Dəmir yolu sahəsində əlaqələrin inkişafına iki dövlət başçısının daim dəstək verməsinin böyük önəm daşıdığını qeyd edən qonaq tranzitin təşkili və yeni marşrutların müəyyən edilməsinin ölkələrimizin iqtisadi inkişafına öz töhfəsini verdiyini bildirdi.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## QOBUSTAN RAYONUNA SƏFƏR

*7 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 7-də Qobustan rayonuna səfərə gəlmişlər.*

*Dövlət başçısı və xanımı ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoydular.*

*Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov rayonda görülən işlər barədə dövlət başçısına və xanımına məlumat verdi.*

*Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

### Rayon Mərkəzi Xəstəxanasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 7-də Qobustan Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişlər.*

*Dövlət başçısı əvvəlcə xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Səhiyyə naziri Oqtay Şirəliyev görülən işlər barədə dövlət başçısına və xanımına məlumat verdi.*

*Bildirildi ki, Qobustan Rayon Mərkəzi Xəstəxanasının fəaliyyət göstərdiyi bina 1965-ci ildə Mərəzə qəsəbə xəstəxanası qismində istifadəyə verilib və 1991-ci ildən*

*Qobustan Rayon Mərkəzi Xəstəxanası kimi fəaliyyət göstəribdir. Rayon Mərkəzi Xəstəxanası üçün yeni binanın tikintisinə 2014-cü ildə başlanılıb, inşaat işləri 2018-ci ildə başa çatdırılıbdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva xəstəxanada yaradılmış şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, 90 çarpayılıq Qobustan Rayon Mərkəzi Xəstəxanasının inşası müasir səviyyədə və yüksək keyfiyyətlə həyata keçirilib. Xəstəxananın ümumi ərazisi 2,6 hektardan çoxdur. Burada əsas korpusla yanaşı, terapiya və təcili-tibbi yardım binası, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi Qobustan rayon şöbəsinin binaları inşa olunubdur. Xəstəxanada əsasən Yaponiya, Koreya Respublikası, İtaliya və Türkiyədən alınan müasir tibbi avadanlıqlar quraşdırılıb. Bu avadanlıqların hər biri istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə və dəqiqliklə yerinə yetirməyə hərtərəfli imkan verir. Xəstəxanada cərrahiyyə, terapiya, təcili tibbi yardım, doğum və ginekologiya, uşaq xəstəlikləri, poliklinika, infeksiya xəstəlikləri, şüa-diaqnostika (radiologiya), reanimasiya və digər şöbələr fəaliyyət göstərəcək. Laboratoriyada müayinələri yüksək dəqiqliklə və qısa müddətdə aparmaq üçün hərtərəfli şərait vardır. Hazırda xəstəxanada 26 həkim və 51 orta tibb işçisi çalışır.*

*Qobustan Rayon Mərkəzi Xəstəxanasında yaradılmış şərait bir daha sübut edir ki, son illərdə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində müasir tibb müəssisələrinin yaradılması, mövcud tibb ocaqlarının yüksək səviyyədə yenidən qurulması istiqamətində*

*olduqca vacib layihələr icra edilir. Bütün bu işlər səhiyyə sisteminin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımların mühüm tərkib hissəsidir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bu tibb ocağının kollektivi ilə görüşdülər.*

*Dövlət başçısı xəstəxananın kollektivini təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Belə gözəl xəstəxananın açılışı çox əlamətdar hadisədir. Sizi bu hadisə münasibətilə təbrik edirəm. Şadam ki, Qobustan rayonunda da ən yüksək standartlara cavab verən müasir tibb ocağı yaradıldı.

Ölkəmizin hər bir yerində yeni xəstəxanalar tikilir. Son illər ərzində 640-dan çox müasir tibb müəssisəsi yaradılıb. Bunun əsas məqsədi vətəndaşlara xidmət etməkdir. Burada quraşdırılmış avadanlıqlar, yaradılmış şərait ən yüksək standartlara cavab verir. Ən qabaqcıl ölkələrdəki xəstəxanalarda hansı müasir avadanlıqlar varsa, burada da vardır. Əsas məsələ ondadır ki, burada xəstələrə çox gözəl xidmət və qayğı göstərilməlidir. Əminəm ki, siz bunu təmin edəcəksiniz. Mənə verilən məlumata görə, burada həkimlər, tibb heyəti üçün 70-dən çox iş yeri yaradılıb. Yəni bu xəstəxananın açılması bir daha bizim uğurlu siyasətimizi, bu siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının dayandığını və sosial sahənin prioritet sahə olduğunu göstərir.

Bu il 6 milyona yaxın insan dövlət xətti ilə müayinədən keçəcək. Biz bu proqramı bir neçə ildir ki, uğurla icra edirik. Hesab edirəm ki, dünya miqyasında

bu, artıq özünü tam doğrultmuş bir təcrübədir. Dövlət xəstəxanalar, diaqnostika mərkəzləri tikir, vətəndaşlara imkan yaradır ki, pulsuz müayinədən keçsinlər. Həm paytaxtda, həm böyük şəhərlərdə, həm də əhalisi o qədər də böyük olmayan rayonlarda bütün digər sosial obyektlər yaradılır.

Qobustan rayonunun əhalisi təqribən 50 minə yaxındır. Şəhərdə 7000 insan yaşayır. Baxın, rayonun inkişafı, infrastrukturun yaradılması, yolların çəkilməsi ilə bağlı nə qədər böyük işlər görülür. Hər bir bölgədə bütün sahələrdə inkişaf, müasir yanaşma olmalıdır, vətəndaşlara qayğı, diqqət göstərilməlidir. Bu gün biz bunun bariz nümunəsinin şahidiyik. Bu xəstəxana həm xarici görünüşü, həm də daxili tərtibatı baxımından göz oxşayır.

Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram.

## «Azərxalça» Açıq Səhmdar Cəmiyyətin Qobustan filialının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 7-də «Azərxalça» Açıq Səhmdar Cəmiyyətin Qobustan filialının açılışında iştirak etmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva müxtəlif əsrlərdə toxunmuş Salyan, Ağsu, İsmayıllı, Hacıqabul, Ağdaş, Göyçay, Şamaxı, Oğuz, Qəbələ, Qobustan xalçalarına baxdılar.*

*Ölkəmizdə xalçaçılığın inkişafına xüsusi əhəmiyyət verən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində artıq bir çox bölgələrdə xalça fabrikləri istifadəyə verilib. Milli mədəniyyətimizin inkişafında böyük rolu olan Birinci vitse-prezident Mehriban Əliyeva da bu qədim sənət növünün yaşadılmasına dəyərli töhfələr verir. Göstərilən diqqət və qayğı sayəsində artıq Horadiz, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı, Lənkəran və Ağdam xalça müəssisələri istifadəyə verilib. Qobustanla yanaşı, Naxçıvan Muxtar Respublikası, Abşeron, Ağstafa, Cəbrayıl, Goranboy, Kürdəmir, Qazax, Qəbələ, Sabunçu, Şabran, Tərtər və Tovuzda isə müəssisələr istifadəyə hazırdır. Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı müvafiq sərəncamı ilə İsmayıllı rayonunda daha bir xalça emalatxanasının tikintisi davam etdirilir. «Azərxalça» ASC-nin artıq istifadəyə tam hazır olan Qobustan filialı da bu sırada mühüm yer tutur.*

*Prezident İlham Əliyevin 2016-cı ildə Xalçaçı Günü peşə bayramının təsis edilməsi haqqında imzaladığı sərəncam minlərlə xalçaçını sevindirdi, onların bu sənətin gələcəyi ilə bağlı itirilmiş inamını və ümidini özünə qaytardı. Artıq 3 ildir mayın 5-i – «Azərxalça» ASC-nin yaradıldığı gün xalçaçıların peşə bayramı kimi qeyd olunur. Xüsusilə qeyd olunmalıdır ki, «Azərxalça» ASC-nin 2016–2018-ci illərdə fəaliyyətə başlayan 20 filialında 1700-dən çox toxucu çalışır. Bu dövrdə 8500 kvadratmetrdən çox xalça toxunulubdur.*

*Sonra dövlət başçısı müəssisənin rəmzi açılışını bildirən lenti kəsdi.*

*«Azərxalça» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov görülmüş işlərlə bağlı dövlət başçısına və xanımına məlumat verdi.*

*Bildirildi ki, «Azərxalça» ASC-nin Qobustan filialının binasının ümumi sahəsi 1300 kvadratmetrə yaxındır. Dövlət başçısının 2018-ci ildə imzaladığı sərəncama əsasən, Qobustan xalça istehsalı emalatxanasının tikintisi və təchizatına dövlət büdcəsindən 2 milyon manat vəsait ayrılıb. Qobustan şəhərinin mərkəzində yerləşən binada tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulubdur.*

*Qeyd olundu ki, bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça satışı salonu, konfrans zalı və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlifölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunulacaq. Əsasən Ağdaş, Ağsu, Göyçay, Hacıqabul, İsmayıllı, Kürdəmir, Qax, Qəbələ, Qobustan, Oğuz, Salyan, Şamaxı, Şəki, Ucar, Zaqatala və Zərdab rayonlarının kəndlərində toxunulan orijinal xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıb. Toxucular Qobustan şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində «Azərxalça» ASC-nin burada təşkil olunmuş hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmil-*

*ləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da işini davam etdirəcək. Bu kursun məzunları «Azərxalça» ASC-nin tədris sertifikatını alacaqlar.*

*Buradakı xalça-satış salonunda «Azərxalça» ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgisi və satışı həyata keçiriləcəkdir.*

*Müəssisə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva xalçaçılarla görüşdülər.*

**X a l ç a ç ı l a r:** Xoş gəlmisiniz, cənab Prezident! Həmişə Siz gələsiniz!

**İ l h a m Ə l i y e v**: İlk növbədə, sizi peşə bayramınız münasibətilə təbrik edirəm. Çox şadam ki, bu peşə bayramı günlərində belə gözəl fabrikin açılışını qeyd edirik. «Azərxalça» Açıq Səhmdar Cəmiyyəti 3 il bundan əvvəl mənim sərəncamımla yaradılıbdır. Qarşıya vəzifə qoyulmuşdur ki, ölkəmizin bütün bölgələrində müasir xalça fabrikləri yaradılsın və bu istiqamətdə çox böyük işlər görülübdür. Artıq 20 fabrik hazırdır. Ümumiyyətlə, 31 Xalça fabrikinin yaradılması nəzərdə tutulur. Hesab edirəm ki, növbəti 1-2 il ərzində qalan fabriklər də istifadəyə veriləcək və beləliklə, Azərbaycan öz qədim sənətini yaşatmaq istiqamətində çox önəmli addım atmış olacaqdır.

Qobustan fabrikində 150 iş yeri yaradılıb. İşçilərin də mütləq əksəriyyəti qadınlardır. Bu, qadınlar üçün dövlət tərəfindən atılan çox böyük addımdır. Çünki qadınların iş yerləri ilə təmin olunması prosesi xüsusi əhəmiyyət daşıyır. Burada ən müasir avadanlıqlar quraşdırılıb, bütün vasitələr vardır. Əminəm ki, bu

fabrik çox uğurla fəaliyyət göstərəcək. Burada işləyənlər də razı qalacaqlar.

Azərbaycan öz xalçalarını dünya miqyasında daha geniş şəkildə təqdim edəcək. Bildiyiniz kimi, bizim xalçalarımız dünyanın aparıcı muzeylərində nümayiş etdirilir. Xalçaçılıq bizim qədim sənətimizdir və əsrlərboyu biz bu sənəti yaşadırıq. Çox yaxşı haldır ki, bu sənət nəsildən-nəslə ötürülür. Burada həm təcrübəli xalçaçılar, həm də gənclər işləyirlər. Əminəm, gənclər də bu işə böyük maraqla, həvəslə qoşulacaqlar ki, bu sənəti bundan sonra da əsrlərboyu yaşatsınlar və Azərbaycan öz xalçaçılıq sənətini dünyaya təqdim etsin. Bu, iş yerləri, qeyri-neft sektorunun inkişafı və ixrac yönümlü məhsulun istehsalı deməkdir. Çünki bu gün ölkəmizin ümumi iqtisadi inkişafı qeyri-neft sektorunun inkişafı ilə sıx bağlıdır. İxrac yönümlü məhsulların istehsalı bu gün prioritet məsələlərdən biridir.

Bilirsiniz ki, bir neçə il bundan əvvəl Bakıda yeni gözəl Xalça Muzeyi yaradılıb. Muzey xalça formasında çox gözəl memarlıq üslubunda yaradılıb. Bütün bölgələrdə 30-dan çox Xalça fabrikinin yaradılması bu sahəyə böyük təkan verdi, canlanma gətirdi. Əminəm ki, sizin burada işləriniz uğurla gedəcək. Burada yaradılmış şərait ən yüksək standartlara cavab verir.

Bu gün Qobustan Rayon Mərkəzi Xəstəxanasının açılışını qeyd etdik. Bu da çox əlamətdar hadisədir. Ən müasir standartlara cavab verən xəstəxanada vətəndaşlara gözəl xidmət göstəriləcək. Rayonda digər sosial layihələr icra edilir. Bu il Qobustan

rayonunda 200-ə yaxın ödənişli ictimai iş yeri yaradılacaq ki, bu gün hələ iş tapa bilməyən insanlar o işlərə cəlb olunsunlar. İnfrastruktur layihələri ilə bağlı işlər gedir. Bu gün yeni yol layihəsi istifadəyə verilir. Bütövlükdə son illərdə rayonda 3 yol layihəsi icra edilibdir. Qazlaşdırılma 90 faizə yaxındır. Bu da son illərin uğurlu nəticələridir. Elektrik enerjisi ilə bağlı problem yoxdur. Şəhərin içməli su problemini isə biz 2017-ci ildə həll etmişik. Yadımdadır, il yarım bundan əvvəl burada olarkən gözəl tədbir də keçirdik.

Bu səfər mənim Qobustan rayonuna sayca beşinci səfərimdir. Bu özlüyündə onu göstərir ki, rayonun inkişafına böyük diqqət yetirilir. Sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram.

**Sevinc Həşimova** (*xalçaçı*): Hörmətli Prezidentimiz, bu Ramazan ayında bizim Qobustan rayonuna xoş gəlmisiniz! Çox sağ olun ki, bizim qadınlarımız üçün bu şəraiti yaratmısınız. Şəraitimiz çox gözəldir. Bizim qadınlar Sizdən çox razıdırlar. Onların adından Sizə minnətdarlığımı və təşəkkürümü bildirirəm. Çox sağ olun ki, Azərbaycanımızı belə inkişaf etdirirsiniz. Həm Sizə, həm də Mehriban xanıma çox minnətdarıq.

**İlham Əliyev:** Çox sağ olun. Təşəkkür edirəm. Burada iş şəraitiniz necədir, razısınız?

**Xalçaçılar:** Çox sağ olun, hamımız razıyıq.

**İlham Əliyev:** Əməkhaqqı necə?

**Xalçaçılar:** Əməkhaqqımız artırılıb, çox yaxşıdır. Toxucularımız sevinə-sevinə işləyirlər.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Bu fabrik açılana qədər siz haradasa işləyirdiniz?

**Sevinc Həşimova:** Xeyr, evdar xanım olublar.

**İ l h a m Ə l i y e v:** İndi sizin üçün gözəl şərait yaradılıb, ailə büdcənizə də böyük töhfə olacaqdır.

**Sevinc Həşimova:** Əvvəllər evdə xalça toxuyurduq. Bəzən işığımız yanmırdı, lampa işığında toxuyurduq. Şükür Allaha, indi gur işıqlı, gözəl emalatxanamızda xalçalarımızı toxuyuruq. Buna görə Sizə minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən çox şadam ki, biz bu fabrikləri yaradırıq. Bütün fabriklər işə düşəndən sonra təqribən 4500-ə yaxın qadın üçün iş yeri olacaq. Əminəm ki, gələcəkdə bu proqram daha da geniş vüsət alacaq. Dövlət öz üzərinə düşən vəzifəni icra edir, bu fabriklər dövlət xətti ilə yaradılır. Ümid edirəm, gələcəkdə sahibkarlar da bu sahəyə sərmayə qoyacaqlar ki, bu işlər daha geniş vüsət alsın və Azərbaycanın hər bir yerində xalçaçılıq sənəti yaşasın. Çünki bizim bütün bölgələrin özünəməxsus xalçaçılıq məktəbi vardır. Bu məktəblər bir-birindən fərqlənir. Əlbəttə, bu fərqi mütəxəssislər çox yaxşı seçə bilirlər. Bu onu göstərir ki, Azərbaycan çox zəngin mədəniyyətə, tarixə, ənənələrə malik olan ölkədir. Qədim sənətimizi biz bu gün yaşadırıq, dirçəldirik.

**Ə s a r ə A b d u l r ə h i m o v a** (*xalçaçı*): Sizin sayənizdə, cənab Prezident. Xoş gəlmisiniz! Həmkarım emalatxanamız haqqında danışdı. Mən isə Sizə rayonumuzun inkişafına görə «Çox sağ olun!» – deyirəm. Qobustanlıların əsas problemi olan içməli suyu

çəkdirmisiniz. Buna görə bütün qobustanlılar adından Sizə təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Biz Qobustan rayonunun timsalında ölkəmizin ümumi inkişaf dinamikasını görürük. Çünki vətəndaşları narahat edən əsas problemlər həll olunub. İçməli su il yarım bundan əvvəl təmin olunub. Qeyd etdiyim kimi, qazlaşdırılma 90 faizə çatıb, elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur, yollar çəkilir və növbəti mərhələdə yeni yol layihələri icra ediləcəkdir. Müasir xəstəxana tikilib. Bir neçə məktəb tikilib və təmir edilib, bu proses davam etdiriləcək. İş yerlərinin yaradılması ilə bağlı böyük işlər görülür. Yeni iş yerlərinin yaradılması prioritet məsələdir. Sahibkarlıq, kənd təsərrüfatı inkişaf edir. Bakıdan Qobustana çox rahat yeni yol çəkilib. Əvvəllər ikicərgəli idi, indi dördcərgəlidir. Bütün lazımi işlər görülüb. Bütün bu işlər rayonun gələcək inkişafına təkan verəcəkdir.

Bu ilin yanvar ayında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilib, sayca dördüncü proqramdır. Üç proqramın icrası nəticəsində bir çox işlər görülüb. Dördüncü proqram bu günə qədər görə bilmədiyimiz işləri də təmin edəcək. 5 il ərzində Azərbaycanın bütün bölgələrində bütün infrastruktur məsələləri öz həllini tapacaq və bu, ölkəmizin gələcək inkişafına böyük dəstək olacaqdır.

**A z a d ə F ə n a r ə** (*xalçaçı*): Hörmətli Prezidentimiz, xoş gəlmisiniz! Rayonumuzun bütün əhalisi adından, xalçaçılar adından Sizə «Xoş gəlmisiniz!» – deyirəm. Nənələrimizdən miras qalan xalçaçılıq sənə-

tini bizə yenidən bəxş etdiyinizə görə Sizə təşəkkür edirəm. İcazənizlə, bu balaca xalçanı Mehriban xanıma təqdim etmək istəyirəm. Mehriban xanım, bu, Qobustanın rəmzidir, qapının üstünə asırlar, sağlıqla işlədin. Bütün qobustanlılar adından Sizə təşəkkür edirəm.

**Mehriban Əliyeva:** Çox sağ olun. Mənim dərin hörmətimi qobustanlılara çatdırın.

* * *

*Sonra Prezident İlham Əliyev müəssisədə toxunan ilk xalçanı kəsdi.*

## «Azərxalça» ASC-nin Qobustan regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 7-də «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Qobustan regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin açılışında iştirak etmişlər.*

*«Azərxalça» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov müəssisənin fəaliyyəti barədə dövlət başçısına və xanımına məlumat verdi.*

*Bildirildi ki, ümumi sahəsi 1770 kvadratmetr olan məntəqə istehsalat və inzibati bölmədən ibarətdir. Dövlət başçısının tapşırığı ilə «Azərxalça» ASC-nin filiallarının, ölkəmizdə fəaliyyət göstərən özəl xalçaçılıq müəssisələrinin yun ipliklə təmin olunması üçün mühüm*

*tədbirlər görülür. Bu istiqamətdə həyata keçirilən layihələrdən biri Sumqayıt Kimya Sənaye Parkında «Azərxalça» ASC-nin Əyirici-Boyaq fabrikinin inşasıdır. Hazırda fabrikin tikintisi sürətlə davam etdirilir. Bu fabrikin xammalla təminatı məqsədilə Naxçıvan şəhərində, Bərdə, Qobustan, Şabran və Sabirabad rayonlarında regional yun və boyaq bitkilərinin tədarükü məntəqələri yaradılıb. Son illər bu sahənin inkişafına göstərilən diqqət, ölkəmizin müxtəlif bölgələrində emalatxanaların fəaliyyətə başlaması xalça toxunması üçün xammal bazasının yaradılması zərurətini meydana çıxarıb. Bu baxımdan Əyirici-Boyaq fabrikinin və regional yun və boyaq bitkilərinin tədarükü məntəqələrinin yaradılması idxaldan asılılığı tamamilə aradan qaldıracaq. Tədarük məntəqələri heyvandarlığın inkişafına da öz təsirini göstərəcək. Bu, qoyunçuluq təsərrüfatlarının, fermerlərin yun satışı probleminin həllinə imkan verəcəkdir.*

*Bildirildi ki, regional tədarük məntəqələrində ildə 1500 ton yun qəbul olunacaq. Hər tədarük məntəqəsində 300 ton yun qəbulu nəzərdə tutulub. Qobustandakı tədarük məntəqəsi 14 rayonu əhatə edəcək. Bu məntəqənin imkanlarından Qobustan, Şamaxı, İsmayıllı, Ağsu, Göyçay, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən, Ağdaş, Zərdab rayonlarının, Şəki şəhərinin və Bakının Qaradağ rayonunun sakinləri yararlanacaqlar. Bu işin yüksək səviyyədə təşkili məqsədilə maarifləndirici tədbirlər də keçirilib. Bu məntəqədə növbəti ildən boyaq bitkiləri qəbul olunacaq. Yun tədarükü zamanı xalça toxunması üçün iplik istehsalına yararlı olan yunun*

*qəbuluna üstünlük veriləcək. Belə ki, iplik istehsalı üçün yalnız ildə bir dəfə qırxılan, uzunluğu 8 santimetr olan yunun qəbulu həyata keçiriləcək. İplik istehsalına yararlı olmayan yun isə yuyularaq, xammal kimi satışa çıxarılacaq. Bunun üçün araşdırma aparılıb, hansı ölkədə belə xammala tələbatın olduğu müəyyənləşdirilibdir.*

*Məlumat verildi ki, Qobustanın ərazisi boyaq bitkiləri ilə zəngindir. İnsanlar onları toplayıb tədarük məntəqəsinə təhvil verməklə, həm də əlavə qazanc əldə edəcəklər. Həm yun, həm də boyaq bitkiləri ilboyu qəbul ediləcəkdir.*

*Diqqətə çatdırıldı ki, regional məntəqəyə gətirilən məhsul rənginə və ölçüsünə görə çeşidlənəcək. Yun çeşidləndikdən sonra kipləşdiriləcək, onların üzərinə xüsusi yarlıqlar vurulacaq. Həmin yarlıqda yunun rəngi, qəbul tarixi, hansı rayondan alındığı, çəkisi, növü, qaba və incəliyi, nəmliyi barədə məlumatlar əksini tapacaqdır. Məntəqədə kipləşdirilmiş yun Sumqayıtda Əyirici-Boyaq fabrikinə təhvil veriləcəkdir.*

*Bildirildi ki, Qobustan regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsində 25 nəfər daimi işlə təmin olunubdur.*

*Dövlət başçısı müəssisənin işçiləri ilə söhbət etdi.*

**İlham Əliyev:** İşiniz necədir, razısınız?

**İşçilər:** Çox sağ olun. Allah köməyiniz olsun.

**İlham Əliyev:** Nə qədər əməkhaqqı verilir, qane edir?

**İşçi:** Şükür, lap yaxşıdır. Sizdən də, müdiriyyətimizdən də razıyıq. Çox sağ olun.

**İlham Əliyev:** Xalçaçılıq elə sənətdir ki, Azərbaycan xalqının istedadını dünyaya göstərir. Eyni zamanda, xalçaçılıq sənəti böyük işlərin təkanverici amilidir. Məsələn, indi ölkəmizdə yun tədarükü mərkəzləri yaradılır. 5 mərkəz yaradılıb, biri də buradır. Sumqayıtda Əyirici-Boyaq fabriki yaradılır. Yəni gələcəkdə biz özümüzü bütün xammalla – iplər, boyaq və yun ilə təmin edəcəyik. Beləliklə, minlərlə iş yeri yaradılır və yaradılacaqdır. Sahibkarlar da bu işlərdə fəal iştirak edirlər. Sizin də işiniz ümumi inkişafımıza böyük dəstək olacaqdır.

**Sahibkar:** Cənab Prezident, biz uzun müddət idi ki, tədarük etdiyimiz yunu heç yerə verə bilmirdik. Sizin sayənizdə bura açıldı, biz çölə tulladığımız, sata bilmədiyimiz yunu bu gün buraya veririk, çoxlu pul qazanırıq. Bu pula mal-qara alırıq, fermamızı genişləndiririk. Bizə bu şəraiti yaratdığınıza görə Sizə təşəkkür edirik.

**İlham Əliyev:** Sağ olun. Sahibkarlara gözəl şərait yaradılıb. Mən sahibkarları dəstəkləyirəm, onlara dövlət tərəfindən maddi dəstək göstərilir. Bilirsiniz ki, güzəştli şərtlərlə kreditlər verilir. Bu il sahibkarlara güzəştli şərtlərlə 170 milyon manat kredit veriləcək ki, onlar öz işlərini daha da yaxşı qura bilsinlər. Yun tədarükü ilə bağlı göstəriş verilib ki, məntəqələr yaradılsın. Çünki bu, böyük problem idi, yun tədarükü kortəbii şəkildə təşkil olunurdu. İndi bu iş mərkəzləşdirilmiş qaydada görülür. 5 məntəqə yaradılıb və hər zonanın fermerləri artıq bilirlər ki, yunu hara gətirsinlər, kimə təhvil versinlər və pullarını alsınlar.

Fəhlələr də, toxucular da işləyirlər və budur, bir zəncir yaradılır. Əminəm ki, Azərbaycanda yun tədarükü xeyli dərəcədə artacaqdır.

**İ ş ç i l ə r**: Çox sağ olun. Allah Sizdən razı olsun. Kollektivimiz adından Sizə təşəkkürümüzü bildiririk. Sizə uzun ömür, cansağlığı arzulayırıq, bizə bu şəraiti yaratdığınıza görə Sizə minnətdarıq.

## Qobustan–Poladlı avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 7-də Qobustan–Poladlı avtomobil yolunun açılışında iştirak etmişlər.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına və xanımına görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, 5000 nəfərin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Qobustan–Poladlı avtomobil yolunun tikintisinə Azərbaycan Prezidentinin 2018-ci ildə imzaladığı sərəncama əsasən, dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,4 milyon manat vəsait ayrılıb. 2 hərəkət zolaqlı yolun ümumi uzunluğu 14,5 kilometr, hərəkət hissəsinin eni isə 6 metrdir. 4-cü texniki dərəcəli yolun inşası zamanı müxtəlif diametrli 7 suötürücü boru quraşdırılıb, zəruri yerlərdə yol nişanları, göstərici lövhələr, siqnal dirəkləri qoyulub, yol cizgi xətləri çə-*

*kilibdir. Qobustan–Poladlı yolu bu bölgədə yaşayan insanların Bakı–Şamaxı–Yevlax avtomobil yolu vasitəsilə respublikamızın istənilən istiqamətinə hərəkət etməsinə imkan yaradıb. Bu layihənin icrası sürücülərin təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaqdır.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## 9 MAY – QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLMİŞ MƏRASİMDƏ İŞTİRAK

*9 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakıda mayın 9-da İkinci dünya müharibəsində faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibətilə keçirilmiş təntənəli mərasimdə iştirak etmişlər.*

*Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif ediliblər. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılmış 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar*

*Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. İkinci dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941–45-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçan 7000 hərbi təyyarənin yanacaq təchizatında mühüm rol oynayıb. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərib, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilibdir. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər edibdir.*

*Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıbdır. Məhz ulu öndərin ədaləti uca tutması sayəsində İkinci dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq,*

*Azərbaycanda 9 may – Qələbə Günü qeyd olunur. Ümummilli lider müharibə veteranlarını «Xalqımızın qızıl fondu» adlandırırdı. Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır.*

*Qələbə bayramı ərəfəsində Prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halını alıbdır. Azərbaycan Prezidentinin 2019-cu il 23 aprel tarixli Sərəncamı ilə İkinci dünya müharibəsinin iştirakçılarına 1000 manat məbləğində, bu müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul qadınlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. Respublikamızda müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 may tarixli Sərəncamına əsasən isə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının maddi-tex-*

*niki bazasının gücləndirilməsi, habelə Təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Veteranlar Təşkilatına 300 min manat ayrılıb. Bütün bunlar bir daha təsdiqləyir ki, müharibə veteranlarına hərtərəfli qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.*

*İkinci dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olmuş soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 74 il keçsə də, İkinci dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşısından keçdi.*

*Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva İkinci dünya müharibəsinin iştirak-*

*çısı, partizan, Hollandiya Müqavimət Hərəkatının görkəmli nümayəndələrindən biri, Niderlandın azərbaycanlı Milli Qəhrəmanı Məmməd Məmmədovun ailə üzvləri və Oysterveyk şəhərinin meri Hans Yanssen ilə görüşdülər.*

*Sonra dövlət başçısı və xanımı iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvlərini, yaxın qohumlarını Qələbə günü münasibətilə təbrik etdilər.*

*Mərasimdə Baş Nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak etdilər.*

## DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİNİN VƏ İLK DOST MƏRKƏZİNİN İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*9 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 9-da Bakının Yasamal rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin və ilk DOST Mərkəzinin inzibati binasının açılışı mərasimində iştirak etmişlər.*

*Dövlət başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*DOST Agentliyinin və ilk DOST Mərkəzinin 7 mərtəbəli inzibati binasının memarı Nəriman İmaməliyevdir. Neomodernizm üslubunda inşa edilmiş bu bina mühəndis sistemləri baxımından ən müasir tələblərə cavab verir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva binada yaradılmış şəraitlə tanış oldular.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev binada yaradılmış şərait barədə məlumat verdi. Bildirildi ki, mərkəzdə xidmətin asanlaşdırılması məqsədilə elektron lövhələr və məlumat köşkü*

*yaradılıb. Nazirliyin aidiyyəti qurumlarının fəaliyyəti mərkəzdə əlaqəli şəkildə təmin edilib, əlilliyi olan şəxslər üçün lazımi şərait yaradılıb. Xidmətlər vahid standartlar əsasında və bir-birinə inteqrasiya olunmuş şəkildə elektron müstəvidə təqdim olunur. DOST mərkəzlərində proaktiv xidmətlər də göstəriləcək, vətəndaşlara bu və ya digər sosial hüquqlar barədə məlumat veriləcəkdir.*

*Qeyd edək ki, ilk DOST Mərkəzi gün ərzində 350 vətəndaşı qəbul edə biləcək. Mərkəz ilkin mərhələdə Bakının Yasamal və Səbail rayonlarının əhalisinə xidmət edəcək. İl ərzində 100 mindən artıq vətəndaşa «bir pəncərə» prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 126 xidmət göstəriləcək. Mərkəzdə 96 nəfər, «Gənc DOST» proqramı üzrə isə 50 könüllü fəaliyyət göstərəcək. Burada «Pensiya və sosial sığorta», «Sosial müavinətlər və təqaüdlər», «Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat», «Sosial xidmətlər və övladlığa götürmə məsələləri», «Əmək münasibətləri», «Məşğulluq xidmətləri», «Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri», «Bank və notarius xidmətləri» də vardır. Beləliklə, mərkəz vətəndaşların nazirlik üzrə bütün xidmətlərdən «bir pəncərə»yə müraciət edib və «bir pəncərə»dən faydalanmasına imkan verir. Vətəndaşlara məsləhət və məlumat xidmətləri də göstəriləcək. Onların bilavasitə telefon və ya internet vasitəsilə müraciətləri əsasında, səyyar və digər üsullarla xidmətlərin həyata keçirilməsi də təmin ediləcəkdir.*

*Dövlət başçısı və xanımı əlilliyi olan şəxslərin əl işlərindən ibarət sərgiyə baxdılar.*

*Prezident İlham Əliyevin uğurlu sosial siyasəti əhalinin rifah halının yaxşılaşdırılmasına, həssas qruplara dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə güclənməsinə, bu sahədə mühüm addımların atılmasına, ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan yaradıb. Bunlarla yanaşı, Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir.*

*Dövlət başçısının «Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» 2018-ci il avqustun 9-da imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılmış Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin məqsədi də məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərin vahid platformadan, «bir pəncərə»dən tam şəffaf, operativ, vətəndaş rahatlığı, nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir.*

*Əhalinin sosial müdafiəsi istiqamətində son illər görülmüş işlərlə bağlı da məlumat verildi.*

*Qeyd edildi ki, ilin birinci rübündə dövlət başçısı tərəfindən həyata keçirilən sosial islahatlar paketinin uğurlu nəticələri kimi əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində atılan mühüm addımlar 3 milyondan artıq vətəndaşın rifahına mühüm dəstək olub. O cümlədən minimum əmək haqlarının və pensiyanın minimum məbləğinin 40 faizədək, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırılması təmin edilibdir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, ötən il şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 626 mənzil verilib, 265 nəfər isə avtomobillə təmin olunubdur. 2019-cu ildə azı 800 mənzilin və 600 avtomobilin qeyd olunan kateqoriyalara aid şəxslərə verilməsi nəzərdə tutulur. Bildirildi ki, 2019-cu ildə bir neçə reabilitasiya və sosial xidmət müəssisəsi də istifadəyə veriləcək. Ötən il özünüməşğulluq proqramından 7267 ailə istifadə edib. Bu il 10 min ailənin bu proqrama qoşulması nəzərdə tutulur.*

*Sonra DOST Agentliyinin e-sosial portalı, e-pensiya və məşğulluq altsistemi barədə videoçarx nümayiş olundu.Vurğulandı ki, hazırda dünya təcrübəsində oxşar layihələr olsa da, DOST mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 126 xidmətin «bir pəncərə»dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihədir. Ona görə də DOST mərkəzlərinin ölkəmizin dövlət sosial xidmətləri sahəsində Azərbaycanın yeni brendinə*

*çevriləcəyi gözlənilir. Agentlik DOST mərkəzləri vasitəsilə «bir pəncərə» prinsipi ilə 2,8 milyon şəxsə xidmət göstərəcək. Agentliyin 2019–2025-ci illərdə Bakıda və ölkəmizin regionlarında 31 DOST Mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub. Agentliyin mərkəzi aparatında 315 nəfər, mərkəzlərində isə kateqoriyasından asılı olaraq, 50–100 nəfər xüsusi təlim keçmiş sosial agentlər və sosial işçilər fəaliyyət göstərəcəkdir. «Gənc DOST» könüllülər proqramı hazırlanıb və artıq 50 könüllü işə başlayıb. Hər mərkəzdə 30–50 könüllünün, gələcəkdə isə yaşlıların da cəlbi nəzərdə tutulur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva DOST Agentliyinin bir qrup işçisi və «Gənc DOST» könüllüləri ilə görüşdülər.*

**İlham Əliyev:** Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. İlk DOST Mərkəzi açılır, fəaliyyətə başlayır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Keçən ilin avqust ayında mənim sərəncamımla DOST Agentliyi yaradıldı və şadam ki, qısa müddət ərzində, heç 1 il keçməmiş birinci mərkəz artıq fəaliyyətə başlayır. Bildiyiniz kimi, Bakıda və bütün bölgələrdə ümümilikdə 31 mərkəz yaradılacaq. Vətəndaşlara yüksək xidmət göstərmək üçün burada bütün şərait, bütün imkanlar vardır. Bina çox gözəldir, müasirdir, həm xarici görünüşü, həm də dizayn-tərtibat baxımından. Bu bir daha onu göstərir ki, sosial sahə bizim üçün prioritet sahədir. Hər mərkəzdə təqribən 100–150 iş yeri olacaq, bu da çox önəmlidir. Hər bir mərkəzdə könüllülər qrupu fəaliyyət

göstərəcək. Beləliklə, bu mərkəzlər vətəndaşlara yüksək səviyyəli xidmət etmək üçün gözəl şərait yaradacaqdır.

Sosial sahə bizim üçün prioritet sahədir. Bu sahəyə çox böyük diqqət göstərilir və bu istiqamətdə aparılan islahatlar artıq özünü göstərir. DOST Agentliyinin yaradılması bu istiqamətdə atılmış çox önəmli islahatdır. Növbəti illərdə bu agentliyin fəaliyyətinin genişləndirilməsi əminəm ki, vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndiriləcək. Beləliklə, bu sahə ilə bağlı bizim siyasətimiz daha da geniş miqyasda və məqsədyönlü şəkildə icra ediləcəkdir. Sosial sahə hər bir ölkə üçün böyük önəm daşıyır. Azərbaycanda da bu sahəyə böyük diqqət göstərilir. Bizim siyasətimiz sosial yönümlü siyasətdir. Çalışırıq bütün əlavə gəlirlərimizi sosial sahəyə yönəldək ki, vətəndaşların rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin edilsin. Əlbəttə, buna nail olmaq üçün ilk növbədə, iqtisadi inkişaf olmalıdır və biz bu məsələ ilə bağlı ciddi məşğuluq. Qeyri-neft sektorunun, sahibkarlığın inkişafı bir-biri ilə bağlı olan məsələlərdir. Hesab edirəm ki, Azərbaycanda bu istiqamətdə işlər uğurla gedir. İqtisadiyyatımız çoxşaxəli iqtisadiyyata çevrilir. Bildiyiniz kimi, özəl sektor ümumi daxili məhsulumuzda təqribən 80 faiz təşkil edir. Beləliklə, iqtisadi artım, iqtisadi sahədə aparılan islahatlar, büdcə daxilolmalarının artımı, əlbəttə ki, sosial sahəyə böyük diqqət göstərmək üçün imkan yaradır. Deyə bilərəm ki, bu ilin 4 ayında vergi və gömrük orqanları şəffaflıq və

islahatların hesabına təqribən 400 milyon manata yaxın əlavə vəsait toplayıblar. Bu əlavə maliyyə resursu imkan verir ki, biz pensiyaları, maaşları, sosial müavinətləri artıraq və bunu edirik. Bildiyiniz kimi, bu yaxınlarda çox ciddi sosial paket hazırlanıb təsdiqləndi və 3 milyona yaxın insan bu imkanlardan bəhrələndi. Bundan sonra da bu istiqamətdə işlər aparılacaq, minimum əməkhaqqının, minimum pensiyanın artırılması gündəlikdə duran məsələlərdir. Məşğulluğun inkişafı – yəni qeyri-qanuni məşğulluqla mübarizə nəticə verir və beləliklə, ölkəmizin iqtisadi və sosial siyasəti bir-biri ilə uzlaşır. Bu belə də olmalıdır. Ancaq biz bunu tam şəkildə icra etsək, ölkəmizin dayanıqlı uğurlu inkişafı təmin olunacaqdır.

Sosial sahədə bir önəmli təşəbbüs də özünüməşğulluq proqramıdır. Mən çox şadam ki, vətəndaşlar bu proqrama çox böyük maraq göstərirlər. Biz artıq bir neçə ildir ki, bu işlərlə məşğuluq. Son dövrdə bu sahədə daha fəal iş aparılır və şadam ki, müraciətlərin sayı artır. Mənim təşəbbüsümlə biz Dünya Bankı ilə bu məsələni müzakirə etdik. Biz onları da bu işlərə cəlb etdik. Dünya Bankı öz maliyyə resurslarından istifadə edərək, bu sahəyə vəsait ayıracaq və beləliklə, bu il təqribən 10000-ə yaxın vətəndaş özünüməşğulluq proqramı ilə əhatə olunacaqdır. Gələcəkdə bu işin miqyası artmalıdır. Bu həm məşğulluğun artırılmasına xidmət edəcək, həm də ölkə iqtisadiyyatına böyük töhfə olacaqdır. Özünüməşğulluq proqramının qeyri-neft sektorunun, kənd təsərrüfatının, xidmət sektorunun inkişafı üçün çox böyük əhəmiyyəti vardır.

Bizim siyasətimiz, demək olar ki, DOST mərkəzlərində öz əksini tapır – islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət edəcəkdir.

Mən çox şadam ki, burada işləyənlərin, demək olar, hamısı gənclərdir və gənclər üçün yaradılan şərait gələcəyə qoyulan sərmayədir. Çünki gənclər gələcəkdə ölkəmizi idarə edəcək, öz töhfələrini verəcəklər. Gənclər bilikli, savadlı, vətənpərvər və qayğıkeş olmalıdırlar. Əminəm ki, siz burada vətəndaşlara çox yüksək səviyyədə xidmət göstərəcəksiniz.

Sizi bir daha bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, tezliklə növbəti DOST mərkəzləri yaradılsın. Sağ olun.

## GÖRKƏMLİ BƏSTƏKAR ARİF MƏLİKOVUN VİDA MƏRASİMİNDƏ İŞTİRAK

*9 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 9-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında keçirilmiş görkəmli bəstəkar, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Dövlət və Heydər Əliyev mükafatları laureatı Arif Məlikovun vida mərasimində iştirak etmişlər.*

*Mərasimdə çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev Arif Məlikovun ömür yolu və bənzərsiz yaradıcılığı barədə danışdı. Qeyd edildi ki, böyük bəstəkar Qara Qarayevin tələbəsi olmuş Arif Məlikov geniş yaradıcılığı ilə seçilən sənətkar idi. O öz istedadını musiqimizin müxtəlif janrlarında sınayaraq instrumental, vokal, simfonik, xor və kamera əsərləri yaratmış, həm kino, həm teatr sənətinə layiqli töhfəsini vermişdir. Nazim Hikmətin librettosuna yazdığı «Məhəbbət əfsanəsi» baleti bəstəkara dünya şöhrəti qazandırdırıb. Balet ilk dəfə 1961-ci ildə Leninqrad, indiki Sankt-Peterburq Akademik Mariinski Teatrında tamaşaya qoyulmuşdur.*

*Arif Məlikov 8 simfoniyanın, «Nağıl», «Vətən», «Metamorfozlar», «Axırıncı aşırım» simfonik poemalarının, süitaların, «Bu torpaqda iki nəfər», «İki qəlbin dastanı» baletlərinin, «Torpağın səsi» kantatasının, «Dalğalar» operettasının, Nazim Hikmətin sözlərinə 3 romans silsiləsinin, fortepiano və orkestr üçün konsertin, kamera-instrumental əsərlərin, kinofilmlərə, teatr tamaşalarına musiqilərin, bir çox mahnıların müəllifidir. Bəstəkarın musiqiləri bu gün dünyanın bir çox ölkələrinin möhtəşəm teatr və konsert salonlarında, dövlət tədbirlərində, mədəniyyət günlərində, beynəlxalq musiqi festivallarında səsləndirilir.*

*Tədbirdə bir daha vurğulandı ki, Arif Məlikovun taleyinə yazılmış bir ömrün əfsanəsi yarım əsrdən çoxdur musiqisevərləri öz cazibəsində saxlamaqdadır. Bəstəkarın ümummilli lider Heydər Əliyevə ithaf etdiyi «Əbədiyyət» adlı 8-ci simfoniyası Azərbaycan musiqi mədəniyyətinin növbəti sənət zirvəsidir.*

*Dahi Üzeyir Hacıbəyli və Qara Qarayevin bəstəkarlıq məktəbinin davamçısı olan ustad sənətkar uzun illər ərzində Bakı Musiqi Akademiyasının bəstəkarlıq kafedrasının müdiri kimi, bütün səy və bacarığını yeni bəstəkarlar nəslinin yetişdirilməsinə sərf etmişdir.*

*Nazir qeyd etdi ki, Arif Məlikov həm də fəal vətəndaşlıq mövqeyi ilə xalqın böyük hörmətini qazanmış ictimai xadim olub. 1990-cı ilin 20 Yanvar hadisələri zamanı Azərbaycan xalqının haqq səsini dünyaya çatdıranlar sırasında Arif Məlikov da var idi.*

*Bildirildi ki, bəstəkarın Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliği sahəsində uzunmüddətli*

*səmərəli fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. Arif Məlikov 1965-ci ildə respublikanın Əməkdar incəsənət xadimi, 1978-ci ildə Xalq artisti, 1986-cı ildə SSRİ Xalq artisti fəxri adlarına, 1986-cı ildə Azərbaycanın Dövlət mükafatına, 1998-ci ildə «İstiqlal», 2013-cü ildə «Heydər Əliyev», 2018-ci ildə «Şöhrət» ordenlərinə layiq görülüb. Nazir diqqətə çatdırdı ki, Arif Məlikov Vətəninə, elinə-obasına bağlı bir insan idi. O, musiqi ilə yaşayır, musiqi ilə nəfəs alırdı. Lakin dünya heç kəs üçün əbədi deyil. Ancaq yaxşı ad və unudulmaz xatirələr insanı hər zaman yaşadır. Böyük bəstəkar, pedaqoq, səmimi və təvazökar insan Arif Cahangir oğlu Məlikovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.*

*Vida mərasimində çıxış edən Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli Arif Məlikovun onun üçün doğma bir insan olduğunu söylədi. Bildirdi ki, bəstəkarın Nazim Hikmətin sözlərinə bəstələdiyi romansları əsl şedevrdir.*

*Rektor qeyd etdi ki, Arif müəllim əsl ziyalı kimi, Bakı Musiqi Akademiyasında gənc musiqişünasların, bəstəkarların yetişməsinə böyük zəhmət sərf etmişdir. Arif Məlikov dünyasını dəyişsə də, yazdığı əsərlər hər zaman böyük salonlarda səsləndiriləcək, nəinki müəllifinə, həm də mənsub olduğu millətə şöhrət gətirəcəkdir.*

*Arif Məlikovun dünyasını dəyişməsini Azərbaycan elmi üçün də böyük itki hesab edən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli bildirdi ki, o, böyük akademik düşüncəyə malik bir musiqi xadimi idi. Hər zaman Azərbaycan*

*elmini ləyaqətlə təmsil edən Arif Məlikovun yeni sənətşünaslar, musiqişünaslar nəslinin yetişməsində müəllim, elmi məsləhətçi kimi, xüsusi rolu olub. O, Azərbaycan musiqi mədəniyyəti tarixində yüksək zirvələr fəth edib. Heç tərəddüd etmədən demək olar ki, Üzeyir Hacıbəylinin «Arşın mal alan», Qara Qarayevin «İldırımlı yollarla», Fikrət Əmirovun «Min bir gecə» əsərlərindən sonra Arif Məlikovun «Məhəbbət əfsanəsi» Azərbaycan xalqına və musiqi mədəniyyətinə dünya şöhrəti qazandırıbdır.*

*Vida mərasimində Azərbaycan Bəstəkarlar İttifaqının katibi, professor Zemfira Qafarova və Arif Məlikovun tələbəsi Ceyhun Allahverdiyev çıxış edərək, görkəmli bəstəkarın bənzərsiz sənət dünyasından söhbət açdılar, onunla bağlı xatirələrini bölüşdülər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verdilər.*

*Arif Məlikovun ailə üzvləri mərhumun xatirəsinə göstərilən ehtirama görə dövlət başçısına və xanımına minnətdarlıqlarını bildirdilər.*

*Vida mərasimindən sonra görkəmli bəstəkarın cənazəsi son mənzilə yola salındı.*

*Mərhum birinci Fəxri xiyabanda torpağa tapşırıldı.*

*Allah rəhmət eləsin.*

## FƏXRİ XİYABANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2019-cu il*

*Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü mayın 10-da tamam olur.*

*Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaqdır. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.*

*İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli*

*dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki Heydər Əliyev Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətiribdir. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıbdır. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çeviribdir. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq öyünür.*

*«Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub» – deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də «Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan» – deyə onu Moskvaya dəvət etdilər. Amma burada o həm də onu gözü götürməyən məkrli «qorbaçovlar»ın xəyanətinə tuş gəldi, vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.*

*Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbay-*

*cançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində «qızıl» səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik etdiyi illər milli intibah dövrü kimi əbədiləşdi.*

*Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin «qızıl» dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə, təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağıl və təcrübəsi ilə dəqiqliklə hesablayan lider idi.*

*Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanı-*

*mı Mehriban Əliyeva və ailə üzvləri ümummilli liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.*

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, ulu öndərin xatirəsini ehtiramla andı.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*Sonra dövlət başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq, məzarı üzərinə gül dəstələri qoydular.*

*Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş Nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin üzvləri iştirak etdilər.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ AĞAC ƏKMƏ AKSİYASINDA İŞTİRAK

*10 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Zığ dairəsi – Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun 28-ci kilometrliyində salınmış yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağac əkmə kampaniyasında iştirak etmişlər.*

*Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev «Keçmiş Yod-Brom zavodunun çirklənmiş ərazilərinin təmizlənməsi» və «Heydər Əliyev Beynəlxalq Aeroportunun yaxınlığındakı çirklənmiş ərazilərin təmizlənməsi» layihələri barədə Prezident İlham Əliyevə məlumat verdi.*

*Qeyd edək ki, dövlət başçısının tapşırığına əsasən, Suraxanı rayonunda keçmiş Yod-Brom zavodunun ərazisində lay suları, duz, yod və digər tullantılarla çirklənmiş 67 hektar sahənin təmizlənərək bərpa edilməsi, kollektor-drenaj sisteminin qurulması işləri uğurla icra olunub. Ümumilikdə indiyədək bu ərazidə yerli iqlim şəraitinə uyğun 50 mindən çox müxtəlif növ ağac əkilərək, böyük yaşıllıq zolağı salınıbdır.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdilər.*

*Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən ağac əkmə aksiyasında 4 hektar ərazidə ümumilikdə 3250 ağac əkildi. Ağaclar əraziyə çəkilmiş müasir, avtomatlaşdırılmış damcılı suvarma sistemi vasitəsilə suvarılır. Suvarma üçün su Hövsan Aerasiya Stansiyasından götürülür və təmizləyici qurğularda təmizləndikdən sonra suvarmaya ötürülür. Damcılı suvarma sisteminin elektrik enerjisi ilə təchizatı Suraxanı Günəş Elektrik Stansiyası hesabına təmin ediləcəkdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva aksiyada iştirak edən gənclərlə görüşdülər. Dövlət başçısı gənclərə ekoloji durumun yaxşılaşdırılması ilə bağlı gördüyü işlərə görə təşəkkürünü bildirdi. Azərbaycan gənclərinin çox önəmli sosial-ekoloji layihələr icra etdiyini söyləyən dövlət başçısı Bakının daha da gözəlləşdiyini, yaşıllaşdığını vurğuladı.*

*Azərbaycan dövləti ekologiyanın və ətraf mühitin mühafizəsi məsələsinə həmişə xüsusi diqqətlə yanaşır. Ölkəmizin zəngin flora və faunasının qorunması, ekoloji durumun daha da yaxşılaşdırılması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində ulu öndər Heydər Əliyev bütün dövrlərdə çox böyük işlər görüb. Ümummilli liderin əsasını qoyduğu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Təsadüfi deyil ki, Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet sahələrindən biri də ətraf mühitin mühafizəsini, həmçinin*

*insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Dövlət başçısı tərəfindən 2010-cu ilin ölkədə «Ekologiya ili» elan edilməsi isə bunun bariz nümunəsi olmaqla yanaşı, bir daha sübut edir ki, Azərbaycanda ekoloji siyasətə xüsusi diqqət ayrılır.*

*Prezident İlham Əliyev neft və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılmasına xüsusi diqqətlə yanaşır. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı ölkədə ciddi əməli işlər görülüb, milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıb, yaşıllıqların miqyası isə ildən-ilə daha da artırılıbdır. Bütün bu məqsədyönlü layihələr ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir.*

*Birinci vitse-prezident xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu vardır.*

*Müxtəlif vaxtlarda icra olunmuş ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə etməklə, ümumilikdə ölkəmizin ekoloji vəziyyətinin sağlamlaşdırılmasına böyük töhfələr verir.*

*Bu gün Azərbaycanın hər yerində vətəndaşların iştirakı ilə ağac əkmə aksiyaları keçirilir. Bu işlərin görülməsində, yaşıllıqların salınmasında, şəhər və rayonlarımızın təmizlik işlərində hər bir sakin fəal iştirakı ilə seçilir. Təsadüfi deyil ki, hazırda Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunədir.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 96-cı İLDÖNÜMÜNƏ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN YARADILMASININ 15 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*10 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişlər.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Heydər Əliyev Fondunun əməkdaşları ilə xatirə şəkli çəkdirdilər.*

*Dövlət başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümüdür. Bu gün Azərbaycan xalqı bir daha ulu öndərin əziz xatirəsinə hörmət və ehtiramını bildirir.

Azərbaycan xalqı Heydər Əliyevi sevirdi, ona inanırdı, ona həmişə dəstək olurdu. O isə öz həyatını Azərbaycan xalqına həsr etmiş, bütün dövrlərdə xalqa ləyaqətlə xidmət etmişdir. Həm sovet dövründə, həm müstəqillik illərində Azərbaycanın inkişafı üçün çox böyük fədakarlıq göstərmişdir. Təkcə onu demək kifayətdir ki, sovet dövründə – keçən əsrin 70-ci illərində və 80-ci illərinin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən geridə qalmış respublikadan ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Məhz o illərdə çox möhkəm sənaye potensialı yaradılmış, infrastruktur layihələri icra edilmişdir. O layihələr ki, bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Heydər Əliyevin yüksək şəxsi keyfiyyətlərini və Azərbaycanda əldə edilmiş nəticələri nəzərə alaraq, 1982-ci ildə o, Moskvaya dəvət olundu, yüksək vəzifəyə – Nazirlər Soveti Sədrinin Birinci müavini vəzifəsinə təyin edildi. Bu vəzifədə də uğurla çalışırdı, o cümlədən Azərbaycanın inkişafı ilə bağlı verdiyi tapşırıqlar, qəbul etdiyi qərarlar o vaxt da ölkəmizin inkişafına xidmət göstərirdi. Yəni o, Azərbaycanla daim maraqlanırdı, Azərbaycanda gedən işlərə böyük maraq və dəstək göstərirdi. 1987-ci ildə vəzifədən gedəndən sonra xalqımız, respublikamız üçün problemlər başlandı. İki həftə də keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana verilməsi haqqında iddia qaldırdılar. Güclü Heydər Əliyev amili imkan vermirdi ki, bu məsələ bundan əvvəlki dövrdə qaldırılsın. Halbuki, belə cəhdlər, belə meyillər var idi.

Əgər Heydər Əliyev o vaxt Azərbaycanın rəhbərliyində olsaydı, heç şübhəsiz ki, Dağlıq Qarabağ problemi heç vaxt yaranmazdı. O vaxtdan xalqımız üçün böyük problemlər başlandı. Dağlıq Qarabağda xüsusi idarəetmə komitəsi yaradıldı və separatçı meyillər geniş vüsət aldı. Təqaüddə olan Heydər Əliyev Moskvada yaşayırdı və hər zaman Azərbaycan haqqında düşünürdü. Görürdü ki, respublikada vəziyyət kifayət qədər mürəkkəbdir, xoşagəlməz hallar baş verir, respublika tənəzzülə uğrayır. Hadisələrin gələcək inkişafı göstərdi ki, onun təhlili, demək olar, tam dəqiq və düzgün idi.

Qanlı Yanvar faciəsindən dərhal sonra Heydər Əliyev öz səsini ucaltdı, öz xalqı ilə birlikdə olduğunu bildirdi və yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransında çıxış edərək, sovet rəhbərliyinin bu qəddar aktını qətiyyətlə pislədi. Mən bunun əyani şahidiyəm. Yadımdadır ki, biz daimi nümayəndəliyə gələndə orada çox böyük kütlə var idi, insanlar toplaşmışdılar, çox həyəcanlı idilər. Heydər Əliyevi görəndə onlar canlı dəhliz yaratdılar, kənara çəkildilər və Heydər Əliyev binaya daxil oldu. O vaxt Heydər Əliyev təqaüddə idi, ona qarşı müxtəlif dövrlərdə qarayaxma kampaniyaları aparılırdı. Ancaq xalqın qəlbində o, lider, görkəmli şəxsiyyət, Azərbaycan xalqının böyük oğlu kimi yaşayırdı. Həmin gün ona göstərilən hörmət, əlbəttə ki, həmişə bizim yadımızda qalacaqdır.

O vaxt Sovet İttifaqının dağılmasına hələ 2 il var idi. Bəlkə də heç kimin ağlına gələ bilməzdi ki, Sovet

İttifaqı dağıla bilər. Ona görə məhz o anda, xalqımız üçün ən ağır anda Heydər Əliyevin bu addımı, bu bəyanatı, əlbəttə ki, böyük cəsarət tələb edirdi və bir daha göstərirdi ki, o hər zaman Azərbaycan xalqı ilə bir yerdədir. Ondan sonra bu qanlı cinayətə etiraz olaraq, uzun illər ərzində üzvü olduğu Kommunist Partiyasının sıralarını tərk etdi. Bu da böyük cəsarət tələb edirdi. Təbii ki, elə o vaxt ona və onun ailə üzvlərinə qarşı təzyiqlər, təqiblər başlandı. Bu təzyiqlərin müxtəlif formaları var idi. Bir sözlə, ona təzyiq etmək və cəzalandırmaq üçün praktiki addımlar atılırdı. Hətta bizdə məlumat var idi ki, onun həbsi ilə bağlı məsələ müzakirə edilirdi.

Heydər Əliyev Bakıya gəldi, ovaxtkı rəhbərlik ona Bakıda yaşamağa imkan vermədi, doğulduğu Naxçıvan Muxtar Respublikasına üz tutdu. O da tarixin hökmü idi. Çünki o vaxt Naxçıvan çox ağır vəziyyətdə idi. Erməni separatçıları və onların havadarlarının Azərbaycana qarşı məkrli planlarında Naxçıvanın işğalı da var idi. Məhz Heydər Əliyev amili, onun iradəsi, xalqın ona olan inamı Naxçıvanı bu böyük bəladan qurtara bildi. O vaxt onun rəhbərliyi ilə Naxçıvanda səfərbərlik işləri aparıldı. Sərhəddə şiddətli döyüşlər gedirdi və Naxçıvan öz torpağını qoruya bildi.

Naxçıvanda digər yaddaqalan hadisə Azərbaycanın tarixində «qızıl» hərflərlə yazılıb. Məhz Heydər Əliyevin təşəbbüsü və sədrliyi ilə Naxçıvan Ali Məclisinin – ovaxtkı Ali Sovetin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı

elan edildi. Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar qərar ölkə miqyasında qəbul edilsin. Yəni bu tarixdir. Bu tarix bir daha göstərir ki, Heydər Əliyev hər zaman Azərbaycan xalqının yanında idi. Xalq ona böyük dəstək verirdi, o da gücü xalqın inamından, məhəbbətindən alırdı.

Azərbaycanda ovaxtkı vəziyyət bizim yadımızdadır. O vaxt – 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş AXC–Müsavat cütlüyü ölkəmizi, gənc, müstəqil dövləti uçuruma aparırdı. Xaos, anarxiya, özbaşınalıq, total böhran hökm sürürdü, talançılıq, rüşvətxorluq baş alıb gedirdi, ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Siyasi, iqtisadi, hərbi böhran gənc dövlətin dayaqlarını sarsıdırdı. Azərbaycan xalqı bu xəyanətkar hakimiyyətə 1 il dözə bildi. 1 ildən sonra onlar tarixin arxivinə göndərildi. O vaxt torpaqlarımız işğal altına düşdü. Şuşa, Laçın, Kəlbəcər rayonlarının işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı.

Azərbaycan öz inkişaf yolunu Heydər Əliyevin simasında görürdü və müraciət edərək, onu Bakıya dəvət etdi. Heydər Əliyevin o vaxt 70 yaşı var idi, ömrünün çox hissəsi geridə qalmışdı. Ancaq xalq sevgisi, xalqa olan məhəbbət və böyük məsuliyyət hissi onu bu dəvəti qəbul etməyə sövq etdi. Beləliklə, müstəqil Azərbaycanın müstəqil həyatı başlandı. Çünki tam qətiyyətlə deyə bilərəm ki, 1993-cü ilə qədər bizim dövlət müstəqilliyimiz şərti xarakter daşıyırdı. Atributlar var idi, ancaq ölkə müstəqil siyasət apara bilmirdi. 1993-cü il isə dönüş nöqtəsi oldu. Məhz

Heydər Əliyevə xalq tərəfindən göstərilən inam, etimad imkan verdi ki, ölkə bu ağır vəziyyətdə, vətəndaş müharibəsinin fəsadlarından ləyaqətlə çıxa bilsin və belə də oldu. Sabitlik yaradıldı, inkişafa yol açıldı, bütün sahələrdə, ilk növbədə, siyasi sahədə islahatlar icra edilməyə başlandı. Çünki o vaxt Azərbaycanda siyasi sistem hələ formalaşmamışdı. Siyasi sistemin formalaşmasında 1992-ci ildə Naxçıvanda yaradılmış Yeni Azərbaycan Partiyasının rolunu qeyd etməliyəm. Onu da bildirməliyəm ki, özlərini demokrat adlandıran şəxslər o vaxt imkan vermədilər ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Bir qrup vətənpərvər ziyalı Naxçıvana gedərək, Heydər Əliyevin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayını keçirdilər.

Heydər Əliyevin təşəbbüsü ilə senzura ləğv edildi. O vaxt Azərbaycanda mətbuat azadlığı yox idi. Senzuranın ləğvi də ulu öndərin gələcəyə yönəlmiş baxışlarını tam əks etdirirdi.

Ordu quruculuğu prosesi başlandı. Çünki o vaxta qədər nizami ordu yox idi. İqtisadi sahədə, kənd təsərrüfatı sahəsində çox ciddi islahatlar aparıldı. O islahatlar ki, bu gün bizim apardığımız islahatlar üçün gözəl zəmin yaradır. Sənaye potensialının inkişafı ilə bağlı önəmli addımlar atıldı. Sərmayə qoyuluşu Azərbaycanda artıq bir amil kimi mövcud oldu. «Əsrin kontraktı»nın imzalanması, əlbəttə ki, tarixi hadisədir. 1994-cü ilin sentyabrında bu kontraktın imzalanması bugünkü müstəqil Azərbaycanın inkişafını yüksək dərəcədə təmin etdi. Bu kontraktdan əldə edilən gəlirlər ölkəmizin bütün

sahələrində özünü büruzə verir – insanların rifah halının yaxşılaşması, ordu potensialının gücləndirilməsi, məcburi köçkünlərin problemlərinin həlli, infrastruktur layihələrinin icrası. Əgər bizim maliyyə imkanlarımız olmasaydı, bu işləri nəyin hesabına görə bilərdik? Bu maliyyə imkanlarını bizə məhz «Əsrin kontraktı» yaratdı. Mən o dövrü yaxşı xatırlayıram. O vaxt Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi, digər yoldaşlarla bu məsələ ilə bağlı ciddi məşğul idim. Bu kontrakt Azərbaycan üçün ən məqbul şərtlərlə imzalanmışdır və bu, bugünkü reallıqda özünü göstərir. Bu yaxınlarda kontraktın müddəti 2050-ci ilə qədər uzadıldı. Azərbaycan bu kontraktın faydasını görəcəkdir.

Yəni bu, tarixi hadisə idi, Heydər Əliyevin xalq, bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətlərindən biridir. Bu, böyük cəsarət tələb edirdi. Çünki o vaxt bölgədə geosiyasi vəziyyət çox mürəkkəb idi və bu kontraktın imzalanması o qədər də asan məsələ deyildi. Kontraktın imzalanmasından sonra baş vermiş hadisələr bunu göstərdi. Ancaq Heydər Əliyevin dəmir iradəsi, qətiyyəti və gələcəyə yönəlmiş addımları bugünkü Azərbaycanın reallıqlarını yüksək dərəcədə müəyyən edir.

2003-cü ildə Prezident seçkiləri ərəfəsində mən bəyan etmişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasətini davam etdirəcəyəm və xalq Heydər Əliyev siyasətinə səs verdi. O vaxtdan bu günə qədər Azərbaycan böyük və uğurlu yol keçib, müstəqillik daha da möhkəmlənibdir. Azərbaycanda

sabitlik təmin olunub, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Bizim beynəlxalq mövqelərimiz son dərəcə möhkəmlənib. Bu gün Azərbaycan dünya miqyasında çox müsbət nüfuza malik olan bir ölkədir. Dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir və bu dəstək BMT Təhlükəsizlik Şurasında keçirilmiş səsvermədə özünü büruzə verdi, 155 ölkə bizi dəstəklədi. Yəni bu da tarixi nailiyyətimizdir. Bir çox beynəlxalq təşkilatlar bu dövrdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətə əsaslanan, bizim mövqemizi müdafiə edən qərar və qətnamələr qəbul etmişdir, o cümlədən BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» və digər təşkilatlar. Bu bizim böyük diplomatik və siyasi uğurumuzdur.

Münaqişə ilə bağlı bizim prinsipial mövqemiz dəyişməz olaraq qalır. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlərboyu xalqımız bu torpaqda yaşamış və yaratmışdır. Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə qondarma rejimi tanımır və əminəm ki, tanımayacaq da. Bizim mövqemiz ondan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri, Helsinki Yekun Aktı əsasında öz həllini tapmalıdır. Bu, yeganə yoldur, biz bu yolla gedirik və gedəcəyik.

Eyni zamanda, ordunun gücünü də artırırıq. Bu gün Azərbaycan beynəlxalq reytinqlərə əsasən, dünya miqyasında ordu potensialına görə 50 ölkə sırasındadır.

Bundan sonra da ordumuzun inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir texnika ilə təchizatı üçün lazımi addımlar atılacaqdır.

Heydər Əliyev hər zaman məcburi köçkünlərin problemləri ilə maraqlanırdı, onlara böyük qayğı, diqqət göstərirdi. O vaxt biz donor təşkilatlardan çox asılı idik, çünki bizim maliyyə imkanlarımız yox idi. O vaxt böyük işlər görüldü ki, beynəlxalq təşkilatlar Azərbaycana yardım göstərsin və bu yardım hesabına müəyyən mənada köçkünlərə şərait yaradıldı. Heydər Əliyev göstəriş verdi ki, Azərbaycan Dövlət Neft Fonduna ilk neftdən daxil olan gəliri məcburi köçkünlərin problemlərinin həllinə istifadə edək. Belə də oldu. Yadımdadır, yağışlı hava idi, gözəl mənzərəli yer idi, Heydər Əliyev özü şəxsən o köçkün qəsəbəsinin açılışını qeyd etdi. Bu gün bu siyasət davam etdirilir. Bu günə qədər 100-dən çox şəhərcik salınıb, yüz minlərlə köçkün yeni evlərlə, mənzillərlə təmin edilibdir. Biz bu illərdə digər sosial layihələri də uğurla icra etmişik. Son 15 il ərzində əməkhaqqının, pensiyanın 10 dəfəyə yaxın artırılması bizim sosial siyasətimizi göstərir. Biz iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük işlər görmüşük. Bu gün bu istiqamətdə işlər davam etdirilir. İqtisadiyyatın neft-qaz amilindən asılılığını azaltmaq üçün praktiki addımlar atılır. Son 15 il ərzində iqtisadiyyat 3 dəfə artıb, çox gözəl biznes mühiti yaradılıbdır. Dünya Bankının hesablamalarına görə, biz bu göstərici üzrə dünya miqyasında 25-ci yerdəyik. Yəni islahatlar aparıldı və ölkə qarşısında duran problemlər həll

olunmağa başlandı. Əgər biz buraya texnoloji inkişafı əlavə etsək, deyə bilərik ki, bu gün Azərbaycanın 3 peyki var, Azərbaycan kosmik klubun üzvüdür. Bu da böyük tarixi nailiyyətdir. Enerji təhlükəsizliyi sahəsində görün nə qədər böyük işlər görülüb. Heydər Əliyevin öz əlləri ilə təməlini qoyduğu Bakı–Tbilisi–Ceyhan neft boru kəməri artıq 13 ildir ki, fəaliyyət göstərir və ölkəmizə gəlir gətirir. Bu gəlir xalqın rifah halının yaxşılaşdırılmasına, infrastruktur layihələrinin icrasına yönəldilir. Bu gün biz daha böyük enerji layihəsini icra edirik və əminəm ki, uğurla başa vuracağıq. Baxmayaraq ki, açıq dənizə çıxışımız yoxdur, biz Azərbaycanı nəqliyyat mərkəzinə çevirmişik. Bu sahəyə qoyulan sərmayə gələcəyə qoyulan sərmayədir. Çünki bundan sonra Azərbaycan onilliklər, yüzilliklər ərzində tranzit imkanlarından istifadə edərək, öz büdcəsini artıracaqdır. Azərbaycana daxil olacaq vəsait sadəcə, coğrafi vəziyyətdən və tranzit imkanlardan asılı olacaqdır.

Əlbəttə, əldə edilmiş nəticələr haqqında çox danışmaq olar. Amma bizim əsas vəzifəmiz gələcəyə baxışımızdır. Biz necə inkişaf etməliyik, hansı yollarla inkişaf etməliyik? Bir şeyi qətiyyətlə deyə bilərəm ki, biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Biz daim irəliyə baxmalıyıq. Dünya dəyişir, bölgə dəyişir, bölgədə yeni çağırışlar meydana çıxır, 15–20 il bundan əvvəl olan vəziyyət bu gün tamamilə fərqlidir. Bölgənin, dünyanın geosiyasi mənzərəsi tam fərqlidir. Biz buna hazır olmalı, hər bir məsələ ilə bağlı çox operativ və çevik fəaliyyət göstərməli,

ölkəmizin maraqlarını müdafiə etməliyik. Bundan sonra da çalışmalıyıq ki, Azərbaycanı mümkün olan risklərdən qoruyaq, necə ki, bu günə qədər qorumuşuq. Bu, asan məsələ deyil. Çünki hər birimiz yaxşı bilirik ki, dünyada gərginlik çoxalır, beynəlxalq hüquq normaları pozulur, bu normalara məhəl qoyulmur və ölkələr arasında gərginlik artmaqdadır. Ona görə bizim əsas məqsədimiz uğurlu xarici siyasətdən istifadə edərək, ölkəmiz üçün mövcud olan və gələcək mümkün riskləri azaltmaqdır. Biz bu istiqamətdə fəal işləyirik. Deyə bilərəm ki, bu, asan məsələ deyil.

Uzun illərdir ki, Azərbaycanda sabitlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalqın bizim siyasətə göstərdiyi dəstək bizə güc verir və eyni zamanda, imkan verir ki, islahatları dərinləşdirək və Azərbaycanın uğurlu dayanıqlı inkişafını təmin edək.

Sabitlik hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır. Dünyaya, beynəlxalq mənzərəyə baxın. Harada ki, sabitlik pozulur, ölkələr geriyə gedir, idarəolunmaz vəziyyətə düşür, ölkələrdə xoşagəlməz proseslər başlanır, xarici təsir artır, daxili çəkişmələr baş verir və ölkələr öz gələcəyini itirir. Son illər ərzində sabitliyi pozulmuş ölkələrin bugünkü mənzərəsinə nəzər salın. Nə görəcəyik? Müharibə, qardaş qanının tökülməsi, dağılmış şəhərlər, sıradan çıxmış infrastruktur, iflic vəziyyətə düşmüş sənaye, milyonlarla qaçqın-köçkün, çadır şəhərcikləri, o şəhərciklər ki, biz onlardan 2007-ci ildə xilas olmuşuq. Mən o vaxt seçkiqabağı söz vermişdim ki, 5 il ərzində bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Bunu biz 4 ilə etdik.

Yəni sabitliyin pozulması buna gətirib çıxarır. Hər bir insan bilməlidir ki, sabitlik böyük sərvətdir. Biz bunu çox böyük fədakarlıq göstərərək əldə etmişik.

Yadımıza keçən əsrin 90-cı illərinin əvvəllərini salaq. Nələr baş verirdi? Azərbaycan idarəolunmaz vəziyyətdə idi, Azərbaycan müstəqil siyasət apara bilmirdi. Müxtəlif çaxnaşmalar, toqquşmalar ölkəmizi tamamilə iflic vəziyyətə salmışdı. Bundan istifadə edən Ermənistan torpaqlarımızı zəbt etdi. Əgər o vaxt Azərbaycanda sabitlik olsaydı və əgər o vaxt Heydər Əliyev kimi şəxsiyyət Azərbaycanın rəhbəri olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşə bilməzdi. Ona görə biz bilməliyik ki, sabitliyin mövcudluğu Azərbaycanın, gənc nəslin xoşbəxt gələcəyidir. Bir daha demək istəyirəm ki, Azərbaycanda sabitlik möhkəm qorunur. Düzdür, bəzi cəhdlər göstərilir, tam iflasa düçar olmuş bəzi qruplaşmalar, hansılar ki, Azərbaycanı ötən əsrin 90-cı illərində bərbad vəziyyətə qoymuşdular, yenə də nə isə əldə etməyə çalışırlar. İndi onların mübarizə üsulu yalan, şər, böhtan, uydurma, iftiradır. Onların bundan başqa mübarizə üsulu yoxdur və müxtəlif media vasitələrindən istifadə edərək, ölkəmizə qara yaxırlar. Həm ölkə daxilində, həm də xaricdə çox eybəcər bir mənzərə yaratmağa çalışırlar. Azərbaycan xalqı onları yaxşı tanıyır. Məhz onlar Azərbaycanı bərbad vəziyyətə qoydular, onlar ölkəmizi dağıtdılar, onlar vətəndaş müharibəsinə start verdilər, qardaş qanı tökdülər. Azərbaycan xalqı heç vaxt imkan verməz ki, antimilli, xəyanətkar ünsürlər Azərbaycanda nə isə

əldə etsinlər. Azərbaycan xalqı müdrik xalqdır və hər şeyi yaxşı bilir.

Biz bundan sonra da islahatlar yolu ilə gedəcəyik. Çünki əldə edilmiş nəticələr, hesab edirəm ki, tarixdə qalmalıdır. Biz bilməliyik ki, haradan gəlmişik, hara çatmışıq. Ancaq bu tarixdir, biz gələcəyə baxmalıyıq. Bu gün iqtisadi sahədə aparılan islahatlar bütün mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, bizim tərəfdaşlarımız Azərbaycana böyük kreditlər verirlər. Nəyə görə? Ona görə ki, bizə inanırlar. Birinci növbədə görürlər ki, islahatlar səmərə verir, digər tərəfdən, Azərbaycanın uğurlu gələcəyinə inanırlar. Əgər belə olmasaydı, milyardlarla dolları Azərbaycana kredit şəklində verərdilərmi? Əlbəttə ki, yox.

İqtisadi sahədə aparılan islahatlar hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır və tapır. Biz əmək haqlarını, pensiyaları, müavinətləri nəyin hesabına artırırıq? Ona görə ki, daha da səmərəli işləyirik, ona görə ki, büdcə daxilolmaları artır və artacaqdır. Biz hələ islahatların növbəti mərhələsinin başlanğıcındayıq və bu ilin 4 ayının yekunları deməyə əsas verir ki, çox böyük nəticələr əldə edilir. Bu bizə imkan verir ki, sosial sahəyə həm maddi təminat, həm də islahatlar baxımından daha böyük diqqət göstərilsin. Dünən, ulu öndərin doğum günü ərəfəsində ilk DOST Mərkəzi yaradıldı. Bu da sosial təminat sahəsində bir inqilabdır, necə ki, vaxtilə «ASAN xidmət» Mərkəzi

ictimai xidmətlər sahəsində bir inqilab oldu. Artıq 6 milyondan çox insan «ASAN xidmət»dən istifadə edib. Bu, Azərbaycan brendidir, biz indi bu brendi intellektual məhsul kimi, başqa ölkələrə ixrac edirik. Ona görə islahatların davam etdirilməsi zəruridir və bunun başqa yolu yoxdur.

Məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi ilə bağlı bu yaxınlarda fərman imzalanıb. İndi əməli işlər aparılır ki, fərmanın icra edilməsinə başlanılsın. Bu da ciddi islahat olacaqdır. İcbari-tibbi sığorta Azərbaycanda pilot layihə kimi icra edilib və nəticələr həddindən artıq müsbətdir. Biz bəlkə də heç gözləmirdik ki, bu qədər müsbət nəticələr olacaqdır. Bu həm əhali, həm həkimlər tərəfindən, həm də bütün digər sahələrdə yüksək qiymətləndirilir. Biz irəli baxmalıyıq. Dünya dəyişir, bir daha demək istəyirəm, biz ön sıralarda olmalıyıq və olacağıq da. Çünki üfüqlər açıqdır, siyasətimiz tam aydındır və gələcəyə nikbinliklə baxmaq üçün bütün əsaslar vardır.

Biz bu gün eyni zamanda, Heydər Əliyev Fondunun 15 illiyini qeyd edirik. 15 il bundan əvvəl Fond yaradıldı və bu illər ərzində bir çox sahələrdə – mədəniyyət, incəsənət, təhsil və digər sahələrdə çox böyük işlər gördü. Təhsil sahəsində deyə bilərəm ki, Fondun təşəbbüsü ilə başlanan «Yeniləşən Azərbaycana yeni məktəb» proqramı ölkə miqyasında geniş vüsət aldı və ondan sonra dövlət xətti ilə 3200-dən çox məktəb tikildi, təmir edildi. Fond səhiyyə sahəsində çox böyük işlər görür və bir çox hallarda bu işlər haqqında heç məlumat da verilmir. Yəni

ictimaiyyət bəlkə də məlumatlı deyil ki, nə qədər böyük işlər görülür, nə qədər insana kömək göstərilir, nə qədər insanı – uşağı, xəstəni Fondun xətti ilə aparılmış müalicə normal həyata qaytarıb. Fondun çoxşaxəli fəaliyyəti Azərbaycanı dünyada tanıdır. Fondun dünya miqyasında çox böyük hörməti vardır. Azərbaycan reallıqlarının dünyaya çatdırılması istiqamətində – bizim musiqimizi, xalçaçılıq sənətini, muğam sənətini, digər mədəniyyət incilərimizi dünyaya çatdırmaq, təqdim etmək üçün Fond çox böyük işlər görür. Kitablar çap olunur, disklər hazırlanır, sərgilər, elmi-praktiki konfranslar, simpoziumlar keçirilir. Mən Fondun əməkdaşlarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm və eyni zamanda, bildirmək istəyirəm ki, Fond ulu öndərin siyasi irsini təbliğ etmək üçün də böyük işlər görür.

Biz ulu öndərin doğum gününü yaxşı nəticələrlə, böyük planlarla qarşılayırıq. Əminəm ki, bütün planlar reallaşacaq. Necə ki, bu günə qədər reallaşıb, bundan sonra da reallaşacaqdır. Çünki buna bizim iradəmiz də çatır, gücümüz də var, xalq da bizim siyasətimizi dəstəkləyir. Biz bundan sonra yalnız və yalnız uğurlar və qələbələr yolu ilə gedəcəyik. Sağ olun.

* * *

*Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Neft Şirkətinin Birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə «Heydər Əliyev mükafatı»nın verilməsi ilə bağlı sərəncamı oxundu.*

**İ l h a m  Ə l i y e v:** Xoşbəxt müəllimdə Azərbaycan dövlətinin və ovaxtkı Sovet İttifaqının, demək olar ki, bütün mükafatları var və buna öz əməyi ilə layiq görülüb. İndi təkcə bu mükafat qalmışdı, bunu da bu gün təqdim edəcəyik. Azərbaycanda elə bir adam yoxdur ki, Xoşbəxt müəllimi sevməsin, ona hörmət etməsin. O, neftçilərin simvoludur. O, ən təcrübəli, bilikli, qayğıkeş, əsl Azərbaycan ziyalısı, Azərbaycan geoloqu, Azərbaycan neftçisidir. Biz Xoşbəxt müəllimlə fəxr edirik, gəlin onu alqışlayaq.

Onu da bildirmək istəyirəm ki, mən Neft Şirkətində çalışdığım dövrdə Xoşbəxt müəllimlə qonşu idik, ikimizin bir qəbul otağımız var idi. Biz, demək olar ki, hər gün görüşürdük, söhbətləşirdik. Xoşbəxt müəllimin çox gözəl söhbətləri vardır. O, tarixi hadisələri gözəl yadda saxlayır. Bu gün böyük məmnunluq hissi ilə mən bu yüksək mükafatı Xoşbəxt müəllimə təqdim edirəm.

*Dövlət başçısı «Heydər Əliyev mükafatı»nı akademik Xoşbəxt Yusifzadəyə təqdim etdi.*

**X o ş b ə x t  Y u s i f z a d ə:** Çox sürprizlər görmüşdüm, amma bugünkü mükafat mənim üçün lap gözlənilməz oldu. Heydər Əliyev cənablarının anadan

olan günündə mənə bu mükafatın verilməsi bir daha onu göstərir ki, doğrudan da mən xoşbəxt adamam. Ötən 67 ildə neft sənayesində nəyə nail olmuşamsa, hamısını Heydər Əliyev cənablarının rəhbərliyi altında əldə etmişəm. Cənab Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə təkcə mənə yox, bütün neftçilərə, neft sənayesinə böyük qayğı göstərib. Hamınız bilirsiniz ki, ulu öndər yenidən hakimiyyətə gələndə respublikada iqtisadi vəziyyət çox ağır idi və onu tez bir zamanda düzəltmək mümkün deyildi. Ancaq cənab Heydər Əliyev bilirdi ki, Azərbaycanın iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün neft sənayesini inkişaf etdirmək lazımdır. Odur ki, bütün gücünü neft sənayesinə yönəltdi. Prezident İlham Əliyev burada «Əsrin müqaviləsi»ndən danışdı. Bu il «Əsrin müqaviləsi»nin 25 ili tamam olacaq. Bu müqavilə heç də asan başa gəlməyib, 1994-cü ildə biz ay yarım Hyustonda olduq, müqaviləyə istəyimizə uyğun qol çəkdirmək üçün çox əzablar çəkdik. Bu müqavilə həqiqətən, Heydər Əliyevin şah əsəridir. Bu müqavilə ilə bağlı bir neçə məqamı qeyd etmək istəyirəm. Birincisi odur ki, bu müqavilə imzalandıqdan sonra bütün dövlətlər, bütün şirkətlər başa düşdülər ki, Azərbaycan sabit ölkədir, burada işləmək olar. Heç də təsadüfi deyil ki, bundan sonra 34 müqavilə də imzalandı. İkincisi, «Əsrin müqaviləsi»nin ən böyük əhəmiyyəti o oldu ki, 1997-ci ildə Azərbaycanda neft hasilatının səviyyəsi 9 milyon tona, 2010-cu ildə isə 51 milyon tona çatdı. Mən onu demək istəyirəm ki, bütün bunların hamısı Heydər Əliyevin xidmətlərinin nəticəsidir. Bu günə qədər

«Azəri–Çıraq–Günəşli» neft yataqları blokundan 481 milyon ton neft hasil olunub ki, bunun da 279 milyon tonu mənfəət neftidir. Həmin o mənfəət neftidir ki, Azərbaycanın bugünkü inkişafını təmin edibdir.

Ulu öndərin ikinci şah əsəri Bakı–Tbilisi–Ceyhan neft kəməri oldu. Mən rəqəmlər söyləmək istəyirəm: Azərbaycandan xaricə nəql olunmuş 503 milyon ton neftin 383 milyon tonu Bakı–Tbilisi–Ceyhan kəməri ilə daşınıb. Əgər bu kəmər olmasaydı, bu neft xaricə necə çıxarıla bilərdi?!

«Şahdəniz» Heydər Əliyevin üçüncü böyük əsəridir. «Şahdəniz»də mane olanlar var idi. Amma cənab Heydər Əliyevin rəhbərliyi ilə bu layihə də həyata keçdi. İndi onun bəhrəsini biz hər yerdə görürük. Dahi Heydər Əliyevin yolunu indi cənab Prezident İlham Əliyev davam etdirir. Heydər Əliyev cənablarının əsasını qoyduğu strategiyanı cənab İlham Əliyev çox uğurla davam etdirir. Bu gün Azərbaycanın nailiyyətlərini saymaqla qurtarmaq olmaz. Necə deyərlər, 10–15 il Azərbaycanda olmayan adam gəlib Bakını görsə tanımaz. Təkcə Bakı deyil, bütün rayonlar müasirləşib. Nə qədər yollar çəkilib, məktəblər, tibb müəssisələri tikilibdir. Qısa bir vaxtda bu qədər işin görülməsi doğrudan da böyük nailiyyətdir. Elə neft sənayesinin özü də çox inkişaf edib. «Cənub Qaz Dəhlizi», TANAP, STAR Neft Emalı zavodu, Sumqayıtda yeni zavodlar neft sənayesində əldə olunmuş nailiyyətlərdir. Bunların hamısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilib. Cənab İlham Əliyev neft sənayesinin çətinliklərini çox yaxşı bilir, çünki 10 il bizimlə çiyin-

çiyinə çalışıb. Buna görə də o, neftçilərə həmişə diqqət və qayğı ilə yanaşır. Allah onun ömrünü uzun, canını sağ eləsin, elə eləsin ki, Azərbaycan daha da irəli getsin.

Mən burada Birinci vitse-prezident Mehriban xanım haqqında da bir-iki kəlmə söz demək istəyirəm. Biz 1994-cü ildə Hyustonda olanda Mehriban xanım da bizimlə idi. Bir yerdə nahar edirdik, bizə məsləhətlər verirdi. Ən vacibi isə o idi ki, biz gedəndə arxamızca su atırdı ki, işimiz uğurlu olsun.

**İlham Əliyev:** Yemək də bişirirdi.

**Xoşbəxt Yusifzadə:** Kim deyə bilər ki, Mehriban xanımın bişirdiyi yeməyi yeyib? Mən yemişəm. Özü də çox dadlı bişirirdi.

Mən 67 ildir neft sənayesində işləyirəm. Azərbaycanın inkişafı Heydər Əliyevlə başlandı, indi bu işi İlham Əliyev davam etdirir. Mehriban xanım Azərbaycanın adını bütün Avropada o qədər yüksəldib ki, hərdən fikirləşirəm, biz 10 milyonuq? Bəlkə çoxuq, mən saya bilmirəm? Hər yerə, haraya baxırsan, hansı Avropa ölkəsinə baxırsan, Mehriban xanım Azərbaycanın adını göylərə qaldırır. Mehriban xanım, Allah Sizin də canınızı sağ eləsin, çox sağ olun. Bu il də əlamətdar hadisələr olacaq – «Əsrin müqaviləsi»nin 25 illiyi, «Neft Daşları»nın 70 illiyi. Arzu edirəm ki, «Neft Daşları»nın 70 illiyini yüksək səviyyədə keçirək. Çünki «Neft Daşları» dəniz neftinin başlanğıcını qoyan mənbədir. Ona görə də biz gərək «Neft Daşları»na diqqəti heç vaxt azaltmayaq. Sağ olun.

* * *

*Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş «Qızıl çinar» beynəlxalq mükafatın 2019-cu il üçün təqdimetmə mərasimi keçirildi.*

*Fondun prezidenti Mehriban Əliyeva milli musiqi irsimizin yaşadılması və dünyada tanıdılmasına xidmət edən layihələrdə fəal iştirakına və səmərəli əməkdaşlığına görə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Əməkdar artist Fuad İbrahimova «Qızıl çinar» beynəlxalq mükafatını təqdim etdi.*

**Fuad İbrahimov:** Əziz Mehriban xanım!

Hörmətli cənab Prezident!

Mənə göstərdiyiniz diqqətə, qayğıya, inama görə Sizə hədsiz dərəcədə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu məndə, əlbəttə ki, çox böyük məsuliyyət hissi oyadır. Bir şuşalı kimi, Azərbaycana uğur gətirməyə və ölkəmizi xaricdə təmsil etməyə böyük təkan verir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə mən Almaniyada iki təhsil almışam. Fondun təşəbbüsü ilə xaricdə keçirilən çoxlu sayda konsertlərdə iştirak etmişəm və iştirakımız çox böyük uğurla keçib. Hər zaman ürəyimdə böyük bir arzu olub ki, göstərdiyiniz etimada görə Sizə şəxsən təşəkkürümü bildirim. Onu da qeyd etmək istəyirəm ki, 2018-ci il mənim həyatımda çox böyük rol oynadı. Fransanın paytaxtı Parisdə keçirilən çox nüfuzlu dirijorların beynəlxalq müsabiqəsində qalib oldum. Bundan sonra konsertlərin sayı çox artdı. Bunların hamısı Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə baş tutdu.

Çox sağ olun ki, varsınız. Biz həmişə sizinləyik. Biz sizi çox sevirik. Təşəkkür edirəm!

*Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərdiyi diqqət və qayğıya, böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafına verdiyi töhfələrə görə Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin direktor müavini Zərifə Məmmədovaya «Qızıl çinar» beynəlxalq mükafatını təqdim etdi.*

**Z ə r i f ə  M ə m m ə d o v a:** Əziz Prezidentimiz, əziz Mehriban xanım!

Əvvəla, Mehriban xanıma böyük təşəkkürümüzü bildiririk ki, bizim işimizə qiymət verib, gözəl bir bina tikdirib. Demək olar ki, Mehriban xanımın diqqəti həmişə bizim uşaqların üstündədir. Çox sağ olun, Mehriban xanım.

İnanın ki, əgər Mehriban xanım bizim üçün, bizim uşaqlarımız, analarımız üçün bu gözəl binanı tikdirməsəydi, indiyə kimi uşaqlar evlərdə qalardı. Biz çox minnətdarıq ki, bizim üçün dünyada analoqu olmayan belə gözəl bina tikilib, orada uşaqlar üçün hər cür şərait yaradılıbdır. Mən ilk növbədə, uşaqlarımızın, anaların adından, şəxsən öz adımdan Sizə sonsuz təşəkkürümü bildirmək istəyirəm. İndi bizim uşaqlarımız çox yerdə festivallarda iştirak edirlər. Onlar 17 ölkədə böyük hədiyyələr, diplomlar alıblar, Avstriyanın paytaxtı Vyanada dünyada analoqu olmayan teatr kimi ad qazanıblar, idman yarışlarında, rəsm müsabiqələrində birinci yeri tutublar. Çox sağ

olun. Bu təkcə mənim yox, bütün valideynlərin, anaların mükafatıdır. Çox minnətdaram!

*Sonra geniş konsert proqramı təqdim olundu. Konsertdə tanınmış incəsənət ustalarının ifaları maraqla qarşılandı.*

**Polad Bülbüloğlu** (*Xalq artisti*):Cənab Prezident!

Əziz və hörmətli Mehriban xanım!

Bu gün biz ulu öndərimizin, sevimli insanın doğum günündə onun adını daşıyan Fondun 15 illiyini qeyd edirik.

Hörmətli Mehriban xanım, Azərbaycanda aləmində çox gözəl deyim var: insan adı ilə böyüyür və adı ilə yaşayır. Sizin gözəl ananız, müdrik atanız Sizə çox gözəl bir ad veriblər. Siz doğrudan da mehribançılıqla çox böyük işlər görürsünüz və insanlar Sizi çox sevirlər. Mən inanıram ki, Sizin rəhbərliyiniz altında Heydər Əliyev Fondu hələ uzun illər çox işlər görəcək. Sizə müvəffəqiyyətlər, cansağlığı arzu edirəm və vaxtilə Heydər Əliyevin çox sevdiyi «Şən Azərbaycan» mahnısını oxumaq istəyirəm.

*bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qari Counz ulu öndərin əlyazmasını Heydər Əliyev Fonduna təqdim etdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimləri ilə görüşdülər.*

## BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏR

*13 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Belçika Krallığına işgüzar səfərə gəlmişdir.*

*Həmin gün Prezident İlham Əliyevin Belçika Kralı əlahəzrət Filipp ilə görüşü oldu.*

*Görüşdə Azərbaycan–Belçika ikitərəfli münasibətləri, regiondakı vəziyyət və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi.*

*Prezident İlham Əliyev Belçika Kralı əlahəzrət Filipə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verərək, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunduğunu, münaqişənin həllinin yalnız BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında və ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün olduğunu diqqətə çatdırdı.*

*Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əməkdaşlıq məsələlərinə toxunuldu, Azərbaycan–Avropa İttifaqı əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olundu və Prezident İlham Əliyevin Belçikaya səfərinin ikitərəfli münasibətlərin genişləndirilməsinə töhfə verəcəyi bildirildi.*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ DONALD TUSK İLƏ GÖRÜŞ

*Brüssel*

*13 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu.*

*Ölkəmizin Avropa İttifaqı üçün etibarlı və məsuliyyətli tərəfdaş olduğunu qeyd edən Donald Tusk Azərbaycanın regiondakı rolunun Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər çox uğurla inkişaf edir və ölkəmiz bu əlaqələrin genişlənməsinə böyük önəm verir.*

*Dövlət başçısı Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuska Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesi barədə məlumat verdi.*

*Görüşdə ötən il Azərbaycan və Avropa İttifaqı arasında imzalanmış «Tərəfdaşlıq prioritetləri» sənədinin*

*əhəmiyyəti vurğulandı, həmçinin tərəflər arasında üzərində danışıqlar aparılan Tərəfdaşlıq sazişi ilə bağlı fikir mübadiləsi aparıldı. Söhbət zamanı Azərbaycanın istər «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində, istərsə də ikitərəfli formatda Avropa İttifaqı ilə yaxından əməkdaşlığı xüsusi qeyd olundu.*

## «ŞƏRQ TƏRƏFDAŞLIĞI» ÖLKƏLƏRİ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ŞAM YEMƏYİNDƏ İŞTİRAK

*Brüssel*

*13 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun adından «Şərq Tərəfdaşlığı» ölkələri dövlət və hökumət başçılarının şərəfinə verilmiş şam yeməyində iştirak etmişdir.*

*Əvvəlcə «Şərq Tərəfdaşlığı» ölkələrinin dövlət və hökumət başçıları rəsmi foto çəkdirdilər.*

*Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun adından «Şərq Tərəfdaşlığı» ölkələri dövlət və hökumət başçılarının şərəfinə verilən şam yeməyində çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan «Şərq Tərəfdaşlığı» Proqramında iştirak edən fəal ölkələrdən biridir.*

*Dövlət başçısı bildirdi ki, Azərbaycan Avropa İttifaqına üzv ölkələrlə də sıx əlaqələrə malikdir. Belə ki, Azərbaycanın Avropa İttifaqının üzvü olan 9 ölkə ilə əlaqələri strateji tərəfdaşlıq xarakteri daşıyır.*

*Dövlət başçısı, həmçinin bildirdi ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır və təşkilatın üzv dövlətləri ölkəmizdə aparıcı sərmayəçi qismində çıxış edir.*

*Azərbaycan Prezidenti «Şərq Tərəfdaşlığı» Proqramının iştirakçısı olan Ermənistan və Azərbaycan arasında münaqişənin öz həllini tapmamasını təəssüflə qeyd etdi. Dövlət başçısı torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal olunduğunu, 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyini vurğulayaraq bildirdi ki, 25 ildən çoxdur bu münaqişə davam edir. Prezident İlham Əliyev qeyd etdi ki, bu münaqişə yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunmalıdır.*

*Prezident İlham Əliyev xatırlatdı ki, ötən il Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında paraflanmış «Tərəfdaşlıq prioritetləri» sənədində də Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə və suverenliyinə bir daha dəstək ifadə olunubdur.*

*Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfə verdiyini vurğulayan dövlət başçısı bildirdi ki, ölkəmizin təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji layihələrində hasilatçı, tranzit və istehlakçı ölkələrin maraqları onların əməkdaşlığı çərçivəsində birgə şəkildə qorunur.*

*Dövlət başçısı Azərbaycanın Şərq–Qərb nəqliyyat dəhlizinin reallaşdırılmasında mühüm rol oynadığını nəzərə çatdıraraq, ölkəmizin Avropa İttifaqı ilə nəqliyyat sahəsində də uğurla əməkdaşlıq etdiyini bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ BELÇİKADAKI SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞINDA İŞTİRAK

*Brüssel*

*14 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Brüsseldə ölkəmizin Belçika Krallığındakı səfirliyinin yeni binasının açılışında iştirak etmişdir.*

*Azərbaycanın Belçikadakı səfiri Fuad İsgəndərov və binanın dizayneri, Belçikanın tanınmış memarı Filip Vanhereveqe dövlət başçısına görülmüş işlər barədə məlumat verdilər.*

*Brüsselin Tervuren prospektində yerləşən bina 2014-cü ildə Azərbaycan Respublikasının Belçika Krallığındakı səfirliyi tərəfindən alınıb, daxili əsaslı təmir edilib, fasadı isə yenilənibdir. Bina Avropa təsisatlarına çox yaxın məsafədə, Parmentier parkının yaxınlığında, çoxsaylı diplomatik missiyaların yerləşdiyi prospektdədir.*

*Azərbaycan Prezidenti binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlət başçısı binada yaradılmış şəraitlə tanış oldu. Binanın girişi dövlət rəmzləri ilə bəzədilib. Bu-*

*rada dünyanın müxtəlif şəhərlərinin məşhur muzeylərində saxlanılan Azərbaycan xalçalarının fotoları, həmçinin 1870-ci il Təbriz xalçası nümunəsində əllə toxunmuş xalça da vardır. Daxili tərtibat işləri zamanı Qobustan qayaüstü rəsmlərinə də yer ayrılıb. Binanın birinci və ikinci mərtəbələri səfirliyin iş otaqları üçün nəzərdə tutulub. Burada səfirin, müşavirlərin və digər əməkdaşların, həmçinin konsulluq xidmətinin işçilərinin otaqları bütün zəruri avadanlıqlarla təchiz olunub. Bir sözlə, əməkdaşların səmərəli fəaliyyəti üçün binada hər cür şərait vardır. Binada, həmçinin səfirlik işçilərinin mənzilləri yerləşir.*

*Dövlət başçısı səfirliyin əməkdaşları ilə xatirə şəkli çəkdirdi.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri mayın 14-də başa çatdı.*

## BELARUS RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ İQOR LYAŞENKONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Belarus Respublikası Baş Nazirinin müavini İqor Lyaşenkonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin uğurla və dinamik inkişaf etdiyini bildirərək, Belarus Respublikası Baş Nazirinin müavini İqor Lyaşenkonun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını diqqətə çatdırdı. Bakıda keçirilən XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisindən söz açan Prezident İlham Əliyev Belarusun bu tədbirdə fəal iştirakından məmnunluğunu bildirdi. Dövlət başçısı Belarusun kənd təsərrüfatı məhsullarının keyfiyyətinin Azərbaycanda razılıq doğurduğunu qeyd etdi və Belarusa səfəri zamanı orada da Azərbaycan Ticarət evinin açılmasını bu sahədə əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Belarus Respublikası Baş Nazirinin müavini İqor Lyaşenko Belarusun XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində fəal iştirakının Prezident İlham Əliyevin ölkələrimiz arasında əməkdaşlığa göstərdiyi diqqətin nəticəsi olduğunu bildirdi, Azərbaycan və Belarus dövlət başçılarının əlaqələrimizin inkişafı ilə bağlı verdikləri tapşırıqlara əsasən, birgə layihələrin uğurla həyata keçirildiyini qeyd etdi. İqor Lyaşenko ölkəmizə səfəri zamanı Azərbaycanda istehsal olunan və birgə istehsalı planlaşdırılan kənd təsərrüfatı texnikası və eləcə də digər nəqliyyat vasitələri nümunələri ilə tanış olduqlarını və bu sahədə işlərin uğurla həyata keçirildiyini diqqətə çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında kənd təsərrüfatı ilə yanaşı, maşınqayırma, avtomobil sənayesi sahələrində əlaqələrin perspektivləri müzakirə edildi, Azərbaycan məhsullarının, xüsusilə tütün və şərab ixracının önəmi qeyd olundu və bu sahədə əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## XXV AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ XIII AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*Bakı Ekspo Mərkəzi*

*15 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi – «VorldFood Azerbaijan» və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – «Caspian Aqro» sərgiləri ilə tanış olmuşdur.*

*Kənd Təsərrüfatı naziri İnam Kərimov və «Caspian Event Organisers» şirkətinin regional direktoru Edvard Straxan dövlət başçısına sərgilərlə bağlı məlumat verdilər.*

*Bildirildi ki, dünyanın 32 ölkəsini təmsil edən 440 şirkəti, eləcə də 11 milli və regional qrupu bir araya gətirən builki sərginin ekspozisiya sahəsi ötən illə müqayisədə 20 faiz artıb. Artım iştirakçıların sayında da qeydə alınıb. «VorldFood Azerbaijan» və «Caspian Aqro» sərgilərində Azərbaycanla yanaşı, Litva, Rusiya, Sloveniya, Ukrayna, Xorvatiya və digər ölkələri təmsil edən şirkətlər də yer alır. Bu il İtaliya,*

*Türkiyə və Şri-Lanka sərgidə milli stendlərlə çıxış edirlər. Ənənəvi olaraq, sərgidə Rusiyanın Başqırdıstan, Penza, Voronej, Vladimir, Kabarda-Balkar kimi regional qrupları da iştirak edir. Bu il sahəsi genişlənmiş Belarus Respublikasının milli stendinin ekspozisiyası 2 zalda – ikinci və sərginin tarixində ilk dəfə açılmış üçüncü zalda təqdim olunur. Burada eyni zamanda, qida sənayesi sahəsində fəaliyyət göstərən startaplar, mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim edirlər. Gürcüstan və Niderland Krallığı sərgidə milli qruplarla təmsil olunur.*

*Prezident İlham Əliyevə Aqrar Məşğulluğun Artırılması layihəsi barədə məlumat verildi.*

*Dövlət başçısı sərgidə «Azersun», «Grov Group Azerbaijan, CASE, «Grimme», «Aqro Dairy», CLAAS, «John Deer», «Rostselmaş», «Cahan Tobacco», «Lindsay», «Geoflov», METAK, GİLAN, İMAGRO, «Agronaft», «Prior Leasing» şirkətlərinin, Gəncə Avtomobil zavodunun, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Rusiya Federasiyasının, Başqırdıstan Respublikasının, Belarusun, İtaliyanın, Türkiyənin, Niderlandın, Gürcüstanın stendləri ilə tanış oldu. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikası, əkin-biçin aqreqatları, kənd təsərrüfatı məhsulları təqdim olunur.*

*Sərgidə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi də fəal iştirak edir. Ümumilikdə*

*isə sərgilər BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), AZPROMO, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Kiçik və Orta Biznesin İnkişaf Agentliyinin dəstəyi ilə keçirilir. «Caspian Event Organisers» şirkəti və onun beynəlxalq agentlər şəbəkəsi sərgilərin təşkilatçısıdır.*

*Bu il «VorldFood Azerbaijan» sərgisi 25 illik yubileyini qeyd edir və bu sahənin regionda hərəkətverici qüvvəsinə çevrilib. Sərgi 25 illik uğurlu fəaliyyəti ərzində dünyanın 40-dan artıq ölkəsini təmsil edən 2137 şirkəti bir araya gətirib. Nəticədə bu şirkətlərin çoxu Azərbaycanda uğurlu biznes qurub.*

*Ənənəvi olaraq, sərgidə «made in Azerbaijan» brendi altında geniş çeşiddə qida, o cümlədən ət və süd məhsulları, çay, bal, şirələr və milli istehsalçıların digər məhsulları təqdim olunur. Burada eyni zamanda, suvarma sistemləri, istixanalar və heyvandarlıq təsərrüfatları üçün avadanlıqlar, yem və toxumlar, kənd təsərrüfatı texnikası, baytarlıq preparatları, laboratoriya qurğuları və digər avadanlıqlar nümayiş olunur.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində digər sahələrlə yanaşı, kənd təsərrüfatının da bir çox istiqamətləri üzrə böyük işlər görülüb, dövlət başçısı tərəfindən mühüm qərar və sərəncamlar, həmçinin konkret sahələr üzrə dövlət proqramları qəbul olunubdur. Bütün bunlar bir daha göstərir ki, kənd təsərrüfatının inkişafı ölkəmizdə prioritet sahələrdən biri kimi müəyyənləşib. Bu sahələrə göstərilən dövlət dəstəyi*

*nəticəsində kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılmasına geniş imkanlar yaranıb. Aqrar sahəyə qoyulan investisiyaların həcmi də ildən-ilə artır.*

*Ölkəmizdə taxıl tədarükü istiqamətində də çox mühüm işlər görülüb. Ötən il 3,3 milyon ton taxıl tədarük olunub ki, bu da 2017-ci illə müqayisədə 13 faiz çoxdur. Bu il də artım gözlənilir. Belə ki, bu il ölkə üzrə 1 milyon 47500 hektar sahədə yazlıq və payızlıq taxıl əkilibdir.*

*Həyata keçirilən bütün bu layihələr Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Kənd təsərrüfatının inkişafı eyni zamanda, bu sahədə çalışanlara və fermerlərə göstərilən dövlət qayğısı ilə şərtlənir. Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, fermerlər müasir kənd təsərrüfatı texnikası ilə təchiz edilir, onlara subsidiyalar, yanacaq, gübrə güzəştli şərtlərlə verilir, fermerlər torpaq vergisindən başqa, bütün vergilərdən azad olunublar. Bütün bunlar kənd təsərrüfatının inkişafı üçün icra edilən tədbirlərin kompleks şəkildə davam etdirildiyini göstərir.*

*Kənd təsərrüfatı texnikasının ucuzlaşması isə bazarın liberallaşmasının, azad rəqabət mühitinin yaradılmasının nəticəsidir. Prezident İlham Əliyev tərəfindən aqrar texnologiyalar bazarında aparılan liberallaşma siyasəti şirkətlərin bu sahəyə marağını daha da artırıbdır.*

*Dövlət başçısı «VorldFood Azerbaijan» və «Caspian Aqro» sərgilərinin işinə uğurlar arzuladı.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Şeremetyevo aeroportunda təyyarənin qəza enişi nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm. Xəsarət alanların tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 may 2019-cu il*

**YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT NARUHİTOYA**

Əlahəzrət!

Yaponiyanın 126-cı imperatoru olaraq, Taxta çıxmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Yaponiya arasındakı ikitərəfli münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, ölkələrimizi birləşdirən dostluq əlaqələri, müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 may 2019-cu il*

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kamerun xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 may 2019-cu il*

## ÇEX RESPUBLİKASI PARLAMENTİ DEPUTATLAR PALATASININ SƏDRİ RADEK VONDRAÇEKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Çex Respublikası Parlamenti Deputatlar Palatasının sədri Radek Vondraçekin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan Respublikası ilə Çex Respublikası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini, siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdi. Çex Respublikası Prezidentinin Azərbaycana səfərini xatırladan Prezident İlham Əliyev parlamentlərarası əlaqələrin genişlənməsinin də münasibətlərin inkişafına töhfə verdiyini nəzərə çatdırdı. Dövlət başçısı iqtisadi əməkdaşlığın yaxşı perspektivlərə malik olduğunu bildirərək, Çex Respublikası Hökuməti üzvlərinin də Azərbaycana uğurlu səfər etdiklərini və iqtisadi, ticari, investisiya sahələrində əlaqələrin genişləndirilməsinin zəruriliyini bildirdi. Prezident İlham Əliyev Çex Respublikası Parlamenti Deputatlar Palatasının sədri Radek Vondraçekin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin səmərəli keçəcəyinə və əlaqələrimi-*

*zin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Çex Parlamenti Deputatlar Palatasının sədri Radek Vondraçek Çex Respublikasının Prezidenti Miloş Zemanın salamlarını dövlət başçısına çatdırdı. Geniş nümayəndə heyəti ilə Azərbaycana səfər etdiklərini ifadə edən Radek Vondraçek Çex Respublikası Parlamentində müxtəlif partiyaları təmsil edən Çexiya–Azərbaycan parlamentlərarası dostluq qrupunun fəaliyyət göstərdiyini diqqətə çatdırdı. O bildirdi ki, Çex Respublikası Parlamenti nümayəndə heyətinin Azərbaycana səfərinin əsas məqsədi ölkələrimiz arasında mövcud olan çox yaxşı münasibətlərin daha da inkişaf etdirilməsi işinə töhfə verməkdir. Radek Vondraçek Azərbaycanda müxtəlif sahələrdə aparılan köklü islahatların təqdir edildiyini, Çexiya investorları tərəfindən Azərbaycana böyük maraq göstərildiyini diqqətə çatdırdı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Çex Respublikası arasında münasibətlərin həm ikitərəfli, həm də Avropa İttifaqı çərçivəsində uğurla inkişaf etdiyi vurğulandı və eyni zamanda, hökumətlərarası birgə Komissiyanın işinin fəallaşdırılmasının vacibliyi qeyd olundu.*

*Prezident İlham Əliyev Çex Respublikasının Prezidenti Miloş Zemanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çexiya Prezidentinə çatdırmağı xahiş etdi.*

# PİRALLAHI SƏNAYE PARKINDA «DİAMED» ŞPRİS İSTEHSALI ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*16 may 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Pirallahı Sənaye Parkında «Diamed» Şpris İstehsalı zavodunun açılışı mərasimində iştirak etmişdir.*

*İqtisadiyyat naziri Şahin Mustafayev və «Diamed» Şpris İstehsalı zavodunun təsisçisi Aytən Quliyeva dövlət başçısına bu istehsal müəssisəsi barədə məlumat verdilər.*

*Qeyd edək ki, hazırda Azərbaycanda Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamlarına uyğun olaraq kimya, təkrar emal, yüngül sənaye, gəmiqayırma, əczaçılıq sahələrində ixtisaslaşmış 5 sənaye parkı fəaliyyət göstərir. Bu sənaye parklarında 9000-ə yaxın insan daimi işlə təmin olunub. Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı sərəncama əsasən isə Sumqayıt Kimya Sənaye Parkı MMC-nin tərkibində Pirallahı Sənaye Parkı yaradılıb. Bu parkın yaradılmasında məqsəd qeyri-neft sənaye sahələrinin davamlı inkişafını, sənaye sahəsində sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsini,*

*qabaqcıl texnologiyalara əsaslanan rəqabət-qabliyyətli və innovativ sənaye sahələrinin yaradılmasını təmin etməkdir. Bundan başqa, bu layihənin icrası əczaçılıq sənayesinin inkişafı və dəstəklənməsi, əczaçılıq məhsullarının idxalından asılılığın azaldılması, əhalinin dərman vasitələrinə tələbatının ödənilməsində yerli istehsalın təşviqi və istehsal sahəsində əhalinin məşğulluğunun artırılması məqsədi daşıyır. Ümumi sahəsi 30 hektar olan parkın rezidentləri 7 il ərzində torpaq, gəlir, əmlak, əlavə dəyər vergilərindən, həmçinin idxal olunan texnika, texnoloji avadanlıqlara görə gömrük rüsumundan azaddırlar.*

*Park yaradılandan burada əczaçılıq sahəsində bir sıra mühüm layihələrin həyata keçirilməsinə başlanılıb. Reallaşdırılmış mühüm layihələrdən biri də Şpris İstehsalı zavodudur. Azərbaycanda ilk Şpris İstehsalı zavodu parkın 2017-ci ilin mayında rezidenti kimi qeydiyyata alınmış «Diamed Co» MMC tərəfindən inşa edilibdir.*

*Dövlət başçısı zavodu işə salan düyməni basdı.*

*Bildirildi ki, müxtəlif tutumlu birdəfəlik Şpris İstehsalı zavodunun illik istehsal gücü 150 milyondur. İnvestisiya dəyəri 9,5 milyon manat olan bu layihəyə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişaf Fondu tərəfindən 5 milyon manat güzəştli kredit verilib. İki hektar ərazidə yerləşən zavodda Almaniya, İsveçrə, İtaliya, Türkiyə, İngiltərə və Yaponiya texnologiya və avadanlıqlarından istifadə olunur. Müəssisədə istehsal edilən məhsullar yerli bazarın tələbatını*

*ödəməklə yanaşı, Rusiya, Gürcüstan, İran və Orta Asiya ölkələrinə ixrac ediləcək. Bu isə «made in Azerbaijan» brendi ilə ixrac olunan məhsulların çeşidini və sayını artırmağa imkan verəcəkdir. Zavodda 150 yeni iş yeri yaradılacaq. İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Bu baxımdan iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi önəm verilir. Dövlət başçısının sənayenin inkişafı ilə bağlı strateji xəttinə uyğun olaraq, ölkəmizdə həyata keçirilən genişmiqyaslı sənayeləşmə siyasəti nəticəsində rəqabətqabliyyətli və ixrac yönümlü yüzlərlə yeni sənaye müəssisəsi yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi yüksəlib, beləliklə, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyubdur.*

*Dövlət başçısı zavodun kollektivi ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bu gün Pirallahı rayonunda çox əlamətdar hadisəni qeyd edirik. Burada istehsal ediləcək şprislər bizim səhiyyə sistemində istifadə olunacaq və beləliklə, Azərbaycan bu sahədə də idxaldan asılılığı aradan götürmüş olacaqdır.

Hər bir yeni müəssisənin açılışı məni sevindirir. Çünki hər bir müəssisənin açılışı yeni iş yerləri deməkdir. Mənə verilən məlumata görə, burada ilkin mərhələdə 30, sonra isə 150 yeni iş yeri yaradılacaq. Beləliklə, burada işsizliklə bağlı problem də öz həllini tapacaqdır.

Bütövlükdə Pirallahı rayonunda işsizliklə bağlı problem, demək olar ki, yoxdur. Son illərdə Pirallahı rayonunda çox böyük quruculuq-abadlıq işləri aparılıb, rayonun, adanın siması gözəlləşib, çox böyük inkişaf var, yaşayış binalarının təmiri, yeni ictimai zonaların, iş yerlərinin yaradılması, yeni körpünün salınması – yəni bütün bunlar rayonun gələcək inkişafına qoyulan sərmayə və rayona göstərilən diqqətdir.

Bu zavodda bizim siyasətimiz öz əksini tapır. Çünki idxaldan asılılığı azaltmaq bizim üçün əsas məsələlərdən biridir. Bu günə qədər biz şprisi xaricdən alırdıq, daha buna ehtiyac qalmayacaq, əksinə, verilən məlumata görə, artıq xaricdən sifarişlər də alınır. Beləliklə, həm daxili tələbat tam ödəniləcək, həm də biz öz yeni məhsulumuzu xaricə ixrac etmiş olacağıq. Bu, sənayemizin inkişafına verilən töhfədir. Ölkəmizdə sənaye istehsalı artır. Görülən işlər nəticəsində bu ilin 4 ayında qeyri-neft sektorunda 15 faizdən çox artım olub. Həm sənaye potensialımızı gücləndirən böyük müəssisələr fəaliyyətə başlayır, həm də kiçik və orta müəssisələr işə düşür. Ölkəmizdə çox gözəl biznes mühiti, sərmayə iqlimi vardır. Belə olmasaydı, xarici və yerli şirkətlər vəsait qoymazdılar. Beləliklə, biz biznes mühitinin yaxşılaşması nəticəsində yeni reallıqları görürük və əminəm ki, dinamik inkişafımız bundan sonra da təmin ediləcəkdir.

İqtisadi və sosial sahədə aparılan islahatlar nəticə verir. Biz Dünya Bankının biznes mühitinə dair hesabatına görə, bu gün dünyada 25-ci yerdəyik. Mən

bunu dəfələrlə qeyd edirəm ki, ictimaiyyət bilsin nə qədər böyük islahatlar aparılıb və aparılacaq. Bu, imkan verir ki, biz sosial sahəni də gücləndirək, işsizliyi aradan qaldıraq, yerli istehsalı artıraq və beləliklə, vətəndaşların sosial təminatını gücləndirək. Bu il atılmış addımlar, imzalanmış sərəncamlar, qəbul edilmiş qərarlar bizim siyasətimizi əks etdirir. Biz sosial yönümlü siyasət aparırıq və bu siyasət öz nəticəsini verir.

Əlbəttə, gələcəkdə hələ çox işlər görüləcək. Regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı artıq icra edilməyə başlanıbdır. Əminəm ki, bu il nəzərdə tutulan bütün vəzifələr icra ediləcək. Dinamik inkişafa nail olmaq üçün qeyri-neft sektorunun xüsusi rolu vardır. Biz bu məsələ ilə çox ciddi məşğuluq və nəticələr də göz qabağındadır. Biz bir neçə il bundan əvvəl bu zavodun yaradılmasını bəlkə də təsəvvür edə bilməzdik, xüsusilə Pirallahı rayonunda. Burada, ümumiyyətlə, qeyri-neft sektoru ilə bağlı işlər, demək olar ki, yavaş gedirdi. Ancaq bu gün bu zavod reallıqdır. Bu, Pirallahı Sənaye Parkında birinci zavoddur. Çünki burada bir neçə müəssisə yaradılacaq. Hazırda tikilməkdə olan böyük Dərman Preparatları zavodunun fəaliyyətə başlaması nəticəsində daha çox iş yerləri açılacaq və biz dərman preparatlarının idxalından asılılığı müəyyən dərəcədə aradan götürəcəyik. Digər zavodların fəaliyyətə başlaması nəzərdə tutulur. O cümlədən sosial məsələlər öz həllini tapır. Məcburi köçkünlər üçün yeni evlər tikilir və burada 300 köçkün ailəsi evlə təmin olunacaq, məktəb

tikilir. Yəni bu gün bu zavodun timsalında görülmüş işlərin və siyasətimizin uğurlu nəticələrini görürük, bu da bizi gələcəkdə yeni addımların atılmasına sövq etməlidir. Biz düzgün yolla inkişaf edirik və dinamik inkişaf bundan sonra da mütləq gedəcəkdir.

İslahatlarla bağlı bizim siyasətimiz bu gün burada bir daha özünü göstərir. Əminəm ki, növbəti dövrdə həm sənaye, həm kənd təsərrüfatı, həm də infrastruktur sahələrində daha geniş miqyasda əlavə nəticələr olacaqdır.

Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm, zavodun əməkdaşlarına uğurlar arzulayıram.

Sağ olun.

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB REUVEN RİVLİNƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə İsrail arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq, bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsrail xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 may 2019-cu il*

**ŞİMALİ MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STEVO PENDAROVSKİYƏ**

Hörmətli cənab Prezident!

Şimali Makedoniya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Şimali Makedoniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 may 2019-cu il*

**NORVEÇ KRALI**
**ƏLAHƏZRƏT V HARALDA**

Əlahəzrət!

Norveç Krallığının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik etməkdən məmnunluq duyuram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Norveç xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 may 2019-cu il*

# QEYDLƏR

**1. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i - k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 7.

**2. Rumen Radev** (d.1963) – Bolqarıstanın hərbi və siyasi xadimi, general-mayor. Bolqarıstanın Hava Qüvvələrinin komandanı, 2017-ci ildən Bolqarıstan Respublikasının Prezidentidir. – 7.

**3. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 8, 97–98.

**4. Həsən Ruhani** (d.1948) –İranın siyasi və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 8, 97, 98.

**5. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t t a h o ğ l u (d.1961) – general-polkovnik, 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 11, 12.

**6. Şahin Mustafayev,** Ş a h i n A b d u l l a o ğ l u (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri, 2016–2019-cu illərdə isə İqtisadiyyat naziri olmuşdur. 22 oktyabr 2019-cu ildən Azərbaycan Respublikası Baş Nazirinin müavinidir. – 13.

**7. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi.

Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 16.

**8. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bi-

lavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ

münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 16, 29, 37, 53, 60, 75, 76, 164, 236, 254, 255, 267, 270–299.

**9. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 20–28, 61, 133, 298.

**10. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, erməni işğalçıları hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayırlar. – 22, 37, 38, 39, 54, 61, 64, 132, 163, 214, 228, 279, 280, 282, 285, 300.

**11. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri vardır. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 22, 27, 164.

**12. Sebastian Kurts** (d.1986) – Avstriyanın siyasi və dövlət xadimi. 2013–2017-ci illərdə Avstriyanın Xarici İşlər naziri, 2017–2019-cu illərdə Avstriyanın Federal Kansleri olmuşdur. – 23–24.

**13. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 24, 216, 301–304.

**14. Aleksandr Van der Bellen** (d.1944) – Avstriyanın siyasi xadimi. 2017-ci ildən Avstriya Respublikasının Federal Prezidentidir. – 25–26.

**15. Rusiya,** Rusiya Federasiyası – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46

vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 27– 28, 29–30, 46–48, 73–77, 130–132, 133, 234–235, 313.

**16. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 28, 163, 215, 285, 300, 304.

**17. Helsinki Yekun Aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi olmuşdur. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzalamışlar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 28, 163, 215, 285.

**18. Çeçenistan,** Çeçenistan Respublikası **–** Rusiya Federasiyasında respublika. Sahəsi 15,6 min km$^2$, əhalisi 1,4 milyon nəfərdir. Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal

etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–64) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991–92-ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. Paytaxtı Qroznı şəhəridir. – 29–30.

**19. Ramzan Kadırov** (d.1976) – Rusiyanın dövlət və siyasi xadimi, 2007-ci ildən Çeçenistan Respublikasının başçısıdır. – 29–30.

**20. Zakir Həsənov,** Zakir Əsgər oğlu (d.1959) – general-polkovnik. 2003–2013-cü illərdə Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini – Daxili Qoşunların Komandanı olmuşdur. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı», «Rəşadət» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 31, 40.

**21. Nəcməddin Sadıkov,** Nəcməddin Hüseyn oğlu (d.1956) – general-polkovnik. Azərbaycan Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi, Müdafiə nazirinin birinci müavini. Azərbaycan Respublikasının «Azərbaycan bayrağı» və «Rəşadət» ordenləri ilə təltif edilmişdir. – 31.

**22. Aprel döyüşləri –** 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında işğal olunmuş bəzi ərazilərimizin azad olunması əməliyyatı. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş – Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi tərəfindəki yollar tamamilə erməni tapdağından azad edilmişdir. – 33, 35, 36, 63.

**23. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ağdərə rayonunun mərkəzi və bir çox kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 33, 35, 66.

**24. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 33, 35, 240.

**25. Füzuli rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 33, 35.

**26. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 1994-cü ilin əvvəlində Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cocuq Mərcanlı cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma kəndlərinə qayıtmışlar. – 36, 54, 61, 63, 64.

**27. Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda qəsəbə. Əhalisi 2877 nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Horadiz 6 ay sonra Azərbaycan Ordusu tərəfindən azad edilmişdir. – 37, 240.

**28. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 $km^2$, əhalisi 82,5 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif

dövlətlərin nüfuz dairəsində olub, məhz bu ildən Rusiya imperiyasına birləşdirilib və qəza mərkəzinə çevrilibdir. 1924-cü il fevralın 9-da isə Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 37, 78, 281, 283.

**29. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 43–45, 82, 137, 168.

**30. Cavid Qurbanov,** C a v i d Q ə n b ə r o ğ l u (d.1958) – mühəndis, texniki elmlər üzrə fəlsəfə doktoru. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Voleybol Federasiyasının prezidentidir.

Milli Məclisin İqtisadi Siyasət daimi Komitəsinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 43.

**31. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən

Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 47, 48, 77, 130–132, 134, 313.

**32. Rövşən Rzayev,** R ö v ş ə n Ş ü k ü r o ğ l u (d.1962) – 4-cü çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. 2018-ci ildən Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. – 49.

**33. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 50, 76, 88, 89, 228, 276, 278–299.

**34. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,

Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur.

Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 50, 59, 62, 63, 64, 68–70, 76, 85, 87, 90, 95, 107, 144, 226, 228, 236, 237, 238, 239, 242, 247, 251, 253, 258, 262, 266, 269, 274, 276, 278–299.

**35. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti  neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 53, 54, 286.

**36. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi  289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 36, 58, 59, 61, 282.

**37. UNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilat. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan Konfransdır. Katibliyi Parisdə yerləşir. Azərbaycan 1992-ci ildən UNESKO-nun üzvüdür. – 62, 209, 221–222.

**38. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 63, 205, 215.

**39. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 67, 127–128, 137,169, 183, 216, 286.

**40. Argentina,** Argentina Respublikası – Cənubi Amerikanın cənub-şərqində dövlət. Sahəsi 2,8 milyon km$^2$, əhalisi 43,4 milyon nəfərdir. Tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu Torpaq) və 1 federal (paytaxt) mahal daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos-Ayres şəhəridir. – 71–72, 150–151.

**41. Maurisio Makri** (d.1959) – Argentinanın dövlət və siyasi xadimi. 2015-ci ildən Argentina Respublikasının Prezidentidir. – 71, 72, 150, 151.

**42. Valentina Matviyenko** (d.1949) – Rusiyanın dövlət xadimi. 2003–2011-ci illərdə Sankt-Peterburq

şəhərinin meri, 2011-ci ildən Rusiya Federasiyası Federal Şurasının, 2013-cü ildən isə MDB Parlamentlərarası Assambleya Şurasının Sədridir. – 73–77.

**43. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon $km^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 80–84, 116–141.

**44. «Sinxua» xəbər agentliyi** – Çin Xalq Respublikası Hökumətinin rəsmi xəbər agentliyi. Dünyaya 7 dildə (çin, ingilis, fransız, rus, ispan, ərəb, yapon) yayımlanır. Agentlik 1931-ci ildə yaradılmışdır. – 80–84.

**45. Eldar Əzizov,** E l d a r Ə z i z o ğ l u (d.1957) – tarixçi. 2000–2003-cü illərdə Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin, 2003–2011-ci illərdə Gəncə Şəhər İcra Hakimiyyəti, 2011–2015-ci illərdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı, 2015–2018-ci illərdə Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini, 2018-ci il noyabrın 15-dən isə Bakı Şəhər İcra Hakimiyyətinin başçısıdır. – 85.

**46. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 89, 276.

**47. Cavanşir Rəhimov,** C a v a n ş i r  İ z z ə t  o ğ l u (1973–1992) – Azərbaycan Respublikasının Milli Qəhrəmanı. Qarabağ müharibəsi şəhidi. – 90.

**48. Zəngilan** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 km$^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 91.

**49. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyası** (DİA) **–** 1999-cu ildə yaradılmışdır. Akademiyanın 3 fakültəsi (Kadrların ixtisasartırması və yenidən ixtisaslaşması, İnzibati idarəetmə, Siyasi idarəetmə), 2 kafedrası vardır. Rəhbər kadrların ixtisasartırması fakültəsi 1, Siyasi idarəetmə fakültəsi 4, İnzibati idarəetmə fakültəsi isə 5 ixtisas üzrə kadr hazırlayır. – 92.

**50. Şri-Lanka,** Şri-Lanka Sosialist Demokratik Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 65,6 min km$^2$, əhalisi 22 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Şri-Cayavardenepura-Kotte şəhəridir. – 99.

**51. Maytripala Sirisena** (d.1951) – Şri-Lankanın dövlət və siyasi xadimi. 2015-ci ildən Şri-Lanka Respublikasının Prezidentidir. – 99.

**52. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 41,8 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 100.

**53. Vladimir Zelenski** (d.1978) – Ukraynanın dövlət xadimi. 2019-cu ildən Ukraynanın Prezidentidir. – 100.

**54. Dünya İqtisadi Forumu,** Davos İqtisadi Forumu **–** İsveçrənin kurort şəhəri Davosda keçirilən forum. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu forumda iştirak etmişdir. – 100, 129, 162.

**55. Mir Mövsüm Ağa,** Seyidəli Mir Abutalıb oğlu Mirmövsümzadə (Ətağa) (1883–

1950) – Azərbaycanda kəramət və möcüzə sahibi kimi tanınan şəxs. – 106.

**56. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon $km^2$, əhalisi 55 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir (Senat və Milli Məclis). – 113.

**57. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min $km^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 114, 256.

**58. Villem-Aleksandr** (d.1967) – 2013-cü ildən Niderland Krallığının Kralı. – 114.

**59. Syerra-Leone,** Syerra-Leone Respublikası – Qərbi Afrikada dövlət. Sahəsi 72 min $km^2$, əhalisi 5,4 milyon nəfərdir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Fritaun şəhəridir. – 115.

**60. Culius Maadu Bio** (d.1964) – Syerra-Leonenin siyasi xadimi. 2018-ci ildən Syerra-Leone Respublikasının Prezidentidir. – 115.

**61. ZTE –** Çin şirkəti. Dünyada telekommunikasiya avadanlıqlarının ən böyük təchizatçılarından biri. 1985-ci ildə yaradılmışdır. – 117.

**62. CETC –** radioelektronika sahəsində ixtisaslaşmış Çin şirkəti. 2002-ci ildə yaradılmışdır. – 118.

**63. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 119–122, 141.

**64. İpək yolu**, böyük İpək yolu – beynəlxalq tarixi tranzit ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin

və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 121, 136.

**65. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum Prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 120, 283.

**66. «Huavei»** – informasiya-kommunikasiya texnologiyaları sahəsində dünyanın aparıcı şirkətlərindən biri. 1987-ci ildə yaradılmışdır. – 125–126.

**67. Xorvatiya,** Xorvatiya Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı

ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 148, 149.

**68. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 152–153, 216.

**69. Donald Tramp** (d.1946) – ABŞ-ın siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü. 2017-ci ildən ABŞ-ın 45-ci Prezidentidir. – 153.

**70. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 153, 163, 168.

**71. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 153.

**72.** «**OPEC+**» (Neft ixrac edən ölkələr təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Əlcəzair, Nigeriya, Ek-

vador, Qabon, Ekvatorial Qvineya, BƏƏ, Liviya, Anqola, İraq və Konqo daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 162, 163.

**73. İnam Kərimov,** İ n a m İ m d a d o ğ l u (d.1977) – 2012–2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri olmuşdur. 2018-ci ildən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 171–176, 303.

**74. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT)–1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 203–204, 208, 213, 223–226, 285.

**75. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələri mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üz-

vüdür. Qərargahı Strasburqda yerləşir. – 207–208, 215, 226–228.

**76. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 209, 228–230.

**77. Qafqaz Albaniyası kilsəsi** – Şəki rayonunun Kiş kəndi ərazisində yerləşir. Kiş məbədinin tikilməsi haqqında tədqiqatçıların bir-birinə zidd fikirləri mövcuddur. 2000–2001-ci illərdə aparılmış arxeoloji qazıntılarda iştirak etmiş norveçli arxeoloq, professor Bemar məbədin XI–XII əsrlərdə tikildiyini iddia edir. Kişdə arxeoloji tədqiqatlardan sonra belə qərara gəlinmişdir ki, Şəki bölgəsinin Kiş kəndi ərazisində yerləşən məbəd həqiqətən də Müqəddəs Yelisey tərəfindən tikilmiş, Şərq kilsələrinin anası və metropoliya olmuş, Kişdə hələ xristianlıqdan öncə Qafqaz Albaniyasında Gis-Kürmük arxiyepiskopluğu, sonra isə Yelisey, Çiketi və Şəki yepiskopluğunun mərkəzi yerləşmişdir. – 211.

**78. Braziliya,** B r a z i l i y a F e d e r a t i v R e s- p u b l i k a s ı – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon km$^2$, əhalisi 212,8 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və 1 federal dairəyə bölünür. Dövlətin və hökumətin başçısı Prezident, qanunverici

orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Brazilia şəhəridir. – 232–233.

**79. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 240.

**80. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 240, 281.

**81. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 253–257.

**82. Həzi Aslanov,** H ə z i Ə h ə d o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. İkinci dünya müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H. Aslanov Stalinqrad vuruşmasında, feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə H.Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H. Aslanov 1945-ci il yanvar ayının 24-də Latviyanın Liepaya şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 256–257.

**83. Məmməd Məmmədov**, Məmməd Xəlil oğlu (1923–2003) – İkinci dünya müharibəsinin iştirakçısı, partizan, Hollandiya (Niderland) Müqavimət hərəkatının nümayəndələrindən biri. «Cəngavər» titulu almış qəhrəman. Bu ölkənin kral ailəsinin fəxri üzvü, Ostervek şəhərinin ilk Fəxri vətəndaşı olmuşdur. – 256.

**84. Novruz Məmmədov,** Novruz İsmayıl oğlu (d.1947) – Azərbaycanın siyasi və dövlət xadimi, filoloq. 1997–2017-ci illərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasında Xarici Əlaqələr üzrə şöbə müdiri, 2017–2018-ci illərdə Azərbaycan Prezidentinin Xarici Siyasət Məsələləri üzrə köməkçisi – şöbə müdiri, 2018–2019-cu illərdə Azərbaycan Respublikasının Baş Naziri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 257, 273.

**85. Oqtay Əsədov,** Oqtay Sabir oğlu (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 257, 273.

**86. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor, Azərbaycan

Milli Elmlər Akademiyasının prezidenti. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının şöbə müdiri, 1995–2019-cu ilin oktyabrına qədər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. «Heydər Əliyev», «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 257, 273.

**87. Sahil Babayev,** S a h i l R a f i q o ğ l u (d.1980) – hüquq elmləri üzrə fəlsəfə doktoru, 1999–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici Sərmayələr İdarəsinin baş mütəxəssisi vəzifəsində çalışıb. 2009-cu ildən İqtisadi İnkişaf Nazirliyinin Xarici İnvestisiyalar və Yardımların Əlaqələndirilməsi şöbəsinin müdiri olmuş, Azərbaycan Respublikası Prezidentinin 13 mart 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat

və Sənaye nazirinin müavini, 30 yanvar 2016-cı il tarixli Sərəncamı ilə Azərbay- can Respublikasının İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin edilib. 2018-ci ildən isə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir. Yeni Azərbaycan Partiyasının üzvüdür. – 258.

**88. Arif Məlikov,** Arif Cahangir oğlu (1933–2019) – bəstəkar. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti ona xüsusi şöhrət qazandırmışdır. Bu balet dünya ölkələrinin bir çox teatrlarında tamaşaya qoyulmuşdur. «Heydər Əliyev» ,«Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 266–269.

**89. Əbülfəs Qarayev,** Əbülfəs Mürsəl oğlu (d.1956) – fəlsəfə doktoru. 1994–2006-cı illərdə Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006–2018-ci illərdə Mədəniyyət və Turizm naziri, 2018-ci ildən isə Mədəniyyət naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmiş, mədəniyyət və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir . – 266.

**90. Qara Qarayev,** Qara Əbülfəs oğlu (1918–1982) – dahi Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Le-

nin mükafatları laureatı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır.– 266, 267, 269.

**91. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 267.

**92. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 267.

**93. Fərhad Bədəlbəyli,** F ə r h a d Ş ə m s i o ğ- l u (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 1991-ci ildən rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan və SSRİ Xalq artisti. Beynəlxalq müsabiqələr laureatı. Azərbaycan piano məktəbini ləyaqətlə təmsil edən çoxlu sayda pianoçu yetişdirmiş istedadlı pedaqoq, Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 268.

**94. İsa Həbibbəyli,** İ s a Ə k b ə r o ğ l u (d.1949) – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, filologiya elmləri doktoru, AMEA-nın Ədəbiyyat İnstitutunun direktoru, professor, Əməkdar elm xadimi. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Milli Məclisin Elm və Təhsil Məsələləri daimi Komitəsinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 268.

**95. Fikrət Əmirov,** F i k r ə t M ə ş ə d i C ə m i l o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. Simfonik muğam janrının yaradıcısı, instrumental konsert janrında əsərlər yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarlarında səslənmişdir. – 269.

**96. Zemfira Qafarova,** Z e m f i r a H ə s ə n q ı-z ı (d.1942) – müsiqişünas, pedaqoq, Bakı Musiqi Akademiyasının professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru. Azərbaycan Bəstəkarlar İttifaqının katibi. Əməkdar incəsənət xadimi. – 269.

**97. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, Prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 273.

**98. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ- l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor. 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 273.

**99. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 282.

**100. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 282.

**101. «Əsrin müqaviləsi» –** 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanılmış müqavilə. – 284, 294.

**102. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Ba-

kı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan kəmər 2006-cı ildə istifadəyə verilmişdir. – 287.

**103. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 290.

**104. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Manilada yerləşir. Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. – 290.

**105. Xoşbəxt Yusifzadə,** X o ş b ə x t B a ğ ı o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2016-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2016-cı ildən isə Birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şərəf», «Şöhrət», «İstiqlal» ordenləri və «Heydər Əliyev mükafatı» ilə təltif edilmişdir. – 293–296.

**106. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,4

milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı Kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 300–306.

**107. Filipp** (d.1960) – 2013-cü ildən Belçika Kralı. Kral II Albertin böyük oğlu. – 300.

**108. Donald Tusk** (d.1957) – Polşa və Avropanın siyasi xadimi. 2007–2014-cü illərdə Polşa Respublikasının Baş Naziri olmuşdur. 2014-cü ildən Avropa İttifaqı Şurasının Prezidentidir. – 301–302.

## Şəxsi adlar göstəricisi

**Abbasov İlqar** – 87
**Amreyev Bağdad** – 78–79
**Aslanov Həzi** – 256, 257
**Babayev Muxtar** – 274
**Babayev Sahil** – 258
**Battaini-Draqoni Qabriella** – 207–208, 226–228
**Bayramova Sübhanə** – 86
**Belozyorov Oleq** – 234–235
**Bədəlbəyli Fərhad** – 268
**Buriç Mariya** – 148
**Biya Pol** – 315
**Cao Huy** – 127–128
**Çaputova Zuzana** – 42
**Dadaşov Elçin** – 59–61

**Delimxanov Adam** – 29–30
**Əl-Nasif Nada** – 203, 221–223
**Əl-Oseymin Yusif** – 223–226
**Əl-Tüveycri Əbdüləziz** – 228–230
**Əliyev Heydər** – 16, 29, 37, 53, 60, 75, 76, 164, 236, 254, 255, 267, 270–299
**Əliyev Əziz** – 273
**Əliyev Tamerlan** – 273
**Əliyev Zaur** – 177–182
**Əliyeva Leyla** – 89, 276
**Əliyeva Mehriban** – 50, 59, 62, 63, 64, 68–70, 76, 85, 87, 90, 95, 107, 144, 226, 228, 236, 237, 238, 239, 242, 247, 251, 253, 258, 262, 266, 269, 274, 276, 278–299
**Əliyeva Zərifə xanım** – 273
**Əmirov Fikrət** – 269
**Əmirov Natiq** – 164–171
**Əsədov Oqtay** – 257, 273
**Əzizov Eldar** – 85
**Fətəliyeva Vüsalə** – 61–63
**Filipp** *(Belçika Kralı)* – 300
**Hacıbəyli Üzeyir** – 267
**Hanhuy Can** – 116
**V Harald** *(Norveç Kralı)* – 326
**Heydərov Kəmaləddin** – 11,12
**Həbibbəyli İsa** – 268
**Həsənov Rauf** – 66, 68–70

**Həsənov Zakir** – 31, 40
**Həsənova Zemfira** – 86
**Hüseynov Zaur** – 5
**Hüseynova Günəş** – 58
**İbrahimov Fuad** –297–298
**İmran xan** – 134
**Kadırov Əhməd** – 30
**Kadırov Ramzan** – 29–30
**Kent Corc** – 152–153
**Kərimov İnam** – 171–176, 309
**Kurts Sebastian** – 23–24
**Quliyev Mirzəağa** – 93
**Quliyeva Saray** – 91
**Qafarova Zemfira** – 269
**Qaralov Zakir** – 12, 13
**Qarayev Əbülfəs** – 266
**Qarayev Qara** – 266, 267, 269
**Qasımov Arif** – 14
**Qunella Osvaldo** – 71–72
**Qurbanov Cavid** – 43
**Quterreş Antonio** – 134
**Li Cisue** – 117
**Lian Xua** – 125–126
**Lyaşenko İqor** – 307–308
**Makri Maurisio** – 71–72, 150, 151
**Malpass Devid** – 67
**Mansurov Altay** – 102–103
**Manturov Denis** – 46–48
**Matviyenko Valentina** – 73–77
**Maya Rodriqo** – 232–233

**Mahathir Məhəmməd** – 134
**Mehdiyev Ramiz** – 257, 273
**Məlikov Arif** – 266–269
**Məmmədov Adil** – 236
**Məmmədov Məmməd** – 256
**Məmmədov Saleh** – 111
**Məmmədova Zərifə** – 298–299
**Məmmədov Novruz** – 257, 273
**Mir Mövsüm Ağa** – 106
**Mirzəyev Hikmət** – 31
**Monzo Emilio** – 150
**Moratinos Migel** – 205–206, 219–221
**Muradov Vidadi** – 240
**Mustafayev Şahin** – 13
**Naruhito** *(Yaponiya imperatoru)* – 314
**Nazarbayev Nursultan** – 134
**Nazim Hikmət** – 266
**Novoa Rodolfo** – 199–200
**Növrəsli Nurlan** – 145
**Ocaqova Nigar** – 66, 68–70
**Pendarovski Stevo** – 325
**Plenkoviç Andrey** – 148, 149
**Polad Bülbüloğlu** – 299
**Putin Vladimir** – 47, 48, 75, 130–132, 134, 313
**Radev Rumen** – 7
**Rəhimov Cavanşir** – 90
**Rəhimova Lalə** – 90
**Rəhmani Reza** – 97–98
**Rivlin Reuven** – 324

**Rzayev Rövşən** – 49
**Ruhani Həsən** – 8, 97, 98
**Sadıkov Nəcməddin** – 31
**Səlimov Təvəkkül** – 106–107
**Sirisena Maytripala** – 99
**Si Cinpin** – 119–122, 141
**Sisi Əbdülfəttah** – 134
**Straxan Edvard** – 309
**Ştraxe Haynts-Kristian** – 20
**Şirəliyev Oqtay** – 236
**Tramp Donald** – 153
**Tusk Donald** – 301–304
**Usubov Ramil** – 13
**Van der Bellen Aleksandr** – 25–26
**Vəliyev Azad** – 144
**Vəliyeva Bəyimxanım** – 145
**Villem-Aleksandr** *(Niderland Kralı)* – 114
**Vondraçek Radek** – 316–317
**Vu Mançin** – 118
**Yusifzadə Xoşbəxt** – 293–296
**Zelenski Vladimir** – 100

## Coğrafi adlar göstəricisi

**Ağdam** – 240
**Ağdaş** – 179, 239
**Ağdərə** – 33, 35, 66
**Ağsu** – 10, 191, 239
**Axalkalaki** – 43
**Almaniya** – 254
**Amerika Birləşmiş Ştatları**– 152–153, 216
**Argentina** – 71–72, 150–151
**Aralıq dənizi** – 216
**Asiya** – 44, 82
**Avrasiya** – 44, 119, 152
**Avropa** – 44, 82, 152
**Avstriya** – 20–28, 61, 133, 298
**Belçika** – 300–306
**Belarus** – 133, 302–308, 310
**Berlin** – 253, 254
**Birləşmiş Ərəb Əmirlikləri**– 133
**Bolqarıstan** – 7
**Böyük Britaniya** – 210
**Braziliya** – 232–233
**Brüssel** – 300–306
**Buzovna** – 111
**Cəbrayıl** – 33, 35, 240
**Cənubi Afrika Respublikası**– 113
**Cənubi Qafqaz** – 81

**Cocuq Mərcanlı** – 36, 54, 61, 63, 64
**Çexiya** – 133, 316–317
**Çexoslovakiya** – 253
**Çeçenistan** – 29–30
**Çin** – 80–84, 116–141
**Dağlıq Qarabağ** – 22, 37, 38, 39, 54, 61, 64, 132, 163, 214, 228, 279, 280, 282, 285, 300
**Əfqanıstan** – 153
**Füzuli** – 33, 35
**Göyçay** – 239
**Güneytəpə** – 66
**Günnüt** – 34
**Gürcüstan** – 43, 44
**Hacıqabul** – 239
**Horadiz** – 37, 240
**Xaçmaz** – 240
**Xocalı** – 89
**Xorvatiya** – 148–149
**İran** – 8, 97–98
**İsmayıllı** – 10, 191, 239
**İsveçrə** – 44
**İsrail** – 324
**İtaliya** – 133
**Kamerun** – 315
**Kəlbəcər** – 282
**Kiyev** – 253
**Kürdəxanı** – 49-65, 240
**Qafqaz** – 253
**Qala** – 111

**Qara dəniz** – 216
**Qaraçuxur** – 85–96
**Qazaxıstan** – 133
**Qax** – 92
**Qazax** – 240
**Qəbələ** – 239, 240
**Qobustan** – 236–252
**Quba** – 111
**Laçın** – 282
**Latın Amerikası** – 210
**Leninqrad** – 253
**Lənkəran** *(Sankt-Peterburq)*– 240
**Luco** – 81
**Macarıstan** – 133
**Masazır** – 50
**Mehdiabad** – 50
**Mərdəkan** – 111
**Mingəçevir** – 179
**Moskva** – 253
**Naxçıvan** – 37, 78, 282, 283
**Naxçıvan Muxtar Respublikası**– 240, 281
**Niderland** – 114, 256
**Norveç** – 326
**Odessa** – 253
**Oğuz** – 239
**Oysterveyk** – 257
**Pakistan** – 133
**Pekin** – 116–141
**Pirallahı** – 318–323

**Polşa** – 253
**Rusiya** – 27–28, 29–30, 46–48, 73–77, 130–132, 133, 234–235, 313
**Salyan** – 239
**Serbiya** – 133
**Səudiyyə Ərəbistanı** – 210
**Simferopol** – 253
**Sinqapur** – 133
**Slovakiya** – 42
**Stalinqrad** – 253
**Suraxanı** – 85
**Sumqayıt** – 111
**Syerra-Leone** – 115
**Şabran** – 240
**Şamaxı** – 10, 111, 191, 211, 239
**Şanxay** – 81
**Şəki** – 211
**Şərur** – 34, 58
**Şimali Makedoniya** – 325
**Şri-Lanka** – 99
**Şuşa** – 36, 58, 59, 61, 282
**Şüvəlan** – 111
**Tərtər** – 240
**Türkan** – 111
**Türkiyə** – 43, 44
**Ukrayna** – 100
**Uruqvay Şərq Respublikası** – 199–200
**Urumçi** – 81
**Vyana** – 20–28, 298

**Yaponiya** – 314
**Yevlax** – 179
**Yuqoslaviya** – 253
**Yunanıstan** – 133
**Zəngilan** – 91
**Zirə** – 111

# MÜNDƏRİCAT

BAKI METROPOLİTENİNİN ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULAN «BAKMİL» STANSİYASINDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*26 mart 2019-cu il ................................................ 5*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RUMEN RADEVƏ

*27 mart 2019-cu il ................................................ 7*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*27 mart 2019-cu il ................................................ 8*

BAKININ NİZAMİ RAYONUNDA TİCARƏT MƏRKƏZİNDƏ BAŞ VERMİŞ YANĞINLA ƏLAQƏDAR

KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ
İŞTİRAK

*28 mart 2019-cu il* ................................................ *9*

AZƏRBAYCAN
RESPUBLİKASI DÖVLƏT
TƏHLÜKƏSİZLİYİ VƏ XARİCİ
KƏŞFİYYAT
XİDMƏTLƏRİNİN ŞƏXSİ
HEYƏTİNƏ

*28 mart 2019-cu il* ................................................ *16*

AVSTRİYA RESPUBLİKASINA
İŞGÜZAR SƏFƏR

*28 mart 2019-cu il* ................................................ *19*

AVSTRİYA RESPUBLİKASININ
VİTSE-KANSLERİ HAYNTS-
KRİSTİAN ŞTRAXE
İLƏ GÖRÜŞ

*28 mart 2019-cu il* ................................................ *20*

ERMƏNİSTAN RESPUBLİKASININ
BAŞ NAZİRİ VƏ MİNSK

QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*29 mart 2019-cu il* .............................................. 22

AVSTRİYA RESPUBLİKASININ FEDERAL KANSLERİ SEBASTİAN KURTS İLƏ GÖRÜŞ

*29 mart 2019-cu il* .............................................. 23

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ALEKSANDR VAN DER BELLEN İLƏ GÖRÜŞ

*29 mart 2019-cu il*.........................................................25

RUSİYANIN TASS İNFORMASİYA AGENTLİYİNƏ MÜSAHİBƏ

*29 mart 2019-cu il*.........................................................27

RUSİYA FEDERASİYASI ÇEÇENİSTAN RESPUBLİKASI BAŞÇISININ MÜŞAVİRİ ADAM DELİMXANOV İLƏ GÖRÜŞ

*1 aprel 2019-cu il*...........................................................29

MÜDAFİƏ NAZİRLİYİNİN XÜSUSİ TƏYİNATLI QÜVVƏLƏRİNİN «N» SAYLI HƏRBİ HİSSƏSİNDƏ

*2 aprel 2019-cu il*.......................................................... *31*

SLOVAKİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM ZUZANA ÇAPUTOVAYA

*3 aprel 2019-cu il*.......................................................... *42*

BAKI–TBİLİSİ–QARS DƏMİR YOLU XƏTTİNDƏ HƏRƏKƏT EDƏCƏK SƏRNİŞİN QATARINA BAXIŞ

*3 aprel 2019-cu il*.......................................................... *43*

RUSİYA FEDERASİYASININ SƏNAYE VƏ TİCARƏT NAZİRİ DENİS MANTUROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 aprel 2019-cu il*.......................................................... *46*

KÜRDƏXANI QƏSƏBƏSİNDƏ MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİ ÜÇÜN SALINMIŞ YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK

*5 aprel 2019-cu il*.......................................................... *49*

10 MİLYONUNCU SAKİNİN DÜNYAYA GƏLMƏSİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*6 aprel 2019-cu il*............................................................66

DÜNYA BANKININ PREZİDENTİ CƏNAB DEVİD MALPASSA

*8 aprel 2019-cu il*............................................................67

AZƏRBAYCANIN 10 MİLYONUNCU SAKİNİNİN VALİDEYNLƏRİ İLƏ GÖRÜŞ

*9 aprel 2019-cu il*............................................................68

ARGENTİNANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SERXİO OSVALDO PEREZ QUNELLA İLƏ GÖRÜŞ

*10 aprel 2019-cu il*..........................................................71

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ VALENTİNA MATVİYENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 aprel 2019-cu il*..........................................................73

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ BAĞDAD AMREYEV İLƏ GÖRÜŞ

*16 aprel 2019-cu il*........................................................*78*
ÇİNİN SİNXUA AGENTLİYİNƏ
MÜSAHİBƏ

*17 aprel 2019-cu il*........................................................*80*

QARAÇUXUR QƏSƏBƏSİNDƏ NEFTÇİLƏR
PARKINDA YARADILMIŞ ŞƏRAİTLƏ
TANIŞLIQ

*18 aprel 2019-cu il*........................................................*85*

İRAN İSLAM RESPUBLİKASININ
SƏNAYE, MƏDƏN VƏ TİCARƏT NAZİRİ
REZA RƏHMANİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 aprel 2019-cu il*........................................................*97*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST
RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB MAYTRİPALA
SİRİSENAYA

*22 aprel 2019-cu il*........................................................*99*

UKRAYNA RESPUBLİKASININ YENİ
SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR ZELENSKİYƏ

*22 aprel 2019-cu il*......................................................*100*

MƏRDƏKAN–QALA AVTOMOBİL
YOLUNUN AÇILIŞI MƏRASİMİ

*23 aprel 2019-cu il........................................................101*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
MATAMELA SİRİL RAMAFOSAYA

*24 aprel 2019-cu il........................................................113*

NİDERLAND KRALI ƏLAHƏZRƏT
VİLLEM-ALEKSANDRA

*24 aprel 2019-cu il........................................................114*

SYERRA-LEONE RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
CULİUS MAADA BİOYA

*24 aprel 2019-cu il........................................................115*

ÇİN XALQ RESPUBLİKASINA İŞGÜZAR
SƏFƏR

*24 aprel 2019-cu il........................................................116*

ZTE KORPORASİYASININ SƏDRİ
Lİ CİSUE İLƏ GÖRÜŞ

*24 aprel 2019-cu il........................................................117*

CETC KORPORASİYASININ BAŞ DİREK-
TORU VU MANÇİN İLƏ GÖRÜŞ

*24 aprel 2019-cu il ........................................................ 118*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
Sİ CİNPİN İLƏ GÖRÜŞ

*24 aprel 2019-cu il ........................................................ 119*

ÇİN KOMMUNİST PARTİYASI MƏRKƏZİ
KOMİTƏSİ SİYASİ BÜROSUNUN ÜZVÜ
VAN YAN İLƏ GÖRÜŞ

*24 aprel 2019-cu il ........................................................ 123*

«HUAVEİ» ŞİRKƏTİNİN SƏDRİ LİAN
XUA İLƏ GÖRÜŞ

*25 aprel 2019-cu il ........................................................ 125*

«CHİNA NATİONAL ELECTRİC
ENGİNEERİNG» ŞİRKƏTİNİN PREZİDENTİ
CAO HUY İLƏ GÖRÜŞ

*25 aprel 2019-cu il ........................................................ 127*

«CHİNA POLY GROUP»
KORPORASİYASININ SƏDRİ SU NİANŞA
İLƏ GÖRÜŞ

*25 aprel 2019-cu il* ........................................... *129*

RUSİYA FEDERASİYASININ
PREZİDENTİ VLADİMİR PUTİN
İLƏ GÖRÜŞ

*26 aprel 2019-cu il* ........................................ *130*

«BİR KƏMƏR – BİR YOL»
II BEYNƏLXALQ ƏMƏKDAŞLIQ
FORUMUNDA İŞTİRAK

*26 aprel 2019-cu il* ............................................ *133*

«BİR KƏMƏR – BİR YOL» II
BEYNƏLXALQ ƏMƏKDAŞLIQ
FORUMUNDA İŞTİRAK EDƏN DÖVLƏT
VƏ HÖKUMƏT BAŞÇILARININ
ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ
İŞTİRAK

*26 aprel 2019-cu il* ............................................ *141*

AZƏRBAYCANIN PRAVOSLAV
XRİSTİAN İCMASINA

*26 aprel 2019-cu il*............................................... *142*

«FORMULA-1» ÜZRƏ DÜNYA ÇEMPİONATININ DÖRDÜNCÜ MƏRHƏLƏSİNİN SOCAR AZƏRBAYCAN QRAN-PRİSİNİN YARIŞINA BAXIŞ

*28 aprel 2019-cu il ............................................ 144*

XORVATİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ MARİYA BURİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 aprel 2019-cu il ............................................ 148*

ARGENTİNA RESPUBLİKASI MİLLİ KONQRESİNİN DEPUTATLAR PALATASININ SƏDRİ EMİLİO MONZO İLƏ GÖRÜŞ

*29 aprel 2019-cu il ............................................ 150*

ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİNİN MÜAVİNİ CORC KENT İLƏ GÖRÜŞ

*30 aprel 2019-cu il ............................................ 152*

NAZİRLƏR KABİNETİNİN İLİN BİRİNCİ RÜBÜNÜN YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*30 aprel 2019-cu il ............................................ 154*

YEKUN NİTQİ

*30 aprel 2019-cu il ............................................ 182*

URUQVAY ŞƏRQ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ RODOLFO NİN NOVOA İLƏ GÖRÜŞ

*1 may 2019-cu il ................................................ 199*

ÜMUMDÜNYA VƏ AVRASİYA YƏHUDİ KONQRESLƏRİ VƏ AVROPA YƏHUDİLƏRİNİN BAKI DİNİ İCMASININ RƏHBƏR-LƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 may 2019-cu il ................................................ 201*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ YUSİF BİN ƏHMƏD ƏL-OSAYMİN İLƏ GÖRÜŞ

*2 may 2019-cu il ............................................... 203*

BMT SİVİLİZASİYALAR ALYANSININ ALİ NÜMAYƏNDƏSİ MİGEL ANXEL MORATİNOS İLƏ GÖRÜŞ

*2 may 2019-cu il ............................................... 205*

AVROPA ŞURASI BAŞ KATİBİNİN MÜAVİNİ QABRİELLA BATTAİNİ-DRAQONİ İLƏ GÖRÜŞ

*2 may 2019-cu il ............................................... 207*

V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN AÇILIŞINDA İŞTİRAK

*2 may 2019-cu il.........................................................209*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASI MİLLİ KONQRESİNİN DEPUTATLAR

PALATASININ SƏDRİ RODRİQO
MAYANIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 may 2019-cu il..........................................................232*

«RUSİYA DƏMİR YOLLARI» ASC-nin
BAŞ DİREKTORU VƏ İDARƏ HEYƏTİNİN
SƏDRİ OLEQ BELOZYOROV İLƏ GÖRÜŞ

*6 may 2019-cu il..........................................................234*

QOBUSTAN RAYONUNA SƏFƏR

*7 may 2019-cu il..........................................................236*

9 MAY – QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ
BAKIDA KEÇİRİLMİŞ MƏRASİMDƏ İŞTİRAK

*9 may 2019-cu il..........................................................253*

DAYANIQLI VƏ OPERATİV SOSİAL
TƏMİNAT AGENTLİYİNİN VƏ İLK DOST
MƏRKƏZİNİN İNZİBATİ BİNASININ
AÇILIŞI MƏRASİMİ

*9 may 2019-cu il..........................................................258*

GÖRKƏMLİ BƏSTƏKAR ARİF MƏLİKOV
İLƏ VİDA MƏRASİMİNDƏ İŞTİRAK

*9 may 2019-cu il..........................................................266*

FƏXRİ XİYABANDA ULU ÖNDƏR
HEYDƏR ƏLİYEVİN MƏZARINI
ZİYARƏT

*10 may 2019-cu il..........................................................270*

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN
DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ
AĞAC ƏKMƏ AKSİYASINDA İŞTİRAK

*10 may 2019-cu il..........................................................274*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN
ANADAN OLMASININ 96-cı İLDÖNÜMÜNƏ
VƏ HEYDƏR ƏLİYEV FONDUNUN YARA-
DILMASININ 15 İLLİYİNƏ HƏSR OLUNMUŞ
TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*10 may 2019-cu il..........................................................278*
BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏR

*13 may 2019-cu il..........................................................300*

AVROPA İTTİFAQI ŞURASININ
PREZİDENTİ DONALD TUSK İLƏ GÖRÜŞ

*13 may 2019-cu il..........................................................301*

«ŞƏRQ TƏRƏFDAŞLIĞI» ÖLKƏLƏRİ
DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ

ŞƏRƏFİNƏ VERİLMİŞ ŞAM YEMƏYİNDƏ İŞTİRAK

*13 may 2019-cu il..........................................................303*

AZƏRBAYCAN RESPUBLİKASININ BELÇİKADAKI SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞINDA İŞTİRAK

*14 may 2019-cu il..........................................................305*

BELARUS RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ İQOR LYAŞENKONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 may 2019-cu il..........................................................307*

XXV AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ XIII AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*15 may 2019-cu il..........................................................309*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*16 may 2019-cu il..........................................................313*

YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT NARUHİTOYA

*16 may 2019-cu il*.........................................................*314*

KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYAYA

*16 may 2019-cu il*.........................................................*315*

ÇEX RESPUBLİKASI PARLAMENTİNİN DEPUTATLAR PALATASININ SƏDRİ RADEK VONDRAÇEKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 may 2019-cu il*.........................................................*316*

PİRALLAHI SƏNAYE PARKINDA «DİAMED» ŞPRİS İSTEHSALI ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*16 may 2019-cu il*.........................................................*318*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB REUVEN RİVLİNƏ

*17 may 2019-cu il*.........................................................*324*

ŞİMALİ MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STEVO PENDAROVSKİYƏ

*17 may 2019-cu il*..........................................................*325*

NORVEÇ KRALI ƏLAHƏZRƏT
V HARALDA

*17 may 2019-cu il*..........................................................*326*

QEYDLƏR ......................................................................... *327*

*Şəxsi adlar göstəricisi*....................................................... *365*

*Coğrafi adlar göstəricisi* ................................................... *370*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.